*Azərbaycan dünyanın bütün ölkələrində yaşayan azərbaycanlıların vətənidir... Hər bir azərbaycanlı Azərbaycana öz ata evi kimi baxmalıdır.*

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan Respublikasının prezidenti**

NİZAMİ CƏFƏROV

# AZƏRBAYCANLILAR:

## *ETNOKULTUROLOJİ BİRLİYİN SİYASİ-İDEOLOJİ ÜFÜQLƏRİ*

XXI
YNE

Bakı – 2001

Cəfərov N. Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri. – B.: XXI – Yeni Nəşrlər Evi, 2001. – 176 s.

C 0508000000-30 / 080-01

© XXI–YNE, 2001.

## ÖN SÖZ, YAXUD

## AZƏRBAYCAN... AZƏRBAYCANLILAR... VƏ AZƏRBAYCANŞÜNASLIQ...

Azərbaycanlılar bir xalq (superetnos!) olaraq dünyanın sosial-siyasi baxımdan kifayət qədər "narahat" bir coğrafiyasında, min ildən artıq davam edən mürəkkəb etnik proseslərin nəticəsində formalaşmışdır. Və məlum olduğu kimi, Azərbaycan xalqı öz adını, XIX əsrin ortalarından başlayaraq, formalaşdığı coğrafiyanın adından almışdır. Belə ki, həmin dövrə qədər onlar əsasən türk, XIX əsrin ortalarından sonra isə həm də **Azərbaycan türkləri** adlanmışlar.

**Azərbaycan türkləri** adı XX əsrdə daha geniş yayılaraq bir sıra innovasiyalar da qazanmışdır: azəri türkləri, Azərbaycan xalqı (azərbaycanlılar), azərilər... Müşahidələr göstərir ki, hal-hazırda **Azərbaycan xalqı (azərbaycanlılar)** adı mənsub olduğumuz xalqın ən çox işlənən, beynəlxalq praktikada ən çox qəbul edilən addır.

Şübhəsiz, Azərbaycan xalqının etnik əsasını türklər – Azərbaycan türkləri təşkil edir, bununla belə Azərbaycan xalqı genetik baxımdan yalnız türklərdən ibarət deyil. Azərbaycan ərazisində qədim dövrlərdən etibarən iber-Qafqaz və İran etnosları da yaşayırlar ki, onların əksəriyyəti Azərbaycan türkləri ilə qaynayıb-qarışmış, Azərbaycan superetnosunun tərkibinə daxil olmuşlar. Odur ki, biz **azərbaycanlı** dedikdə özünəməxsus tarixi olan bir etnik hadisəni nəzərdə tuturuq...

Azərbaycan haqqında müxtəlif xarakterli, müxtəlif mənşəli mənbələrin verdiyi kifayət qədər elmi məlumatlar qədim dövrdən başlasa da, azərbaycanşünaslıq bu və ya digər dərəcədə mükəmməl bir elm olaraq XX əsrin 30-cu illərində formalaşmışdır. Qeyd etmək lazımdır ki, azərbaycanşünaslığın formalaşmasında türkoloqlar, iranşünaslar, semitoloqlar,

iberqafqazşünaslar, demək olar ki, eyni dərəcədə iştirak etmişlər, ona görə də həmin elm sahələri üzrə mütəxəssislərin çox zaman biri digərini tamamilə inkar edən mülahizələri azərbaycanşünaslıqda qarşılaşaraq sinkretik (və "beynəlmiləl"!) bir "sistem" təşkil edir.

Azərbaycanşünaslığın ən mühüm problemi, heç şübhəsiz, Azərbaycan xalqının mənşəyi (etnogenezi) problemidir ki, 30-cu illərdən başlayaraq o, müxtəlif şəkillərdə "həll edilmişdir" türkoloqlar türk, iranşünaslar İran, iber-qafqazşünaslar, bu və ya digər qeyd-şərtlə də olsa, iber-Qafqaz (Alban) başlanğıcını əsas götürmüş, nəticə etibarilə mürəkkəb bir "metodoloji mənzərə" yaranmışdır. Odur ki, bu gün Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin təşəkkül tarixi barədə əsaslı (əksəriyyətin qəbul edəcəyi) bir fikir söyləmək olduqca çətindir; artıq mövqeyini möhkəmlətmiş tendensiyalar mövcuddur ki, hər biri yeganə düzgün tendensiya sayılmaq iddiasındadır. Azərbaycan EA-nın nəşr etdiyi "Azərbaycan tarixi"ndə (I c.,1998) əks olunmuş "Azərbaycan xalqının etnogenezi" konsepsiyası bu cür tendensiya bolluğuna geniş şərait yaratmışdır. Həmin konsepsiyaya görə, "Azərbaycan xalqının təşəkkülündə Manna, Atropatena və Qafqaz Albaniyasında" məskunlaşmış müxtəlif, o cümlədən Qafqaz və İran dillərində danışan qədim dövr və orta əsrlərin tayfa və xalqları mannalılar, kaspilər, Atropatena madalıları, albanlar, azərilər və bir sıra digərləri əsas rol oynamışlar.

Əsrlər boyu Azərbaycana gəlmiş müxtəlif dilli tayfa və xalqlar (skiflər, saklar, alarlar, hunlar, sabirlər, xəzərlər, oğuzlar və b.) da Azərbaycan xalqının etnogenezisində böyük rol oynamışlar. Azərbaycan xalqının, dilinin formalaşması etnogenezin son mərhələlərində orta əsrlərdə davam etmişdir" (səh.33-34).

Göründüyü kimi, bu "konsepsiya" Azərbaycan xalqının mənşəyi barədə hər cür volyuntarist nəzəriyyənin ortaya çıxması üçün münbit metodoloji şərait yaradır. Və bu "konsepsiya" yalnız səhv deyil, həm də mürtəcedir, xalqa öz keçmişini, etnik mənşəyini unutdurmaq "ehtiyac"ından irəli gəlmişdir. Ümumiyyətlə, azərbaycanşünaslığın sürətlə formalaşdığı 30-cu illər Azərbaycanda, bütövlükdə sovetlər birliyində türkçülüyə qarşı amansız mübarizə dövrüdür ki, həmin tendensiya özünü yuxarıda haqqında bəhs etdiyimiz "konsepsiya"da da göstərir. Burada hunlardan, sabirlərdən, xəzərlərdən, oğuzlardan və b.-dan bəhs olunur, lakin bunların eyni bir etnosa türklərə aid olduğu deyilmir. Məqsəd ondan ibarətdir ki, Azərbaycan xalqının etnik tərkibində türklüyün yeri minimuma endirilsin, köçəri gəlmələrin qeyri-türk mənşəli aborigenlərə sistemsiz təsiri səviyyəsinə endirilsin. Əlbəttə, bu cür tendensiyalı, xüsusi (həm də artıq öz nüfuzunu itirmiş!) ideoloji məqsədlə quraşdırılmış metodlarla elmi azərbaycanşünaslıq yaratmaq mümkün deyil.

Qədim dövrlərdən başlayaraq Azərbaycanda və həmhüdud regionlarda müxtəlif mənşəli etnoslar (iber-qafqazlılar, iranlılar, türklər və b.) yaşayırlar onlar öz dillərini, etnoqrafik xüsusiyyətlərini indiyə qədər qoruyub saxlasalar da, ölkədə aparıcı etnokulturoloji mövqe ilk orta əsrlərdən etibarən Azərbaycan türklərinə məxsusdur. Məsələ burasındadır ki, həmin türk etnosları Azərbaycana min ildən artıq bir dövr ərzində tədricən gəlib məskunlaşmış, xalq olaraq məhz burada (Azərbaycanda), qeyri-türk etnosların əhatəsində formalaşmışdır. Müasir Azərbaycan dilinin xüsusilə Şimal regionlarında hun-qıpçaq tayfa dillərinin elementlərinin mövcudluğu bunu təsdiq edir. Və buraya həmin regionlarda bu günə qədər mühafizə olunan bir sıra qədim hun-qıpçaq antropoloji, etnoqrafik, etnopsixoloji göstəricilərini də əlavə etmək olar. Azərbaycanda, xüsusilə onun cənubunda son türk məskunlaşmaları XVII-XVIII əsrlərə aiddir.

Azərbaycanda qədim etnik birliklər, heç şübhəsiz, olmuşdur bunların əsasən iber-Qafqaz, İran, yaxud Hind-İran mənşəli olmalarını da inkar etmək çətindir. Lakin orta əsrlər boyu formalaşan Azərbaycan xalqı türk mənşəlidir, türk etnik-mədəni sisteminin üzvü tərkib hissəsidir, Azərbaycanın müxtəlif etnik mənşəli qədim mədəniyyətinin birbaşa deyil, dolayısı ilə varisidir. İngilislər kimi, fransızlar kimi, almanlar kimi, ruslar kimi...

Azərbaycan xalqının etnogenezi, ümumən Azərbaycanın etnik tarixi ilə bağlı məsələlərdən biri də ölkənin türkləşməsi məsələsidir ki, bir çox mübahisələrin obyekti olmuş, bu gün

də olmaqdadır. Məsələ bu cür qoyulur: Azərbaycanda türklər qədim dövrdən yaşayırlar, yoxsa buraya orta əsrlərdə gəlmişlər?

Görünür, qədim dövrdə Azərbaycanda türklər, yaxud prototürklər ya heç olmamış, ya da ölkənin mürəkkəb etnik münasibətləri sistemində diqqəti cəlb etməmişlər. II-I minilliklərdə türklər, yaxud prototürklər Mərkəzi Asiyanın sonralar Türküstan adlanan geniş çöllərində məskunlaşmışdılar. Türklərin Qərbə yürüşləri, Avrasiya boyu yayılmaları eramızın ilk əsrlərində başladı ki, Azərbaycanda da türkləşmənin əsası məhz bu dövrdə qoyuldu... Bununla belə qeyd etməliyik ki, Azərbaycanda türklərin, yaxud prototürklərin daha qədim dövrlərdən yaşadığını söyləyənlərlə yanaşı, onların bu ölkəyə II minilliyin əvvəllərində, yəni çox sonralar gəldiklərini sübut etməyə çalışanlar da vardır. Lakin araşdırmalar göstərir ki, Azərbaycanın türkləşməsi aşağıdakı mərhələlərdə getmişdir:

**I mərhələ** Azərbaycanda hun-qıpçaq türklərinin yayılması (I minillik).

**II mərhələ** Azərbaycanda oğuz türklərinin yayılması (II minilliyin birinci yarısı).

*Azərbaycanın türkləşməsi ölkənin etnik tarixi üçün elə bir həlledici hadisədir ki, onu tarixi təfsilatı ilə öyrənmədən Azərbaycanda gedən etnik proseslərin mahiyyətini dərk etmək çətindir.* Məsələnin mahiyyəti isə ondan ibarətdir ki, Azərbaycanda türklərin sayı artdıqca yerlə əhali ölkənin əsasən dağlıq regionlarında təcrid olunurlar. Çünki türklər çöl həyatına adət etmişdilər... Və onların böyük mənəvi mədəniyyətinin, yüksək dövlətçilik təcrübəsinin mövcudluğu artıq süqut dövrü keçirən yeri əhalidən nəyisə öyrənməyi mümkünsüz edirdi. Xüsusilə oğuz türkləri Azərbaycanın qədim tarixinə tamamilə laqeyd idilər. Hər şeydən əvvəl ona görə ki, islamı qəbul etmiş, onun qılıncı missiyasını öz üzərlərinə götürmüş oğuz türkləri üçün hər hansı tarixin elə bir əhəmiyyəti yox idi, onların özlərinin tarix yaratmaq dövrü idi...

Türklər Azərbaycanda və həmhüdud regionlarda nə qədər böyük ictimai-siyasi nüfuza malik olsalar da, iber-Qafqaz, İran və b. etnosları sıxışdırmadılar.



Ümumiyyətlə, onlar Qərbdən Şərqə doğru yayıldıqları böyük bir dövrdə heç bir etnosa qarşı düşmənçilik münasibəti göstərməmiş, əksinə, özünü yerli hesab edən xalqlarla sıx əlaqələr yaratmağa çalışmışlar. Lakin hər yerdə olduğu kimi Azərbaycanda da passionarlıq dövrünü keçirmiş qeyri-türk mənşəli müxtəlif etnoslar özlərini nəinki türklərdən, hətta həmtayfalarından belə təcrid etməyə meylli olmuşlar. Məsələn, iber-qafqazlılardan udilər, buduqlar, xınalıqlar..., İran etnoslarından talışlar, tatlar... bu cür özünütəcridə nümunə ola bilərlər.

Azərbaycanda yaşayan qeyri-türk mənşəli müxtəlif etnoslar, xalqlar yalnız Azərbaycan türkcəsi əsasında deyil, eyni zamanda (və bəlkə də daha çox) Azərbaycan türklərinin tarixi birləşdiricilik missiyası əsasında ünsiyyətə girib Azərbaycan xalqını, Azərbaycan cəmiyyətini təşkil edirlər. Bu hadisə artıq kifayət qədər zəngin tarixə malikdir... Və həmin tarixə, onun uğurlarına qarşı çıxanların aqibəti göstərdi ki, Azərbaycan xalqı etnik tərkibcə mürəkkəb olsa da, kifayət qədər bütöv, mütəşəkkildir. Lakin bir sıra etnik, mədəni problemlər vardır ki, onlar ardıcıl olaraq həll edilməli, həm Azərbaycan türklərinin, həm də iber-Qafqaz, İran mənşəli etnosların etnoqrafiyasına, adət-ənənələrinə hörmətlə yanaşılmalı, milli münaqişə ocaqlarının yaradılmasına yol verilməməlidir. Müşahidələr göstərir ki, sivilizasiyanın yüksək səviyyədə inkişaf etdiyi regionlarda belə bu və ya digər dərəcədə narazı etnik hisslər müxtəlif formalarda münaqişələr törətməyə qadirdir. Ona görə də azsaylı xalqlara, etnik qruplara daha çox qayğı göstərmək lazım gəlir.

Azərbaycanlılar, başqa sözlə, Azərbaycan Türkləri, məlum olduğu kimi, Azərbaycan Respublikası ilə yanaşı, İranda, Türkiyədə, Rusiyada, Gürcüstanda və s. yaşayırlar. Yalnız belə bir faktı xatırlamaq kifayətdir ki, İranda (İran Azərbaycanında, yaxud Cənubi Azərbaycanda) yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının əhalisindən üç-dörd dəfə çoxdur, digər ölkələrdə daimi yaşayan azərbaycanlıların sayı isə yüz minlərlə, hətta milyonlarladır. Və ümumiyyətlə, dünyada əlli milyona qədər azərbaycanlı, yaxud Azərbaycan türkü mövcuddur ki, onlar eyni bir etnik, kulturoloji tarixin

hadisəsidir. Bununla belə etiraf etmək lazımdır ki, əlaqəsi intensiv olmayan müxtəlif regionlarda, müxtəlif dövlətlərin ərazilərində yaşamış azərbaycanlıların etnik psixologiyalarında, həyat tərzlərində, ictimai-siyasi dünyagörüşlərində, dillərində və s. müəyyən fərqlər yaranmağa başlamışdır. Bunlar xalqın, millətin bütövlüyünə mənfi təsir göstərən, onun etnik, kulturoloji kompleksini zədələyən hadisələrdir. Azərbaycan Respublikasının dünya azərbaycanlılarının birliyi uğrunda başladığı mübarizə, heç şübhəsiz, böyük ictimai-siyasi əhəmiyyətə, geniş perspektivə malikdir.

Azərbaycanşünaslıq nə dilçilik, nə ədəbiyyatşünaslıq, nə mədəniyyətşünaslıq, nə də tarix deyil. Onun (azərbaycanşünaslığın) işi həmin elmlərin hər birinin, eləcə də bir sıra digər elmlərin faktlarından, nəticələrindən, ümumi müddəalarından istifadə etməklə Azərbaycan (və Azərbaycan xalqı!) haqqında ümumi elmi təsəvvür yaratmaqdan, Azərbaycanın (və Azərbaycan xalqının!) dünyadakı universal mövqeyini müəyyənləşdirməkdən ibarətdir. Elə etnososial, etnokulturoloji əlamətləri müəyyənləşdirməkdən ibarətdir ki, onların məhz Azərbaycana (və Azərbaycan xalqına!) mənsubluğu bir kompleks olaraq şübhə doğurmasın... Lakin burada bir məsələ də var ki, Azərbaycanın (və Azərbaycan xalqını) öyrənilməsi Azərbaycanın (və Azərbaycan xalqının) mədəni-mənəvi, siyasi-ideoloji mənafeyinə xidmət etməlidir. Halbuki bir sıra hallarda bu və ya digər etnos, xalq məhz həmin etnosu, xalqı "idarə etmək", onun daxili işlərinə qarışmaq, gələcəyini hansısa lobbi, yaxud missioner maraqları baxımından "həll etmək" üçün öyrənilir. Bu cür kvaziazərbaycanşünaslıq, yaxud antiazərbaycanşünaslıq böyük elmin tələblərinə cavab vermək iqtidarında olmasa da, müəyyən elmi-nəzəri, praktik problemlər yaradır ki, biz son illərdə belə problemlərlə dəfələrlə qarşılaşmalı olmuşuq. Məsələn, Azərbaycandakı etnik münasibətləri, dini problemləri, bir sıra sosial-iqtisadi məsələləri və s. öyrənib ölkədə ictimai harmoniyanı pozmaq, etnososial destabilizasiya yaratmaq iddiasına düşmüş, hətta bəzi hallarda buna nail olmuşlar.

Sual olunur: azərbaycanşünaslığın metodoloji "qida mənbəyi" rolunda bu gün daha çox hansı elm sahəsi çıxış edir türkologiya, iranşünaslıq, semitologiya, yaxud iberqafqazşünaslıq?

Şübhəsiz, türkologiya!..

Azərbaycan xalqının tarixi dərindən öyrənildikcə türkologiya azərbaycanşünaslığın nəinki metodoloji "qida mənbəyi"nə, bütövlükdə kontekstinə çevrilir. Və bizim fikrimizcə, azərbaycanşünaslıq getdikcə daha çox türkologiyanın üzvü tərkib hissəsi olacaqdır. Bununla belə nə iranşünaslığı, nə semitologiyanı, nə iber-qafqazşünaslığı azərbaycanşünaslıqdan tamamilə "sıxışdırıb çıxarmaq" mümkün deyil. Azərbaycanşünaslığın elə problemləri vardır ki, həmin elm sahələrinin bilavasitə iştirakı olmadan keçinmək olmaz.

Və ümumiyyətlə, türkologiya ilə yuxarıda haqqında söhbət gedən elm sahələrinin (iranşünaslıq, semitologiya, iberqafqazşünaslıq və s.) əməkdaşlığı ənənəvi xarakter daşıyır, yalnız azərbaycanşünaslıqla məhdudlaşmır. Bununla belə təcrübə göstərir ki, həmin elm sahələri Azərbaycan dili, ədəbiyyatı, mədəniyyəti ilə türkoloji kontekstdən kənar olaraq "sərbəst" elmi nəticələr çıxararkən, bir qayda olaraq, ciddi səhvlərə yol verirlər. Məsələn, böyük Nizaminin yaradıcılığı ilə uzun müddət yalnız iranşünaslığın məşğul olması bunu göstərdi. Şairin yaradıcılığının qədim (ümum) türk mənbələri bütünlüklə diqqətdən kənarda qaldığından onun təbliğ etdiyi fəlsəfi-estetik ideyaların tarixi kökləri indiyə qədər müəyyənləşdirilməmiş qalmışdır. Qədim türk eposu, tanrıçılıq dünyagörüşü, Əl-Fərabi ət-Türkinin fəlsəfi görüşləri barədə aydın təsəvvürə malik olmayan bir iranşünas üçün Nizaminin poetikası, demək olar ki, anlaşılmazdır.

Azərbaycan elmi, mədəniyyəti orta əsrlərdə üç dildə türk, ərəb və fars dillərində yaranmışdır bu isə o deməkdir ki, azərbaycanşünaslıqda türkologiya, semitologiya və iranşünaslıq birinci növbədə mətnşünaslıq xidməti göstərmək üçündür, iber-qafqazşünaslığın bu baxımdan funksiyası olduqca məhdud olub, yalnız bir neçə mübahisəli "alban yazısı" üzərində düşünməkdən ibarətdir. Lakin nə semitologiya, nə iranşünaslıq, nə də iberqafqazşünaslıq Azərbaycan mənbələri üzərində işləyərkən mətnşünaslıq işindən kənara çox çıxmamalıdır. Müşahidələr göstərir ki, həmin sahələr öz funksi-

yasını "genişləndirib" mətnşünaslıq fəaliyyətindən kənara çıxarkən azərbaycanşünaslığa qeyri-elmi mülahizələr gətirir, onun elmi-metodoloji əsaslarını sarsıdır.

Bununla belə azərbaycanşünaslığın elə sahələri vardır ki, orada türkologiya həlledici söz demək hüququna malik deyil burada, hər şeydən əvvəl, Azərbaycan tarixinin qədim (türkləşənəqədərki) dövrü nəzərdə tutulur. Belə ki, xüsusilə e.ə. III-I minilliklərdə Azərbaycanda, etnik münasibətlər, mədəniyyət, sosial-siyasi proseslər barədə mötəbər sözü həmişə iber-qafqazşünaslar, iranşünaslar demişlər, daha əvvəlki dövrlər barəsində isə, son illərdə türkoloqlar daha çox bəhs etməkdədirlər.

Azərbaycanın dövlət müstəqilliyi qazandığı, dünya ilə əlaqələrinin yaranıb inkişaf etdiyi müasir dövrdə azərbaycanşünaslığın iqtisadi, sosioloji və politoloji aspektlərinin diqqəti daha çox cəlb etməsi ənənəvi problemlərin unudulması hesabına deyil. Azərbaycanşünaslığın bir elm kimi tədqiqat hüdudları genişlənir, problemləri daha çox sosial praktikanın tələblərinə uyğunlaşır, təhlil metodları inkişaf edib zənginləşir. Və nəticə etibarilə, ənənəvi problemlərə baxışın texnologiyası da təkmilləşir.

Azərbaycanda milli dövlət quruculuğu prosesi sürətləndikcə azərbaycanşünaslığın problemləri daha bütöv, kompleks halında, biri digəri ilə qarşılıqlı əlaqədə qoyulur ki, bu, həmin problemlərin əsaslı şəkildə həlli üçün geniş ideoloji imkanlar açır...

Qeyd etdik ki, *azərbaycanlılar, əsasən, Azərbaycan Respublikasında, İranda (Cənubi Azərbaycanda) Türkiyədə (Şərqi Anadoluda), Gürcüstanda, İranda, Dağıstanda məskundurlar ki, həmin coğrafiya, nə qədər müxtəlif ölkələrin ərazisinə düşsə də, azərbaycanlıların tarixi Vətəni sözün geniş mənasında Azərbaycandır... Azərbaycanlılar bu ərazilərdə sadəcə yaşamamış, artıq deyildiyi kimi, bir xalq olaraq həmin coğrafiyada formalaşmışlar. Lakin Azərbaycan xalqının dünyadakı yeri, yayılma miqyası daha genişdir: bugün dünyanın elə bir inkişaf etmiş ölkəsini təsəvvür etmək mümkün deyil ki, orada azərbaycanlılar az və ya çox sayda yaşamasınlar.* Rusiya, ABŞ, İngiltərə, Fransa, Almaniya kimi



böyük ölkələrdən tutmuş hər bir tərəfdə, o cümlədən Avropanın, Asiyanın, Amerikanın inkişaf yoluna yenicə qədəm qoymuş ölkələrində də azərbaycanlılara rast gəlmək mümkündür. Onlar müxtəlif səbəblər üzündən Vətəni tərk etməyə, qərib yerlərdə yaşamağa məcbur olmuşlar. Lakin uzun illər "qürbət azərbaycanlıları"nın taleyi heç kimi maraqlandırmamışdır... Yalnız keçən əsrin sonlarına doğru hələ qeyri-müstəqil Azərbaycanda xüsusi bir dövlət təşkilatı "Vətən" cəmiyyəti yarandı ki, onun da məqsədi dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlıları axtarıb tapmaqdan, Azərbaycanla dünya azərbaycanlıları arasında mədəni (!) əlaqələr yaratmaqdan ibarət idi. Etiraf etmək lazımdır ki, "Vətən" cəmiyyəti öz tarixi missiyasını kifayət qədər uğurla yerinə yetirdi. Cəmiyyətin sədri Elçin şəxsi nüfuzundan istifadə edərək yüzlərlə "qürbət azərbaycanlısı"nın ürəyində Vətən məhəbbətini alovlandırdı... Bununla belə dünya azərbaycanlılarının milli birliyi problemi bütün gücü ilə məhz müstəqil Azərbaycan dövlətinin qurulması prosesində ortaya çıxdı. Hər şeydən əvvəl ona görə ki, müstəqil Azərbaycan dövləti dünya azərbaycanlılarının müdafiəsinə böyük ehtiyac duyduğu kimi, dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlılar da onların milli maraqlarını bilavasitə ifadə edəcək bir dövlətin həsrətini çəkirdilər. Bu qarşılıqlı istək, ehtiyac Azərbaycan dövləti ilə dünya azərbaycanlıları arasında get-gedə güclənən əlaqələrin əsasını qoydu... Və həmin əlaqələr dünya miqyaslı siyasi xadim Heydər Əliyev Azərbaycana qayıtdıqdan, xüsusilə respublikanın prezidenti seçildikdən sonra dövlət tərəfindən ardıcıl şəkildə müdafiə olunmağa başladı.

Araşdırmalar göstərir ki, azərbaycanlıların qürbət ölkələrə yayılması XX əsrin əvvəllərindən başlamışdır, yəni son dövrlərlə bağlıdır... Onu da əlavə etmək lazımdır ki, xüsusilə 20, 30 və 40-cı illərin Azərbaycan mühacirəti məcburi xarakter daşımış, daha çox siyasi-ideoloji məzmuna malik olmuşdur. Vətəni məcburiyyət üzündən, istəmədən, ölüm, yaxud sürgün təhlükəsi ucbatından tərk edən insanlar (əsasən, ziyalılar, ictimai-siyasi xadimlər!), heç şübhəsiz, Vətənlə sıx bağlı idilər, onlar ürəklərində sonsuz bir Vətən həsrəti gəzdirirdilər. Və bu həsrət çox gənc yaşlarında II Dünya müharibəsi

cəbhələrində əsir düşüb dünyaya yayılan sıravi azərbaycanlıların ürəyində də vardı...

II Dünya müharibəsindən sonra Azərbaycan xalqının sosial-siyasi həyatında o zamana qədər görünməmiş hadisələr baş verdi: Azərbaycanın Cənubunda (İranda) milli azadlıq uğrunda mübarizə aparan minlərlə mücahid Azərbaycanın Şimalına (Sovet Azərbaycanına) gələrək burada sığınacaq tapdı, bunun ardınca isə on minlərlə azərbaycanlı Ermənistandakı tarixi vətənlərindən "könüllü" olaraq Azərbaycana köçürüldü. Lakin azərbaycanlıların sıxışdırılması, öz vətənlərindən bu və ya digər adlar altında, xüsusi aqressivliklə qovulması, ölkənin etnik coğrafiyasının ardıcıl şəkildə daraldılması bununla bitmədi. XX əsrin sonlarına doğru Azərbaycan xalqının düşmənlərinin gizli dəstəyi ilə erməni quldurları azərbaycanlılara, ümumən türklərə qarşı amansız hücumlara, soyqırımına başladılar. Günahsız insanlar məhz azərbaycanlı olduğu üçün məhv edildilər. Erməni xarakterindəki qüsurlu cəhətlərin nə qədər çox, nə qədər təhlükəli olduğu bir daha özünü biruzə verdi. Lakin Azərbaycan xalqı sınmadı, üzdə olan (və onun arxasında gizlənən) düşmənlərlə mübarizədə öz müstəqil dövlətini yaradaraq inkişaf etdirdi. Dünyanın müxtəlif ölkələrinə səpələnmiş milyonlarla azərbaycanlı da bu mübarizədə köməyini əsirgəmədi.

Məlumdur ki, azərbaycanlıların həm Şimali, həm Cənubi Azərbaycandan dünyaya daha intensiv şəkildə yayılması prosesi XX əsrin 70-80-ci illərinə aiddir qeyd edək ki, burada söhbət artıq könüllü mühacirətdən gedir: təhsil almaq, münasib iş tapmaq, həyatda müəyyən mövqe qazanmaq məqsədi daşıyan bu mühacirət artıq siyasi-ideoloji məzmuna malik deyildi. Azərbaycanın Şimalından əsasən Rusiyaya və dünyanın böyük bir hissəsini təşkil edən SSRİ-nin müxtəlif respublikalarına, Cənubundan isə dünyanın, demək olar ki, hər yerinə ABŞ-a, İngiltərəyə, Fransaya, Almaniyaya gedirdilər... Yalnız onu qeyd etmək kifayətdir ki, bugün öz tarixi vətənlərindən kənarda yaşayan azərbaycanlıların sayı təxminən on milyon nəfərdir.

Azərbaycan prezidenti, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev dünyanın müxtəlif ölkələrinə səfərlərində həmişə mühacir azərbaycanlılarla görüşüb onlara yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etməklə yanaşı, müstəqil Azərbaycan dövlətini də unutmamalarını, onun beynəlxalq mövqeyinin yüksəlməsində əllərindən gələn köməyi əsirgəməmələrini tövsiyə edir. Çünki azərbaycanlılar dünyanın harasında məskunlaşsalar da, öz tarixi vətənlərində, yaxud mühacirətdə olsalar da, eyni bir xalqın, eyni bir millətin (və deməli, eyni bir ata-ananın!) övladlarıdırlar. Etnik proseslərin əhəmiyyətli rol oynadığı müasir dünyada milli iradənin bu və ya digər dərəcədə optimal ifadəsi üçün, heç şübhəsiz, hər şeydən əvvəl etnososial birlik tələb olunur ki, bu cür birliyə nail olmadan dünyanın qabaqcıl milləti olmaq, sadəcə, mümkün deyil.

Azərbaycanlılar zəngin tarixə, böyük mədəniyyətə, çevik düşüncəyə malik mükəmməl bir xalqın övladlarıdırlar onların genetik istedadı imkan verir ki, harada yaşamalarından asılı olmayaraq mənsub olduqları xalqa böyük hörmət, geniş siyasi nüfuz qazandırsınlar.

# I. AZƏRBAYCANLILAR: ETNOCOĞRAFİ DİFERENSİASİYADAN SOSİAL-SİYASİ İNTEQRASİYAYA...

## 1. AZƏRBAYCAN XALQININ (SUPERETNOSUNUN) FORMALAŞMASI... ETNİK, SOSİAL-SİYASİ MÜTƏŞƏKKİLLİK: PROBLEMLƏR, MÜLAHİZƏLƏR...

Azərbaycan xalqının tarixi ümumtürk tarixinin üzvü tərkib hissəsidir, bununla belə hər bir türk xalqı kimi Azərbaycan xalqının da özünəməxsus formalaşma, inkişaf tarixi vardır. Araşdırmalar göstərir ki, bu tarix özündə iki mühüm dövrü: 1) diferensiasiya və 2) inteqrasiya dövrlərini birləşdirir. Diferensiasiya dövrü dedikdə bir türk etnosunun müxtəlif xalqlara (o sıradan Azərbaycan türklərinə, yaxud Azərbaycan xalqına) ayrılması prosesinin intensiv dövrünü nəzərdə tuturuq. İnteqrasiya isə Azərbaycan cəmiyyətinin etnik tarixinin sonrakı dövrlərinə aid olub türk (və bir sıra qeyri-türk etnoslarının) konsolidasiyasını, bütöv bir xalq təşkil etməsi prosesindən ibarətdir. Azərbaycan xalqının etnososial xarakteri diferensiasiya dövründə müəyyənləşsə də, həmin xarakterin bir sıra cizgiləri məhz inteqrasiya dövründə meydana çıxmışdır. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycan superetnosunun (eləcə də Azərbaycan dilinin) təşəkkülündə, təkamülündə diferensiasiya-inteqrasiya münasibətləri kifayət qədər mürəkkəb təbiətə malikdir. Azərbaycanda (və həmhüdud regionlarda) xalqın (və dilin) formalaşdığı dövrdə baş verən rəngarəng ictimai-siyasi hadisələr həmin mürəkkəbləşmə üçün əsas şərt olmuş, ölkədə "narahat" bir etnik proses getmişdir...

*Azərbaycan xalqının tarixən məskunlaşdığı (superetnos olaraq formalaşdığı!) coğrafiya müxtəlif dövrlərdə müxtəlif adlarla adlandırılsa da, "Azərbaycan" sözü daha geniş yayılaraq 500 min km2-ə qədər ərazinin əsas adına çevrilmişdir.* Azərbaycanşünaslıqda belə bir aydın təsəvvür vardır ki, "Azərbaycan" sözü "regionun tarixində görkəmli rol oynamış Atropatın adı" (akad. İ.Əliyev) ilə bağlıdır... Burada söhbət o dövrdən gedir ki, "Cənubi Azərbaycanın bütün ərazisi və Şimali Azərbaycan torpaqlarının xeyli hissəsi bu və ya digər dərəcədə Atropatın hakimiyyəti altında idi" (akad. İ.Əliyev). Və həmin hökmdarın adı tarixi mənbələrdə ilk dəfə e.ə. 331-ci ildə çəkilsə də, onun (Atropatın) etnik mənsubiyyəti barədə heç bir məlumat verilmir.

Atropatın hakimiyyəti dövründən başlayaraq Manna-Kiçik Mada (Midiya) öz sərhədlərini genişləndirərək Atropatena (Şərq mənbələrində Atropatakan) adlandırılmışdır... Akademik İ.Əliyevin fikrincə, "həmin dövlətin meydana gəlməsinə kömək edən əsas səbəblərdən birini bütün qədim tarix ərzində xeyli dərəcədə aparıcı region olan bu bölgənin özünün iqtisadi, sosial, mədəni və siyasi səviyyəsinin çox yüksək olmasında axtarmaq lazımdır".

Atropatenin etnolinqvistik mənzərəsi barədə müəyyən təsəvvür yaradacaq tarixi mənbələr, demək olar ki, yoxdur. Lakin e.ə. I minilliyin əvvəllərindən başlayaraq regionun iranlılaşması prosesi belə bir təkzibi çətin nəticəyə gəlməyə imkan verir ki, Atropatenin əsas əhalisi iranlı olmuşdur.

"Atropatena" ad-toponiminin antik (etimoloji) mənasını ilk dəfə atəşpərəst iranlılar, yaxud irandilli mühit unutdurdu. "Atropatena" (Atropatın yurdu) "Azərbaycan"a (odlar yurdu, müqəddəs odun qorunduğu məkan) çevrildi... Və görünür, iranlılar üçün "Azərbaycan"ın hansı konkret coğrafiyanı əhatə etməsi o qədər də maraqlı deyildi, onlar həmin əraziyə vətən kimi yox, ilahi bir məkan, hüdudsuz müqəddəs bir yurd kimi baxırdılar. Mənbələr göstərir ki, Atropatena Azərbaycanda çoxlu od məbədləri mövcud idi. Atəşpərəst iranlılar, hətta daha uzaqdan hindlilər buraya ziyarətə gəlirdilər.

Etiraf etmək lazımdır ki, "Azərbaycan" sözü türkdilli mühitdə nəinki formalaşmamış, həmin mühitə sonralar müsəlman intibahı dövründə daxil olmuşdur. Eramızın ilk

əsrlərindən başlayaraq Azərbaycana və həmhüdud regionlara gələrək burada məskunlaşan hun-qıpçaq türkləri dünyagörüşü etibarilə atəşpərəstlikdən çox uzaq olduqlarına görə "Azərbaycan" sözünün tarixən qazandığı ideoloji semantika üzərində, demək olar ki, düşünməmişlər. Bununla belə, iranlı təsəvvürünün yaratdığı "müqəddəs Azərbaycan" obrazı müsəlman intibahı dövründən etibarən geniş yayılmağa başladı. Və qeyd etmək lazımdır ki, həmin təsəvvür regionun rəsmi dünyagörüşü olan islama belə güzəştə getmədiyinə görə Azərbaycan müsəlman tarixçilərinin yaddaşında islama qarşı ən çox müqavimət göstərmiş bir ölkə olaraq qalmışdır. Azərbaycan tarixşünaslığının banilərindən A.Bakıxanov "Azərbaycan" sözünü "Azər-Babaqan" (Babəkin odu) kimi izah edir... Əlbəttə, burada söhbət tarixçinin nə dərəcədə səhv etməsindən getmir, ondan gedir ki, orta əsrlər müsəlman tarixşünaslığında Azərbaycanın islamaqədərki dünyagörüşləri ilə bağlılığı təsəvvürü olduqca güclü olmuş, son dövrlərə qədər yaşamış, hətta "müasir Azərbaycan" anlayışının formalaşmasına da təsir göstərmişdir.

"Azərbaycan"ın yunan-iran mənşəli deyil, məhz türk mənşəli bir söz olması barədə də müəyyən mülahizələr vardır, əlbəttə yunan sözünə iranlı "interpretasiya"sı nə dərəcədə təbii idisə, türk "interpretasiya"sı da o dərəcədə təbii sayıla bilərdi, lakin məsələ burasındadır ki, türk "intenpretasiya"sı orta əsrlərdə deyil, XX əsrin 70-80-ci illərində meydana gəlmişdir...

Professor M.Seyidov yazır: "Azərbaycan" yer adı haqda orta yüzilliklərdən üzü bəri ayrı-ayrı xalqların alimləri dürlü mülahizələr, fikirlər söyləmişlər. Ancaq hələ də bu söz öz sirrini açmaqdan elə bil çəkinir və onun elmi sözaçımı etimoloji təhlili öz doğru-düzgün həllini tapmamışdır". Görkəmli azərbaycanşünasın fikrincə, "Azərbaycan-uğurlu, yaxşıistər (Az), yaxşıistər qırmızı, yəni Günəş (Azar // Azər), varlı ata (qan) deməkdir. O, vaxtilə yaxşıistər qırmızı, yəni Günəş antropomorfik tanrısının adı imiş. Sonralar Az qəbiləsindən olan xan, insan mənasında işlənmişdir..." Həmin fikirlə razılaşmaq çətindir... Hər şeydən əvvəl ona görə ki, "Azərbaycan" sözü türkdilli mühitdə formalaşmadığı üçün bu qədər mürəkkəb tarixi inkişaf mərhələsindən keçə bilməzdi. İkincisi, müəllifin təklif etdiyi etimologiya nə Azərbaycan türklərinin, nə də ümumiyyətlə, türklüyün tarixi dünyagörüşü ilə bağlı deyil. Və nəhayət, üçüncüsü, sözün "əvvəlki mənası ilə "sonrakı mənası" arasında semantik varislik, demək olar ki, yoxdur...



Azərbaycan türkləri, iranlılardan fərqli olaraq, Azərbaycanı "müqəddəs məkan" deyil, məhz Vətən kimi dərk edib məskunlaşmışlar. Və "Azərbaycan" sözü məhz Azərbaycan türklərinin təfəkküründə formalaşan geniş (konkret!) ərazinin müasir adına çevrilmişdir ki, bunun da əsasında onların tədricən məskunlaşdığı coğrafi miqyas (onun genişlənməsi sürəti) dayanmışdır. Qeyd etmək lazımdır ki, Azərbaycanın bir ölkə olaraq hüdudlarının müəyyənləşməsində Azərbaycan xalqının təşəkkülünün həlledici təsiri olmuşdur. Belə ki, xalq formalaşdıqca ölkənin etnocoğrafi hüdudları da müəyyənləşmişdir.

Azərbaycan ərazisində tarixən müxtəlif dövlətlərin mövcudluğu ölkənin bütöv bir bir siyasi hadisə kimi qavranılmasına mane olmaqla yanaşı, "Azərbaycan" anlayışının formalaşması prosesini də ləngitmişdir. Təsadüfi deyil ki, həmin anlayışın etnoqrafik məzmunu orta əsrlərdə siyasi məzmunundan həmişə daha üstün, aparıcı olmuşdur... Burada Azərbaycanda məskunlaşmış türklərin dünyagörüşü də mühüm rol oynamışdır: türklər bu və ya digər etnos-tayfa ilə həmin etnosun-tayfanın məskunlaşdığı ərazi arasında əlaqə görmüşlər. Məsələn, Azərbaycan türklərinin ilk möhtəşəm eposu "Dədə Qorqud"da oğuzların yaşadıqları məkan məhz Oğuz adlanır. Türklər Azərbaycana gələndə, heç şübhəsiz, özlərinin yaratdığı etnotoponimlərin işlədilməsinə üstünlük vermişlər, əvvəlki yer adlarının istifadə edilməsinə isə XI-XII əsrlərdən sonra başlamışlar ki, onlardan ən məşhuru "Azərbaycan" olmuşdur...

"Azərbaycan" anlayışının tarixində XIX əsrin sonu, XX əsrin əvvəlləri xüsusi mərhələ təşkil edir. Və məhz bu dövrdə həmin anlayışın etnoqrafik, ictimai-siyasi, ideoloji məzmunu

barədə geniş miqyasda düşünülməyə başlanır. Milli düşüncənin təzyiqi ilə ilk müstəqil Azərbaycan dövləti yaranır ki, onun ərazisinin məhdudluğu dərhal diqqəti çəkir... Məlum olduğu kimi, bu dövlət çox yaşamır, lakin daha uzunömürlü Azərbaycan SSR-in yaranması üçün sosial-siyasi əsas verir ki, XX əsrin sonlarına doğru həmin əsas üzərində müstəqil Azərbaycan dövləti meydana çıxaraq yüksəlir.

Ümumiyyətlə, həm birinci, həm ikinci, həm də xüsusilə, üçüncü respublika dövründə "Azərbaycan" anlayışı geniş siyasi məzmun kəsb etməyə başlayır, Azərbaycanın Şimalı və Cənubu barəsində söhbət daha fəal bir şəkildə gedir. İkiyə (yalnız ikiyəmi?) bölünmüş ölkənin, xalqın tarixi faciəsi milli ictimai təfəkkürün ən müxtəlif sahələrində təzahür edir.

Beləliklə, *"Azərbaycan" anlayışı zəngin bir tarixə malikdir həmin tarixi inkişaf prosesində bu anlayış konkretləşmiş, siyasi-ideoloji məzmunca dəqiqləşmiş, Azərbaycan xalqının yaşadığı geniş ərazini ifadə etmək üçün motivlənmişdir. "Azərbaycan" sözü türkdilli mühitdə formalaşmasa da, "Azərbaycan" anlayışının son min ildəki təkamül formalaşma prosesi, əsasən, Azərbaycan türk təfəkkürünün məhsuludur.*

...Hər bir xalqın mənşəyinin mümkün qədər doğru-düzgün müəyyənləşdirilməsi həmin xalqın tarixinin əsas problemidir. Və bu problemin həlli heç şübhəsiz, bu və ya digər "Tarix"inin möhkəm özül üzərində yüksəlməsinə gətirib çıxarır. Əks halda həmin xalq müxtəlif cür yozulan "mütəhhərrik" bir "Tarix"ə malik olur ki, onu hər dəfə yenidən yazmaq mümkündür.

Azərbaycan xalqının mənşəyini izah etmək üçün müxtəlif konsepsiyalar mövcuddur. Ən geniş yayılanı ondar ibarətdir ki, Azərbaycan xalqı iki mərhələdə formalaşmışdır: birinci mərhələ e.ə. II minilliyin sonu I minilliyin əvvəllərindən başlayaraq eramızın I minilliyinin sonu II minilliyinin əvvəllərinə qədərki böyük bir dövrü, ikinci mərhələ isə ondan sonrakı yüzillikləri əhatə edir. Həmin konsepsiyaya görə, Azərbaycan xalqı birinci mərhələdə əsasən irandilli etnosların təmərküzləşməsi nəticəsində formalaşır, ikinci mərhələdə isə xalqın türkləşməsi prosesi gedir ki, bu daha çox linqvistik bir məsələdir... 50-ci illərdən etibarən müəyyənləşən həmin konsepsiya ilə, demək olar ki, mübarizədə 70-ci illərdə ikinci bir konsepsiya meydana çıxıb inkişaf etdi: burada göstərilir ki, Azərbaycanda (xüsusilə onun Cənubunda) ən qədim dövrlərdən (!) başlayaraq türk etnosları yaşamış, gələ-gələ onların sayı artmış, ölkədəki etnolinqvistik mövqeləri möhkəmlənmişdir. Haqqında söhbət gedən konsepsiyanı yaradıb israrla müdafiə edənlər (onlar özlərini qeyri-rəsmi olaraq "türkçülər" adlandırırlar) "ən qədim dövrlərdən" anlayışına, yaxud başlanğıcın tarixi dəqiqliyinə o qədər də fikir vermirlər: belə ki, "ən qədim dövrlərdən" deyəndə e.ə. X minillikdən tutmuş eramızın I minilliyinin ortalarına qədərki on min ildən artıq bir dövrdə tərəddüd edilir. Və beləliklə, "ən qədim dövr" anlayışının bir növ spekulyativ anlayış olduğu meydana çıxır ki, bu da həmin konsepsiyanın zəif cəhəti sayıla bilər.

Üçüncü konsepsiya, əgər belə demək mümkünsə, qarşılıqlı güzəşt prinsipinə əsaslanaraq, yuxarıda nəzərdən keçirdiyimiz əks mövqe konsepsiyaları birləşdirməyə çalışır. Bu cəhdin nə qədər uğurlu, yaxud uğursuz olacağını demək çətindir, lakin etiraf etmək lazımdır ki, çox zaman həqiqət məhz mövqe-konsepsiyaların dialoqunda ortaya çıxır. Və təbii ki, bundan orta mövqe qazanır. Onu da qeyd edək ki, üçüncü konsepsiya, yaxud orta mövqe çox müxtəlif təzahür imkanlarına malikdir...

Azərbaycan xalqının mənşəyi problemi ilə məşğul olan hər bir araşdırıcının qarşısında konkret cavab tələb edən bir neçə fundamental sual dayanır ki, onun konseptual mövqeyini adətən bu suallara verdiyi cavablar təyin edir:

1. Azərbaycan xalqının təşəkkül tapıb formalaşması hansı səviyyədə diferensiasiya, hansı səviyyədə inteqrasiya prosesidir?
2. Azərbaycan xalqının təşəkkül tapdığı ərəfədə Azərbaycanın etnolinqvistik mənzərəsi necə olmuşdur?
3. Azərbaycan xalqının təşəkkülündə hansı etnoslar aparıcı, hansılar ikinci dərəcəli rol oynamışlar? və s.

Əlbəttə, fundamental sualların qoyuluşu, sırası bəri başdan bu və ya digər konsepsiyanın mövqeyinə daha yaxın ola bilər, lakin nəticə etibarilə, həmin mövqeyi sualların qoyuluşu, sırası yox, onlara verilən cavablar müəyyən edir.

Birinci sualdan başlayaq... *Azərbaycan xalqının təşəkkül tapıb formalaşması prosesi daha geniş planda məhz diferensiasiya prosesidir.* Belə ki, e.ə. I minilliyin ortalarından etibarən Mərkəzi Asiyadan həmhüdud regionlara (o cümlədən Azərbaycana) yayılan türklərin eramızın ilk əsrlərindən başlayaraq tədricən coğrafi-regional diferensiasiyası prosesi gedir. Və həmin proses I minilliyin sonu II minilliyin əvvəllərindən daha çox intensivləşir. Orta əsrlərin sonu yeni dövrün əvvəllərində (XVII-XVIII yüzilliklərdə) müasir türk xalqlarının formalaşması başa çatır. Beləliklə, Azərbaycan xalqının təşəkkülü, hər şeydən əvvəl, qədim (-ümum) türk xalqının əsasən aşağıdakı üç mərhələdən keçən diferensiasiya prosesinin nəticəsidir:

**I mərhələ** (e.ə. minilliyin ortalarından eramızın I minilliyinin ortalarına qədər) türklərin diferensiasiya prosesinin başlanması, etnosun passiv hissəsi ilə aktiv hissəsinin bir-birindən ayrılması, aktiv hissəsinin yeni əraziləri məskunlaşdırması uğrunda mübarizəsi.

**II mərhələ** (I minilliyin ortalarından II minilliyin ortalarına qədər) coğrafi diferesiasiyanın tədricən başa çatması; türklərin Şərq, Şimal-Qərb və Cənub-Qərb türklərinə bölünməsi; etnoqrafik, etnokulturoloji, etnospixoloji sərhədlərin müəyyənləşməsi; ümumi xüsusiyyətlərlə yanaşı "yerli" – regional xüsusiyyətlərin intensiv təzahürü.

**III mərhələ** (orta əsrlərin sonu yeni dövrün əvvəllərindən sonra) bir sıra aralıq hadisələrin, ümumi xüsusiyyətlərin qalması ilə yanaşı diferensiasiya prosesinin başa çatması, müxtəlif türk xalqlarının özünəməxsus əlamətlərinin keyfiyyət həddində təzahürü.

Həmin mərhələlərdə Azərbaycan xalqı tədricən hansı diferensial göstəricilər qazanmışdır?..

I mərhələdə, müəyyən dərəcədə isə II mərhələnin əvvəllərində Azərbaycanın türklərin aktiv hissəsinin vətəni olma



prosesi getmişdir hun türklərinin, bunun ardınca isə törəmələrinin (qıpçaqların) Şimaldan Azərbaycana gəlişi, burada, xüsusilə ölkənin Şimal regionlarında məskunlaşması Azərbaycanın etnik tarixinin əsas hadisələridir. Lakin bu zaman Azərbaycan türklərinin Şimali Qafqaz, yaxud Avropada məskunlaşmış türklərdən fərqləndiklərini, özünəməxsus etnoqrafik, etnokulturoloji, etnopsixoloji əlamətlərə malik olduğunu demək düzgün olmazdı. I minilliyin sonu II minilliyin əvvəlləri Azərbaycana Cənub-qərb türklərinin (oğuzların) axını dövrüdür. Onlar ölkənin Cənubundan gəlirlər, Şimala doğru yayılıb yerli türkləri qıpçaqları, yaxud Şimal Qərb türklərini sıxışdırırdılar. Və beləliklə, yerli türklərlə gəlmə türklərin bir neçə yüz il davam edən qarşılaşma, anlaşma, qarışma prosesi gedir. Eyni zamanda Azərbaycanda yaşayan qeyri-türk mənşəli xalqlar da həmin prosesdə bu və ya digər dərəcədə iştirak edirlər. Bu mərhələdə Azərbaycan türklərinin özünəməxsus əlamətləri müəyyənləşməyə başlasa da, həmin əlamətlərin keyfiyyət həddinə çatması bundan sonrakı mərhələdə baş verir. Azərbaycan xalqı ilə Şimali Qafqaz türkləri (qıpçaqlar), Türkiyə türkləri və türkmənlər (oğuzlar) arasında əhəmiyyətli fərqlərin təzahürü məhz III mərhələyə düşür.

Göründüyü kimi, *Azərbaycan xalqının qədim (ümum) türklükdən diferensiasiyası prosesi müəyyən daxili inteqrasiya prosesləri ilə müşayiət olunur.* Burada, hər şeydən əvvəl, yerli qıpçaqlarla gəlmə oğuzların inteqrasiyası diqqəti cəlb edir. Məsələ burasındadır ki, həmin inteqrasiya prosesi də çoxpilləlidir hun-qıpçaqlar Azərbaycana min ilə qədər çəkən bir dövr ərzində tədricən gəlib məskunlaşmışlar, oğuzların axını isə təxminən beş yüz il davam etmişdir. Və Azərbaycan xalqının formalaşdığı bu min beş yüz illik bir dövrdə, kifayət qədər fəal lokal inteqrasiya, mərkəzləşmə prosesləri getmişdir. Hun-qıpçaqlar, müxtəlif xarakterli tarixi mənbələrin verdiyi məlumata görə, biri digərindən o qədər də fərqlənməyən türk tayfalarından (sabir-suvar, bulqar, xəzər...) ibarət olduqları kimi, oğuzlar da o qədər yekcins deyildilər. Mahmud Kaşqarinin "Divan"ında, eləcə də Rəşidəddinin "Came ət-

təvarix"ində oğuzların müxtəlif boylardan ibarət olduğu göstərilir. Azərbaycanda bu boyların hamısının izinə az və ya çox dərəcədə rast gəlinir... Onların bəziləri Azərbaycan xalqının formalaşmasında əsas, bəziləri isə köməkçi rol oynadıqları kimi, bəziləri öz avtonomluqlarını tamamilə itirmiş, bəziləri isə (məsələn, qaşqaylar, əfşarlar...) avtonomluqlarını müəyyən qədər mühafizə etmişlər. Əlbəttə, Azərbaycan xalqının formalaşması prosesində daxili inteqrasiyanın mərkəzləşmənin tam gücü ilə getdiyini demək çətindir. Ölkənin coğrafi mövqeyi çox tez-tez süni parçalanmalara rəvac vermiş, etnoqrafik, etnokulturoloji, etnopsixoloji inteqrasiyanın lazımi sürətlə getməsinə mane olmuşdur. Təsadüfi deyil ki, heç bir müasir türk dilində Azərbaycan dilindəki qədər dialekt, şivə yoxdur... Bununla belə, Azərbaycan xalqının daxili mərkəzləşməsi nə qədər zəif olsa da, onu "formalaşmamış" xalqlar sırasına daxil etmək düzgün deyil. Hər şeydən əvvəl ona görə ki, bu və ya digər xalqın mükəmməlliyini onun daxili inteqrasiyasının möhkəmliyindən daha çox diferensiallıq səviyyəsi müəyyən edir.

Azərbaycan xalqının diferensiallığının yüksəlişində ölkədə orta əsrlərin sonu yeni dövrün əvvəllərində gedən ictimai-siyasi, mədəni-mənəvi hadisələr əhəmiyyətli rol oynamışdır: həmin hadisələrə biz, birinci növbədə, yüz ildən artıq Azərbaycanın mərkəzləşməsinə xidmət etmiş Səfəvilər dövlətini, bunun ardınca isə kifayət qədər məhsuldar XVII-XVIII əsrlər Azərbaycan intibahını aid edə bilərik. Hər iki hadisə ölkədə cəmiyyətin mütəşəkkiliyinə güclü daxili meylin formalaşdığını ifadə edirdi.

Azərbaycan xalqının mənşəyi ilə məşğul olan araşdırıcıların qarşısında dayanan problemlərdən biri də Azərbaycan xalqının təşəkkül tapdığı ərəfədə Azərbaycanın etnolinqvistik mənzərəsinin bərpasından ibarətdir. Bu sahədə əhəmiyyətli cəhdlər olmuşdur, lakin mübahisələr kifayət qədər çoxdur... Məlum olduğu kimi, e.ə. III-I minilliklərdə Azərbaycan və onunla həmhüdud regionlarda İran, İber-Qafqaz və türk (yaxud prototürk, yaxud Altay) etnoslarının yaşamasından söhbət gedə bilər. İran mənşəli etnosların Azərbaycanda,



xüsusilə onun Cənubunda varlığı nəinki heç kimdə şübhə doğurmur, hətta çox nüfuzlu araşdırıcılar qədim Azərbaycanın əsas sakinlərinin məhz İran etnoslarından ibarət olduğunu göstərirlər. Mannanın, Midiyanın, Atropatenanın əhalisinin əksərən İran mənşəliliyi barədə təkzib edilməsi çətin olan dəlillər, sübutlar gətirilir. İber-Qafqaz etnoslarına gəldikdə isə, onların Azərbaycanda qədim dövrlərdən yaşaması barədə o qədər də ardıcıl danışılmır. Sanki araşdırıcılar çəkinirlər ki, Azərbaycanda İber-Qafqaz etnosunun tarixi yeri barədə çox danışılarsa, İran etnosunun həmin regiondakı tarixi mövqeyinə xələl gəlmiş olar. Halbuki İber-Qafqaz etnosunun Şimali Qafqaza məhz Azərbaycandan keçib yayılması ideyası daha çox özünü doğruldur. Və Azərbaycanın Şimalında həmin etnosun müəyyən tarixi mövqeyinin olması danılmazdır, lakin bu, ölkənin həmin hissəsinin tarixən Ləzgistan olduğu barədəki sərsəm fikir üçün heç bir əsas vermir. İber-qafqazlıların Azərbaycan ərazisində heç zaman siyasi birlikləri, yaxud dövlətləri olmamışdır. Müxtəlif etnosların məskun olduqları Albaniya da ləzgi, yaxud İber-Qafqaz dövləti deyildir. Şirvanşahlar da belə bir dövlət olmamışdır. Azərbaycanın Şimalında İber-Qafqaz etnoslarının təmərküzləşməsindən çox, ayrılması, bir-birindən təcrid olunması prosesinin getdiyini təsəvvür etmək daha asandır həmin etnosun bugünkü məskunlaşma mənzərəsi məhz bunu göstərir.

Qədim Azərbaycanda türk, yaxud prototürk, yaxud da Altay etnoslarının mövcudluğu barədə fikir uzun zaman qeyri-məhsuldar olmuşdur, hazırda da o qədər məhsuldar deyildir. Ümumtürk tarixi mövqeyindən yanaşanda Azərbaycanda türklüyün tarixini eramızın ilk yüzilliklərindən başlamaq daha çox ağlabatandır. Hər şeydən əvvəl ona görə ki, türk tarixinin dinamikliyi Azərbaycan üçün qəbul edilən bir neçə minillik türk məskunlaşması statikliyini sübut etmək üçün əsas vermir. Eyni zamanda Türkiyə türkləri kimi Azərbaycan türklərinin də etnoqrafik, etnokulturoloji, etnopsixoloji yaddaşında türklərin müxtəlif regionlarda qazandıqları xüsusiyyətlərin elementləri olduqca qabarıqdır. Və Azərbaycandakı qədim türk dialektləri də yerli olduqları yalnız burada oğuzlardan

daha əvvəl məskunlaşdıqlarına görə qəbul edilən hun-qıpçaq dialektlərindən ibarətdir. Ona görə də Azərbaycanın türkləşməsi barəsindəki kifayət qədər yayılmış ideyanı təkzib etmək mümkün deyildir. Lakin məsələ burasındadır ki, həmin ideyanı sadəlövh bir şəkildə qəbul etmək olmaz, çünki Azərbaycanın türkləşməsi olduqca mürəkkəb bir prosesdir. Və yuxarıda qeyd etdiyimiz kimi, 1) hun-qıpçaq və 2) oğuz, yaxud oğuz-səlcuq mərhələlərini əhatə edir.

Hun-qıpçaqlar əsasən ölkənin Şimalını, oğuzlar isə Cənubunu məskunlaşdırmışlar. Və hun-qıpçaqlar, xüsusilə oğuzlar yerli etnoslarla nəinki qaynayıb-qarışmış, əksinə, onları ya Azərbaycan hüdudlarından sıxışdırıb çıxarmış, ya da yaşayış üçün qeyri-münasib saydıqları bu və ya digər məhdud regionda (dağlarda, dəniz sahillərində və s.) təcrid etmişlər. Əlbəttə, bu, türklərin düşünülmüş siyasətinin, yaxud xüsusi ideologiyalarının nəticəsi deyildi, yüzillər boyu müəyyənləşmiş həyat tərzinin təsirindən irəli gəlirdi. Və görünür, Azərbaycanın türk yürüşləri qarşısında davam gətirməyən qeyri-türk mənşəli əhalisi də özünümüdafiə stixiyasının nəticəsi olaraq gəlmələrin gedib çıxa bilməyəcəyi yerlərdə yeni məskənlər tapırdılar.

Türkləşmə ərəfəsində ölkədə çoxluq təşkil edən, Azərbaycanın ya Şimalında, ya da Cənubunda, yaxud ümumiyyətlə, aparıcı bir etnos yox idi bunun əsas səbəbi yenə də ölkənin coğrafi mövqeyi, yollar ayrıcında olması idi; qədim dövlət ənənəsi olan İran etnosları bu və ya digər təhlükə hiss edəndə İran körfəzinə doğru Cənuba, belə bir ənənəsi olmayan iber-qafqazlılar isə Şimala dağlara çəkilirdilər, Azərbaycana ardıcıl sahib çıxan yox idi. Ona görə də türklər Azərbaycana yürüş edib burada məskunlaşdıqları yüzillərdə onlara mane olacaq bir etnik-siyasi, ideoloji güc mövcud deyildi. Və ona görə də qəbul etmək ki, guya türklər Azərbaycana gəlib burada məskunlaşarkən yerli etnosların yüksək mədəniyyətini mənimsədilər, tamamilə absurddur. Ümumiyyətlə, Azərbaycan türklərinin mənimsədikləri mədəniyyət xalq mədəniyyəti deyil, böyük elm, mədəniyyət mərkəzlərində islam dininin qəbulundan sonra formalaşmış ümummüsəlman (ümumdünya!) mədəniyyəti idi ki, onun Azərbaycanın qeyri-türk "aborigenlər"inə təbii ki, heç bir dəxli yoxdur.



Türkləşmə ərəfəsində guya Azərbaycan-Atropatenada İran mənşəli Azərbaycan xalqının artıq formalaşmış olduğundan bəhs etmək, Azərbaycanda türklərin qarşısına tarixən mükəmməl bir "xalq çıxartmaq" özünü doğrultmayan cəhddir akademik İ.Əliyev "Atropatena tarixinin oçerki"ndə belə bir uğursuz cəhd etmişdir. Ümumiyyətlə, görkəmli alimin qədim Azərbaycanda türk etnosunun mövcud olmadığını israrla sübut etməsi onun düzgün mövqedə dayanmaq, faktların həqiqətindən çıxış etmək istəyindən daha çox türklərə xüsusi "məhəbbət"inin nəticəsi təsirini bağışlayır. Belə ki, Azərbaycan üçün elə bir möhtəşəm "Tarix" obrazı yaratmağa çalışmışdır ki, həmin "Tarix"dən baxanda Azərbaycanın türkləşmədən sonrakı tarixi həqiqətən sönük görünür o mənada ki, türklərə artıq müəyyənləşmiş tarixin arxasınca getməkdən başqa bir şey qalmır. Axı belə deyil... Atropatenanın hansı mədəniyyətini Azərbaycanın ilk orta əsrlər türkləri mənimsəyib davam etdirmiş, yeni dövrə gətirib çıxarmışlar? Yaxud artıq formalaşdığı dövrdə (orta əsrlərin sonu yeni dövrün əvvəllərində) Azərbaycan xalqının mədəniyyətində kökü ümumtürk mədəniyyətindən gəlməyən hansı xüsusiyyət, əlamət mövcuddur ki, İ.Əliyev onu türkləşməyə qədərki Azərbaycana aid edə bilər? Dilmi? Dinmi? Ədəbiyyatmı? İncəsənətmi?.. Qədim Azərbaycanda türk etnosunun mövqeyinin olmaması, yaxud hiss ediləcək dərəcədə olmaması o demək deyil ki, ilk orta əsrlərdən etibarən Azərbaycana gələn türklər də hər hansı mövqeyə malik ola bilməzlər. Türklər istər Azərbaycanda, istərsə Kiçik Asiyada Türkiyədə, istərsə də sonradan məskunlaşdıqları digər regionlarda aborigen etnoslar kimi aborigen mədəniyyəti də məhv etmədilər, çünki onlar insanlara da, mədəniyyət abidələrinə də təbiətin tərkib hissəsi kimi baxırdılar. Lakin öz kökünü danıb yerli etnoslar, mədəniyyətlər üzərində yüksəlmək də onların ağlına gəlmirdi, çünki onların kifayət qədər möhkəm kökləri, zəngin mədəniyyətləri var idi. Məsələn, Azərbaycandakı atəşpərəstlik məbədləri tanrıçı türkləri heç zaman cəlb etmədi, onlar

çevrilib atəşpərəst olmadılar, lakin heç zaman həmin məbədləri dağıtmaq barədə də düşünmədilər. Və ona görə də nəzərə almaq lazımdır ki, tarixən Azərbaycanda yaradılmış (və hətta yüzillər boyu qorunmuş!) maddi mədəniyyət abidələrinin heç də hamısı türk mənşəli Azərbaycan xalqına mənsub deyildir.

Və beləliklə, *türkləşmə ərəfəsində Azərbaycanda yüksəliş dövrü keçirən bir etnosun, mədəniyyətin olduğu barədə danışmaq nə qədər absurddursa, gəlmə türklərin yerli etnos, mədəniyyət üzərində yüksəldiyini, Azərbaycan xalqının formalaşmasında türklərdən çox qeyri-türklərin (İran etnoslarının) rolu olduğunu düşünmək o qədər absurddur.*

"Azərbaycan xalqının təşəkkülündə hansı etnoslar aparıcı, hansılar ikinci dərəcəli rol oynamışlar?" sualına birmənalı cavab vermək mümkündür – türk etnosları (onların da, yuxarıda qeyd etdiyimiz kimi, müxtəlif inkişaf səviyyələrində olan müəyyən hissəsi) aparıcı, qeyri-türk etnosları isə ikinci, bəzən üçüncü dərəcəli rol oynamışlar. Və elə qeyri-türk etnosları da olmuşdur ki, həmin prosesdə ümumiyyətlə iştirak etməmişlər.

Azərbaycan xalqı təşəkkül tapıb formalaşarkən aparıcı etnosla (türklərlə) qeyri-aparıcı etnosların (qeyri-türklərin: İran və İber-Qafqaz etnoslarının) münasibəti ayrıca izah olunmalı məsələlərdən biridir. Birincisi ona görə ki, türkləşməyə qədərki minilliklərdə Azərbaycanda İran, İber-Qafqaz etnosları daha çox yaşamış, tarixə qədərki Azərbaycanın əsas etnik mənzərəsini məhz onlar müəyyənləşdirmişlər. İkincisi ona görə ki, bu gün ölkədə tarixən təcrid olunmuş, bu və ya digər konkret coğrafiyada lokallaşmış qeyri-türk mənşəli etnoslar yaşayırlar onlar Azərbaycanın qədim sakinləridirlər. Və həmin etnoslar özlərinin aktiv nümayəndələrinin şəxsində Azərbaycan xalqının tərkibinə daxildirlər.

Azərbaycanda bu və ya digər dərəcədə lokal şəkildə yaşayan İran mənşəli etnoslara kürdlər, tatlar, talışlar, kiləklər. İber-Qafqaz mənşəli etnoslara udilər, ləzgilər, xınalıqlar... daxildir. Həmin etnoslar sonralar deyil, ilk orta əsrlərdən etibarən, görünür, Azərbaycanın türkləşməsinin ilk mərhələ-



sində təcrid olunmağa başlamışlar. Bunun əsas səbəbi türklərin onları sıxışdırmasından daha çox həmin etnosların özlərini müdafiə etmək, etnik xüsusiyyətlərini yaşatmaq ehtiyacından irəli gəlmişdir. Və etiraf edək ki, onlar istədiklərinə həqiqətən nail olmuş, min ildən artıq bir dövrdə türk mənşəli Azərbaycan xalqının içərisində əriyib yox olmaqdan özlərini xilas etmişlər.

Lakin bir sıra araşdırıcılar bu fikirdədirlər ki, guya Azərbaycanda təcrid olunmuş şəkildə yaşayan qeyri-türk mənşəli etnik qruplar qədim Azərbaycanda böyük tarixi rol oynamış xalqların "yorulmuş" nəvə-nəticələridir. Qeyd-şərtsiz bu cür düşünmək, heç şübhəsiz, doğru deyildir. Əgər belə olsaydı, müxtəlif dövrlərdə (məsələn, sasanilər dövründə) Azərbaycanın Şimal-Şərq regionlarına köçürülən İran mənşəli etnosları (tatları) da Azərbaycanın aborigenlərindən saymaq lazım gələrdi. Yaxud Ön Asiyanın bir-birinə az və ya çox dərəcədə yaxın olan bir neçə regionunda müxtəlif miqyaslarda lokallaşmış kürdləri də hər bir region (o cümlədən Azərbaycanın Qərb regionları) üçün aborigen hesab etməli idik. Eyni zamanda nəzərə almaq lazımdır ki, daha geniş ərazidə məskunlaşmış ermənilər çıxmaq şərti ilə (onlar bu regiona, demək olar ki, heç bir iz buraxmadan gəlmişlər), Azərbaycanda yaşayan qeyri-türk mənşəli etnik qruplar Azərbaycandan kənarda geniş etnik "müdafiə konteksti"nə malikdirlər. Bu da onların assimilyasiyasına tarixən mane olan şərtlərdən biridir.

Azərbaycanın türkləşməsində, eləcə də türk mənşəli Azərbaycan xalqının təşəkkül tapıb formalaşmasında təcrid olmuş İran, İber-Qafqaz etnosları və ermənilər nə proqressiv, nə də reqressiv mənada əsaslı bir rol oynamamış, birincilər isə Azərbaycan cəmiyyətinin etnik mərkəzləşmə baxımından passiv hissəsini təşkil etmişlər.

Hər hansı xalqın təşəkkül prosesi, hər şeydən əvvəl, etnik prosesdir, bununla yanaşı həmin prosesin etnokulturoloji tərəfləri də vardır. Bunun əsasını dini dünyagörüşü təşkil edir. Türkləşmə ərəfəsində Azərbaycanda əsas dini dünyagörüşü, heç şübhəsiz, atəşpərəstlik idi. Hind-İran mədəniyyətinin hadisəsi olan atəşpərəstlik Azərbaycan türkləri ara-

sında yayılmadı. Hun-qıpçaq türkləri əsasən tanrıçı idilər, oğuzlar isə tanrıçılıq əsasında artıq islamı qəbul etmişdilər. Və Azərbaycan xalqının formalaşmasının ideoloji əsasını məhz islam dini təşkil edir. Təsadüfi deyil ki, həmin formalaşma prosesində yaranan "Dədə Qorqud" eposunun ideya-məzmunu da bunu təsdiq edir. İslam dininin milli təmərküzləşmədə rolu o qədər yüksək oldu ki, türk mənşəli Azərbaycan xalqı bir sıra hallarda sadəcə "müsəlman" adlanmağa başladı Azərbaycanda yaşayan müxtəlif mənşəli etnoslar əsasən müsəlman olduqlarına görə bu ad "türk" adı ilə müqayisədə daha ümumiləşdirici idi. Lakin dildə, adət-ənənədə təzahür edən etnik xüsusiyyətlər daha böyük gücə malik olduğundan islam dini etnoslar arasında əsas fərqləri aradan qaldıra bilmədi.

Azərbaycan xalqının etnik mənşəyi (etnogenezi) ilə dil, mədəniyyət mənşəyi dialektik vəhdətdədir onun etnik mənşəyinin bir, dil, mədəniyyət mənşəyinin digər mənbə ilə bağlayanlar kökündən səhv edirlər. *Azərbaycan xalqı türk etnosunun təbii-coğrafi genişlənmə diferensiasiyasının nəticəsi olub təxminən min beş üz illik bir etnik prosesin gedişində təşəkkül tapıb formalaşmışdır.*

...Azərbaycanın etnik tarixi Azərbaycan xalqının formalaşması tarixindən qədimdir. Bu isə o deməkdir ki, Azərbaycan xalqının formalaşması prosesi başlayana qədər Azərbaycanda (və həmhüdud regionlarda) kifayət qədər mürəkkəb etnik hadisələr baş vermişdir. Bunun bir səbəbi, haqqında söhbət gedən coğrafiyanın yaşayış üçün münasib təbii şəraitdirsə, digər çox mühüm səbəbi müxtəlif istiqamətlərə gedən yollar üzərində yerləşməsi, etnik, sosial-siyasi fəallığı, qaynarlığıdır... Və etiraf etmək lazımdır ki, Azərbaycanın etnik tarixinin qədim dövrü sonrakı dövrləri ilə müqayisə olunmayacaq qədər mübahisəlidir məsələnin mürəkkəbliyi isə burasındadır ki, həmin mübahisələr artıq öz elmi-metodoloji əhəmiyyətini (enerjisini!) itirərək "siyasiləşmiş", başqa sözlə, etnosiyasi ambisiyaların, subyektiv maraqların münaqişə obyektinə çevrilmişdir. Lakin qədim dövrlərdə Azərbaycanda hansı etnosun, yaxud etnosların (iber-qafqazlıların, iranlıların, yaxud altaylıların – türklərin...) aparıcı yer tutmasından asılı olmayaraq Azərbaycan xalqı qədim dövrün sonu, orta əsrlərin əvvəllərindən başlayaraq məhz türk etnosları əsasında formalaşmışdır ki, həmin etnoslar (türklər) eyni dövrdə deyil, müxtəlif dövrlərdə gəlmişlər. Beləliklə, Azərbaycan xalqının təşəkkülü kifayət qədər uzun sürən min ildən artıq dövrü əhatə edən mürəkkəb bir proses olmuşdur: qədim dövrün sonu, orta əsrlərin əvvəllərindən başlayan həmin proses orta əsrlərin sonu, yeni dövrün əvvəllərində başa çatmışdır.

...Biz Azərbaycan xalqının etnik, sosial-siyasi mütəşəkkillik səviyyəsinə təsir göstərən bir sıra cəhətlərdən yalnız aşağıdakı üçü üzərində dayanacağıq:

1) xalqın təşəkkülü prosesinin uzun sürməsi;

2) Azərbaycanın qədim dövrlərdən gələn etnik zənginliyi, yaxud mürəkkəbliyi;

3) Azərbaycanda milli dövlətçilik təfəkkürünün, milli maraqların, iddiaların nə dərəcədə yüksək olub-olmaması.

*Azərbaycan xalqının etnik, sosial-siyasi mütəşəkkillik səviyyəsinə tarixən təsir göstərən birinci cəhət Azərbaycan xalqının təşəkkülü prosesinin uzun sürməsi, müxtəlif dövrlərdə, mərhələlərdə Azərbaycana gələn (deməli, biri digərindən həm etnik xarakteri, həm də sosial-siyasi inkişaf səviyyəsi etibarı ilə fərqlənən) türk etnoslarından təşkil olunmasıdır...*

Məlum olduğu kimi, Azərbaycan xalqının etnik əsasında dayanan ilk etnoslar hun türklərindən ibarət olmuş, onlar bir neçə əsr ərzində ölkənin şimal vilayətlərində, demək olar ki, maneəsiz məskunlaşmışlar. Hun türklərinin arxasınca (və daha kütləvi, daha ardıcıl olaraq!) Azərbaycana qıpçaq türkləri axıb gəlmiş, ölkənin yalnız şimalında deyil, cənubunda da yayılmış, ərəblərin Azərbaycana yürüşü zamanı onların qarşısına həmin ölkənin əsas sahibi olaraq çıxmışlar. Və məhz bu dövrdən etibarən Azərbaycanın həm şimalı, həm də cənubu onu sözün geniş mənasında qorumaq missiyasını öz üzərinə götürmüş türklərə məxsusdur... Səlcuq (oğuz) türkləri II minilliyin əvvəllərində Türküstandan Azərbaycana yürüş

edib burada türk-müsəlman dövləti qurarkan da yerli türklərin qıpçaqların uğursuz müqavimətinə rast gəlmişdilər. Azərbaycanda yerli türklərlə gəlmə türklərin münaqişəsi tarixi göstərir ki, Azərbaycan xalqının formalaşması boyu davam etmiş, müəyyən dövrdə "gəlmə" funksiyasında çıxış edən türklər bir neçə əsr sonra "yerli" missiyalarını daşımağa başlamışlar. Səlcuqlardan (oğuzlardan) sonra Azərbaycana Türküstandan daha bir sıra tarixi yürüşlər oldu biz, hər şeydən əvvəl, monqol-tatar, Əmir Teymur, türkmən... yürüşlərini nəzərdə tuturuq ki, orta əsrlərin sonlarına qədər davam edən həmin yürüşlərdə Azərbaycan cəmiyyəti əhəmiyyətli etnik, sosial-siyasi dəyişmələrə məruz qaldı. Ümumiyyətlə, XI əsrdən XVI-XVII əsrlərə qədərki dövrdə Azərbaycanda gedən etnososial prosesləri türk dünyasından kənarda təsəvvür etmək mümkün deyil, çünki orta əsrlərin sonuna qədər türk dünyasında həmin proseslər fəal şəkildə davam etmişdir. Yalnız belə bir faktı xatırlatmaq lazımdır ki, XVI-XVII əsrlərə qədər xüsusilə Azərbaycan, türk və türkmən xalqları arasında özünəməxsus coğrafiyadan başqa əsaslı bir fərq mövcud olmayıb.

Azərbaycan türklərinin müstəqil xalq olaraq diferensiasiyası XVII-XVIII əsrlərdə başa çatır, lakin daxili təmərküzləşmə inteqrasiya prosesi bundan sonra da davam edir. Və həmin prosesin artıq başa çatdığını söyləmək bu gün də düzgün olmazdı. Çünki Azərbaycan ərazisində (xüsusilə də İran Azərbaycanında) yaşayan bir sıra türk tayfaları özlərini hələ də azərbaycanlı, yaxud Azərbaycan türkü deyil, qaşqay, şahsevən, təkə-türkmən... hesab edirlər. Eləcə də ölkənin (ümumən Azərbaycanın) bir sıra regionlarında orta əsrlərin müxtəlif türk etnonimləri yer adları olaraq fəal işlənir. Onu da qeyd edək ki, Azərbaycan dilində hun, qıpçaq, oğuz və s. türk tayfalarının dil xüsusiyyətlərinə rast gəlinir... Bütün bunlar isə Azərbaycanda türklərin həm diferensiasiya, həm də inteqrasiyası prosesinin kifayət qədər mürəkkəb bir proses olduğunu göstərir.

Azərbaycan dili digər türk dilləri ilə müqayisədə daha geniş, dialekt-şivə innovasiyasına malikdir. Azərbaycandan kənarda (məsələn, Türkiyədə, Dağıstanda, İranda) Azərbaycan dilinin



dialekt-şivələri mövcuddur. Azərbaycan ədəbi dili heç də Şimali və Cənubi Azərbaycanın hər yerində işlənmir. Və Azərbaycan türklərinin həyat tərzində, etnoqrafiyasında, etnopsixologiyasında da bu günə qədər davam edən fərqli xüsusiyyətlər vardır ki, mütəxəssislər onları çox zaman məhz regional xüsusiyyətlər kimi təqdim edirlər... Əlbəttə, bu cür fərqlər yalnız Azərbaycan xalqına aid deyil, lakin burada söhbət ondan gedir ki, həmin fərqlər Azərbaycanda daha geniş yayılmış, özünü daha ardıcıl şəkildə nümayiş etdirir. Və bu cür daxili müxtəliflik, yaxud "fedarativlik" isə şübhəsiz, təmərküzləşmənin hələ lazımi səviyyəyə çatmadığını göstərir.

Azərbaycanşünaslıqda, ümumən türkologiyada xüsusi olaraq diqqəti cəlb etməyən, lakin üzərində düşünülməsinə çox böyük ehtiyac olan məsələlərdən biri türk xalqlarının diferensiasiyası problemidir. Bizim fikrimizcə həmin diferensiasiya, məsələn, roman, yaxud german xalqlarındakı səviyyədə deyil istər oğuz, istər qıpçaq, istərsə də karluq qrupuna mənsub türk xalqları arasında elə tayfalara, etnik birliklərə təsadüf etmək mümkündür ki, onların bu və ya digər müstəqil türk xalqına, millətinə aid olması mübahisə doğurur. Onu da əlavə edək ki, bu cür ortaq, yaxud keçid mövqeli türk etnosları sovet ideologiyasının milli siyasətinin təzyiqi ilə, heç bir əsas olmadan, yalnız türk xalqlarını parçalamaq, mümkün qədər kiçik hissələrə ayırmaq məqsədilə, müstəqil xalqlar elan edilmişlər. Sovet türkologiyası da həmin siyasətin təsiri altında türk dillərinin (və xalqlarının) diferensiasiyasını mümkün qədər dərinləşdirməyə, genişləndirməyə, hər bir türk dili (və xalqı) üçün xüsusi genezis axtarıb tapmağa çalışmışdır... Və məsələ burasındadır ki, Azərbaycan türklüyü, ümumən Azərbaycan xalqı sovet dövrünü belə bir ideoloji təzyiq altında keçirməklə həm türklükdən ayrılmağa məhkum edilmiş, həm də daxili parçalanmaya məruz qalmışdır...

*Azərbaycan xalqının etnik, sosial-siyasi mütəşəkkillik səviyyəsinə təsir göstərən ikinci əlamət Azərbaycanın qədim dövrlərdən gələn etnik zənginliyi, yaxud mürəkkəbliyidir tarix həmin zənginliyi min illər boyu qoruyub saxlamışdır...* Bu isə göstərir ki, son əsrlərdə, bəlkə də, minillikdə Azərbaycanda

mövcud olan qeyri-türk mənşəli etnosların xarakteri, həyat tərzi olduqca az dəyişmişdir. Bunun əsas səbəbi həmin etnosların fəal sosial-siyasi proseslərdən demək olar ki, kənarda qalmasından ibarətdir.

Azərbaycanın (və həmhüdud regionların) etnik coğrafiyası üzərindəki müşahidələr göstərir ki, tarixə qədərki mərhələdə baş verən etnik prosesləri nəzərə almasaq, müxtəlif mənşəli etnosların bu ərazilərdə əsaslı məskunlaşma xronologiyası aşağıdakı şəkildə olmuşdur: əvvəl iber-qafqazlılar, sonra iranlılar, sonra isə türklər məskunlaşmışlar. Yüksəkliklərə, yaşayış üçün ən az münasib olan yerlərə daha çox "sıxışdırılan" etnosun məhz iber-qafqazlıların olması bunu təsdiq edir və görünür, onların Şimala-Qafqazlara məhz Cənubdan, İran yaylasından gəlməsi barədəki nəzəriyyə özünü doğruldur, belə ki, Azərbaycanın (və həmhüdud regionların) ən qədim tarixi (məhz tarixi!) sakinlərini əvvəl iranlılar, sonra isə türklər tədricən Şimala, Qafqazın əlçatmaz yüksəkliklərinə doğru sıxışdırmışlar. Əgər iber-qafqazlılar həmin ərazidə iranlılardan, yaxud türklərdən sonra məskunlaşmış olsaydılar, heç şübhəsiz, bu cür "qeyri-münasib" məskən seçməzdilər.

Müşahidələr göstərir ki, haqqında söhbət gedən coğrafiyaya və ya digər dərəcədə "sıxışdırılmış" ikinci etnos iranlılardır ki, onlar daha çox Şərqə Xəzər sahillərinə çəkilmişlər. Və qeyd etmək lazımdır ki, iber-qafqazlılardan fərqli olaraq, iranlılar həmetnoslarının məskunlaşdığı əsas regionla əlaqələrini itirib Azərbaycanda etnik adalar şəklində qalmışlar ki, bu da onların sonrakı taleyinə təsir göstərmişdir. Ümumiyyətlə, ölkənin qeyri-türk mənşəli etnosları daxilində təcridolunma, "mərkəzdənqaçma" tendensiyası kifayət qədər geniş yayılmış, az qala hər kəndin, hər obanın öz dili, şivəsi, özünəməxsus etnoqrafiyası, həyat tərzi formalaşmışdır.

Bizim fikrimizcə, Azərbaycanda məskunlaşmış qeyri-türk mənşəli etnoslar ölkənin ictimai-siyasi, ideoloji həyatında bu və ya digər dərəcədə fəal iştirak etməyə yeni dövrdə başlamışlar. Lakin həmin fəaliyyət xüsusilə əvvəllər daha çox "dağıdıcı" xarakter daşımış, dərəbəylik dövrünün (XVII-XIX əsrlərin) "tələbat"ına uyğun olmuşdur. XIX əsrin sonu XX əsrin əvvəllərində isə ümummilli maraqlar ətrafında bütün Azərbaycan cəmiyyətinin birləşmək istəyində olduğunu görürük. Qeyri-türk mənşəli xalqların etnik müxtəlifliyinin, tarixi qeyri-mütəşəkkilliyinin nəticəsidir ki, onların Azərbaycan cəmiyyətinin, xalqının ümumi idealları ətrafında birləşməsində müəyyən problemlər də olmuşdur. Həmin problemlərin bir çoxu etnik yaddaşın romantikası ilə ümummilli maraqların reallığı arasındakı ziddiyyətlərdən irəli gəlib.



Azərbaycanın etnik-etnoqrafik mənzərəsinin müxtəlifliyində ölkənin təbii-coğrafi zənginliyi də müəyyən rol oynamışdır. İber-qafqazlılar əsasən dağlıq, iranlılar dəniz sahili, türklər isə çöl ərazilərdə yaşamışlar. Və şübhəsiz, onların etnik dünyagörüşünün formalaşmasında həmin həyat tərzinin əhəmiyyətli təsiri olmuşdur.

Güman etmək olar ki, Azərbaycanda yaşayan qeyri-türk mənşəli əhalinin sayı tarixən deyil, məhz son dövrlərdə azalmağa başlamışdır. Bu isə Azərbaycan cəmiyyətinin təbii özünütəşkili, yaxud təmərküzləşməsi prosesinin xüsusilə XIX əsrin sonu, XX əsrin əvvəllərindən başlayaraq güclənməsi ilə bağlıdır. Bu gün Azərbaycanda yaşayan, özünü tat, talış, kürd, ləzgi, avar, udin, saxur, ingiloy və s. hesab edən əhalinin sayı Azərbaycan türklərinin, ümumən Azərbaycan xalqının sayından müqayisə edilməyəcək qədər azdır. Və Azərbaycan dünya proseslərinə get-gedə daha fəal şəkildə qoşulduqca Azərbaycanın azsaylı xalqları ümummilli maraqlar ətrafında daha sıx birləşirlər. Çünki həmin proseslərdə "etnik yaddaş", yaxud "əski maraqlar"la iştirak etmək sadəcə olaraq mümkün deyil.

*Azərbaycan xalqının etnik, sosial-siyasi mütəşəkkillik səviyyəsinə təsir göstərən üçüncü əlamət Azərbaycanda milli dövlətçilik təfəkkürünün, milli maraqların, ideyaların nə dərəcədə yüksək olub-olmaması ilə əlaqədardır...* Xüsusi olaraq sübut etməyə ehtiyac yoxdur ki, Azərbaycanın həm Şimalında, həm də Cənubunda qədim dövrlərdə müxtəlif dövlətlər yaranmışdır. Lakin həmin dövlətlər Azərbaycan xalqının sosial-siyasi, ideoloji yaddaşında qalmamışdır. Biz burada

əsasən iber-qafqazlıların, iranlıların yaratdıqları dövlətləri nəzərdə tuturuq. Və şübhə etmirik ki, qədim dövrə münasibətdə bu cür yaddaşsızlıq həmin etnosların dövlət quruculuğu təcrübəsini çoxdan unutmaları ilə əlaqədardır. Azərbaycan xalqının tarixi yaddaşında mühafizə olunmuş dövlətlər məhz türklərin (müsəlman türklərin!) qurduğu dövlətlərdir ki, onlar da daha çox orta əsrlər üçün səciyyəvi olan ümummüsəlman ideyalarını ifadə etmişlər. Azərbaycan türklərinin, ümumən formalaşmaqda olan Azərbaycan xalqının milli maraqlarını əks etdirən ilk dövlət I Şah İsmayılın yaratdığı Səfəvilər dövləti idi. Lakin çox çəkmədi ki, səfəvilər "qədim dünyada qalmış" bir etnosun farsların romantik xülyalarının, dəbdəbəli (və müasirlikdən, hər cür perspektivdən uzaq!) həyat tərzinin əsirinə çevrilib tarix səhnəsini tərk edirlər. Səfəvilərdən sonra milli dövlətçilik təfəkkürünün təşəkkülü tarixində Azərbaycan xanlıqları xüsusi bir dövrü təşkil edir. Doğrudur, Azərbaycanın həm Şimalını, həm də Cənubunu əhatə edən mərkəzləşmiş dövlətin süqutundan sonra kiçik Azərbaycan dövlətlərinin xanlıqların milli dövlətçilik təfəkkürünün təkamülündə böyük rol oynayacağını söyləmək çətindir. Bununla belə etiraf etmək lazımdır ki, xanlıqlar dövründə Azərbaycanın ictimai-siyasi cəhətdən fəal regionlarının timsalında milli dövlət idarəçiliyi artıq yerli, məhəlli miqyas aldı, dövlət mənsub olduğu xalqa nə qədər mümkündürsə o qədər yaxınlaşdı... Və xanlıqlar dövründə Azərbaycanın müxtəlif mənşəli etnosları regional dövlət idarəçiliyində bilavasitə iştirak etməklə sosial-siyasi passivlikdən xilas oldular.

Cənubunun İran, Şimalının isə Rusiya tərkibində olduğu dövrdə Azərbaycanda milli dövlətçilik təfəkkürü, Azərbaycan xalqının bütövlüyü idealı sönmədi, lakin ölkənin Şimalı ilə Cənubu arasında sosial-siyasi, mədəni əlaqələrin zəifləməsinin əsası qoyuldu. Bu o zaman baş verdi ki, ümummilli ideallarin formalaşmasına təkan verən dünya miqyaslı proseslər intensivləşməkdə idi. Və Azərbaycan Şərqlə Qərbin tarixi ziddiyyətlərini özündə bütün kəskinliyi ilə ehtiva edən bir ölkəyə çevrilirdi. Onun milli dövləti yox idi, lakin güclü milli dövlətçilik idealları var idi... Azərbaycan Demokratik



Cümhuriyyəti, onun ardınca isə kifayət qədər uzunömürlü Azərbaycan Sovet Sosialist Respublikası həmin ideallarin gerçəkləşməsi sahəsində ya bilavasitə, ya da dolayısı ilə əhəmiyyətli təşəbbüslərdir. Milli dövlətin qurulması ərəfəsində bu cür təşəbbüslər tamamilə təbiidir.

Azərbaycan xalqının etnik, sosial-siyasi maraqlarını bu gün (əslində, yarandığı gündən bəri) birinci növbədə Azərbaycan Respublikası təmsil edir hər şeydən əvvəl ona görə ki, Azərbaycan Respublikası Azərbaycan xalqının milli (müstəqil) dövlət axtarışlarının məhsuludur. Yalnız həmin respublikanın vətəndaşları deyil, həmhüdud ölkələrdə tarixən məskunlaşmış (xalq kimi məhz həmin ölkələrin ərazisində formalaşmış!) azərbaycanlılar əsasən Azərbaycan türkləri də ona öz milli dövlətçilik ideallarının ifadəçisi (və müdafiəçisi!) kimi baxırlar. Müxtəlif səbəblər üzündən dünyanın ən müxtəlif ölkələrinə səpələnmiş Şimaldan və Cənubdan olan azərbaycanlılar üçün də Azərbaycan dövləti və onun rəmzləri müqəddəsdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, prezidenti Heydər Əliyev dünya azərbaycanlılarının şəriksiz lideridir... Şübhəsiz, bütün bunlar Azərbaycan xalqının etnik, sosial-siyasi mütəşəkkillik səviyyəsinin yüksəlişi sahəsində görüləcək böyük işlərin başlanğıcıdır.

*Azərbaycan dövləti, onun banisinin dəfələrlə qeyd etdiyi kimi, respublikanın ərazisində tarixən məskunlaşmış bütün etnoslara, bir neçə minillik dövrdə formalaşmış bütün Azərbaycan cəmiyyətinə Azərbaycan xalqına məxsusdur. Və eyni zamanda dünyanın harasında yaşamasından asılı olmayaraq özünü azərbaycanlı hesab edən, mənsub olduğu etnosun yalnız təbii yaddaşını deyil, həm də sosial-siyasi məsuliyyətini, milli dövlətçilik təfəkkürünü daşıyan hər bir azərbaycanlıya məxsusdur.*

Müşahidələr göstərir ki, müasir dünyada etnik diferensiasiya ilə etnik inteqrasiya sıx qarşılıqlı əlaqədədir. Odur ki, hər bir azərbaycanlının öz etnik, milli mənsubiyyətini bütün keyfiyyətilə qorumasının onun (həmin azərbaycanlının) "dünya vətəndaşı" missiyasına mane olmur, əksinə, kömək edir. Heç olmasa ona görə ki, bu və ya digər dərəcədə milli, yaxud tari-

xən formalaşmış milli idealları, maraqları ifadə etməyən bir dövlətin vətəndaşı "dünya vətəndaşı" ola bilməz...

Və müşahidələr göstərir ki, Azərbaycan dövləti Azərbaycan xalqının etnik, sosial-siyasi mütəşəkkilliyi üçün əlindən gələni əsirgəməməklə, həm ölkə, həm regional, həm də dünya miqyaslı kifayət qədər möhtəşəm işlər görməkdədir. Biz, hər şeydən əvvəl, "Dədə Qorqud" eposunun geniş miqyaslı yubileyinin keçirilməsini, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi sahəsində tarixi əhəmiyyətli tədbirlər planının işlənib hazırlanmasını (və ardıcıl olaraq yerinə yetirilməsini), ümumiyyətlə, Azərbaycan dilinin həm daxili, həm xarici (beynəlxalq) ünsiyyətdə nüfuzunun indiyə qədər görünməyəcək bir səviyyədə yüksəldilməsini, dünyanın müxtəlif ölkələrinə yayılmış azərbaycanlıların Bakı ilə əlaqələrinin intensivləşdirilməsini, dünya azərbaycanlılarının I qurultayının məhz Bakıda keçirilməsi barədə respublika prezidenti tərəfindən xüsusi sərəncam verilməsini və s. nəzərdə tuturuq ki, zəmin tədbirlər Azərbaycan xalqının daxili mütəşəkkilliyini təmin etməklə yanaşı, onun beynəlxalq mövqeyini gücləndirir, dünyanın mükəmməl millətlərindən biri kimi normal fəaliyyətinə siyasi-ideoloji kömək göstərir...



## 2. AZƏRBAYCAN DİLİ TÜRK DİLLƏRİNDƏN BİRİ, AZƏRBAYCAN XALQININ (SUPERETNOSUNUN) ÜMUM-(TARİXİ!) ÜNSİYYƏT VASİTƏSİDİR

Azərbaycan türkcəsi, yaxud Azərbaycan dili müasir dünyanın kifayət qədər inkişaf etmiş dillərindən olub geniş ifadə-üslub imkanlarına malikdir. Və araşdırmalar göstərir ki, bu dilin zəngin bir tarixi vardır...

Azərbaycan dilinin təşəkkülü məsələsi bir problem kimi XIX əsrin sonu XX əsrin əvvəllərində milli özünüdərk dövründə bütün aydınlığı ilə qoyulmuş və etiraf etmək lazımdır ki, kifayət qədər obyektiv, metodoloji baxımdan düzgün həllini məhz həmin dövrdə tapmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan (yalnız Azərbaycanmı?!) elmi-ictimai təfəkküründə belə bir əsaslı fikir formalaşmışdır ki, Azərbaycan dili öz mənşəyi etibarilə türk dillərindən biridir... Məsələnin bu cür inamla qoyulması, görünür, birinci növbədə aşağıdakı səbəblərdən irəli gəlirdi:

a) türk dillərinin diferensiasiyası lazımi səviyyədə deyildi, ona görə də XIX əsrin sonu XX əsrin əvvəllərinə qədər türk dilləri nəinki "xaric"dən, hətta "daxil"dən də bütöv bir dil kimi təsəvvür edilirdi;

b) XIX əsrin sonu XX əsrin əvvəllərində türk dünyasında türkçülük, yaxud ümumtürk millətçiliyi ideyalarının təşəkkül tapıb yayılması ümumən türklərdən, bütövlükdə türk dilindən danışmağa daha çox əsas verirdi;

c) Azərbaycanda (və onunla həmhüdud regionlarda) yaşayan qeyri-türk mənşəli etnoslar hələ tarixə siyasi-ideoloji iddialarla müdaxilə etmirdilər.

XX əsrin 20-ci, 30-cu illərində də Azərbaycan dilinin (və xalqının) mənşəyinə həmin münasibət nəinki davam edir, eyni zamanda onun elmi-ideoloji imkanları daha da genişlənir, "sovet türkologiyası" Azərbaycan xalqının türk mənşəli bir xalq olduğunu israrla etiraf edirdi.

...Lakin 30-cu illərin sonlarından etibarən Azərbaycan dilinin (və xalqının) mənşəyi məsələsinə münasibətin prinsipial şəkildə dəyişməsi müşahidə olunur: tədricən belə bir fikir geniş yayılır ki, Azərbaycan xalqının genetik əsasını hansısa (!) qeyri-türk mənşəli bir (yaxud bir neçə) etnos təşkil edir, türklər Azərbaycanı istila edənə, yəni XI-XIII əsrlərə qədər həmin regionda artıq formalaşmış bir xalq (təbii ki, qeyri-türk mənşəli), qeyri-türkcə danışan "yerli əhali" mövcud idi; "yerli əhali", "aborigen"lər türklərlə müqayisədə daha mədəni olduqları üçün "gəlmə"ləri etnik-mədəni baxımdan "həzm" edib yalnız onların (türklərin) dillərini saxladılar... Və beləliklə, 30-cu illərdən başlayaraq Azərbaycan tarixinin qədim dövrü barədə hər cür miflər uydurulurdu ki, həmin miflərin əsas ideoloji məqsədi Azərbaycanı türk dünyasından ayırmaqdan ibarət idi. Heç şübhəsiz, Azərbaycan tarixinin qədim dövrünün mürəkkəb etnolinqvistik mənzərəsi, haqqında söhbət gedən miflərin müəyyən elmi əsaslara malik olmasına, elmi-ictimai təfəkkürdə geniş intişar tapmasına imkan verir, şərait yaradırdı.

...60-cı illərdən etibarən Azərbaycan dilinin (və xalqının) mənşəyi məsələsinə münasibətdə üçüncü mərhələ başladı. "Qeyri-türkçü"lərin kifayət qədər dərindən araşdırdıqları "qədim Azərbaycan tarixi" "türkçü"lərin müdaxilə obyektinə çevrildi Azərbaycan xalqının etnogenezşünaslığına özünəməxsus bir türkçülük emosiyası gəldi...

Və beləliklə, bu gün Azərbaycan xalqının etnogenezi məsələsinə münasibətdə "qeyri-türkçülər"in mövqeyi "türkçülər"in mövqeyinə qarşı durur belə bir təsəvvür yaranır ki, Azərbaycan xalqının mükəmməl (konstruktiv) bir "tarix"inin meydanda olmamasının səbəbi həmin qarşıdurmadır. Lakin bu təsəvvür yanlışdır, məsələnin zahiri tərəfidir. Əslində isə, konstruktiv bir "etnik tarix"in olması qədim "dövr"lə "orta əsrlər dövrü" arasındakı "etnik boşluq", yaxud "əlaqəsizlik"dir... "Qeyri-türkçülər" "qədim dövr"ün qeyri-türkçülüyünü mütləqləşdirir, "orta əsrlər dövrü"nün etnik proseslərini "qədim dövr"dəki "etnik mürəkkəbliy"in bilavasitə davamı hesab edirlər; "türkçülər" isə "orta əsrlər dövrü"nün türkçülüyünün



köklərini "qədim dövr"də axtarırlar. "Qırılmış" tarix isə həmin cəhdlərin hər ikisini əvvəlcədən uğursuzluğa məhkum etmişdir.

*Azərbaycan dili ümumtürk dilinin diferensiasiyası nəticəsində təşəkkül tapmışdır bu isə o deməkdir ki, Azərbaycan türkcəsi, hər şeydən əvvəl, ümumtürkcənin varisidir.* Lakin Azərbaycanın etnolinqvistik coğrafiyasının kifayət qədər mürəkkəb, rəngarəng olması həmin ərazidə tarixən heç də o qədər sadə olmayan etnolinqvistik proseslərin getdiyini göstərir.

Qədim (ümum-) türk dili təxminən e.ə. I minilliyin ortalarında Altay dilinin bölünməsi ilə əlaqədar olaraq təşəkkül tapıb formalaşmışdır. Həmin bölünmə prosesi isə, görünür, bir neçə min il davam etmişdir (e.ə. IV-III minilliklərdən e.ə. I minilliyə qədər). Ona görə də eramızdan əvvəlki minilliklərdə prototürkcədən, yaxud Altay dilinin türk, monqol və tunqus-mancur "dialekt"lərindən danışmaq mümkündür.

Altay dilinin türk, monqol, tunqus-mancur dillərinə diferensiasiyası uzun sürən elə bir mürəkkəb etnolinqvistik prosesdir ki, həmin prosesi bütün dəqiqliyi ilə təsəvvürdə canlandırmaq, demək olar ki, mümkün deyil. Lakin bir məsələ aydındır ki, türk dili Altay birliyindən ayrılanda onun (türkcənin) bir-birindən hələ çox fərqlənməyən daxili dialektləri də mövcud idi. Həmin dialektlərin bəziləri ümumaltay xüsusiyyətlərini mühafizə etdiyi halda, bəziləri həmin əlamətləri itirərək, artıq modern əlamətləri (yəni gələcək türkcənin əlamətlərini) qazanmışdı. Elə ona görə də eramızın ilk əsrlərindən başlayaraq türkcənin dialektləri müxtəlif inkişaf səviyyələri ilə diqqəti cəlb edir.

Bununla belə e.ə. I minilliyin ortalarından b.e. I minilliyinin ortalarına qədərki dövrdə qədim (ümum-) türk dilindən (bu cür bütöv bir şəkildə!) danışmaq tamamilə mümkündür, ancaq o şərtlə ki, qədim (ümum-) türkcənin daxili dinamikası, diferensiasiya meylləri inkar olunmasın.

Qədim (ümum-) türk dilinin normaları və funksional üslub imkanları barədə təsəvvürü qədim türk eposunu təşkil edən "Yaradılış", "Alp Ər Tonqa", "Oğuz kağan", "Göy türk",

"Ərgənəkon", "Köç" və s. dastanlar, qədim türk (run) yazılı abidələri yaradır. Qədim türk dastanları mətnşünaslıq səciyyəsinə, mühafizə olunma üsuluna görə bir-birlərindən fərqlənir onların çox az bir hissəsi uzun zaman şifahi şəkildə xalq arasında dolaşmış, yalnız son dövrlərdə yazıya alınmışdır, əksər hissəsi isə orta əsrlərdə türk və ya qeyri-türk dilli mənbələrə səpələnmişdir. Həmin mənbələrdə ya bilavasitə əks olunmuş, ya da mətndə "gizlədilmiş" (məsələn, Ə.Firdovsinin "Şahnamə"sində olduğu kimi) türk epos təfəkkürünü (onun mətnlərini) bərpa işi elmi vəzifə kimi bu gün də qarşıda dayanmaqdadır. Qədim türk dastanlarının həcmi, mənzum, yaxud mənsur formada olması, dil-üslub xüsusiyyətləri barədə konkret məlumat azdır mənbələrdə həmin əsərlərin, əsasən, "qısa məzmunu" və ya "süjet"i mühafizə olunmuşdur; bu cür "məzmun" və "süjet"lərin özü də bir sıra hallarda ya tam deyil, ya da "müasirləşdirilmiş", müəyyən məqamları təhrifə məruz qalmışdır. Çin və İran mənbələrində mühafizə olunmuş qədim türk dastanlarında (əslində, dastan süjetlərində) nəinki bir sıra motivlər, hətta adlar belə dəyişikliyə məruz qalmış, türk adları Çin və ya İran adları ilə əvəz edilmişdir... Bütün bunlarla bərabər, qədim türk dastanları qədim (ümum-) türk eposunu (və dilini!) "rekonstruksiya" etmək üçün əsas mənbədir.

I minilliyin ortalarından başlayaraq əvvəl qədim türk (run), sonra uyğur, daha sonra ərəb əlifbası ilə yazılmış ümumtürk abidələri qədim türk epos təfəkkürünün bilavasitə "təzyiq"i altında yaranmışdır. Qədim türkcəni yekunlaşdıraraq orta türkcənin (artıq müxtəlif türk dialektləri – dillərindən ibarət olan türkcənin) perspektivlərini nümayiş etdirən M.Kaşqari "Divan"ı ümumtürkcənin yalnız ifadə imkanlarının genişliyini, yüksək normativlik səviyyəsini deyil, həm də, müsəlman dünyasında get-gedə artan mədəni, siyasi nüfuzunu təsdiq edir, "türk dili ilə ərəb dilinin atbaşı bərabər yürüdüklərini" göstərir. Və "Divani-lüğət-it-türk" müxtəlif türk tayfa dillərinin, dialektlərinin biri digərindən az və ya çox dərəcədə fərqlənməsini göstərməklə kifayətlənmir, həmin dilləri, dialektləri birləşdirən ümumi cəhətləri daha çox təzahür etdirməklə



müəllifin belə bir ideyasını uğurla əks etdirir ki, türklər nə qədər müxtəlif coğrafiyalarda yaşasalar da, nə qədər müxtəlif tayfalardan, boylardan ibarət olsalar da, ruhən (o sıradan da "dil ruhu" baxımından) bütöv hadisədirlər; əgər belə olmasa idi, yüksək dil mədəniyyəti olan M.Kaşqari "türk dili" əvəzinə "türklərin dilləri" deyərdi, tayfa dili xüsusiyyətləri ümumtürk xüsusiyyətləri ilə müqayisədə bu qədər cüzi yer tutmazdı. "Divani-lüğət-it-türk"ü ərəbcə yazmış müəllif yaxşı bilirdi ki, türk dilləri dialektləri arasındakı fərq ərəb dilləri dialektləri arasındakı fərqlə heç müqayisəyə gəlmir.

Bununla belə qədim (ümum-) türk dilinin artıq biri digərindən həm fonetik, həm leksik, həm də müəyyən dərəcədə qrammatik baxımdan fərqlənən dialektlərə – dillərə bölünməsi davam edir, qeyd etmək lazımdır ki, bu proses aşağıdakı amillərin təsiri ilə getmişdir:

1) türkcənin müxtəlif dialektlərə (nəticə etibarilə dillərə) bölünməsi üçün daxili meyli;
2) coğrafi ayrılma, təcrid olunma;
3) ictimai-siyasi ayrılma, təcrid olunma (xüsusilə, müxtəlif türk dövlətlərinin meydana gəlməsi).

Qədim (ümum-) türk dilinini bölünməsi prosesi I minilliyin sonu II minilliyin əvvəllərində əsasən üç türk dilinin (və bir sıra aralıq dialektlərin) formalaşması ilə başa çatmışdır: qıpçaq dili, oğuz dili, karlıq dili. Lakin həmin dillər bir-birinə o qədər yaxın və əlaqələri o qədər sıx, intensiv olmuşdur ki, ümumi bir dilin (ümumtürkcənin) dialektləri təsəvvürünü yaradırlar. Yalnız belə bir faktı xatırlatmaq kifayətdir ki, Azərbaycan dilinin təşəkkül tarixi qədim (ümum-) türkcədə gedən diferensiasiya (bölünmə) prosesinin mürəkkəbliyini əks etdirdiyi kimi, inteqrasiya (əlaqələr) prosesinin çoxcəhətliliyini, çoxtərəfliliyini də göstərir. Və bu cəhət ancaq Azərbaycan dilinə aid olmaqla qalmır, demək olar ki, bütün türk dillərini bu və ya digər dərəcədə əhatə edir. Ümumiyyətlə, qıpçaq, oğuz və karluq xüsusiyyətləri az və ya çox dərəcədə bütün türk dillərində müşahidə edilir. Bu, onunla əlaqədardır

ki, həmin xüsusiyyətlər müxtəlif dövrlərdə ümumtürk miqyasında qabarmış, bütün türk dillərinə öz təsirini, yenə təkrar edirik ki, az və ya çox dərəcədə göstərmişdir. Azərbaycan dilinin tarixində qıpçaq təsiri özünü V-IX, oğuz təsiri IX-XIII, karluq təsiri isə XIII-XVI əsrlərdə daha çox hiss etdirir. Görünür, digər türk dilləri də həmin təsirlərə təxminən eyni dövrlərdə məruz qalmışlar hər şeydən əvvəl ona görə ki, qıpçaqların, oğuzların və karluqların ümumtürk kontekstində baş verən passinarlığı etnosiyasi, etnokulturoloji aktivliyi ümumiyyətlə həmin dövrlərə düşür.

Azərbaycanda türkcənin, yaxud prototürkcənin, yaxud da altaycanın hansı dövrdən yayılıb-yayılmaması mübahisəlidir. Eramızdan əvvəlki minilliklərdə Azərbaycanda Altay, prototürk, türk etnoslarının varlığını təsdiq etmək yoxluğunu sübut etmək qədər çətindir. Ona görə də həmin mübahisəli, daha doğrusu, qeyri-müəyyən dövrü, müəyyənləşmiş metodoloji ənənəyə uyğun olaraq, "tarixə qədərki dövr" adlandırıb diqqəti "tarixi" dövr üzərində cəmləşdirmək lazım gəlir. Zaqafqaziyanın, eləcə də ətraf regionların müxtəlif dilli mənbələri türklərin (bu cür diferensial şəkildə: altayların, yaxud prototürklərin deyil, məhz türklərin) Azərbaycanda eramızın ilk əsrlərindən etibarən mövcudluğunu nümayiş etdirir. Və həmin əsrlərdən I minilliyin sonu II minilliyin əvvəllərinə qədərki dövrdə Azərbaycanın həm Şimalında, həm də Cənubunda türklüyün həcminin genişlənməsi, türkcənin həmin regiondakı İran, İber-Qafqaz dillərini sıxışdırması müşahidə edilir ki, bu mənada eramızın I minilliyi Azərbaycanın türkləşməsi dövrüdür. Bir sıra tədqiqatçılar Azərbaycanın türkləşməsi prosesini daha çox linqvistik bir proses hesab etməyə, həmin hadisənin mürəkkəb etnososial təbiətini nəzərə almamağa meyllidirlər onların fikrincə, Azərbaycanın türkləşməsi artıq müəyyənləşmiş qeyri-türk mənşəli Azərbaycan cəmiyyətinin, yaxud xalqının türkcəni buraya köçən (inkişaf səviyyəsi yerlilərinkindən aşağı olan) türklərdən qəbul etməsi şəklində olmuşdur. Həmin qənaətlə razılaşmaq ona görə çətindir ki,

a) türklər Azərbaycana təxminən min illik bir dövrdə müəyyən fasilələrlə, bununla belə böyük kütlələrlə gəlmiş, V-VII



əsrlərdə (yəni islamın yayıldığı ərəfədə) ölkə əhalisinin həm əksəriyyətini, həm də sosial-siyasi baxımdan fəal hissəsini təşkil etmişlər;

b) türklərin meydana çıxmasına qədər Azərbaycanda mövcud olmuş İber-Qafqaz (Şimalda) və İran (əsasən Cənubda) etnoslarının Azərbaycanın Şimalını, həm də Cənubunu əhatə edəcək Azərbaycan superetnosunu yaratmış olduqlarını güman eləmək nəinki çətindir, hətta demək olar ki, qeyri-mümkündür;

c) Azərbaycana gələn hun türkləri, qıpçaqlar, oğuzlar da həmin regiondakı qeyri-türk mənşəli etnoslarla daha çox "diplomatik əlaqədə" olmuş, xüsusilə oğzular tarixin onlara verdiyi böyük səlahiyyətdən istifadə edərək nəinki qeyri-türk mənşəli etnoslara, özlərinə qədər Azərbaycanda yayılmış türk mənşəli etnoslara da, xüsusi iddia ilə yanaşmışlar.

Azərbaycanda haqqında söhbət gedən türkləşmə prosesi aşağıdakı üç mərhələdən keçmişdir:

1. Eramızın ilk əsrləri (təxminən I-V əsrlər) hun türklərinin (əslində, müxtəlif türk tayfalarının sabir-suvarların, avarların, bulqarların...) Azərbaycanda yayılması mərhələsi.
2. V-IX əsrlər qıpçaqların Azərbaycanda, xüsusilə onun Şimalında yayılması mərhələsi.
3. IX-XI əsrlər oğuzların Azərbaycanda, xüsusilə onun Cənubunda yayılması mərhələsi.

Azərbaycan superetnosunun, eləcə də türk mənşəli Azərbaycan dilinin formalaşdığı VII-XIV əsrlərdə aşağıdakı etnolinqvistik münasibətlərdən bəhs etmək mümkündür: İber-Qafqaz etnosları ilə İran etnoslarının münasibəti, hun türkləri ilə İber-Qafqaz etnoslarının münasibəti, qıpçaqlarla İber-Qafqaz etnoslarının münasibəti, oğuzlarla qıpçaqların münasibəti... Həmin münasibətlər sistemində Azərbaycan dilinin və Azərbaycan xalqının – superetnosunun formalaşmasına təsiri baxımından aparıcı mövqe, heç şübhəsiz, oğuzlarla qıpçaqların münasibətinə məxsusdur.

Hun türklərinin Azərbaycanda yayılması prosesi hunların Şərqdən Qərbə doğru geniş miqyaslı hərəkətinin tərkib hissəsidir Qafqazın Şimalında məskunlaşmış hunlar Azərbayca-

nın həm Şimalına, həm də müəyyən qədər Cənubuna axışır, tədricən ölkənin çöllük zonalarında yayılırdılar. Lakin onların əsas vətəni Qafqazın Şimalı olaraq qalırdı. Və təbii ki, öz əsas vətəni ilə əlaqəsini kəsməyən, özünü möhtəşəm hun birliyinin imperiyasının üzvü tərkib hissəsi sayan, Azərbaycanla kifayətlənməyən hun türklərinin Azərbaycanda və ətraf regionlarda yaşayan müxtəlif mənşəli, müxtəlif dilli etnoslara münasibəti ardıcıl, strateji münasibət deyildi.

Hun türkləri (hun birliyinə daxil olan müxtəlif türk tayfaları) eramızın ilk əsrlərində (I-V əsrlərdə) Azərbaycanda, ölkənin xüsusilə Şimalında türk cəmiyyətinin (və türkcənin) yayılmasının əsasını qoydular, bu, adi başlanğıc deyildi, həm nüfuzlu, həm də perspektivli başlanğıc idi. Həmin dövrdə (I-V əsrlərdə) Albaniya da daxil olmaqla Azərbaycanın Şimalında İber-Qafqaz, İran və türk etnosları məskun idilər.

Azərbaycan EA-nın 1998-ci ildə nəşr etdiyi "Azərbaycan tarixi" (II c.) kitabında göstərilir ki, "Cənubi Azərbaycan (Adurbadaqan) əhalisinin III-VII əsrlərdə etnik tərkibi və dilləri haqqında sinxron ədəbiyyat, demək olar ki, heç bir məlumat vermədiyi üçün bu barədə əsas mənbə əvvəlki və sonrakı dövrlərə aid antik və ərəb müəlliflərinin əsərləridir. Mənbələrin təhlili göstərir ki, Sasanilər dövründə imperiyanın vilayətlərindən biri olan Albaniyadan fərqli olaraq özünün müstəqil inzibati idarə sistemi olmayan Adurbadaqanın ərazisi əsasən irandilli və türkdilli tayfalarla məskun idi".

Hələ II əsrdə Dionimi Periyeqet Xəzərsahili xalqlar haqqındakı məlumatında yazırdı: "Şimal-Qərb tərəfdən başlasaq... Xəzər dənizi sahilində birinci yaşayanlar skiflərdir... sonra unılar (yəni hunlar), onlardan sonra kaspilər, daha sonra dağlıq bölgədə yaşayan albanlar və kadusilər, onlara yaxın mərdlər, girkanlar və taperlərdir..." (Yenə orada).

Lakin hunların II-V əsrlərdəki yürüşləri Azərbaycanda gedən etnik proseslərə əhəmiyyətli təsir göstərir:

Hər şeydən əvvəl, müxtəlif türk tayfalarından olan hunların (oqur//onoqur, sabir//suvar, avar, kəngər, xəzər...) özlərinin Azərbaycanda konsolidasiyası gedir.



İkincisi, Azərbaycan ərazisində yaşayan İber-Qafqaz etnosları daha çox Şimala (Qafqaz dağlarına), İran etnosları isə Cənuba (qismən də Xəzərsahili regionlara) sıxışdırılır;

Üçüncüsü, hun türkləri Azərbaycanda sərbəst hərəkət etdikləri halda (bu, Azərbaycanın toponomiyasından da görünür), İber-Qafqaz və İran etnoslarının çox zaman biri digərindən təcrid edilmiş şəkildə coğrafi lokallaşması prosesi gedir;

Dördüncüsü, Zaqafqaziyanın müəyyən dövlətçilik təcrübəsi olan xalqları (gürcülər, ermənilər) hun türklərinin regiondakı nüfuzu ilə hesablaşmalı olurdular.

Müxtəlif xarakterli – bu və ya digər dərəcədə tendensiyalı, yaxud obyektiv mənbələrin verdiyi məlumatlar belə bir qənaəti təsdiq edir ki, I minilliyin ortalarında Azərbaycanda türk, İran və İber-Qafqaz etnosları yaşasalar da, "VI yüzilliyin sonlarından başlayaraq bu tərkibdəki türk komponenti bir qədər də üstünləşir, türkdilli əhalinin yayılma arealı daha da genişlənir. Tədricən bu dil bütün azərbaycanlıların daxili ünsiyyət dilinə çevrilir... Məhz bu dövrdən mövcud tayfa, eləcə də dialekt və ləhcə fərqləri zəminində ümumxalq Azərbaycan-türk dili formalaşmağa başladı..." (Yenə orada).

Hunları təşkil edən türk tayfalarını qeyri-türk mənbələri etnik baxımdan əsasən vahid bütöv hadisə hesab edir. Məsələn, Favstos Buzand IV əsrin 30-cu illərində maskut hökmdarı Sanesanın (Movses Xorenatsi onu Sanatruk adlandırır) öz başçılığı altında hunlardan, paxlardan, tavaskarlardan, ququrlardan, şibçlər və çilblərdən, balasiçlər və yeqersvanlardan ibarət böyük ordu toplayaraq Ermənistana yürüş etməsindən danışır (Yenə orada).

Azərbaycanın eramızın I minilliyindəki etnik mənzərəsindən, xüsusilə türk tayfalarının burada məskunlaşması prosesindən bəhs edən tədqiqatçılar, bilavasitə mənbə məlumatlarının azlığından sadəcə həmin tayfaların adlarını çəkməklə kifayətlənir, onları daha çox müstəqil etnik hadisə olaraq qəbul edir, müxtəlif dövrlərdə mövcud türk tayfaları saymaqla müəyyən qarışıqlıq, eklektika yaradırlar. Müasir araşdırmaların bir məqsədi də, elə bilirik ki, ümumtürkoloji materialdan

çıxış etməklə həmin eklektikanı aradan qaldırmağa çalışmaqdan, *mənbələrdə adı çəkilən türk tayfalarının nə dərəcədə* eyni, yaxud müxtəlif olduğunu müəyyənləşdirməkdən ibarətdir. N.A.Baskakovun tədqiqatları göstərir ki, tarixən türk dilləri əsasən üç dialekt nümayiş etdirir: oğuz, qıpçaq və karluq "dialektləri" tədqiqatçı buraya o qədər möhkəm tarixi yeri olmayan bulqar "dialekt"ini də əlavə edir. Lakin bulqar "dialekt"i, görünür, türk "dialekt"lərindən çox erkən təcrid olunduğundan I minilliyin sonu II minilliyin əvvəllərində əsasən formalaşmış türk dillərində bulqar qatı axtarmaq özünü doğraltmur. Azərbaycan dilinin təşəkkülündə isə N.A.Baskakovun "türk dillərinin tarixi təsnifatında" xüsusi yer alan oğuz və qıpçaq "dialekt"ləri iştirak etmişlər. Lakin görkəmli türkoloq nədənsə qıpçaq komponentinə fikir vermədən Azərbaycan dilini qeydsiz-şərtsiz oğuz qrupuna aid edərək yazır ki, "Azərbaycan dilinin kökləri bir neçə müasir türk dili üçün əcdad dil" olan VIII-X əsrlər Orta Asiya oğuz tayfalarının dilinə gedib çıxır".

Hun türklərinin ardınca Azərbaycana güclü qıpçaq axınları başlandı ki, həmin axınlar Azərbaycanın, xüsusilə onun Şimalının etnolinqvistik taleyini faktiki olaraq həll etdi. Və görünür, Azərbaycanda yaşayan qeyri-türk mənşəli etnosların yenidən məskunlaşmaları Azərbaycanın, ümumən Zaqafqaziyanın dağlıq ərazilərində sıxışdırılmaları, müəyyən mənada müdafiə məqsədilə "təcrid olunmaları" prosesi də qıpçaq yürüşlərinin intensiv olduğu dövrə I minilliyin ikinci yarısına düşür. Lakin demək olmaz ki, qıpçaqlar özlərini eynilə hun türkləri kimi aparır, yerli əhaliyə etinasız yanaşırdılar, hər şeydən əvvəl ona görə ki, hun türklərindən fərqli olaraq qıpçaqlar Azərbaycanda daha inamla məskunlaşır, Qafqazın şimalı ilə əlaqələrini get-gedə itirirdilər. Beləliklə, Azərbaycanda etnolinqvistik konsentrasiyanın əsasını təşkil edəcək etnik komponent formalaşırdı.

Qıpçaqlar tarixi mənbələrdə daha çox xəzərlər kimi təqdim olunur ki, buna da səbəb qıpçaqların Şimali Qafqazı və ətraf regionları əhatə edən Xəzər siyasi birliyinin, dövlətinin mövcudluğu idi. Ümumiyyətlə, qıpçaqlar I minilliyin ortalarından başlayaraq müxtəlif mənbələrdə müxtəlif adlarla adlanmışlar: beçeneqlər, kumanlar, poloveslər, xəzərlər... Buraya həmin dövrdən (I minilliyin ortalarından) etibarən qıpçaqlaşmış hun tayfalarının (sabir – suvar, avar, bulqar...) mənbələrdə artıq o qədər də tez-tez xatırlanmayan adlarını da əlavə etmək lazım gəlir.

Və prinsip etibarilə, I minilliyin sonu II minilliyin əvvəllərinə qədər müxtəlif dövrlərdə Şimaldan (əsasən, Dərbənd keçidindən) Azərbaycana gələn türk tayfalarının hamısı yazılı mənbələrin yaddaşında nəticə etibarilə qıpçaq türklərinə *məxsus dil xüsusiyyətlərinin daşıyıcısı kimi qalmışlar.* Bunun aşağıdakı səbəbləri vardı:

a) I minilliyin ortalarına qədər Azərbaycana yürüş edən (burada məskunlaşan, yaxud geriyə Şimali Qafqaza qayıdan) türklər hun türkləri qıpçaqların bilavasitə varisi olmuşlar;

b) I minilliyin ikinci yarısında Azərbaycana yürüş edən (əsasən, burada qalıb məskunlaşan) qıpçaqlar o qədər də böyük qüvvə idilər ki, özlərinə qədərki hər hansı qeyri-qıpçaq xüsusiyyətini (əgər var idisə!) unutdurdular.

Qıpçaq-xəzərlərin Azərbaycanı, xüsusilə onun Şimal hissəsini etnosiyasi nəzarət altında saxladıqları dövrdə Azərbaycanda, ümumən Zaqafqaziyada yerli xalqlardan, etnoslardan heç biri ərəblərin qarşısında dayanacaq, onlara qarşı duracaq vəziyyətdə deyildi. Yalnız qıpçaq-xəzərlər Şimali Qafqazdakı, Dəşti – Qıpçaqdakı qüvvələrinə əsaslanaraq ərəblərə qarşı çıxır, bəzən Azərbaycanın cənub ucqarlarına qədər gedib çıxmaqla öz hərbi-siyasi mövqelərini bilavasitə təsdiq edirdilər.

Bir sıra Zaqafqaziya mənbələri xəzərlərin-qıpçaqların səmimi olmadıqlarını, bağladıqları müqavilələrə əməl etmədiklərini göstərirdilər. Halbuki tarix hunlar kimi qıpçaqlara da elə bir səlahiyyət vermişdi ki, onlar kiçik Zaqafqaziya knyazlıqları ilə nəinki bərabərhüquqlu münasibətlərə girə, hər hansı məsələdə kömək etmək barədə onlara "səmimi söz" də verə bilməzdilər. Onların müsəlman ərəblərlə mürəkkəb münasibətləri kontekstində hər hansı lokal münasibət,

heç şübhəsiz, qeyri-ciddi hadisə idi. Bununla belə faktlar təsdiq edir ki, Azərbaycana yürüş edib yenidən Qafqazın Şimalında, Dəşti-Qıpçağa qayıdan qıpçaqlardan fərqli olaraq Azərbaycanın düzəngah regionlarında məskunlaşmış qıpçaqlar qeyri-türk mənşəli etnoslarla kifayət qədər səmimi münasibət qurmuşdular. Ümumiyyətlə, prototürklərin, türklərin "axın təcrübəsi"ni, yeni ərazilərdə məskunlaşmaq "diplomatiya"sını çoxdan mənimsəmiş, müxtəlif xarakterli, müxtəlif mədəni inkişaf səviyyəsində olan etnoslarla ünsiyyət yaratmağa qabil qıpçaq türkləri üçün Azərbaycanda yerli əhali ilə təmasa girmək o qədər də çətin deyildi. Çünki onlar

a) kifayət qədər döyüşkən olduqlarına, "çöl həyatı"nın bütün problemlərinə vərdiş etdiklərinə görə, yerli əhalidə məğlubedilməzlikləri barədə mif yaradır, həmin mifi öz hərəkətləri ilə inkişaf etdirirdilər;

b) kəskin iqtisadi, inzibati tələblər, qayda-qanunlar qoyaraq həmin əhalini o qədər də narahat etmir, ümumiyyətlə, onların yaşayış tərzinə, sosial ukladına əhəmiyyətli təzyiq göstərmirdilər;

c) yerli şəraitə, adət-ənənələrə, mənəvi mühitə uyğunlaşır, bəzən onu qəbul etməkdən belə çəkinmirdilər; müqayisə üçün deyək ki, Avropanın Şərqində məskunlaşıb bütün orta əsrlər boyu bir neçə möhtəşəm dövlət yaradan qıpçaq türkləri, yaxud poloveslər yeni dövrdə sürətlə slavyanlaşaraq etnik simalarını, demək olar ki, tamamilə itirdilər.

Araşdırmalar göstərir ki, ilk orta əsrlərin Bizans, erməni və gürcü mənbələrində bu və ya digər münasibətlə işlənmiş türk sözləri onların dilinə məhz qıpçaq türkcəsindən keçmişdir həmin sözlər nə qədər dəyişikliyə məruz qalsa da, yenə qıpçaq türkcəsinin fonetik xüsusiyyətlərini əks etdirir: ***// xot, voçxor//koçxor, alp, xaqan, xatun, tenq, çiçək, arık, tarxan, ayıt*** və s. Qıpçaq türkləri Qafqazın nə Şimalında, nə də Cənubunda (Şimali Azərbaycanda) heç bir yazılı abidə qoymamışlar, Türküstanda yaşayan oğuzlardan, karluqlardan fərqli olaraq, görünür, hunların və onların bilavasitə etnokulturoloji varisi-davamı ola qıpçaqların yazısı, əlifbası olmamışdır. Əslində, islamın qəbulu ilə əlaqədar ərəb əlifbası türk



dünyasında geniş yayıldığı dövrdə də qıpçaqlar (xüsusi şəraitə düşmüş Məmlükləri çıxmaq şərti ilə) yazı-pozuya o qədər fikir verməmiş, bir sıra praktik xarakterli yazılı abidələr (əsasən, lüğətlər) yaratmaqla kifayətlənmişlər. Bununla belə onların zəngin şifahi ədəbiyyatları (və mükəmməl şifahi ədəbi dilləri!) olmuşdur.

I minilliyin sonlarına doğru qıpçaqlar Azərbaycandakı etnosiyasi mövqelərini artıq yavaş-yavaş itirir, oğuz fütuhatı öz gücünü bütün aydınlığı ilə hiss etdirirdi.

M.Kaşqari "Divani-lüğət-it-türk"də türk tayfalarının, xalqlarının Qərbdən Şərqə doğru aşağıdakı şəkildə yerləşdiklərini qeyd edir: "Bizans-Run ölkəsinə ən yaxın olan boy becənəkdir, sonra qıpçaq, oğuz, yemək, başqırt, basmıl, qay, yabaqu, tatar, qırğız gəlir. Qırğızlar Çin ölkəsinə yaxındırlar". VII-VIII əsrlərdə öz passionarlıq dövrünə qədəm qoyan karluq türkləri Türküstandan qıpçaq türklərini Şimal-Qərb, oğuz türklərini isə Cənub-Qərb istiqamətində sıxışdırmağa başladılar. Və beləliklə, oğuzların Azərbaycana VII-XI əsrləri əhatə edən kütləvi axınları başlandı. Həmin axınlar IX-XI əsrlərdə o qədər güclü oldu ki, onlara Azərbaycandakı qıpçaq türkləri (ümumən, Azərbaycan əhalisi) nə hərbi-siyasi, nə də mənəvi müqavimət göstərə bildi. İslamı qəbul etmiş, onun bayrağı altında sıx birləşmiş oğuz türklərinin Azərbaycana, buradan da Kiçik Asiyaya yürüşləri, xüsusilə Azərbaycanda, demək olar ki, maneəsiz keçdi. Lakin müəyyən ictimai-siyasi stabillik yarandıqdan sonra qıpçaq xanları, məlikləri bir neçə əsr ərzində Azərbaycanın Şimalında məskunlaşmağa çalışan oğuz əslzadələrinə qarşı, uğursuz da olsa, mübarizə aparmış, hətta yeri gəldikcə, qeyri-türk mənşəli xalqlar, tayfalar ilə müəyyən dostluq əlaqələrinə, mənəvi-siyasi ittifaqa belə girməkdən çəkinməmişlər.

XI-XII əsrlərdə oğuzlar ümumiyyətlə böyük hərbi-siyasi, mənəvi-ideoloji gücə malik idilər. Cənub-Şərq, Cənub və Cənub-Qərb cinahları möhkəm olduğuna görə özlərini Azərbaycanın hər yerində olduğu kimi, Şimalında da strateji baxımdan çox rahat hiss edirdilər, bir neçə əsrlik mükəmməl yazı mədəniyyətləri var idi, "İslamın qılıncı" kimi qeyri-məhdud beynəlxalq missiya daşıyırdılar. Qıpçaqlar isə Azərbay-

canda özlərini yerli əhali saydıqlarına görə güclü müdafiə instinktinə malik idilər, Şimaldakı müxtəlif mənşəli etnoslarla əlaqələri möhkəm idi... Həmin müqayisədən aydın olur ki, "Divani-lüğət-it-türk" müəllifi M.Kaşqarinin göstərdiyi kimi, tarix, ayaqları dəyən hər yerdə, o cümlədən Azərbaycanda da oğuz türklərinin xeyrinə işləyirdi. Onların gəlmə olduqları halda hakimiyyəti təmsil etmələri "yerli" qıpçaqlarda müəyyən "anlaşılmazlıq" hərbi-siyasi, ideoloji sahədə oğuzların xeyrinə çox asanlıqla aradan qalxırdı, lakin etnik-mədəni sistemin müəyyənləşməsi baxımından "münaqişə" bir neçə əsr davam etməli oldu. Yalnız onu demək kifayətdir ki, Azərbaycan dili milli əsaslar üzərində yenidən formalaşdığı XVII-XVIII əsrlərə qədər onun lüğət tərkibində qıpçaq sözləri oğuz sözlərinin paralelliyi (sinonimliyi) mövcud olmuşdur: ***ata-baba, çöl-yazı, çağırmaq-oxumaq, aytmaq-demək, payız-güz, yaxşı-iyi//yey, getmək-varmaq, etmək-qılmaq, vermək-sunmaq, doymaq-qanmaq, bayır-dışarı, çatdırmaq-ilətmək, isti-sıcaq, qabaq-qarşı, mən-bən*** və s. XVII-XVIII əsrlərdə həmin paralellik Türkiyə türkcəsində yalnız oğuz komponentinin, Azərbaycan türkcəsində isə bir halda oğuz, digər halda qıpçaq komponentinin xeyrinə aradan qalxır – bu isə o deməkdir ki, Azərbaycan etnolinqvistik təfəkküründə hər iki türk etnosunun mənəvi-mədəni marağı bu və ya digər həcmdə, keyfiyyətdə ehtiva olunmuşdur.

Azərbaycan xalqının (və ümumxalq Azərbaycan dilinin) formalaşmasında aparıcı rol oynamış "yerli" qıpçaq türkləri ilə "gəlmə" oğuz türklərinin "münaqişə"si orta əsrlərdə aşağıdakı şəkildə gedir:

1. Ölkədə həm say üstünlüyünə, həm də siyasi üstünlüyə malik olan oğuz türkləri Azərbaycan millətinin formalaşmasında həlledici rol oynayırdılar;

2. Dövlətçiliyin mərkəzi (söhbət bütün Azərbaycanı əhatə edən dövlətçilikdən gedir) əsrlər boyu Azərbaycanın Cənubunda (əsasən Təbrizdə) olduğuna görə, rəsmi mədəniyyət, ideologiya burada mütləq əksəriyyət təşkil edən oğuz türkləri tərəfindən inkişaf etdirilir;



3. XVI əsrin əvvəllərində birləşmiş həm Şimalı, həm də Cənubu əhatə edən Azərbaycan səfəvilər dövlətini oğuz türkləri yaratdılar;

4. XVII-XVIII əsrlərdə Azərbaycan mədəniyyətinin intibahı, Azərbaycan ədəbi dilininin demokratikləşməsi dövründə xalqın yaddaşında yaşayan qıpçaq düşüncə mədəniyyəti (və qıpçaq türkcəsi xüsusiyyətləri) normativ mədəniyyət səviyyəsinə daha güclü olan oğuz kontekstində yüksəlir;

5. Ümummilli etnokulturoloji sistemin formalaşması ilə qıpçaq-oğuz "qarşıdurma"sı tədricən aradan qalxır.

XI-XII əsrlərdə (və əslində sonrakı əsrlərdə də) Azərbaycanda "gəlmə" oğuzların "yerli" qıpçaqlardan üstünlüyü yalnız Azərbaycan miqyaslı bir hadisə deyildi. Və ümumiyyətlə Azərbaycanda gedən etnosiyasi proseslər (həmin proseslərin ən mühüm nəticəsi olan Azərbaycan xalqının təşəkkülü hadisəsi!) ümumən türk dünyasında özünü göstərən daha möhtəşəm proseslərin tərkib hissəsi idi. Lakin çox təəssüf ki, uzun zaman Azərbaycan dili tarixinin əksər araşdırıcıları məsələnin bu cəhətinə fikir verməmiş, geniş miqyaslı etnosiyasi proseslərin Azərbaycan miqyasındakı əks-sədasını öyrənməklə öz işlərini bitmiş hesab etmişlər ki, bu da Azərbaycan xalqının (və dilinin) təşəkkülü kimi əhəmiyyətli bir məsələnin lazımi səviyyədə araşdırılmasına imkan verməmiş, tədqiqatlar olduqca dar coğrafi miqyasda aparılmışdır. Ona görə də Zaqafqaziyada mövcud olan müasir superetnosların azərbaycanlıların, gürcülərin və ermənilərin etnik tarixinin eyni bir metodologiya ilə tədqiqinə çalışılmışdır.

Bizim fikrimizcə, orta əsrlərdə Azərbaycanda baş verən mürəkkəb etnolinqvistik proseslər aşağıdakı geniş (dünya!) miqyaslı hadisələrin bilavasitə təsiri ilə getmişdir:

1) eramızın ilk əsrlərindən etibarən hun türklərinin Şərqdən Qərbə yürüşləri, Şimali Qafqazın, ümumən Dəşti-Qıpçağın "türkləşməsi", Azərbaycanda əvvəl hun türklərinin, sonra isə qıpçaqların məskunlaşması.

2) I minilliyin sonu II minilliyin əvvəllərində qıpçaq erasının bitib oğuz erasının başlanması-islamı qəbul etmiş oğuz türklərinin bütün Türküstana, Azərbaycana, Kiçik Asiyaya yayılması, qıpçaqların Şimali Qafqazdan Azərbaycana müdaxilələrinin dayanması, oğuzların beynəlxalq miqyasda nüfuzunun güclənməsi, qıpçaqların dünyadan təcrid olunması.

3) Orta əsrlərin sonlarında oğuz türklərinin tarixi bütövlüyünün təbii olaraq dağılması, Azərbaycanın əsasən oğuzlardan ibarət cəmiyyətinin etnolinqvistik hüdudlarının müəyyənləşməsi.

Və beləliklə, *Azərbaycan etnokulturoloji sisteminin formalaşması ilə həmin sistemin coğrafiyası da müəyyənləşir – əsasən oğuz türklərinin məskunlaşdığı Türkmənistan-Azərbaycan-Türkiyə arsında mədəni-mənəvi sərhədlər qərarlaşır, bunun nəticəsi olaraq Azərbaycandakı oğuz türklüyü daxili (Azərbaycandaxili) həyat yaşamağa tədricən daha çox şərait əldə edir, Azərbaycan xalqının (və etnokulturoloji sisteminin) formalaşması prosesində qıpçaq türklüyü ilə oğuz türklüyü arasında çoxtərəfli ünsiyyət miqyası müəyyənləşir, yəni həmin ünsiyyət artıq müəyyənləşmiş coğrafiyada gedir.*

Azərbaycanda qıpçaq-oğuz münasibətlərinin ən gərgin dövrü IX-XI əsrləri əhatə edir həmin dövrün etnosiyasi, linqvokulturoloji proseslərini əks etdirən "Kitabi-Dədə Qorqud"da qıpçaq-oğuz münasibətləri ümumi şəkildə qeyri-müəyyən coğrafiyada deyil, Azərbaycan (əsasən onun Şimalındakı hadisələrdən bəhs etməklə) miqyasında təqdim olunur. Bu isə o deməkdir ki, "Kitab"da (ümumiyyətlə "Kitabi-Dədə Qorqud" dastanında) ümumtürk epos təfəkkürü, əgər belə demək mümkünsə, hüdudlanır həmin "hüdudlanma" özünü aşağıdakı sahələrdə xüsusilə göstərir:

1) *regionun ictimai-siyasi* mənzərəsinə, problemlərinə uyğunlaşma;

2) regionun coğrafiyasına, landşaftına, toponimiyasına uyğunlaşma;



3) regionun dil-dialekt normalarına, yaxud xüsusiyyətlərinə uyğunlaşma.

Göründüyü kimi, I minilliyin sonu II minilliyin əvvəllərində diferensiasiya-regionallaşma prosesi keçirən, yalnız qədim (ümum-) türk dili deyil, bütövlükdə qədim (ümum-) türk kulturoloji sistemi, epos təfəkkürüdür. Müşahidələr göstərir ki, orta əsrlərdə türk eposu aşağıdakı formalarda təzahür edir:

1. Mərkəzi Asiya, yaxud Türküstan eposu.
2. Şimal-Qərb, yaxud qıpçaq eposu.
3. Cənub-Qərb, yaxud oğuz eposu.

Oğuz eposu aşağıdakı səbəblərə görə ilk orta əsrlər türk epos tiplərindən öz müasirliyi, modernliyi ilə seçilir (buraya həm məzmun, həm də ifadə-üslub modernliyi aiddir):

a) oğuz türklərinin get-gedə daha çox sayda Qərbi Türküstan-Azərbaycan-Kiçik Asiya istiqamətində yayılmaları nəticəsində yeni coğrafiyalara yiyələnmələri, yeni etnik-mədəni əlaqələrə, yeni beynəlxalq münasibətlərə girmələri;

b) türk tanrıçılığı əsasında qəbul edilmiş islam dininin yayılması;

c) oğuz türklərinin islam Şərqində aparıcı ictimai-siyasi qüvvəyə çevrilmələri.

Qıpçaq-oğuz münasibətinin bu və ya digər şəkildə məhz Azərbaycan miqyasında həll edilməsi formalaşmaqda olan Azərbaycan superetnosunun, eyni mənşəli olmalarına baxmayaraq, *biri digərindən artıq* ayrılmış çoxsaylı qeyri-türk komponentlərini də hərəkətə gətirirdi. Onlar həmin superetnosun üzvi tərkib hissəsi, ölkənin tam hüquqlu sahibi kimi öz məhdud fəaliyyət coğrafiyası olan dillərini saxlamaqla yanaşı ümumünsiyyət dilindən Azərbaycan türkcəsindən istifadə edirdilər...

Və nə qədər paradoksal olsa da, xüsusilə XI-XII əsrlərdə Azərbaycanda ədəbi dil olaraq fars dilinin geniş işlənməsi, bir sıra tədqiqatçıların güman etdiyi kimi, heç də ölkə əhali-

sinin əksəriyyətinin İran mənşəli etnoslardan ibarət olmasının, yaxud Atropatena və ya sasanilər dövrü dil-ünsiyyət ənənələrinin hələ (XI-XII əsrlərə qədər!) davam etməsinin nəticəsi deyildi. Saraylarda, mədəniyyət mərkəzlərində farsdilli mühiti yaradan farslar deyil, oğuz türkləri idilər ki, türk dili tarixinin görkəmli tədqiqatçısı Əhməd Cəfəroğlu məhz bu işlərinə türk dilini fars, ərəb dilləri qarşısında müdafiəsiz qoyduqlarına görə onları qınayır (bax: Ə.Cəfəroğlu. Türk dili tarixi, İstanbul, 1984), lakin böyük türkoloq nəzərdən qaçırır ki, bu, türklərin (oğuz-səlcuqların) ana dilinə laqeydlikləri, yaxud böyük mədəniyyət qarşısında heyranlıqları, həmin mədəniyyətləri təqlid etmələri deyildi, onlar həm bir türk, həm bir fars, həm də bir ərəb kimi düşünmək, özlərini ümumən müsəlman mədəniyyətinin daşıyıcısı kimi aparmaq, bütövlükdə müsəlman dünyasına hökm vermək istəyirdilər. Halbuki XI-XII əsrlərdə Azərbaycanda "yerli" qıpçaq türklərinin elitası "gəlmə" oğuz türklərindən fərqli olaraq türk dilindən başqa hər hansı bir dilə üstünlük vermirdilər.

Azərbaycanda, xüsusilə onun Şimal dağlıq regionlarında təcrid olunmuş şəkildə yaşayan qeyri-türk mənşəli etnoslar (qeyd edək ki, onların əksəriyyəti İber-Qafqaz mənşəlidir) kifayət qədər qədim hadisədir. Və tarixən "bir sıra sıxışdırılmış xalqlar çölləri, düzləri qaliblərə tərk edərək dağlara çəkilməli olmuşlar; ona görədir ki, qədim xalqların, dillərin qalıqlarına yer kürəsinin hər yerində məhz dağlarda, yaxud qurunun təcrid olunmuş guşələrində təsadüf edilir" (İ.Q.Herder). Bununla belə həmin qədim etnoslar Azərbaycan xalqının (və dilinin) təşəkkülü prosesində o qədər də fəal iştirak etməmişlər, onları təcrid olunmuş həyat tərzindən, çox sonrakı dövrlərin sosial intensivliyi çıxarmış, ümummilli hərəkata qoşmuşdur.

*Azərbaycan xalqının təşəkkülü prosesində qeyri-fəal iştirak etmiş bir sıra türk (oğuz) tayfaları da mövcuddur – buraya xüsusilə Azərbaycanın Cənubunda yaşayan, bu günə qədər müxtəlif siyahıyaalınmalara öz tayfa adları ilə düşən şahsevənlər, qacarlar, Xorasan türkləri, Kərkük türkləri... daxildir ki, onların bütöv Azərbaycan xalqı tərkibindəki etnokulturoloji*



*"muxtariyyat"ı müxtəlif ictimai-siyasi səbəblər ucbatından hələ də davam etməkdədir.*

Beləliklə, türk mənşəli Azərbaycan dili eramızın ilk əsrlərindən etibarən Azərbaycanda məskunlaşan hun türklərinin, sonra buraya Şimaldan gələn qıpçaqların (əsasən VII-IX əsrlər), Cənubdan gələn oğuzların (əsasən IX-XI əsrlər) etnolinqvistik konsentrasiyası nəticəsində formalaşan, qədim dövrlərdən Azərbaycanda yaşyan müxtəlif mənşəli (İber-Qafqaz, İran, türk) etnosların ümumi ünsiyyət vasitəsi olaraq geniş yayılıb inkişaf etmişdir.

Azərbaycan dilinin istər təşəkkül, istərsə də təkamül tarixindən danışarkən Azərbaycan dili tarixşünaslığının metodoloji problemləri üzərində dayanmağa heç şübhəsiz, ehtiyac duyulur...

Azərbaycan dili tarixi barədə XIX əsrin əvvəllərindən başlayaraq müxtəlif mülahizələr irəli sürülsə də, o, müstəqil bir elm sahəsi kimi əsrimizin 30-cu illərində təşəkkül tapıb formalaşmışdır həmin illərdə xüsusilə professor Ə.Dəmirçizadənin böyük zəhməti nəticəsində ilk "Azərbaycan dili tarixi" yaradıldı. Azərbaycan dili tarixi elminin banisinin 30-cu illərdən etibarən çap etdirdiyi kitablar "Azərbaycan dili tarixi"nin əsaslarını müəyyən etməklə yanaşı, bu sahədə mövcud olan problemləri də bütün mürəkkəbliyi ilə qarşıya qoydu.

60-cı illərin sonu 70-ci illərin əvvəllərindən başlayaraq "Azərbaycan dili tarixi" sahəsində çalışan mütəxəssislərin sayının artması ilə həmin sahədə diferensiasiya ixtisaslaşma gedir bu cür diferensiasiya ixtisaslaşmanın əhəmiyyəti onda oldu ki, dil tarixinin müxtəlif məsələləri, aspektləri, tendensiyaları və s. ayrıca olaraq araşdırılmağa başladı, lakin Azərbaycan dili tarixinin bütövlükdə təsəvvür edilməsi çətinləşdi. Və beləliklə, ümumi (üzvü) bir "Tarix" yaratmaq əvəzinə ayrı-ayrı dövrlərin müxtəlif metodlarla işlənmiş "Tarix"lərini mexaniki olaraq birləşdirmək meyli meydana çıxdı.

30-50-ci illərdən fərqli olaraq 60-90-cı illərdə "Azərbaycan dili tarixi" sahəsində hər hansı əsaslı metodoloji dəyişikliyin olduğunu demək çətindir. Müşahidə olunan bir neçə dəyişikliyi nəzərdən keçirək...

I mərhələdə (30-50-ci illərdə, yaxud Ə.Dəmirçizadə mərhələsində) Azərbaycan dili tarixi ümumtürkoloji kontekstdən türk dilləri tarixindən təcrid olunmuş bir şəkildə araşdırıldı. II mərhələdə (60-90-cı illərdə) həmin sahəyə özünəməxsus bir türkçülük emosiyası gəldi... Bu emosiya özünü xüsusilə aşağıdakı formada göstərdi:

a) Azərbaycan dili tarixini "qədimləşdirmək", eramızdan əvvəlki əsrlərdə, hətta minilliklərdə Azərbaycanda türk etnosunun mövcud olması üzərində israr etmək;

b) Azərbaycan ərazisində mövcud olmuş qədim etnosların (lullubəylər, qutilər, mannalılar, midiyalılar, atropatenalılar, albanlar və s.) türk mənşəli olduqlarını "sübut etmək";

c) "türk" etnonimini yeri gəldi-gəlmədi işlətmək və s.

Lakin həmin "türkçülük emosiyası" ilə yazılmış Azərbaycan dili tarixlərində müəlliflər Azərbaycanın hüdudlarından kənara çıxmır, "türkçülüy"ü ancaq Azərbaycan hüdudunda edirlər ki, bu, nəticə etibarilə, gəlişi gözəl mülahizələrin meydana çıxmasına səbəb olur. Eyni zamanda "Ədəbi dil tarixi" kitablarında əks olunmuş türkçülük emosiyası Azərbaycan dili tarixinin materialından, həmin materialın tədqiqi metodologiyasından irəli gəlmir, 60-cı illərin sonu 70-ci illərdən etibarən ümumən Azərbaycan ictimai-mədəni təfəkküründə getdikcə daha geniş yayılan "özünə qayıdış" düşüncələrinin nəticəsidir.

Beləliklə, həm "ədəbi dil tarixi", həm də "tarixi qrammatika" (ümumən "Azərbaycan dili tarixi") sahəsində görülmüş işlərin hansının uğurlu, hansının qüsurlu olduğu barədə düşünməyə ehtiyac duyulur.

Uğurlu işlərin birincisi, heç şübhəsiz, ondan ibarətdir ki, indiyə qədərki "Tarix"lər türk mənşəli Azərbaycan dilinin (Azərbaycan türkcəsinin) müstəqilliyini zəngin dil faktları ilə elmi şəkildə təsdiq etdi. İkincisi, Azərbaycan dilinin müxtəlif tarixi təzahür formaları (ədəbi dil, yaxud yazı dili, ümumxalq, yaxud xalq danışıq folklor dili, dialekt, yaxud tayfa dili və s.) barədə sistemli olmasa da, müəyyən təsəvvür yaratdı. Üçüncüsü, ayrı-ayrı böyük söz ustalarının, yazılı mənbələrin dil-üslub xüsusiyyətləri tədqiq edildi, ayrı-ayrı qrammatik kateqoriyaların tarixi müxtəlif türk dilləri ilə müqayisədə araşdırıldı və s.



Lakin 30-cu illərdən etibarən "Azərbaycan dili tarixi" sahəsində aparılmış tədqiqatların çox mühüm elmi-metodoloji qüsurları da mövcuddur həmin qüsurlar aşağıdakılardan ibarətdir:

I. Azərbaycan dilinin türk dillərindən biri olmasının prinsip etibarilə etirafı, lakin faktiki olaraq, türk dillərinin müştərək dövrlərindən, xüsusiyyətlərindən imtina edilməsi nəticəsində meydana çıxan qüsurlar:

1. Azərbaycan dilinin (Azərbaycan türkcəsinin) mənşəyindən bəhs olunarkən yalnız Azərbaycan ərazisindəki tarixi türklük potensiyasından çıxış edilməsi və Azərbaycanın türk dünyasından ayrılması;

2. Qədim (ümum) türk dövrünün müştərək tarixindən ümumiyyətlə qaçılması, orta əsrlərin (xüsusilə XV-XVI əsrlər) müştərək dil mənbələrinə, hadisələrinə isə birtərəfli şəkildə yiyə durulması (yəni onların müştərəkliyinin qəbul edilməməsi);

3. XVI-XVII əsrlərdən sonra Azərbaycanda gedən dil proseslərinin yalnız Azərbaycandaxili proseslər kimi şərh olunması və s.

II. Azərbaycan dili tarixi dövrləşdirilərkən etnodil proseslərindən daha çox ictimai-siyasi, mədəni-ədəbi hadisələrin gedişindən çıxış edilmiş, Azərbaycanda qədim dövrlərdən etibarən özünü göstərən (və dil proseslərini yaradıb istiqamətləndirən) etnik proseslər diqqətdən kənarda qalmışdır... Halbuki eramızın I minilliyinin ortalarına qədər hun-qıpçaq türkləri, II minilliyin əvvəllərinə qədər oğuz türkləri (bu cür ümumi şəkildə), ondan sonra isə müxtəlif türk (əsasən, oğuz) tayfaları Azərbaycandakı fəaliyyətləri ilə (Azərbaycan milləti təşəkkül tapana qədər) mürəkkəb etnodil mənzərəsi yaratmışlar. Eyni zamanda həmin proseslərdə qeyri-türk etnosları da iştirak etmişlər ki, mövcud "Tarix"lər bu barədə də susur... Nəticə etibarilə, belə bir yanlış təsəvvür yaradılır

ki, Azərbaycan xalqı (və Azərbaycan türkcəsi) müstəqil bir xalq (və dil) olaraq VII-IX, yaxud IX-XI, yaxud da XI-XII əsrlərdə formalaşdığından bundan sonrakı etnik proseslər (türk etnoslarının axını, məsələn, XIII-XIV əsrlərdə) müxtəlif səbəblər üzündən Türküstandan Azərbaycana xarici müdaxilədən başqa bir şey deyildir. Araşdırmalar isə israrla sübut edir ki, etnodil prosesləri Azərbaycanda (ümumən türk dünyasında) XVII-XVIII əsrlərə qədər intensiv olmuşdur.

III. Dil proseslərinin (ümumtürkoloji proseslər; Azərbaycandaxili ədəbi dil, yaxud yazı dili prosesləri; ümumxalq dili, yaxud xalq danışıq dili-folklor dili prosesləri; dialekt, yaxud tayfa dili prosesləri və s.) müxtəlif inkişaf dövrlərində, mərhələlərində üzvü vəhdətdə götürülməsi əvəzinə "sərbəst" hərəkət edilməsi... Və dil tarixini ədəbi dil, yaxud yazı dili tarixi, funksional-üslublar tarixi, hətta, demək olar ki, bədii üslubun tarixi səviyyəsinə endirməklə onun bəsitləşdirilməsi, mürəkkəb dil, nitq, üslub prinsiplərinin qarşılıqlı-əlaqəli şərhindən bu və ya digər şəkildə qaçılması...

Həmin qüsurlar aradan qaldırılmayınca mükəmməl, elmi-metodoloji baxımdan əsaslandırılmış bir "Azərbaycan dili tarixi" yaratmaq mümkün deyil. Bunun üçünsə Azərbaycan dilinin tarixi ümumtürkoloji kontekstdə, etnodil proseslərinin gedişi diqqət mərkəzində dayanmaqla və müxtəlif dil, nitq, üslub təzahürləri üzvü vəhdət halında araşdırılmalıdır. Belə bir geniş miqyaslı, kompleks araşdırmanın meydana çıxması ilə "Azərbaycan dili tarixi"nin tədqiqi sahəsində, fikrimizcə, yeni III mərhələ başlanır. Həmin mərhələnin ümumi metodoloji prinsipi araşdırmalarda diferensiasiyanı dərinləşdirməklə ("dil tarixi"inin müxtəlif sahələrini ayrılıqda tədqiq edib öyrənməklə) yanaşı inteqrasiyanı gücləndirməkdən (ümumən Azərbaycan dilinin tarixi barədə bütöv təsəvvür yaratmağa çalışmaqdan) ibarətdir.

Məlumdur ki, "Azərbaycan dili tarixi" (birinci növbədə "Azərbaycan ədəbi dili tarixi") sovet ideologiyasının inkişafda olduğu illərdə formalaşmışdır. Türk dillərini (və xalqlarını) bir-birindən təcrid etmək, hər bir türk dili ( və xalqı) üçün "özünəməxsus" genezis axtarıb "tapmaq", yaxud uydurmaq fəlsəfəsi



burada da öz həlledici metodoloji təsirini göstərmişdir. Ona görə də, yuxarıda qeyd edildiyi kimi, heç bir "tarix"də Azərbaycan dilinin etnik mənşəyi Azərbaycandan kənarda axtarılmamış, ümumtürk (müştərək) dövrlər, mərhələlər bütünlüklə inkar edilmişdir. Sovet "təcridetmə" ideologiyasının həmin qeyri-elmi mövqeyini "yerli mütəxəssislər" yerli mühitdə məhz milli müstəqillik metodologiyası kimi təbliğ etmişlər. Və beləliklə, paradoksal bir vəziyyət əmələ gəlmişdir Azərbaycan dili "Tarix"lərində "yerli" türkçülük ümumi (həqiqi!) türkçülüyə qarşı qoyulmuşdur. Məsələnin başqa bir mürəkkəbliyi isə ondan ibarətdir ki, sovet xüsusi türkologiyası (yəni bu və ya digər türk dili, yaxud ədəbiyyatı ilə məşğul olan türkologiya (bu və ya digər türk dilinin, yaxud ədəbiyyatının I minilliyin sonu II minilliyin əvvəllərində təşəkkül tapdığını "sübut" etmək olduğu halda, sovet ümumi türkologiyası (görünür, birinci növbədə həmin sahə ilə məşğul olan tədqiqatçıların görüş dairəsinin, ümumtürkoloji məlumatlarının genişliyinə görə) türk dillərinin diferensiasiyasını sonrakı əsrlərə (XV-XVII əsrlərə) aid edirdilər. Sovet ideologiyasının süqutu isə türk dilləri tarixi sahəsindəki həmin metodoloji qüsurların aradan qaldırılması üçün əlverişli şərait yaratmışdır. Lakin, heç şübhəsiz, ideologiya maneəsinin aradan qalxması hələ uğurlu araşdırmaların aparılması, alınmış nəticələrin ümumiləşdirilməsi və nəticə etibarilə mükəmməl bir "Azərbaycan dili tarixi"nin yaradılması üçün həlledici şərt deyil, eyni zamanda haqqında söhbət gedən "müsbət şərait"dən istifadə edərək və milli müstəqillik ideologiyasına əsaslanaraq, heç olmasa mövcud tədqiqat təcrübəsi hüdudunda, düzgün metodoloji prinsiplərə dayanmaq lazım gəlir. Həmin prinsiplər, fikrimizcə, əsasən aşağıdakılardan ibarətdir:

1. Azərbaycan dilinin yalnız təşəkkül tarixini deyil, bütün tarixini ümumtürkoloji kontekstdə araşdırmaq, bu və ya digər dil ilə məhdudlaşmamaq, hər hansı mərhələdə nə həcmdə tələb olunsa, o həcmdə ümumtürk miqyasına çıxmaq;

2. Azərbaycanda gedən etnik proseslərin tarixini təhlil edib, dil hadisələrinin etnik səbəblərini müəyyənləşdirmək

xüsusilə böyük etnosların Azərbaycandakı və həmhüdud regionlardakı hərəkətinin mənzərəsini hər hansı tarixi dövrdə mümkün qədər mükəmməl təsəvvür etmək, türk tayfa dillərinin – dialektlərinin ümumxalq Azərbaycan dilinin formalaşmasına bu və ya digər mərhələdəki "təzyiq"inin miqyasını, keyfiyyətini aydınlaşdırmaq, Azərbaycandan kənarda qalmış Azərbaycan türkcəsinin etnolinqvistik hüdudlarını müəyyən etmək;

3. Dilin müxtəlif təzahür formalarını (tayfa dilləri – dialektlərdən tutmuş ədəbi dilə, yazılı mənbələrin dilinə qədər) tarixi struktur-funksional əlaqə, qarşılıqlı təsir halında araşdırmaq, "Azərbaycan dili" ("Azərbaycan türkcəsi") anlayışının istənilən dövrdəki, yaxud mərhələdəki tarixi məzmununu aydın təsəvvür etmək.

Azərbaycan dilinin tarixi aşağıdakı dövrlərə bölünür:

1. Azərbaycan dilinin təşəkkülü dövrü (I minilliyin ortalarından XVIII əsrə qədər).
2. Azərbaycan dilinin təkamülü dövrü (XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədər).
3. Müasir Azərbaycan dili dövrü (XX əsrin əvvəllərindən sonra).



## 3. AZƏRBAYCAN ETNOKULTUROLOJİ SİSTEMİ: GENEZİSDƏN TİPOLOGİYAYA

Azərbaycanlıların bir xalq kimi mükəmməlliyinin göstəricilərindən biri (bəlkə də birincisi!) onun tarixən formalaşmış özünəməxsus etnokulturoloji sistemə malik olmasıdır ki, bunun da əsas komponenti mədəniyyətdir...

*Azərbaycan mədəniyyəti yalnız mənşəyi etibarilə deyil, eyni zamanda, tipologiyası etibarilə ümumtürk mədəniyyətidir* tədqiqatlar göstərir ki, Azərbaycan türk mədəniyyəti türk etnoslarının Azərbaycanda məskunlaşması prosesində təxminən min illik bir dövrdə (eramızın ilk əsrlərindən I minilliyin sonu II minilliyin əvvəllərinə qədər) formalaşmışdır. Həmin dövrü üç mərhələyə ayırmaq mümkündür:

1. *Hun-türk mədəniyyəti mərhələsi* (eramızın ilk əsrlərindən I minilliyin ortalarına qədər);
2. Türk-qıpçaq mədəniyyəti mərhələsi (I minilliyin ortalarından sonlarına qədər);
3. Azərbaycan türk müsəlman mədəniyyəti mərhələsi (I minilliyin sonu II minilliyin əvvəlləri).

"Azərbaycan mədəniyyətinin formalaşmasında türklərə qədərki Azərbaycan mədəniyyəti nə dərəcədə iştirak etmişdir?" sualına cavab vermək çətindir. Hər şeydən əvvəl ona görə ki, qeyri-türk mənşəli Azərbaycan mədəniyyətinin genotipi, xarakteri barədə biz, demək olar ki, heç nə bilmirik... İkincisi, türklər Azərbaycanda məskunlaşdığı əsrlərdə Azərbaycan mədəniyyəti, görünür, süqut dövrünü yaşadığından ölkənin yeni əhalisinə həmin "qeyri-müəyyən" mədəniyyətin təsiri olmadı... Üçüncüsü, Azərbaycanda məskunlaşan türklər yüksək mədəniyyətə malik olduqlarından onların "yerli" (bəlkə də bir qədər eklektik!) mədəniyyəti mənimsəmələrinə elə bir ehtiyac yox idi... Nəhayət, I minilliyin sonu II minilliyin əvvəllərində Azərbaycan türklüyünün islamı qəbul etməsi ilə eramızdan əvvəlki minilliklərin Azərbaycan mədəniyyətinə müəyyən mənada strateji münasibət ifadə edilmiş oldu.

*Azərbaycan mədəniyyəti məzmunu etibarilə Azərbaycan-türk müsəlman mədəniyyəti olsa da, müxtəlif dövrlərdə dünya mədəniyyətinin təsirlərinə məruz qalmışdır ki, həmin təsirlər Azərbaycan mədəniyyətini cilalamış, onu dünya mədəniyyətinin tərkib hissəsinə çevirmişdir.*

Azərbaycan mədəniyyəti aşağıdakı mərhələlərdən keçmişdir:

1. Azərbaycan mədəniyyətinin türk müsəlman ideologiyası əsasında təkamülü mərhələsi (I minilliyin sonu II minilliyin əvvəllərindən II minilliyin ortalarına qədər).

II. Azərbaycan mədəniyyətinin demokratikləşməsi, milli əsaslar üzərində yenidən formalaşması mərhələsi (II minilliyin ortalarından XIX əsrin sonu – XX əsrin əvvəllərinə qədər).

III. Müasir Azərbaycan mədəniyyəti mərhələsi (XIX əsrin sonu XX əsrin əvvəllərindən sonra).

..."Dədə Qorqud" eposunun tarixi Azərbaycan etnik-mədəni sisteminin ümumtürk etnik-mədəni sistemindən fərqlənərək ayrılması (diferensiasiyası) tarixidir. Ona görə də "Dədə Qorqud"un yaşı bu və ya digər şəkildə Azərbaycan xalqının yaşıdır... Və Azərbaycan prezidentinin təklifi ilə eposun yubileyinin Ümumdünya (xüsusilə türk dünyası) miqyasında qeyd olunması ən azı aşağıdakı baxımlardan böyük siyasi-ideoloji əhəmiyyətə malikdir:

a) Azərbaycan xalqının qədim tarixə malik türk xalqlarından biri, ümumtürk mədəniyyətinin bilavasitə varisi olduğunun beynəlxalq səviyyədə bir daha etirafı;

b) Azərbaycan xalqının ilk orta əsrlərdən başlayaraq formalaşmış, müstəqil, özünəməxsus zəngin mədəniyyətə malik bir xalq olduğunun bir daha etirafı;

c) Müasir Azərbaycan xalqının türk dünyasında, ümumən dünyada özünəməxsus tarixi, ictimai-siyasi, mədəni mövqeyi olduğunun və həmin mövqeyi bu gün dünənkindən daha uğurla müdafiə etmək gücünün bir daha etirafı.

"Dədə Qorqud" eposu qədim (ümumtürk) eposu (I minilliyin ortalarından b.e. I minilliyinin ortalarına qədər) ilə Azərbaycan eposu (II minilliyin ortalarından sonra) arasında keçid



təşkil edir. Və bu mənada onu ümumən oğuz xalqlarının (türkmənlərin, Azərbaycan türklərinin və Türkiyə türklərinin) müştərək eposu hesab etmək mümkündür... Lakin məsələ burasındadır ki, "Dədə Qorqud" eposu oğuzların Şərqdən Qərbə (Mərkəzi Asiyadan Kiçik Asiyaya) hərəkəti-axını dövründə Azərbaycan ərazisində formalaşmış, Mərkəzi Asiyada (Türküstanda) yaranaraq Qərbə gətirilmiş süjetlər də məhz Azərbaycanda yenidən formalaşmalı olmuşdur.

Həmin dövrdə (I minilliyin ikinci yarısında) həmin ərazidə (Azərbaycanda) "gəlmə" müsəlman oğuzlar "yerli" kafirlərə:

a) qıpçaqlara, b) iber-Qafqazlara və c) Bizansa-yunanlara qarşı vuruşur, islam dininin coğrafi hüdudlarını genişləndirirdilər. Eposun təşəkkülü (həm daha qədim süjetlərin ideya-estetik baxımından birləşməsi, konsentrasiyası, həm də həmin ideya-estetik tələblərə uyğun yeni süjetlərin meydana çıxması), birinci növbədə, bu hadisə ilə bağlı idi. Və odur ki, "Kitabi-Dədə Qorqud"da (yəni eposun II minilliyin əvvəllərində yazıya alınmış mətnində) biri digərinin davamı olan iki ideya xüsusilə diqqəti çəkir:

1. Oğuz türklərinin islamı qəbul etməsi;
2. İslamı qəbul etmiş oğuz türklərinin kafirlərə qarşı mübarizəsi (yəni islam dinini yaymaları).

Bununla belə, eposda, bir o qədər qabarıq olmasa da, Azərbaycan türklərinin bütöv bir cəmiyyət, bir xalq halında təmərküzləşməsi ideyası da mövcuddur.

"Dədə Qorqud" eposunun oğuz türkləri içərisində birinci növbədə Azərbaycan türklərinə (ümumən Azərbaycan xalqına) məxsus olduğunu göstərən əlamətlər əsasən aşağıdakılardan ibarətdir:

1. Təsvir edilən tarixi hadisələrin Azərbaycanın VII-XI əsrlər tarixi coğrafiyasından, demək olar ki, kənara çıxmaması;
2. "Kitab"da Azərbaycan toponimiyasının (Göyçə gölü, Gəncə, Bərdə, Dərbənd, Gürcüstan ağzı və s.), etnoqrafiyasının daha geniş əks olunması;
3. "Kitab"ın dilinin Azərbaycan türkcəsində mühafizə olunması.

"Dədə Qorqud" eposu Azərbaycan xalqının təşəkkülündə iştirak etmiş "yerli"qıpçaq türkləri ilə "gəlmə" oğuz türklərinin ictimai-siyasi, mənəvi-ideoloji əlaqələri barədə kifayət qədər obyektiv məlumat verir. Və əslində, Azərbaycan xalqının mənşəyi məsələsini "Kitab"sız həll etmək mümkün deyil... Lakin nədənsə tarixçilər indiyə qədər eposa (və "Kitab"a) ya ümumiyyətlə diqqət yetirməmiş, ya da onu o qədər ideallaşdırmışlar ki, özləri də bilmədən "elmi mənbəlik"dən çıxarmışlar. *Halbuki, "Dədə Qorqud"da mifologiya artıq, demək* olar ki, tarixə tabe edilmişdir. "Kitab"da əksini tapmış "gəlmə" oğuzlarla "yerli" qıpçaqların münaqişələri; Azərbaycanda, Şərqi Anadoluda İslamın qəbulu, yayılması; islam dininin coğrafiyasını genişləndirmək uğrunda mübarizələr, qəzavat hərəkatları; oğuz-səlcuqlar tərəfindən Şərqi Anadolunun istilası və s. hadisələr real tarixi hadisələrdir...

Eyni zamanda, "Kitab"da ( və deməli, daha geniş miqyasda eposda) təsvir edilmiş ailə-məişət münasibətləri, ictimai münasibətlər və s. epos təfəkküründə "mifologiya dövrü"nün artıq çoxdan bitib "tarixi dövr"ün başlandığını təsdiq edir. Müşahidələr göstərir ki, "Dədə Qorqud" eposundakı Azərbaycan oğuzlarının yaddaşından Türküstan, demək olar ki, silinmişdir, Kiçik Asiya isə hələ məskunlaşaraq oğuz türklərinin fəal coğrafiyasına daxil olmamışdır. "Kitab"ın əvvəlində "Osman nəsli"nin xatırlanması, yaxud Kiçik Asiyanın qərb ucqarı olan İstanbulun adının çəkilməsi, heç şübhəsiz, sonrakı əlavələridir...

Lakin qeyd etmək lazımdır ki, xüsusilə Azərbaycan qorqudşünaslığında, görünür, əvvəl sovet ideologiyasının, sonralar isə ultra-türkçülüyün təsiri altında "Kitabi-Dədə Qorqud"a çox şeyin əlavə edilməsi fikri yayılmışdır... Məsələn, belə bir qeyri-elmi mülahizə mövcuddur ki, guya İslam dini bu cür ümumi şəkildə "Kitab"a sonralar (yəni nə vaxt?) əlavə edilmişdir. Həmin mülahizənin tərəfdarları ona əsaslanırlar ki, oğuz cəmiyyətində (xüsusilə məişətdə) islam şəriətinə əməl edilmir oğuz igidləri şərab içirlər, oğuz qadınları üzü açıq gəzir, at minir, kafirlərlə döyüşə girirlər və s. Lakin bunlar tamamilə əsassız "əsaslar"dır... Ona görə ki, əvvələ, "Dədə Qorqud" eposdur, eposda bu cür təfərrüatlara yer verilmir, şəriət təbliğ olunmur. Məsələn, Azərbaycanda İslam dininin geniş yayıldığı heç bir şübhə oyatmayan dövrün eposunda "Koroğlu"da həmin motivlər mövcuddur... Və ikincisi, M.Kaşqarinin "Divani-lüğət-it-türk"ündən də görünür ki, oğuz türkləri XI əsrə qədər islamı daha çox bir ideologiya olaraq qəbul etmiş, müəyyən müddət onun ikinci dərəcəli tələblərinə, demək olar ki, əməl etməmişlər (buna ehtiyac olmamışdır). Ona görə də türkləri "qılınc müsəlmanı" adlandırmışlar... İslam bayrağı altında toplanmış türklər (xüsusilə oğuz türkləri) həmin dinin dünyaya yayılmasında ən böyük xidməti kitabları ilə deyil, qılıncları ilə göstərmişlər. "Dədə Qorqud" eposu İslam dinini qəbul edib yayan oğuz türklərinin eposudur, ona görə də "Kitab"a islamın sonradan əlavə edilməsi mülahizəsi yanlışdır... Bununla belə, eposun ideya-estetik məqsədini pozmayan (əslində, həmin məqsədin davamı olaraq) "Kitab"a bəzi kiçik əlavələr edilmişdir... Həmin əlavələr orta əsrlərin sonralarına qədər davam etsə də, "Kitab" mistik mühakimələrlə doldurulmamışdır.

"Dədə Qorqud" eposu bizim hansı tarixi-mədəni mənbələrdən gəldiyimizi, hansı ictimai-siyasi, ruhi əxlaqi problemlərlə qarşılaşdığımızı, həmin problemləri tarixən hansı prinsiplərlə həll etdiyimizi göstərir. "Dədə Qorqud" eposu xalqımızın şah əsəri, "Kitabi-Dədə Qorqud" isə tale kitabıdır. Biz həmin eposu təxminən beş yüz ilə yaratmışıq, həmin kitabı isə təxminən beş yüz il yazmışıq...

"Kitab"ın istər orta, istərsə də ali məktəblərdə Azərbaycan gəncliyinə öyrədilməsi (həm də düzgün metodologiya ilə öyrədilməsi!) tarixi əhəmiyyət daşıyır. Hər bir azərbaycanlı mənsub olduğu xalqın şah əsərinin məzmununu, ideya-estetik əsaslarını yaxşı bilməlidir. Və "Kitab"ı bilməyən adam Azərbaycan mədəniyyəti tarixini bilə bilməz.

...*Azərbaycan etnokulturoloji sisteminin formalaşmasında* müsəlman mədəniyyəti dövrü xüsusi rol oynamışdır.

Hər şeydən əvvəl qeyd edək ki, "Ümumiyyətlə müsəlman mədəniyyəti" kimi olduqca mürəkkəb mübahisəli bir hadisə barədə danışmayacağıq, ancaq və ancaq türklərin islamı qəbul etdikdən sonra (və hələ uzun zaman davam edən qəbuletmə prosesində) yaratmış olduqları mədəniyyətin:

məhz bu cür konkret mənada "müsəlman mədəniyyəti"nin funksional xüsusiyyətləri ilə əlaqədar və görünür, bir sıra hallarda bu və ya digər baxımdan etiraz doğuracaq mülahizələrimizi hörmətli oxucuların nəzərinə çatdıracağıq. Onu da qeyd edək ki, söhbət əsasən Azərbaycan türklərinə aid olan müsəlman mədəniyyətinin konteksti, təşəkkülü, təkamülü və milliləşməsi barədə gedir.

Altaydan Avropanın içərilərinə qədər geniş bir coğrafiya tədricən həm fiziki, həm də mənəvi baxımdan sahib olan türklər qədim tarixin sonu orta əsrlər tarixinin əvvəllərində (III-V əsrlərdə) müasir tipli mükəmməl dini-siyasi baxışlar sisteminə ehtiyac duyurlar və təsadüfi deyil ki, həmin baxışlar sistemi öz etnik kökü (zəngin mifologiya) üzərində nə qədər sürətlə inkişaf edirdisə, ümumdünya dini-ideoloji təsirləri də o qədər sürətlə onu tamamlayırdı.. Orta əsrlər tarix meydanına çıxarçıxmaz türklərdə Tanrıçılıq hakim mənəvi-ideoloji, dini dünyagörüşü kimi qərarlaşmağa başladı və nəticə etibarilə, türkün etnik-mədəni özünüifadəsi üçün maksimum tarixi şərait yetişdi... VI əsrin ortalarında Kök (Göy-Tanrı) türk kağanlığı yarandı mərkəzi Altayda yerləşən bu kağanlıq zaman-zaman öz iradəsini Şimala, Cənuba, Şərqə, xüsusilə Qərbə diqqət etməyə başladı və VII əsrdən etibarən, bir erməni tarixçisinin etiraf etməyə məcbur olduğu kimi, "dünya türkləri daşımağa kafi gəlmirdi"... Türk kağanlığının mərkəzi Altaydan Orta Asiyaya keçir və bu həqiqətən mürəkkəb tarixi proses XI-XII əsrlərdə eyni zamanda kağanlığın "parçalanması" (əslində, müstəqil türk dövlətlərinin təşəkkülü) ilə müşayiət edilir.

Türklər, o cümlədən azərbaycanlılar İslamı necə qəbul etdilər, könüllü, ya könülsüz?.. Biz bu barədə çox az fikirləşmişik və təəssüf ki, İslama keçid dövrünün fəlsəfəsini əks etdirən milli mənbələr həmin məsələni müəyyənləşdirmək baxımından araşdırılmamışdır məsələn, "Kitabi-Dədə Qorqud"un İslam anlayışları ilə "zənginləşməsi"ni ancaq və ancaq "İslamın əlavəsi" kimi başa düşməkdə davam edirik, "Kitabi-Dədə Qorqud" üçün bilavasitə kontekst olan Oğuznamə mədəniyyətinin qeyd edilən "keçid dövründə" hansı tarixi-idrakı təbəddülata məruz qaldığını isə demək olar ki, diqqətdən kənara buraxmışıq.



...Türklər bir dəstə köçəri deyildilər, yaxud bu və ya digər qalada daldalanıb xilafətə qarşı vuruşan onlarla, lap olsun yüzlərlə cəngavər də deyildilər, söhbət min kilometrlərlə ölçülən ərazilərdə məskun olub bir neçə min illik mədəniyyətə (həmçinin imperiya yaratmaq təcrübəsinə) malik bir xalqdan gedir türklər İslamı bir ilə, bir əsrə yox, bir neçə əsrə tədricən qəbul elədilər. İslamın qəbuluna qədər müxtəlif türk xalq və tayfa birlikləri müxtəlif dinləri ictimai idrak sınağından çıxarmışlar məsələn, uyğurlar manixeyliyi, buddizmi qəbul edib dini kitabları türk dilinə çevirmiş, hətta türk filologiyasında manixey və buddist poeziyası adı ilə məşhur olan zəngin orijinal ədəbiyyat yaratmışlar (təxminən IX əsrin əvvəllərindən XII əsrə qədər, bir sıra yerlərdə, hələ sonrakı əsrlərdə də), xəzərlər yəhudiliyi, xristianlığı qəbul eləmişlər və s. Göründüyü kimi, İslamın qəbulu türklər arasında, indiki təbirlə desək, alternativ şəkildə gedirdi.

İslamın türklər arasında, xüsusilə, Orta Asiyada kütləvi şəkildə yayıldığı məlumdur. Bir sıra görkəmli tədqiqatçıların qeyd (və yazılı mənbələrin təsdiq) etdiyi kimi, IX-XI əsrlərdə Orta Asiya geniş mənada Türküstanın mənəvi-mədəni cəbbəxanası olub; əsas dinlərin, o cümlədən də İslamın türk təfəkkürü tərəfindən necə qəbul edildiyini, onun hansı dəyişikliklərə məruz qaldığını, hansı təriqətlərə rəvac verdiyini, heç şübhəsiz, birinci növbədə Orta Asiya regionu əks etdirir və görünür, nə Volqaboyu, nə Qafqaz, nə də Kiçik Asiya türk İslam mədəniyyətinin mənşəyi Orta Asiyadan kənarda öyrənilə bilməz ilk türk müsəlmanları, ilk təriqətçi-sufilər, Qurana ilk türk təfsirləri buradan çıxır...

Türklərin İslamı qəbul etməsi tarixi ilə onların İslamı müdafiə edib yayması tarixi bir-birinin məntiqi davamı olsa da, həmin məsələlər analitik şəkildə tədqiq olunmadıqda tarix meydanında türkə "İslamın sıravi əsgəri" olmaqdan başqa bir şey qalmır. Y.A.Petrosyan adlı bir müəllif "Osman imperiyası" (Moskva, 1990) kitabında məhz bu cür hərəkət etmişdir: onun təqdimatından belə çıxır ki, ən möhtəşəm Türk dövləti olan Osmanlı imperiyası ona görə yaranmışdı və ona görə mövcud idi ki, İslam dinini yaysın bəs xalqın, millətin müstəqil dövlət qurmaq istedadı (və ehtiyacı), bəs

həmin imperiyanın məhsulu olmuş bu boyda mədəniyyət?.. Bunları kimin ayağına yazaq?

Türklərdə "tanrı" tədricən "allah"la əvəz edildi, ilk dəfə XI əsrdə köçürüldüyü şübhə doğurmayan "Kitabi-Dədə Qorqud" dinin ali anlayışını elə bu cür də faktlaşdırdı: **tanrı-allah** və elə həmin "Kitab"da **alp-alp-ərən, yükünt-namaz, yazuq-günah** kimi dərk olunmağa başladı, kafirin şəhəri alındı, kəlisası dağıdıldı və yerində məscid yapıldı... Tarixdən də məlumdur ki, Qutalmış oğlu Süleyman bəy XI əsrin sonlarına doğru Antakya qalasını fəth edib kilsəni məscidə çevirmiş və yüz iyirmi müəzzinə birdən əzan oxutdurmuşdu.

Bu mənada professor Tofiq Hacıyevin belə bir qənaəti ilə razılaşmamaq mümkün deyil ki, "Kitabi-Dədə Qorqud"da milli idrakın həzm etmiş olduğu konseptual tarix ideyası mövcuddur burasını da mən əlavə edirəm ki, bu ideya əsas etibarilə, türkün İslam dunyasına (daha doğrusu, deyək ki, İslamın türk dünyasına) daxil olması faktı, materialı ilə əlaqədar olub ondan çıxır və eyni zamanda onu izah edir.

IX-XIII əsrlərdə Azərbaycanda çoxlu məktəblər, mədrəsələr, kitabxanalar təsis olunur ki, bu da İslamın daha dərindən öyrənilib mənimsənilməsi üçün idi: məhz bu dövrdə üç dildə nəhəng mədəniyyət yaranıb həmin mədəniyyətin tipologiyası indiyə qədər aydınlaşdırılmamış qalır, ancaq bir cəhət məlumdur ki, Azərbaycan türkləri İslamı mürəkkəb idrak təbəddülatları, axtarışları əsasında qəbul etmişlər. İslam türk təfəkküründə tarixən nə var idisə, hamısını pozub ona sahib olmamışdır, əksinə, bir sıra hallarda idrak (və fəaliyyət) rezonansı vermişdir həmin rezonans, məsələn, XI-XII əsrlərdə Azərbaycanda o qədər güclü olmuşdur ki, bir sıra tədqiqatçılar hissə qapılaraq nəinki bu dövrü, hətta bir neçə əsr əvvəli və sonranı da Azərbaycan mədəniyyətinin tarixində intibah dövrü hesab etmişlər.

Orta əsrlərdə nəinki müsəlmanlar, hətta yəhudilər və xristianlar inanmışlar ki, allah türkləri harada qayda-qanun pozulsa, ora göndərir ki, intizam yaratsınlar. XI-XII əsrlərdən etibarən İslam, həqiqətən türklərin təfəkkürü və qılıncı ilə yayılıb, lakin bu, ümumiyyətlə İslam yox, artıq, necə deyərlər, bir qədər türk İslamı idi... Təəssüf ki, əksər tədqiqatçılar həmin türk İslamını, yumşaq desək, görməməzliyə vururlar



və nəticə etibarilə, Azərbaycan mədəniyyətşünaslığının bir sıra tarixi problemləri izahsız qalmalı olur.

Azərbaycan milli mədəniyyətinin təşəkkülü prosesində (XVI əsrin əvvəllərindən XVIII əsrin sonu XIX əsrin əvvəllərinə qədər) ümumtürk müsəlman mədəniyyəti və xüsusilə onun regional (Azərbaycan) təzahürü milli intibah tərəfindən yenidən dərk edilir milliyə qədərki Azərbaycan mədəniyyəti klassik mədəniyyət və folklor mədəniyyəti olmaqla iki istiqamətdə inkişaf edir: klassik mədəniyyət daha çox regional ("Ümummüsəlman" və nəhayət türk müsəlman), folklor mədəniyyəti isə etnik (ümumtürk) kontekstdə mövcud olur. Orta əsrlərdə klassik mədəniyyətin aparıcı mövqeyə malik olması ümumən Azərbaycan mədəniyyətinin strukturunda islam kompleksinin çevikliyini şərtləndirir, yeni dövrün başlanğıcına doğru folklor mədəniyyəti milli intibahının təsiri ilə normativləşir və həmin prosesdə klassik mədəniyyətin bir sıra xüsusiyyətlərini də özündə ehtiva edir (əks halda normativləşə bilməzdi). Beləliklə, müsəlman mədəniyyəti bir daha "mənimsənilir", regional hüdudu müəyyənləşmiş milli təfəkkür ümumtürk İslam kompleksini bir daha özündən keçirir və nəticə etibarilə, milli Azərbaycan mədəniyyətinin strukturunda müsəlman "faktoru" özünəməxsus şəkildə mövcud olur.

Milli mədəniyyətin təşəkkülü prosesində islam dünyagörüşü poetik təfəkkürün əsas mənbələrindən biri olmaqda davam edir: möhtəşəm aşıq sənəti o zaman təşəkkül tapır ki, türk ozan mədəniyyəti ilə İslam dünyagörüşü arasında, əlbəttə, birincinin üstünlüyü şəraitində və bazasında tarixi tipoloji bağlılıq yaransın. Aşıq sənəti isə milli Azərbaycan mədəniyyətinin əsaslarını təşkil edir və ya belə bir potensiala malik olur.

Ş.İ.Xətaidə, inkişaf eləmiş şəkildə M.V.Vidadidə, daha inkişaf eləmiş şəkildə M.P.Vaqifdə İslam dünyagörüşünün obrazlaşdığını, dini-fəlsəfi "materialın" estetik "materiala" çevrildiyini görürük. Məs.:

Vaqifəm, görmüşəm bir türfə didar,
Çəkərəm görməyə bir də intizar
Hər kəsin dünyada bir qibləsi var,
Mən də yönüm sənin sarı tutmuşam.

Etiraz edə bilərlər ki, İslam dünyagörüşünün "obrazlaşması" İ.Nəsimidə də, Kişvəridə də, M.Füzulidə də var. Ancaq məsələ burasındadır ki, milli mədəniyyətin təşəkkülünə qədərki dövrdə "obrazlaşma" İslam dünyagörüşünün ixtiyarında olub onun idrak üsulu kimi çıxış edir, milli mədəniyyətin təşəkkülü gedişində isə İslam dünyagörüşü milli təfəkkürün obrazlaşdırma "materialına" çevrilir.

Hər hansı din özünəməxsus obrazlar sistemidir mükəmməl dinlərdə obrazlılıq da kamil olur. İslam mükəmməl dinlər sırasına daxildir və onun obrazlılıq səviyyəsi o qədər yüksəkdir ki, ortodoksal təfəkkürlə yanaşı, bir-biri ilə mürəkkəb əlaqələrdə birləşən çoxlu təriqətlərin təfəkkür enerjisini də ehtiva edir. İslama qədərki türk mədəniyyətləri, xüsusilə türk ədəbiyyatı öz estetik kamilliyinə görə türk mifologiyasına və Tanrıçılığına, İslamdan sonra isə eyni zamanda bu əsasda həzm olunmuş müsəlman dünyagörüşünə minnətdar olmalıdır, çünki həmin mədəniyyətlərin fəlsəfi əsasları, nümunəvi struktur modelləri, ən adi obrazları onlardan gəlir.

Ey cananım, sən bəzənib gələndə
Ayü gün qarşına pişvaza gedər,
Kəbeyi-kuyinə gündə min kərə,
Mələklər yığılıb namaza gedər...

Və heç şübhəsiz, İslam dünyagörüşü, ümumiyyətlə, ictimai təfəkkürdə "obrazlılığa" müqavimət göstərməli idi (göstərdi də), bununla belə həmin müqavimət demokratik, yeni dövrdə isə milli məzmuna malik olmadığına görə, demək olar ki, həmişə sındırılmışdır. Orta əsrlərdə muğamat (özünün bütün estetik fəlsəfi əsasları ilə), yeni dövrdə isə həmin səviyyədə aşıq musiqisi İslam dünyagörüşünü mənimsəyə-mənimsəyə, İslamla bu və digər dərəcədə bağlı olan təriqətlərin ideyalarını saf-çürük edə-edə milli ictimai təfəkkürdə İslamı dini-fəlsəfi dünyagörüşü kimi sıxışdırır, İslam "estetikləşir".

Əlbəttə, bu, o demək deyildir ki, Azərbaycan milli mədəniyyətinin təşəkkülü ilə Azərbaycanda İslam öz normativ dini səlahiyyətini itirir, belə deyil. XIX əsrin ortalarından etibarən



hətta müsəlman mərasimlərinin keçirilməsində, kütləvi icrasında intensivliyin güclənməsi müşahidə edilir. Bunun nə üçün belə olduğunu geniş şərh etmək çətindir, ancaq bizə elə gəlir ki, bu, rus istilasına qarşı daxili, eyni zamanda, Azərbaycanda yaşayan əsas xalqların, etnosların hamısının iradəsini ifadə edən narazılıq idi milli idrakın müstəqilliyindən yox, məhz qeyri-müstəqilliyindən, vəziyyətin adiliyindən yox, fövqəladəliyindən irəli gəlirdi.

Milli mədəni təfəkkürümüzdəki "müsəlman kompleksi" bir sıra hallarda imkan verir ki, tamamilə kənar təsirlər altında və tamamilə siyasi-ideoloji avantüranın faktı olaraq ictimai məişətimizə ortodoksal ideyalar, mərasimlər yeridilsin və nəticə etibarilə, milli demokratik intibahımız müsəlman fundamentalizminin intibahı kimi təqdim və təbliğ olunsun... Azərbaycan xalqının düşmənləri burada müsəlman fundamentalizminin yayılmasından nəinki qorxmurlar, əksinə, bir sıra hallarda həmin prosesin real əsaslara malik olmasına can atırlar onlar yaxşı bilirlər ki, müsəlman fundamentalizmi türk idrakının həzm etdiyi, regionallaşdırdığı və nəhayət, milliləşdirdiyi müsəlman mədəniyyətinə qarşı durur...

Biz məscidlərimizi bərpa ediriksə, mədəni-ictimai idrakımızın keçilmiş yoluna bir daha nəzər salırıq, tarixi əlaqələri bərpa edirik, zənginləşdiririk. Həmin məsciddə ibadət etmək olar da, olmaz da və bundan heç nə dəyişmir, ancaq yeni məscid tikiriksə, mütləq və mütləq ibadət üçün tikirik əgər ibadət etməyəcəyiksə, tikməyə ehtiyac yoxdur.

*Və müasir Azərbaycan mədəniyyəti ortodoksal islama yox, milli tarixi yaddaşda olan, həzm edilmiş (türkləşmiş, azərbaycanlaşmış...) İslama, milli təfəkkürümüzdəki "islam kompleksinə" istinad etdikdə öz mənbələrindən biri ilə əlaqəsini bərpa etmiş olur.*

"Milli mədəniyyət" dedikdə, əsasən millətin formalaşması ilə bağlı olaraq müəyyənləşən mədəniyyət başa düşülür; millət birdən-birə formalaşdığı kimi, milli mədəniyyət də birdən-birə müəyyənləşmir, hər iki proses tədricən, eyni zamanda dialektik vəhdətdə gedir. Milli mədəniyyətin müəyyənləşməsi üçün iqtisadi, ictimai-siyasi, eləcə də mənəvi şərait mövcud olmalıdır. Azərbaycanda belə bir şəraitin

mövcudluğu XVI əsrin əvvəllərindən müşahidə edilir; ona görə də bu zamandan etibarən milli mədəniyyət formalaşmağa başlayır, aşağıdakı üç mərhələdən keçir:

I. XVI əsrin əvvəllərindən sonlarına kimi.
II. XVI əsrin sonlarından XVIII əsrin ortalarına kimi.
III. XVIII sonlarından XIX əsrin əvvəllərinə kimi.

XIX əsrin əvvəllərində milli mədəniyyət mövcud idi, lakin millətin təşəkkülü prosesi hələ başa çatmamışdı. Beləliklə, Azərbaycanda milli mədəniyyətin müəyyənləşməsi millətin formalaşmasını tarixən qabaqlamalı oldu, eyni zamanda, bu prosesə getdikcə daha çox təkan verdi.

**I mərhələ.** I Şah İsmayıl hakimiyyəti əldə edən kimi dərhal mərkəzləşdirmə siyasətini həyata keçirməyə başladı. Şübhəsiz, bunun üçün mənəvi əsaslar var idi, yoxsa hətta I Şah İsmayıl kimi bir dövlət xadimi də mərkəzləşdirmə siyasətini həyata keçirə bilməzdi. Səfəvilər dövlətinin meydana gəlməsi, başqa sözlə, Azərbaycan xalqının bir dövlət tərkibində birləşdirilməsi milli özünüdərkin əsasını qoydu; nəzərə alaq ki, mərkəzləşmə prosesi xalqın təfəkküründə də gedirdi, milli hissləri coşdura-coşdura gedirdi:

Şirvan xəlayiqi qamusu Təbrizə yığıla,
Mülki-əcəm sorar kim, qiyamət xaçan qopar.
(Ş.İ.Xətai)

XVI əsrin əvvəllərindən etibarən I Şah İsmayılın Türkiyə ilə apardığı müharibələr Azərbaycan xalqının milli xarakterinin formalaşmasına təsir etdi, siyasi-hərbi münaqişə milli səviyyədə mədəni-mənəvi (etnoqrafik fərqlər əvvəldən də var idi) sərhədlər yaratdı; ona görə də bundan sonra meydana gələn ədəbi-bədii abidələrin kimə məxsus olduğu mübahisə doğurmur (müqayisə üçün oğuz-səlcuq abidələrinin mübahisəli olmasını xatırlamaq kifayətdir. Bunlar XVI əsrdən bəri keçmir).

XVI əsrdə ədəbi-bədii təfəkkürün milliləşməsində sinfi təbəqələşmənin güclənməsi mühüm rol oynadı; əzilməkdə



olan kütlənin əhval-ruhiyyəsi tədricən ədəbiyyatda görünməyə başladı, hətta ənənəçi olan M.Füzuli "Şikayətnamə"ni yazdı. Qurbani kimi sənətkar yetişdi.

Musiqidə (sazın rolu artmaqda idi) xəlqi elementlər güclənir, perspektivliyini hiss etdirirdi. Rəssamlıqda "nəfis, lakin simasız, idealizə olunmuş obraz öz yerini fərdi, psixoloji cəhətdən ifadəli portretə verirdi", təkcə əyanların deyil, sadə adamların da portretləri çəkilir. Mifoloji təfəkkürə qayıdış müşahidə edilir. XVI əsrin sonu XVIII əsrin əvvəlində Sadiq bəy Əfşarın miniatür-portretlərində təkcə etnoqrafik xüsusiyyətlər deyil, ictimai xarakter müəyyənliyi də ifadə olunur (K.Kərimov).

Hər hansı dövrdə mədəni səviyyə həmin dövrün dilində də yaşanır; yəni dil mədəniyyət faktı kimi təhlil olunmaq imkanına malikdir, odur ki, mədəniyyətin milliləşməsi dedikdə, burada dilin milliləşməsi nəzərdə tutulur. Səfəvilər dövründə Azərbaycan dili dövlət dili oldu. Milli dövlətin rəsmi etiraf etdiyi, müxtəlif səviyyələrdə işlənməsini həyata keçirdiyi dil də milli keyfiyyətlər qazanmalı idi. Bugünkü dilimizin ifadə tərzi XVI əsrin sonralarında formalaşırdı:

Getmə, getmə, görüm kimin yarısan,
Hansı bəxtəvərin vəfadarısan...
(Qurbani)

XVI əsrdə mədəniyyətin milliləşməsinin əsasları qoyuldu; milli dövlət ideyası həyata keçirildi, ədəbi-bədii təfəkkürə xəlqilik gəldi, incəsənətdə ümumşərq keyfiyyətləri ilə yanaşı, milli cəhətlər də görünməyə başladı.

**II mərhələ.** XVI əsrin sonunda I Şah Abbas Səfəvilər dövlətini fars zadəganlarının iradəsinə tabe etdi.

Azərbaycan bir əsrdən artıq İranın təzyiqi altında qalmalı oldu; farsların azərbaycanlılara yuxarıdan-aşağıya baxması da bir tərəfdən milli vətənpərvərlik hisslərini qüvvətləndirir, milli özünüdərki hazırlayırdı. I Şah Abbasın hakimiyyətinin möhkəmlənməsinə vaxtilə kömək etmiş tayfalar XVIII əsrin əvvəllərində mərkəzi hakimiyyətə qarşı mübarizə aparırdılar; məsələn, Muğanda məskunlaşmış şahsevənlər 1717-ci ildə mərkəzə tabe olmaqdan boyun qaçırdılar.

XVII əsrin sonlarına doğru ölkənin təsərrüfatı dağılmaqda idi, müharibələr xalqı göz açmağa qoymurdu, ticarət gücsüzləşmişdi.

I Şah İsmayıl tərəfindən əsası qoyulmuş Səfəvilər dövləti I Şah Abbasın tədbirləri nəticəsində XVII əsrin birinci rübündən etibarən əvvəlki xarakterini itirdi; mərkəzləşmiş Azərbaycan dövləti yaratmaq ideyası isə nəinki məhv olmadı, XVII, xüsusilə XVIII əsrdə baş verən ictimai-siyasi hadisələrin təsiri ilə getdikcə kütləviləşərək aparıcı qüvvəyə çevrildi. İranın, eləcə də Türkiyənin arasıkəsilməz hücumları qarşısında ancaq mərkəzləşmiş dövlət dayana bilərdi; elə bir dövlət ki, ölkənin yüksəlməkdə olan iqtisadiyyatını (o cümlədən ticarəti), mənəvi (eləcə də ədəbi) mədəniyyətini mühafizə etmək iqtidarına malik olsun. XVI əsrdə mərkəzləşmiş dövlət ideyası, bəlkə də, I Şah İsmayıl kimi siyasi xadimləri məşğul edə bilərdi, XVII, bir qədər sonra XVIII əsrdə isə kütlələr bu ideyanın arxasınca getməyə hazır idilər; çünki xalqın həm iqtisadi, həm də ictimai-siyasi, həm də mənəvi marağı bunu tələb edirdi.

I Şah Abbasın iqtisadi siyasətinin əsası mərkəzi vilayətləri ucqarlar (buraya Azərbaycan da daxil idi) hesabına inkişaf etdirməkdən ibarət idi; bu isə birbaşa Azərbaycan xalqının əleyhinə yönəlmişdi, onu mənəvi cəhətdən də sarsıtmaq məqsədi güdürdü. XVIII əsrin əvvəllərində Səfəvilər dövləti süqut etməkdə idi; kəndli üsyanlarının ardı-arası kəsilmir. Bu öz yerində, hətta feodallar da hakimiyyətə etiraz edirdilər.

XVI əsrdə Səfəvilər hakimiyyəti milli mədəniyyəti mühafizə edirdi, XVII əsrdə isə onun düşməninə çevrilmişdi; odur ki, bu zamandan etibarən milli mədəniyyəti qorumaq xalqın öhdəsinə düşürdü.

XVII əsrin birinci yarısında Azərbaycan mədəniyyəti nümayəndələrinin İranın mərkəzi şəhərlərinə (xüsusən, İsfahana) köçürülməsi XVII-XVIII əsrlərdə Azərbaycan mədəniyyətinin inkişafına təsir etdi; klassik ifadə tərzinin süqutuna təkan verdi (çünki köçürülənlər klassik ifadə tərzini təmsil edirdilər), nəticədə, folklor ifadə tərzinin maneəsiz inkişafı müəyyən qədər təmin olundu.

XVII əsrdə, eləcə də XVIII əsrin birinci yarısında məktəb-təhsil məsələləri bütünlüklə ruhanilərin əlində idi, lakin bu, o



demək deyil ki, dünyəvi elmlər tədris olunmurdu; tibb, fəlsəfə, astronomiya, ədəbiyyat öyrənilir, görkəmli alimlərin tədqiqatlarından dərslik kimi istifadə edilirdi. Şəhərin məktəb-təhsil sahəsində aparıcı rolu qalsa da, kəndlərdə məktəblər açılmağa başlamışdı, xüsusilə XVIII əsrdə şəhərlərin nüfuzunun aşağı düşməsi kəndlərdə məktəblərin artmasına gətirib çıxardı.

Kitabxanalar bir qayda olaraq şəhər ziyalılarının şəxsi istifadəsində idi, hər bir mədəni adam kitabxanasının zənginliyi ilə fəxr edirdi (Ə.Rəhmani).

Milli mədəniyyətin təşəkkülü klassik mədəniyyətin təmasından qaçmağın çətinliyinə görə bir qədər ağır gedirdi.

Ədəbi-bədii təfəkkürdə gedən milliləşmə incəsənətin başqa sahələri ilə müqayisədə xüsusilə güclü idi: ədəbiyyat XVII əsrdə xalqa o qədər yaxın idi ki, nə XVI, nə XVIII, nə də XIX əsrdə buna uyğun vəziyyət mövcud olmamışdı. Əslində, ədəbi-bədii təfəkkürümüzdə intibah deyilən bir şey varsa, o elə XVII əsrə düşür, çünki bu zaman həqiqətən qədim Azərbaycan mifologiyasının canlanıb ədəbi prosesin inkişafına təkan verdiyini görürük (M.Seyidovun Koroğlu obrazı haqqındakı mülahizələrini xatırlamaq kifayətdir).

XVII əsr xalq ədəbiyyatının şedevrlərini yetirir: “Koroğlu”, “Əsli və Kərəm”, Sarı Aşığın bayatıları, “Aşıq Qərib”, Aşıq Abbas Tufarqanlı, Şah İsmayıl və s. Saib Təbrizi, Qövsi Təbrizi, Məsihi kimi klassik üslub tərəfdarları nə qədər istedadlı olsalar da, xalq ədəbiyyatı qarşısında gücsüz görünürlər; bu, o deməkdir ki, milli dövlətini (bu dövlət yeri gələndə xalqı amansızcasına əzsə də) itirən xalq milli dilini də itirməkdən qorxur, ona görə də heç kimə ümid bəsləmədən özü dilini müdafiə edir (həm də passiv şəkildə yox, hücumla, yəni şedevrlər yaratmaqla müdafiə edir). Milli təfəkkürün təntənəsi xalqın həssaslığını artırmış olur.

XVII əsrdə fars ədəbiyyatı süqut dövrü keçirir, halbuki eyni zamanda Azərbaycan ədəbiyyatında milliləşmənin təsiri ilə çiçəklənmə prosesi gedir: osmanlı ədəbiyyatı ilə müştərək məqamlar minimal həddə çatır.

XVII əsrdə Azərbaycan dili dövlət dili deyildi, lakin Zaqafqaziyada ümumi ünsiyyət vasitəsinə çevrilmişdi; erməni-

lərin, talışların, ləzgilərin, tatların kütləvi surətdə azərbaycanca danışması bu zamandan başlanır.

Azərbaycan ədəbi dili Zaqafqaziyada bir qayda olaraq mütərəqqi məzmunlu mədəniyyətə xidmət etmişdir, bu isə, heç şübhəsiz, dilin müasirlik ruhu daşıması ilə bağlıdır (milliləşmə eyni zamanda müasirləşmədir).

İncəsənətdə gedən milliləşmə musiqi sahəsində daha bariz idi; xalq musiqisinin rolu artmışdı: muğamlarla yanaşı xalq mahnıları, oyun havaları geniş yayılmışdı, hətta saraylarda da saz çalınırdı.

Memarlıqda dəyişiklik nəzərə çarpır: "əvvəlki zamanların müəyyən xətli çatma tağları əvəzinə XVII əsrdə mürəkkəb xətli tağlara təsadüf edilir", "stalaktitlər dekorativ bir quruluşa çevrilir", həndəsi ornamentləri bütünlüklə nəbati ornamentlər əvəz edir (Ə.V.Salamzadə). Memarlıqda bu cür hadisələrin baş verməsi, əslində, çevriliş səciyyəlidir, ona görə ki, belə hallar bir neçə əsr miqyasında baş verir, bir mərhələnin bitib başqa birisinin başlandığını göstərir.

**III mərhələ.** Nadir şah öldürüldükdən sonra (1747-ci il) İran dövləti dağıdıldı; dövlətin bütün ərazisində, eləcə də Azərbaycanda müstəqil (yaxud yarım müstəqil) xanlıqlar meydana gəldi. Şəki xanlığı, Qarabağ xanlığı, Quba xanlığı...

XVIII əsrin ikinci yarısında xanlıqların meydana gəlməsini təkcə natural təsərrüfatın mövcudluğu ilə izah etmək çətindir, əslində bu, sosial-siyasi, hətta etnokulturoloji məzmunlu bir hadisə idi; müəyyən müstəqillik qazanmış ölkə bu müstəqillikdən bütün gücü ilə istifadə etməyə çalışırdı. Xanlıqlara parçalanma ilə yanaşı mərkəzləşmə prosesi gedirdi.

...XVIII əsrin ortalarından etibarən şəhər həyatı tənəzzül edir (bu proses XVII əsrin əvvəllərindən başlamışdı), kəndin ictimai rolu görünməmiş səviyyədə artır. XVII əsrdə maarif bir qayda olaraq şəhərdə mövcud olduğu halda (kənd savadsız idi), XVIII əsrdə M.V.Vidadi, eləcə də M.P.Vaqif kimi şəxsiyyətləri əslində kənd yetişdirir. Şəhərin işini, əlbəttə, müəyyən çatışmazlıqlarla kənd öhdəsinə götürür.

Kəndli öz şəxsiyyətini uca tutur, bu isə öz növbəsində xüsusilə ədəbiyyata təsir edir; ümumiyyətlə, milli-mədəni təfəkkürün təşəkkülündə kəndli əsas rol oynayır, ona görə də



kəndli qüruru mədəniyyətin daxili əlamətinə çevrilir. Kəndlinin mövcud ictimai-siyasi quruluşa münasibəti incəsənətin başlıca əsasını təşkil edir.

*Sənətkarlığın inkişafı kəndin mədəni səviyyəsinə təsir* edir, çünki sənətkarlıq hər halda axtarışdır, nəzərə alaq ki, bu cür axtarışda obrazlı təfəkkürün iştirakı istisna olunmur.

XVIII əsrin ikinci yarısında ədəbi dil milli mədəniyyətin ifadə forması olmaq səlahiyyətinə bütünlüklə yiyələnir. Müxtəlif üslub sahələrində xəlqiləşmə başa çatır, hətta mühafizəkar olan dini-şəriət üslubu da istisna təşkil etmir: "...Məlakələr deyirlər ki, bunlar onlardır ki, qonşuları incidüplər idi və tövbəsiz oldular. Bunların cəzaları əlləri-ayaqları kəsilməkdür, onların məkanları cəhənnəmdür".

XVIII əsrdə ən çox məşhur olan musiqi alətləri saz, *kamança, balaban, zurna, tütək, nağara, dəf* idi... Bu isə həmin dövrdə musiqinin folklor əsasları üzərində inkişaf etdiyini göstərir. Memarlığa gəldikdə, demək lazımdır ki, müharibələr incəsənətin bu sahəsinin inkişafına ciddi şəkildə mane olurdu; tikintilərin utilitar cəhətinə xüsusilə fikir verdiklərindən bədii tərtibat ikinci plana keçirdi. Lakin elə abidələr də yaranır ki, qeyd edilən boşluğu doldurur, geniş planda ümumiləşdirmə aparmağa imkan verir.

Şəki xan sarayı (1762) XVIII əsr Azərbaycan mədəniyyətinin xarakterini bütünlüklə əks etdirir: xalq sənəti bu abidədə klassik səviyyəyə qalxmaq ləyaqətini göstərir, perspektivliyini təsdiq edir. Şəki xan sarayını ancaq Vaqifin poeziyası ilə müqayisə etmək olar. Milli mədəniyyətin təşəkkülündən əvvəl müəyyənləşmiş ladlar hər ikisində milli mədəniyyət polifoniyasına düşür, necə gəldi yox, təbii şəkildə ehtiva olunur.

Azərbaycanda milli mədəniyyətin təşəkkülü prosesini əks etdirən faktlar, göründüyü kimi, müxtəlif coğrafi koordinasiyaları ilə diqqəti cəlb edir: bu isə onu göstərir ki, milli mədəniyyət bir nöqtədən yayılmır, müxtəlif nöqtələrdən gəlir: Təbriz, Qarabağ, Şəki, Qazax...

Azərbaycanda milli mədəniyyətin təşəkkülü, məsələn, Rusiyada olduğu kimi Avropa tipində getmir: Şərqin milliliyə qədərki mədəniyyətə etiraz prinsipləri başqadır, milli

mədəniyyət də başqa cür təbliğ olunur. Hər şeydən əvvəl, qeyd edilən proseslər Şərqdə özbaşına surətdə (bir qədər implissit şəkildə) gedir, ardıcıl nəzəri ümumiləşdirmə obyekti olmur (deyək ki, Rusiyadakı kimi). Azərbaycanda milli mədəniyyət XIX əsrin ortalarından etibarən (M.F.Axundovdan başlayaraq) elmi-nəzəri təhlilə cəlb edilir, XX əsrin əvvəllərində isə milli mədəniyyətin dəyərləndirilməsi problemi xüsusilə kəskinləşir, ideoloji xarakter alır.

Beləliklə, XVI əsrin əvvəllərindən başlayaraq milli mədəniyyətin çiçəklənməsi üçün müəyyən şərait meydana çıxır, get-gedə xalqdan uzaqlaşmaqda olan klassik mədəniyyətin əvəzində bilavasitə xalq təfəkkürünün faktı olan mədəniyyətin formalaşması prosesi gedir. XVI əsrin sonu XVII əsrin əvvəllərində xalq folklor mədəniyyəti o qədər güclənir ki, klassik mədəniyyətin əvvəlki səviyyəsinə qalxmaq iddiasında olur. XVIII əsr isə bütövlükdə mədəniyyətin normativ milliliyi ilə diqqəti cəlb edir.

...Azərbaycan mədəniyyəti (söhbət professional mədəniyyətdən gedir) qədim mədəniyyətdir, zəngin folklor bazasında təşəkkül tapmış və öz epos istinadgahını heç zaman itirməmişdir: bununla belə tarixi təcrübə göstərir ki, Azərbaycan mədəniyyəti müxtəlif regional təsirləri (eləcə də ümumdünya mədəni-tarixi prosesinin universal təsirini) etnik inkişaf kontekstində qəbul edirsə, keyfiyyətli məhsul verə bilir. Əgər həmin təsirlər etnik kontekstə düşmürsə, milli təfəkkürdə həzm olunmursa, əksinə, dağıdıcı qüvvəyə çevrilir, milli mədəniyyət üzərində üstünlük edir və hətta milli xarakteri də aşındırmaq təhlükəsi doğurur. Azərbaycan mədəniyyətinin faktını həm yaradarkən (istər ədəbiyyat, istər musiqi, istərsə də memarlıqda və s.), həm də elmi-nəzəri (estetik) təhlilə cəlb edərkən meyar ancaq və ancaq Azərbaycan mədəniyyətinin öz tarixi olmalıdır hər hansı digər "meyarlar" (ideyalılıq, aktuallıq, müasirlik və s.) nəticə etibarilə anti-meyara çevrilir və həmin meyarlarla təqdir olunmuş yüzlərlə əsər göstərmək mümkündür ki, bu gün azərbaycanlı üçün heç bir estetik əhəmiyyət kəsb etmir. Çünki bu cür əsərlər yarananda yazıçının, bəstəkarın, heykəltəraşın... milli-tarixi yaddaşı hərəkətə gəlməmiş, o ancaq bu günün



eklektikasından çıxış etmiş, millətin oğlu kimi (zaman və idrak məhdudluğunda) düşünmüşdür...

Milli mədəniyyətin faktını şerini, mahnısını, hekayəsini, tablosunu hər dəfə "yenidən yaratmaq", milli mədəniyyətin taleyini "eksperimentlərə" tapşırmaq sözün həqiqi mənasında təhlükəlidir: biz nə qədər eksperiment keçirmişik və nə qədər az nəticə əldə etmişik... Yenilik hissi yaxşı şeydir, ancaq bu, milli təfəkkürdən doğan və milli mədəniyyətin tarixi keyfiyyətini əks etdirən yenilik olmalıdır mədəniyyətdə yenilik yaratmaq çətindir, ancaq biz xüsusilə son bir neçə on ildə yüzlərlə, minlərlə "yeniliklər" yaratmış və indi də onların əsrinə çevrilmək təhlükəsi altındayıq...

"Müasir Azərbaycan mədəniyyəti" adlandırdığımız mədəniyyət mürəkkəb şəraitdə təşəkkül tapır 20-ci, xüsusilə 30-cu illərdə gedən etnik, ictimai-siyasi proseslər bu mürəkkəbliyi bir qədər daha gücləndirir.

20-ci illərdə və 30-cu illərin birinci yarısında folklor sürətlə toplanıb nəşr edilirdi, klassik abidələr artıq ictimai şüurun materialına çevrilməkdə idi. F.Köçərlidən sonra S.Mümtazın, H.Əlizadənin gördüyü işlər S.Vurğunun, Ü.Hacıbəyovun gördüyü işə bərabər idi. İnqilabın ilk illərindən başlayaraq kütləvi savadlanma, milli mədəniyyətin öyrənilməsi (və bu əsasda mədəniyyətin etnik kontekstini dərin dərk etməyə ehtiyacın "oyanması") "xalq mədəniyyəti" fenomenini mənəvi qüvvə kimi ortaya çıxarırdı... Lakin bu proses yenə də məhz 30-cu illərdə milli mədəniyyətin "məzmunca sosialistləşdirilməsi" hesabına əvvəl yavaşıdıldı, sonra isə demək olar ki, dayandırıldı güclü yaşamaq ehtirası olan folklor təfəkkürü, sözün həqiqi mənasında, məhz bu illərdən etibarən məhv edildi və onun sinkretik daşıyıcısı olan aşıq "kolxoz"dan, "ferma"dan (tarixən ona dəxli olmayan bütün mövzulardan) deməyə başladı başladı və tarixi tipologiyasını, simasını itirmək təhlükəsi altında qaldı (aşıq sənətinin inkişafındakı regional qeyri-sabitlik də buna yardım etdi). Sosialist məzmunu "milli forma" ilə məhz bu cür qovuşdu. Məsələ də burasında idi ki, aşıq sənəti aşıqların təntənəli qurultayları keçilə-keçilə süqut edirdi. Aşıqlar Bakıya gəlirdilər (sözün həm həqiqi, həm də məcazi mənasında), Moskvaya gedirdilər, orden, medal

alırdılar, birləşirdilər (birgə şəkil çəkdirirdilər), onların min illər boyu daşıdıqları (mükəmməl etnik-fəlsəfi sistemi olan) sənət isə milli professional mədəniyyəti tam gücü ilə "yaratmadan", onu müəyyənləşdirmədən, onda "ərimədən" yoxa çıxırdı, Ü.Hacıbəyovun "Koroğlu" operası, S.Vurğunun ümumən poeziyası aşıq sənətinin milli professional mədəniyyətə zəruri tarixi keçidinin ancaq və ancaq başlanğıcı idi.

Müasir Azərbaycan mədəniyyətinin təşəkkül tapdığı Azərbaycan folklorunun genetik müəyyənliyini kütləvi surətdə saxtalaşdırmaq hərəkatı başladı. Bu hərəkatın nə dərəcə düşünülmüş, yaxud stixiyalı olduğunu demək çətindir, lakin o, müvəffəqiyyətlə həyata keçirilidi. Azərbaycan təcrid olunmuşdu. Türk konteksti hələ bir yana, ümumşərq kontekstindən də "ayrılmışdı", Qərb mədəniyyətinə güman olunan çıxış isə ittifaq səviyyəsində yürüdülən "mədəniyyət siyasətinin" nəticəsində heç cür alınmadı əvəzində həm keçmişi olmayan (gələcəyi də hələ o zaman şübhə doğuran) eksperimental "sosializm realizmi" mədəniyyəti təbliğ edilməyə başladı. Azərbaycanlı təfəkkürü onu qəbul eləməyə tam hazır idi, çünki milli mədəniyyətin folklor əsaslarının saxtalaşdırılması (xüsusilə türk mədəniyyətinə heç bir dəxli olmayan zərdüştlüyün milli hadisə kimi məcburi yeridilməsi) professional mədəniyyəti simasızlaşdırmaq üçün imkan açırdı...

Azərbaycan mədəniyyəti 50-60-cı illərdə özünün ən ziddiyyətli dövrünü keçirir. Ziddiyyət nədən ibarət idi?..

30-cu illərdə tipologiyası az-çox müəyyənləşmiş müasir milli mədəniyyət fenomeni sonrakı onilliklərdə sərbəst funksionallaşmaq, yaşamaq istəyirdi (poeziyada S.Vurğun, musiqidə Ü.Hacıbəyov, Bülbül məktəbləri formalaşırdı). Bir azacıq nəfəs almaq imkanı olan kimi milli idrak özünü hiss etdirirdi. Lakin qeyd etmək lazımdır ki, bu daha çox poeziyada, musiqidə, bir qədər də teatrda bu cür idi, mədəniyyətin digər sahələrində (xüsusilə təsviri sənətdə) milli idrak imkanlarını nümayiş etdirə bilmirdi.

30-cı illərdə milli mədəniyyətə xidmət edəcək milli dil normaları müəyyənləşmişdi. Funksional üslublar formalaşmışdı, yəni "Molla Nəsrəddin"-in və "Füyuzat"ın, M.Hadinin, A.Səhhətin və H.Cavidin dilindən fərqli olan Azərbaycan ədəbi dili yaranmışdı və s. və i.a.



Bütün bunlarla yanaşı, yenə də 30-cu illərdən gələn ənənə əsasında 40-cı, 50-ci illərdə Azərbaycan mədəniyyətinin tarixi kökləri amansızcasına (və getdikcə daha çox nəzəri don geydirilərək) saxtalaşdırılır. Məsələn, deyək ki, "Kitabi-Dədə Qorqud" kimi əvəzsiz abidə yasaq edilir, əvəzində isə XI-XII əsrlərin farsdilli poeziyası kor-koranə milli mədəniyyətimizin əsası elan olunur və çox keçmir ki, "XI-XII əsrlər Azərbaycan intibahı" kimi tarixi saxtakarlığı akademik səviyyədə davam etdirən (özünəməxsus şəkildə təsdiq edən) ideya meydana çıxır.

30-cu illərdə "türk ədəbiyyatı", "türk teatrı", "türk musiqisi" kimi söz və ifadələri işlətmək mümkün idi (Bu ifadələr isə mədəniyyətimizin tarixi köklərini, kontekstini bilavasitə əks etdirirdi). 40-cı 50-ci illərdə, hətta sonralar isə bu mümkün deyildi, təkcə "türk mədəniyyəti" ifadəsi "Azərbaycan mədəniyyəti" ilə əvəz olunmadı, bu mədəniyyətin keçmişinə, tarixi inkişafına, bu gününə münasibət də əsaslı şəkildə dəyişildi. Hətta maraqlıdır ki, "Azərbaycan mədəniyyəti"nin yerli mədəniyyət olduğunu sübut etmək üçün bir zamanlar onun məhz türk mənşəli olmadığını demək lazım gəlmişdi.

Azərbaycanda 40-cı, xüsusilə 50-ci, 60-cı illərdə yaranmış mədəniyyətin "sistemi"ni şərh eləmək, demək olar ki, mümkün deyil, çünki onun universal milli məntiqi yoxdur. Müharibədən sonrakı dövrdə yazılmış onlarla elə romanlar nümunə göstərmək olar ki, onların azərbaycanlı idrakının məhsulu olması həddindən artıq şərtidir burada əsərlərin bütöv strukturu yox, dili, təsvirləri, detalları "azərbaycanca"dır, burada milli idrak ancaq "bəzək" kimi "universal hadisə"nin etnoqrafik çaları kimi iştirak edir...

60-cı, 70-ci, 80-ci illər Azərbaycan mədəniyyətində özünü göstərən (və çox böyük hadisə olan) folklora qayıtmaq hərəkatı, təəssüf ki, keyfiyyət faktına çevrilmədi, yarımçıq qaldı. Bunun müxtəlif səbəbləri var, ancaq əsası budur ki, 30-cu, eləcə də 40-cı, 50-ci illərdə folklorun genetik məzmununun saxtalaşdırılması, ictimai-mədəni təfəkkürdə ona qarşı artıq "liberal münasibət" yaratmışdı: folklora onun professional mədəniyyətlə genetik əlaqəsi mövqeyindən yanaşmaq lazım idi, lakin həmin əlaqəyə nadir hallarda nail olduğuna görə folklor pis mənada vasitəyə, iddialı əsərin dekoruna dönürdü.

60-cı, 70-ci illərdə Azərbaycan mədəniyyətinə, bir sıra hallarda, təcrid olunmuş (nəinki tarixi kontekstindən, hətta özü-özündən Şimalı Cənubundan) yeni etnik-coğrafi mühitin mədəniyyəti kimi də baxıla bilər: müasir Azərbaycan mədəniyyətində ümumi professionalizm daha çox "avropalaşma" hesabına yüksəlmişdir.

Bununla belə, mədəniyyətin yenidən təşkilinin tarixi təcrübəsi mövcuddur və həmin təcrübəyə əsaslanıb (əlbəttə, geniş müzakirələr, hərtərəfli analitik təhlillər zəminində) bir sıra mülahizələr söyləmək mümkündür.

...Folklordan başlamaq lazım gəlir. Folklor ədəbiyyatının, musiqisinin, təsviri-sənətinin professional mədəniyyəti dirçəltməsinin nə demək olduğu XVII-XVIII əsrlərin, XX əsrin 30-cu illərinin təcrübəsində özünü göstərmişdir...

Lakin bu zaman folklorun etnik saflığı gözlənilməlidir. Qədim sami, İran (o cümlədən, xüsusilə Avesta) miflərinin, nağıllarının və s. Azərbaycan folkloru kimi təqdimi nəticə etibarı ilə mədəni quruculuq işində keçmiş səhvlərin bir daha təkrarına gətirib çıxarardı.

Folklor təfəkkürünü canlandırmadan, folklor yaddaşını oyatmadan Azərbaycan mədəniyyətini haqqında bəhs olunan təbii-tarixi inkişaf kontekstinə qaytarmaq mümkün deyil.

Nəhayət, Azəbaycan mədəniyyəti (məhz təbii tarixi inkişaf kontekstində) dünya mədəniyyətinin hazırkı səviyyəsi ilə ayaqlaşmağa, dünya proseslərini ehtiva etməyə, milli mənafe və tələblər baxımından araşdırmağa istiqamətləndirməlidir Azərbaycan mədəniyyətinin beynəlmiləl məzmunu, məsələn, hər cür Avropa musiqisinin azərbaycanlı ifaçı tərəfindən orta səviyyədə (lap elə sənətkarlıqla) ifası kimi düşünülməməlidir, dünyəvilik müasir Azərbaycan mədəniyyətinin daxili keyfiyyəti kimi anlaşılmalı və praktikada təqdir olunmalıdır.

Milli mədəniyyət millətin, xalqın, mənəvi xarakterini müəyyən edir və millət o zaman yaşamaq səlahiyyətinə malik olur ki, onun mükəmməl mədəniyyəti olsun; müasir Azərbaycan mədəniyyətinin tarixi perspektivini təyin etmək üçün bu gün düşünmək, özü də dərindən düşünmək lazımdır...



Azərbaycan xalqının böyük mədəniyyət potensialı (enerjisi!) var. Və bu potensialdan istifadə etməklə sabah milli mədəniyyətin ən gözəl nümunələrini yaratmaq mümkündür. Bunun üçün hər şeydən əvvəl, vaxtilə dövlətin yaratmış olduğu, hazırda son günlərini yaşayan (və intriqa yuvasına çevrilən) yaradıcılıq təşkilatları ləğv edilməli, fərdi yaradıcılıq təşəbbüsləri hər vasitə ilə müdafiə olunmalıdır. Azərbaycan xalqının özünədönüşü milli mədəniyyətin inkişafı üçün elə günü bu gün güclü ictimai stimul yaradır millət qarşısıalınmaz bir ehtirasla onun ruhunu oxşayacaq, onu doyduracaq mədəniyyətin təzahürünü gözləyir. Azərbaycan milləti həmişə mədəniyyətdə özünün türklüyünü (qədim türk eposundan, milli eposdan gələn türklüyünü), müsəlmanlığını (güclü simvolikanı, harmoniyanı, simmetriyanı...) və müasirliyini (müasir dünya mədəniyyəti ilə analogiyanı, oxşarlığı, ümumbəşərliyi) görəcəkdir. Bu, mədəniyyətin böyük improvizasiya imkanları olacaqdır. Çünki onu ideologiya yox, stixiya yaradacaqdır. O millətin ki, stixiyası mükəmməldir, istedadı dolğundur, onun yaratdığı mədəniyyət bütün millətlər üçündür, necə deyərlər, ümumbəşəridir. Və biz əminik ki, Azərbaycan xalqının bugünkü yaradıcılıq enerjisi (stixiyası!) sabah milli mədəniyyətin faktına çevriləcəkdir. Azərbaycan türk mədəniyyəti təkcə dünənin mədəniyyət deyil, həm də bugünün və sabahın mədəniyyətidir.

*Azərbaycan mədəniyyəti, xüsusilə ədəbiyyatı yalnız Azərbaycan dövlətinin ərazisində (və siyasi-ideoloji nəzarəti altında) yaranmamışdır ümumiyyətlə, hər bir xalqın ədəbiyyatı nə qədər müxtəlif sosial-siyasi, mənəvi-ideoloji, kulturoloji (mədəni) mühit, yaxud regionlarda təzahür etsə də, genotipinə (etnik topologiyasına) görə vahid, bütöv bir hadisədir.* İki Alman, iki Koreya, iki Vyetnam... və iki Azərbaycan ədəbiyyatı barədə bəhs etməyin heç bir elmi-metodoloji əsası yoxdur. Lakin bunu da inkar etmək olmaz ki, eyni bir xalqın ədəbiyyatı iki müxtəlif sosial-siyasi, mənəvi-metodoloji məkanda fəaliyyət göstərirsə, istər-istəməz fərqli ideya-estetik xüsusiyyətlərlə yüklənir.

Azərbaycan ədəbiyyatı ümumtürk ədəbiyyatından təxminən IX-XII əsrlərdə ayrılıb (diferensiasiya olunub) müstəqil-

ləşmişdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, həmin müstəqilləşmə prosesində Azərbaycan türk şairlərinin (Ə.Gəncəvi, Q.Təbrizi, Ə.Xəqani, M.Gəncəvi, N.Gəncəvi...) farsca yaradıcılığı xüsusi rol oynamışdır. XIII əsrdən etibarən Azərbaycanda (həm Şimalda, həm də Cənubda) türklüyün sosial-mədəni mövqeyinin həlledici dərəcədə güclənməsi (monqol-tatar yürüşlərinin də buna böyük təsiri oldu) nəticəsində poeziyada fars dilinin nüfuzu sındırıldı, ondan sonra farsdilli poeziya bir də XI-XII əsrlərdəki səviyyəsinə qalxa bilmədi. Azərbaycan şairləri bütün orta əsrlər boyu Azərbaycan türkcəsi ilə yanaşı farsca da, hətta ərəbcə də yazdılar, lakin Azərbaycan türkcəsi Azərbaycan poeziyasının aparıcı dili olmaq missiyasını heç vaxt əldən vermədi. Şərqi Anadolu şairləri İ.Nəsimi, Kişvəri, Ş.İ.Xətai, M.Füzuli, M.Əmani xətti ilə gedən ədəbi proses həm Şimalda, həm də Cənubda bütöv Azərbaycan poeziyasının orta əsrlər mənzərəsini yaratdı.

"Koroğlu", "Əsli və Kərəm", "Aşıq Qərib", A.A.Tufarqanlı, Xəstə Qasım, Sarı Aşıq... Şimalda Şirvan şairləri, M.V.Vidadi, M.P.Vaqif, Cənubda Təbriz şairləri, Telimxan... XIX əsrdə Ə.Nəbati, Q.Zakir, nəhayət, Azərbaycanın Şimalı ilə Cənubunu həm həyatında, həm də yaradıcılığında birləşdirən M.F.Axundov... XIX əsrin sonu XX əsrin əvvəllərindəki mürəkkəb ədəbi ideoloji proseslər...

Düzdür, XIX əsrin ortalarından başlayaraq Şimalda Rusiya, Qərb düşüncə tərzi, rus dili... Cənubda İran, Şərq düşüncə tərzi, fars dili... Azərbaycanı həm siyasi, həm də mənəvi-ideoloji baxımdan ikiyə parçalamağa cəhd edir (XIX əsr Azərbaycanın ən böyük mütəfəkkiri "Qərb"də Axundov, "Şərq"də Axundzadə olur!), lakin XX əsrin əvvəllərində ədəbi-ictimai (milli!) oyanma (və həmin oyanmanın doğurduğu çoxyönlü, çoxçeşidli və çoxmənalı ideya-estetik təlatümlər, tendensiyalar) Azərbaycan məsələsinə vahid hadisə olaraq yanaşır...

Ümumiyyətlə, hər hansı xalq olursa-olsun onun ədəbiyyatında milli birlik, bütövlük ideyaları həmin xalqın tarixinin ancaq müəyyən dövrlərində, mərhələlərində (əgər buna milli ideoloji ehtiyac varsa) özünü göstərir. Nə M.Füzulidən, nə də M.P.Vaqiflə Telimxandan milli birlik, bütövlük ideyalarının



tərənnümünü gözləmək olmaz (halbuki sonuncularla eyni dövrdə yaşamış türkmən şairi Məhtimquluda bu var), ancaq M.P.Vaqif də, Telimxan da M.Füzulidən sonra kifayət qədər demokratik, xəlqi (milli!) bir ədəbiyyat, poeziya yaratmışlar... XX əsrin əvvəlləri isə sözün geniş mənasında, milli özünü axtarış dövrüdür. Bu dövrdə Azərbaycanın həm Şimalını, həm də Cənubunun təmsil edən həm romantiklər, həm realistlər, həm də bir növ orta mövqe tutan maarifçilər o zamana qədər lazımi səviyyədə qoyulmamış möhtəşəm suallara cavab axtarırlar: "Azərbaycan haradır?", "Azərbaycan türk milləti kimdir, yaxud kimlərdən ibarətdir?", "Azərbaycan türk dili hansı dildir?".

...Və istər həmin suallarda, istərsə də həmin suallara verilən kifayət qədər müxtəlif cavablarda Azərbaycanın Şimalı ilə Cənubu heç zaman biri digərindən ayrılmır. Lakin onu da etiraf edək ki, milli düşüncənin çox fəal olduğu XX əsrin əvvəllərində Azərbaycanın Şimalı ilə Cənubunun vahid bir dövlət tərkibində birləşdirilməsi ideyası lazımi səviyyəyə qaldırılmamış, bütün kəskinliyi ilə irəli sürülməmişdir.

Heç şübhəsiz, birinci səbəb o idi ki, müxtəlif dövlətlərin tərkibində olmalarına baxmayaraq, Azərbaycanın Şimalı ilə Cənubu arasında bütün XIX əsr boyu, eləcə də XX əsrin əvvəllərində kəskin sərhəd yox idi, gediş-gəliş, müxtəlif xarakterli informasiya, ideya mübadilələri üçün xüsusi maneələr qoyulmamışdı. Şimalda yaranan ədəbiyyat Cənuba, Cənubda yaranan ədəbiyyat Şimala kifayət qədər intensivliklə yayıla bilirdi. Azərbaycan mətbuatı həm hər iki Azərbaycan üçün yazırdı, həm də hər iki Azərbaycanda oxunurdu (elə ki, İran hökuməti "Molla Nəsrəddin"inin Cənuba keçməsinə mane olurdu, jurnal dərhal öz etirazını bildirirdi).

İkinci səbəb o idi ki, XX əsrin əvvəllərində ümumən dünya, o zamana qədər görünməyən bir səviyyədə mədəni-mənəvi, hətta siyasi təmas, ünsiyyət hərəkatı gedirdi, müxtəlif ideyalar (ideologiyalar) dünyadan geri qalmış regionlara, məmləkətlərə belə yol tapıb onların xalqlarını "təməddün"ə, beynəlxalq proseslərə qoşurdu. Azərbaycan mühitində (və dünyada gedən ideya-siyasi hərəkatın təsiri ilə) formalaşmış fikir adamları mütəfəkkirlər, ideoloqlar yalnız Azərbaycan miqya-

sında deyil, daha geniş miqyasda (ümumtürk, ümummüsəlman, ümumşərq...) düşünürdülər (məsələn, Əli bəy Hüseynzadə)... Və üçüncü səbəb o idi ki, Rusiya ilə İran arasında Azərbaycan məsələsi ilə əlaqədar olduqca möhkəm, olduqca "səmimi" bir anlaşma yaranmışdı (sonralar həmin "səmimiyyət"i heç sovet ideologiyası da zədələyə bilmədi). Ona görə də ayrılıqda Şimalda, yaxud ayrılıqda Cənubda müstəqil Azərbaycan dövlətləri (müvəqqəti də olsa!) qurula bilirdi, ancaq Şimalla Cənubun bir dövlət tərkibində birləşdirilməsi mümkün olmurdu...

XX əsrin əvvəllərində Şimalda mədəni-ədəbi, siyasi təfəkkürün Cənubla müqayisədə daha irəli çıxdığı, daha mürəkkəb, daha aktual problemlər üzərində düşündüyü şübhəsizdir bu, hər şeydən əvvəl, Rusiya ilə İranın o dövrdəki inkişaf səviyyəsi ilə bağlı idi. Rusiya Qərbi Avropadan gələn çoxyönlü, çoxmənalı ideologiyalar üzərində baş sındırdığı illərdə İran hələ deyəsən orta əsrlər həyatının sxolastikasından ayrılmaq istəmirdi.

Lakin ictimai-siyasi həyatın kütləvi fəallığı baxımından Cənub Şimaldan irəlidə idi Təbriz müxtəlif şüarlar altında döyüşür, xalq inqilabçılarının (xüsusilə Səttar xanla Bağır xanın) şərəfinə həm Cənubda, həm də Şimalda gözəl əsərlər yaradılırdı (məsələn, M.Ə.Sabirin Səttarxana həsr olunmuş məşhur şeri). Cənubda ictimai-siyasi fəallığın bir göstəricisi də İran təbəəsi olan Azərbaycan türklərinin Azərbaycanın Şimalı ilə intensiv əlaqəsi idi. Bakıda neft sənayesinin inkişafı, beynəlxalq kapitalın buraya axını və işçi qüvvəsinə ehtiyacın artması ilə bağlı olaraq haqqında söhbət gedən dövrdə minlərlə, hətta on minlərlə cənublu Bakıya axışmışdı. Beləliklə, Bakı istər-istəməz hər iki Azərbaycanın siyasi-ideoloji, ədəbi-mədəni mərkəzinə çevrilir, hər iki Azərbaycanın (yəni mənəvi baxımdan bütöv Azərbaycanın!) ədəbiyyatı əsasən burada yaranır, ədəbi-ideoloji mübarizələr, münaqişələr bir qayda olaraq burada gedirdi. Həmin ədəbiyyatı hər iki Azərbaycandan olan yazıçılar, publisistlər, mütəfəkkirlər yaradırdılar.

Cənubda kütləvi düşüncənin fəallığı bəzən vulqarlığa qədər gedirdi daha çox rus liberalizminə uyan, "əzələsi boşalan" Şimaldan fərqli olaraq Cənubda orta əsrlər maksimalizmi



özünü müxtəlif sahələrdə göstərirdi: bir tərəfdən, İrandan (Azərbaycanın Cənubundan) Zaqafqaziyaya (Azərbaycanın Şimalına) müxtəlif dini təriqətlər ixrac olunur, təriqətçiliyi yaymaqla müxtəlif bəd əməllər törədilirdi (C.Məmmədquluzadənin "Ölülər"indəki kimi); digər tərəfdən, Bakıya neft mədənlərində işləməyə gəlmiş Cənublu fəhlələr Şimaldakılardan daha fəal, daha kütləvi şəkildə kommunist (sosialist) ideologiyasını "qəbul edib" beynəmiləlçi inqilabçıya, dağıdıcı qüvvəyə çevrilirdilər... Azərbaycanın Cənubundan olan çox qüvvətli şairin (Mirzə Əli Möcüz Şəbüstərinin) aşağıdakı misraları Şimaldakı kommunist ədəbiyyatı ideoloqları tərəfindən sovet dövründə çox tez-tez nümunə gətirilirdi:

Tutaq Leninin ətəyindən,
Ona pənah aparaq...

Və bir sıra siyasi-ideoloji, ədəbi-bədii materialların sistemli öyrənilməsi göstərir ki, XX əsrin əvvəlləri Azərbaycan ədəbi-ictimai təfəkküründə Cənubun payı Şimalın payından az deyil... Bu isə o deməkdir ki, millətin qarşısına qlobal problemlər çıxanda ona Şimal bir cür, Cənub isə başqa cür reaksiya verməmiş, ümumi ideoloji ədəbi estetik mövqedən çıxış edilmiş, vahid (ümummilli) düşüncə mədəniyyətində hər iki Azərbaycan üzvi əlaqədə təmsil olunmuş, bütün bunların nəticəsi olaraq bütöv Azərbaycan ideyası (əsasən, mənəvi-mədəni baxımdan!) formalaşıb yayılmışdır.

Və Azərbaycan sonrakı illərə bu cür mənəvi-mədəni (və müəyyən qədər də ideoloji!) bütövlüklə gedir.

Azərbaycanın Şimalında sovet hakimiyyətinin qurulması (bu prosesdə bir daha xatırladırıq ki, Azərbaycanın Cənubundan olan kütlələr fəal iştirak etmişdir, əslində Şimali Azərbaycanın "qırmızı Rusiya" tərəfindən yenidən işğalı ölkənin həm Şimalında, həm də Cənubunda ədəbi-ictimai prosesə əsaslı təsir göstərir... 20-ci illərdən etibarən Azərbaycanın Şimalında "proletar" ədəbiyyatı, daha geniş miqyasda "proletar mədəniyyəti" hərəkatına rəvac verildi. Düzdür, bu hərəkat "yuxarı"dan təşkil olunurdu, lakin etiraf etmək lazımdır ki, kütlələr də həmin təşkil olunmaya qarşı ciddi müqavimət göstər-

mirdilər. 30-cu illərdə isə artıq "proletar ədəbiyyatı"nın ideoloji əsasları hazırlanmış, onu qəbul etməyən yazıçılar məhv edilmiş, ədəbiyyat işi "ümumproletar işinin bir hissəsi"nə çevrilmişdi. Və beləliklə, Şimalda ədəbiyyat "kommunizm quran Azərbaycan xalqı"nın obrazını yaratdı... 20-30-cu illərdə Azərbaycan folklorunun xeyli nümunələri dövlətin xüsusi göstərişi ilə toplanıb nəşr edilmiş, yazılı ədəbiyyat nümunələri tərtib olunub çap edilmişdi... Və Azərbaycan sovet ədəbiyyatı yalnız sovet ideologiyasından çıxmır, eyni zamanda milli ədəbi potensialdan nəşət edirdi... Azərbaycan sovet ədəbiyyatı özünü Azərbaycanın Cənubundan təcrid etmirdi. Lakin haqqında söhbət gedən dövrdə hələ "ayrılıq" mövzusu Şimalda (təbii ki, Cənubda da) geniş yayılmamışdı, İran Azərbaycanı daha çox sovet Azərbaycanı ilə müqayisə edilir, ədəbi ictimai fikir sovet Azərbaycanın nailiyyətlərini İran Azərbaycanının feodal geriliyinə qarşı qoyurdu. Maraqlı mövzulardan biri də İranda (Cənubi Azərbaycanda) milli azadlıq hərəkatının təsvirinə geniş yer ayrılması idi... Azərbaycanın Cənubunda isə irtica ədəbi-ictimai prosesi, demək olar ki, dayandırdı. Fars şovinizmi təbiəti etibarilə inqilabçı xalqı tamamilə tərksilah etmək üçün ən vulqar üsullara əl atmaqdan belə çəkinmədi. Lakin ədəbi ictimai fikri tamamilə məhv etmək, xalqın iradəsini sındırmaq mümkün olmadı...

İkinci dünya müharibəsi dövründə Azərbaycanın Şimalı ilə Cənubu arasında beynəlxalq zərurətdən doğan ədəbi-mədəni əlaqə yarandı: sovet qoşunları irəlicədən bağlanmış müqavilə əsasında İrana daxil oldu ki, onların içərisində Şimaldan olan görkəmli şairlər, yazıçılar, jurnalistlər, elm, mədəniyyət, incəsənət xadimləri var idi. Çox keçmədi ki, Təbrizdə həmin yaradıcı qüvvələrin gücünə ədəbi-mədəni mühit (hansı məzmunda olursa-olsun!) bərpa edildi. Və nəticə etibarilə Azərbaycanın Cənubunda güclü milli demokratik hərəkat başladı. XX əsrin əvvəllərindəkindən fərqli olaraq 40-cı illərin hərəkatının önündə əsasən ziyalılar, xüsusi ilə ədəbiyyat adamları gedirdilər. Hərəkat özünün böyük liderini S.C.Pişəvərini, yüzlərlə milli düşüncə, təfəkkür fədaisini yetirdi.

Ümumiyyətlə, 40-cı illərdə Azərbaycanın Cənubunda baş verən miqyası, keyfiyyəti etibarilə möhtəşəm ictimai-siyasi,



mənəvi-ideoloji hərəkat lazımi nəticəni verməsə də, millətin tarixində ən azı aşağıdakı hadisələrlə əlamətdar oldu:

1. 20-30-cu illərdə Azərbaycanın Cənubunda söndürülmüş ədəbi-mədəni, ideoloji həyat yenidən canlandı, az yaşamasına baxmayaraq ilk milli dövlət yaradıldı;
2. Şimalda Cənuba maraq gücləndi, ədəbiyyatda Cənub mövzusunun miqyası genişləndi;
3. 40-cı illərin ikinci yarısında irticanın təqibindən qaçaraq Azərbaycanın Şimalına köçən mühacirlər (onlar Cənubun görkəmli ideya, təfəkkür sahibləri, qələm əhli idilər) Şimalda Cənubun mənəvi-ədəbi obrazını təzələdilər...

40-cı illərin sonu 50-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanın Şimalında Cənub mövzusu, əsasən, "ayrılıq", "həsrət", "fəraq" motivi ilə diqqəti çəkir... Digər motivlər (Şimalla Cənubun sosial-siyasi baxımdan müqayisəsi, Cənubda milli azadlığa çağırış və s.) ya ikinci plana keçir, ya da faktik olaraq unudulur. Və "ayrılıq", "həsrət", "fəraq"... motivi, nə qədər qəribə olsa da, Azərbaycanın Cənubunu Şimal üçün bir sıra hallarda ideallaşdırır ki, fikrimizcə, bunun aşağıdakı səbəbləri olmuşdur:

1) Cənubdan Şimala mühacirət edən istedadlı ədəbiyyat, ictimai siyasi fikir adamları (B.Azəroğlu, H.Bülluri, M.Gülgün, Ə.Tudə, S.Tahir...) özlərini nə qədər doğma mühitdə hiss etsələr də, yenə Cənubun xiffətini çəkirlər;
2) Azərbaycanın Şimalında xüsusilə 50-ci illərin ortalarından başlayaraq "sovet ədəbiyyatı" (yəni bilavasitə sovet ideologiyasının təzyiqi, hökmü ilə yaranan ədəbiyyat) tədricən öz dövrünü başa vurur, milli ədəbiyyatda demokratik, humanist ideyalar qərarlaşır, gələ-gələ geniş miqyas alır;
3) Azərbaycanın Şimalı ilə Cənubu arasında müəyyənləşən kəskin sərhədlər Şimalda ədəbi-ictimai təfəkkürdə narahatlıq, bədbinlik hisslərini gücləndirir və s.

60-70-ci illərdə Azərbaycanın Şimalında elə bir şair tapmaq mümkün deyil ki, Cənub mövzusuna (əslində Cənub

həsrətinə!) bir və ya bir neçə şer həsr etməsin. Həmin şerlərdə Cənuba intəhasız bir məhəbbətin, hüdudsuz bir sevginin mövcudluğunu görürük. Xüsusilə II Dünya müharibəsi illərində Təbrizdə olmuş Şimali Azərbaycan şairləri, yazıçıları, haqqında söhbət gedən mövzunu konkret obrazlarla zənginləşdirir, real, təbii hisslərin təsvirini verirlər.

Mühacir (cənublu) söz ustaları Şimalda Cənubun ideya-estetik təəssüratını, obrazını yaradırlar... Lakin onu da qeyd edək ki, 40-50-ci illərdən fərqli olaraq, 60-70-ci illərdə həmin mühacir şairlər yaradıcılıqlarının tipologiyası etibarilə özlərini daha çox cənublu deyil, şimallı hiss hiss edirlər.

Azərbaycanın Şimalında "ayrılıq", "həsrət", "fəraq"... poeziyasını (ümumən ədəbiyyatını) yaradanlar qısa bir dövrdə milli ictimai təfəkkürdə onlarla, hətta yüzlərlə mükəmməl obrazın qərarlaşmasına, mövzunun yüksək ədəbi-bədii, sosial-fəlsəfi səviyyəyə qalxmasına nail oldular. Həmin obrazlardan, ilk növbədə, aşağıdakıları qeyd etmək lazım gəlir: "Araz", "ayrı salınmış iki qardaş", "iki sahil", "o tay – bu tay", ("o taylı – bu taylı Azərbaycan"), "Bakı – Təbriz", "Xudafərin körpüsü" ("ot basmış körpü"), "aman ayrılıq", "tikanlı məftillər", "azad quşlar", "yarıya bölünmək", "səni məndən ayıran", "qardaşla qucaqlaşmaq", "gözü yollara dikilmək", "Şəhriyar – Bəxtiyar", "sənə məndən salam olsun", "qılınc kimi aranı kəsmək", "yollar bağlı", "nələr çəkdim fərağından", "dilimiz, qanımız bir", "sənə qurban", "araya şeytan girib", "bizimki qalmış allaha", "gah o tayı, gah bu tayı öpən söyüd ağacı", "uca dağlar bir-birini görürlər" və s. və i.a.

Nümunələrin sayını bir neçə dəfə artırmaq olardı, lakin, elə bilirik ki, *bu da kifayətdir ki, haqqında söhbət gedən dövrdə milli ədəbi-ictimai təfəkkürdə (həm bu tayda, həm də o tayda!) "ayrılıq", "həsrət", "fəraq"... ideyasının nə qədər geniş miqyaslı olması barədə aydın təsəvvür yaransın. Bu isə həm rus, yaxud sovet, həm də İran ideoloqlarının vaxtaşırı Azərbaycanın Şimalı ilə Cənubunda yaşayan xalqı az qala müxtəlif xalqlar kimi təqdim etməyə çalışmalarına tutarlı cavabdır.* Azərbaycan xalqı "ayrılıq" problemini bu cür yüksək fəlsəfi-estetik səviyyəyə qaldırırsa, deməli, hər hansı şovinist, bölücü ideyanın ayaq tutub yeriməsi mümkün deyil.



60-70-ci illərdə ictimai-siyasi, ideoloji ab-havanın yumşalması ilə Azərbaycanın Şimalında kükrəyən "Cənub həsrəti"nə Azərbaycanın Cənubunda "Şimal" həsrəti ilə birinci növbədə Şəhriyar cavab verdi:

...Eşqinlə könül göz yola dikmiş yarı gözlər,
Könlüm yar itirmişsə, ara, axtarı gözlər,
Dil səbr eləyib dinməsə də, yalvarı gözlər –
Aşiq gözüdür çeşmeyi-Zəmzəm də deyirlər,
Hicran odudur, nari-cəhənnəm də deyirlər.
Bir gün olu ki, fatihə biz sağ-sola verrik,
Dünya hamı bir millət olub, qol-qola verrik,
Düşmən də məhəbbət tapa, bizlər yola verrik –
Qardaş, üzünə həsrət olub çəkməm o gün ah,
Xalqı oda yandırmağa qoyma, ulu Allah!

70-ci illərin sonu 80-ci illərin əvvəllərində İranda baş verən inqilabi dəyişikliklər Azərbaycanın Cənubunda milli azadlıq hisslərini hərəkətə gətirdi, ana dilində mətbuat o zamana qədər görünməmiş bir vüsət aldı on illər boyu xalqın dilində sıxılmış özünüifadə enerjisi bir neçə il ərzində gur püskürdü... Azərbaycanın Cənubunda yaranan ədəbiyyatın Şimalda, Azərbaycanın Şimalında yaranan ədəbiyyatın Cənubda nəşri, yayılması, Azərbaycanın Cənubu ilə Şimalı arasında ədəbi-mədəni əlaqələrin genişlənməsi beynəlxalq qaydalardan irəli gələn (və xalqın çoxillik arzularını ifadə edən) bir zərurətə çevrildi. Sərhədlərin açılması ilə, "ayrılıq", "həsrət", "fəraq"... mövzusu "vüsal" mövzusuna keçdi Azərbaycan şairləri "ağlayan Araz"ın deyil, "gülən Araz"ın dastanını yazmağa başladılar:

Külək əsir, soyuq kəsir, Araz gülür,
Qar ələnir göydən yerə narın-narın...
Yox, qar deyil, asimandan nur tökülür,
Axı ilkin görüşüdür qardaşların...
İzdihamdır Araz boyu o tay, bu tay,
Göz yaşları yuvarlanır xısın-xısın.
Atır özün donmuş suya üzə-üzə
Gəlir doğma qardaşını qucaqlasın...
(Haşım Tərlan)

*Azərbaycanın Şimalı ilə Cənubu arasında ədəbi-mədəni əlaqələrin intensivləşdirilməsi, yeni səviyyəyə qaldırılması üçün bu gün hər cür imkan vardır milli vəzifə isə həmin imkanları populist şüarlarla, iddialı bəyanatlarla məhdudlaşdırmaq yox, reallaşdırmaqdan ibarətdir ki, bunu bizdən xalqımızın yalnız keçmişi deyil, gələcəyi də tələb edir.*

***

Azərbaycan xalqı mükəmməl bir etnokulturoloji tarix yaşamış xalqlardandır ki, həmin Tarix azərbaycanlıların sosial, siyasi, ideoloji fəaliyyətinin əsaslılığını, sistemliliyini təmin edir.



## II. AZƏRBAYCANDA MİLLİ DÖVLƏTÇİLİK: TƏŞƏKKÜLÜ, TƏKAMÜLÜ... HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU, DÜNYA AZƏRBAYCANLILARININ MİLLİ LİDERİDİR

### 1. AZƏRBAYCANDA MİLLİ DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİ: İDDİALARIMIZ, İMKANLARIMIZ...

Azərbaycanlılar qədim dövlətçilik ənənələrinə malik xalqlardan sayılırlar. Hətta bir sıra tarixçilər e.ə. V minillikdə Azərbaycan ərazisində prototürk dövlətlərinin mövcudluğundan bəhs edirlər... Əlbəttə, mübahisəli mənbələrə dayanaraq bu qədər qədimə "getməy"ə elə bir ehtiyac yoxdur. Azərbaycan milli dövlətçilik təfəkkürünün əsas mənbəsi qədim türk dövlətçilik mədəniyyətidir ki, təxminən 2500 illik zəngin tarixə malikdir. Və onu da qeyd etmək lazımdır ki, qədim türk dövlətinin özü də daha qədim dövrlərin dövlətçilik ənənələrinin varisidir (məsələn, Altay imperiyasının)... Qədim türk dövləti dedikdə, birinci növbədə, yeddi-səkkiz yüz illik bir dövrü əhatə edən hun-türk dövləti (imperiyası) nəzərdə tutulur. Avrasiyanın Şərqindən Qərbinə doğru uzanan həmin dövlət-imperiya, görünür, qədim dövrün sonlarında Azərbaycanın Şimalını da ehtiva etmişdi. Əgər belə olmasaydı, hun-qıpçaqlar III-V əsrlərdə Qafqazda bu qədər möhkəm etnosiyasi mövqeyə malik ola bilməz, ərəb-müsəlman hücumları dövründə onlara qarşı uzun müddət ciddi müqavimət göstərməyi bacarmazdılar. Hər halda III-VII əsrlərdə Azərbaycanın əsasən Şimalında kifayət qədər güclü bir hun-qıpçaq dövləti olmuşdur ki, Azərbaycan tarixçiləri bu barədə nə isə inadla susduqları halda, erməni, gürcü tarixi üzrə mütəxəssislər arabir (təbii ki, istəmədən!) ona işarə edirlər.

Gümanları, ehtimalları bir tərəfə buraxıb türk dövlətçilik mədəniyyətinin Azərbaycanla sıx bağlı daha bir tarixi təkamül mərhələsi üzərində dayanaq: bu, qədim türk dövlətinin bilavasitə davamı olan türk-müsəlman dövlətidir ki, oğuz-səlcuqlarda birinci növbədə təzahür edir. Onlar Azərbaycanda geniş yayılaraq nəinki Azərbaycan xalqının etnik əsaslarını təşkil edir, eyni zamanda bu və ya digər dərəcədə müstəqil türk-müsəlman dövlətləri qururlar ki, onların içərisində ən məşhuru XII-XIII əsrlərə aid Atabəylər dövlətidir.

Oğuz-səlcuqların Azərbaycanda (və həmhüdud rayonlarda) yayılaraq ölkənin idarəsini öz əllərinə almaları "Dədə Qorqud" eposunun əsas mövzusudur. Lakin təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan tarixçiləri həmin eposu bu baxımdan araşdırmaq əvəzinə, yenə də "qədim qat"lara enməyə çalışmış, real epizodlarda belə türklərin mifoloji görüşlərini axtarmışlar. "Kitabi-Dədə Qorqud" sübut edir ki, oğuz-səlcuqların orta əsrlər üçün həqiqətən ideal dövlət quruculuğu təcrübəsi olmuşdur... Dövlətin başında xanlar xanı dayanır o, nüfuzlu, müdrik bir şəxsdir. İdarəçilik işinə onun bəylər bəyisi olan xan rəhbərlik edir. Vaxtaşırı olaraq xanlar xanının yanında Oğuz bəylərinin yığıncağı çağırılır ki, əyalətlərdə baş verən hadisələr, ümumi vəziyyət məhz həmin yığıncaqlarda müzakirə edilir. Oğuz cəmiyyətində köçəriliyin əlamətlərinə də rast gəlinir, lakin mükəmməl (və elastik!) idarəçilik iyerarxiyası dövlətin dağılmasına qətiyyən imkan vermir... Həmin dövlət idarəçiliyi, mədəniyyəti, artıq qeyd etdiyimiz kimi, müsəlman türklərinə qədim (tanrıçı) türklərdən keçmişdi. Bununla belə müsəlman türkləri orta əsrlərin bir sıra dövlət idarəçiliyi təcrübələrini də tədricən mənimsəmişdilər.

Beləliklə, eramızdan əvvəlki minilliklərin mənşəyi mübahisəli dövlətlərini nəzərə almasaq, II minilliyin ortalarına qədər Azərbaycanda biri digərinin bilavasitə varisi olan aşağıdakı dövlətçilik mədəniyyətləri mövcud olmuşdur:

1. Qədim (ümum) türk (hun-qıpçaq) dövlətçilik mədəniyyəti.
2. Türk-müsəlman (oğuz-səlcuq) dövlətçilik mədəniyyəti.

...Azərbaycanda milli dövlətçilik təfəkkürünün müəyyənləşməsində I Şah İsmayılın yaratdığı Səfəvilər dövləti xüsusi



mərhələ təşkil edir. Səfəvilərin araşdırıcısı O.Əfəndiyev göstərir ki, Azərbaycanda biri digərini əvəz edən Qaraqoyunlu, Ağqoyunlu və Qızılbaş – Səfəvi dövlətlərini məhz azərbaycanlılar qurub yaşatmışdılar, bu dövlətlər arasında bilavasitə tarixi varislik əlaqəsi mövcud idi.

Səfəvilərin İran dövləti deyil, məhz Azərbaycan dövləti olmasını sübut edən bir sıra dəlillər vardır ki, bunların içərisində dövlətin (xüsusilə onun banisi I Şah İsmayılın) dil, mədəniyyət siyasəti daha çox maraq doğurur. Belə ki, Qaraqoyunlular, Ağqoyunlular kimi Səfəvilərin sarayında, ordusunda geniş yayılmış ünsiyyət vasitəsi məhz Azərbaycan türkcəsi idi. Və türk-oğuz mədəniyyətindən Azərbaycan mədəniyyətinə keçid də Səfəvilər dövründən başlanır bu elə bir mürəkkəb etnokulturoloji prosesdir ki, qeyri-milli ictimai-siyasi, ideoloji şəraitdə gedə bilməzdi. Artıq qeyd edildiyi kimi, Səfəvilər dövründə sarayda xalq ədəbiyyatının, incəsənətinin nümayəndələri xüsusi nüfuza malik idilər. Nəinki XVI əsrdə, hətta XVII, XVIII əsrlərdə belə Şah İsmayıl Xətai xalq sənətkarları aşıqlar tərəfindən "mürşidi-kamil" sayılırdı. Qurbaninin aşağıdakı sözləri bunu təsdiq edir:

Mürşidi-kamilim, şeyx oğlu şahım,
Bir ərzim var qulluğunda, şah mənim...

Etiraf etmək lazımdır ki, Şah İsmayıl Xətainin övladları milli dövlət quruculuğu sahəsində qoyulmuş yolu, müəyyənləşdirilmiş ideologiyanı davam etdirə bilmədilər. XVI əsrin sonu XVII əsrin əvvəllərində isə I Şah Abbas Səfəvilər dövlətini, demək olar ki, farsların ixtiyarına verdi. Bu, milli dövlətçilik ənənələrinə, mənsub olduğu xalqa qarşı tarixi xəyanət idi. Və bundan sonra Azərbaycanın bir dövlət tərkibində olan Şimalı ilə Cənubunun yenidən ayrılması üçün şərait yarandı. I Şah Abbas Səfəvilərin mərkəzini İrana köçürməklə öz sarayını "narahat" regiondan Azərbaycandan uzaqlaşdırır, lakin Vətəni yadların ayağına verdiyi barədə düşünmürdü.

...Milli düşüncənin çiçəkləndiyi XVII-XVIII əsrlərdə (Azərbaycan İntibah dövründə!) Azərbaycanın ərazisi, daha doğrusu, azərbaycanlıların yaşadığı ərazi bir neçə dövlətin

ixtiyarında idi ki, onların heç biri xalqın Azərbaycan türklərinin milli ideallarını ifadə etmirdilər. Bu, Azərbaycan dövlətçiliyi tarixinin paradokslarından biri idi...

Səfəvilərin süqutundan sonra Azərbaycanda (və həmhüdud regionlarda) bir müddət Nadir şah at oynatdı. Lakin tarix ona az-çox mükəmməl bir dövlət qurmaq səlahiyyəti verməmişdi. Heç bir ideoloji əsası olmayan, yalnız qılınc gücünə yaradılmış dövlətin uzun zaman yaşayacağını düşünmək siyasi sadəlövhlük idi. Nadir isə dövlət xadimindən, siyasətçidən çox, qorxmaz bir əsgər, dahi bir sərkərdə olmuşdu.

...Xanlıqlar dövrü Azərbaycanın milli dövlətçilik tarixində olduqca maraqlı (və tamamilə təbii!) hadisədir. Ölkənin bu cür kiçik "dövlət"lərə parçalanmasının əsası XVI əsrdən qoyulmuşdu. Yəni hələ Səfəvilər dövründən etibarən yerli hakimlərin geniş səlahiyyətləri, hətta özlərinə məxsus hərbi qüvvələri qoşunları vardı. Bu, qədim türk dövlətçilik ənənəsindən gəlirdi. Və bu da bir paradoksdur ki, Azərbaycanda oturaq həyatın artıq möhkəmləndiyi dövrdə də köçəri türk imperiyalarının adəti qorunub saxlanmışdı. Biz xüsusilə ordunun birbaşa mərkəzi hakimiyyətə deyil, ayrı-ayrı hakimlərə tabe olması ənənəsini nəzərdə tuturuq ki, bu, yeni tarixi dövrdə Azərbaycan üçün artıq münasib deyildi. Ölkənin "narahat" geopolitik şəraiti bu cür "inzibati sərbəstlik"dən imtina olunmasını israrla tələb edirdi.

...Xanlıqlar dövründə Azərbaycanda milli dövlətçilik təfəkkürünün tamamilə süqut etdiyini söyləmək düzgün olmazdı heç olmasa ona görə ki, kifayət qədər güclü yerli idarə sistemi vardı və "dövlət"in xanın iradəsi onun bütün təbəələrinin həyatında özünü bu və ya digər dərəcədə hiss etdirirdi. Lakin mərkəzi hakimiyyətin olmaması istər-istəməz dərəbəylik əhval-ruhiyyəsi yaradır, ümummilli proseslərin lazımi miqyasda cərəyanına imkan vermirdi. Xanlıq üsul-idarəsi Azərbaycanı müxtəlif sosial-siyasi "mühit"lərə, mikroregionlara bölməklə, daxili ziddiyyətlər yaratmaqla əslində siyasi baxımdan sahibsiz bir regiona çevirdi. Və bu hadisə o zaman baş verdi ki, Şimaldan Rusiya, Cənubdan isə artıq farslaşmış İran dövləti öz hüdudlarını genişləndirməklə məşğul idilər. XIX əsrin əvvəllərindən etibarən Azərbaycan dövlətçiliyi ayrı-ayrı kiçik xanlıqların timsalında həmin dövlətlərin (Rusiyanın, İranın) işğalçılıq ehtiraslarına qarşı mübarizə aparmaqda idi. Bu amansız mübarizə milli dövlətçilik təfəkkürünün, demək olar ki, darmadağın edilməsi ilə nəticələndi...

XIX əsrin əvvəllərindən dünyanın, eləcə də Şərqlə Qərbin iqtisadi, siyasi-ideoloji münasibətlərinin tarixində olduqca qaynar bir dövr başlayır. Məhz bu dövrdə qabaqcıl Şərq mütəfəkkirləri milli birlik, ictimai ittifaq, müstəqil dövlətçilik ideyaları üzərində daha ardıcıl, daha intensiv düşünməyə ehtiyac duyurlar. Azərbaycanda bu cür mütəfəkkirlər çox olmuşdur: yalnız bir neçə möhtəşəm ad çəkməklə kifayətlənirik: A.Bakıxanov, M.F.Axundov... Və ən möhtəşəmi Şeyx Cəmaləddin Əfqani!..

...Orta əsrlərin sonu, yeni dövrün əvvəllərindən etibarən dünyanın texnoloji, ictimai-mədəni, ideoloji "tarazlığ"ı qarşısıalınmaz bir sürətlə pozulmağa başladı – hər cəhətdən irəli getmiş Qərbin hər cəhətdən geri qalmış Şərqə müxtəlif formalarda müdaxiləlıəri onu (Şərqi) tədricən silkələdi, hərəkətə gətirdi. Və Şərqin Qərb qarşısında heyrəti, tərəddüdləri, müxtəlif xarakterli reaksiyaları get-gedə daha fəal bir şəkildə təzahür etdi ki, həmin təzahürlərin ən intensivi, heç şübhəsiz, Cəmaləddin Əfqaninin fəlsəfi-ideoloji yaradıcılığı idi geri qalmış Şərqlə irəli getmiş Qərbin yeni dövrdəki çoxtərəfli münasibətlərinin tarixi xarakteri ən obyektiv şəkildə məhz həmin fəlsəfi-ideoloji yaradıcılıqda öz inikasını tapmışdır.

Şeyx Cəmaləddin Əsədabadi (Əfqani) türk dünyasının yeni dövrdə yetirdiyi ən böyük mütəfəkkirlərdən biri, bəlkə də, birincisi olsa da, onun yaradıcılığı türk dünyasında diqqəti hələ yeni-yeni cəlb etməyə başlamışdır. Cəmaləddin Əfqani o mütəfəkkirlərdən olmuşdur ki, ömrünün çoxunu səyahətlərdə, elmi-fəlsəfi mübahisələrdə, ideya münaqişələrində keçirmiş, olduqca az yazmışdır. Yazdıqlarının da çoxu bilavasitə şifahi təfəkkürün məhsulu olan müraciətlərdən, yaxud bu və ya digər aktual məsələ üzərində düşüncələrdən ibarətdir. Böyük mütəfəkkir müxtəlif ölkələrdə yaşamış, müxtəlif dövlətlərin başçıları (İran şahı, Türkiyə sultanı, Rus çarı...) ilə görüşüb xüsusilə müsəlman Şərqinin gələcəyi barədə söhbətlər etmiş, istər həmin ölkələrin,

istərsə də Qərbin böyük ideya-fikir adamları ilə müxtəlif mövzularda fəlsəfi polemikalar aparmış, özünün ya bilavasitə, ya da bilvasitə ideya davamçılarını yetirmişdir. Ona görə də Cəmaləddin Əfqaninin fəlsəfi-ideoloji yaradıcılığı barədə danışarkən mütəfəkkirin yalnız əsərlərindən çıxış etməklə kifayətlənmək olmaz, onun tələbələrində yaşayan "ruh"unu da dindirmək lazım gəlir. Çünki yeni dövrün böyük müsəlman filosofunun XIX əsrin ikinci yarısında təbliğ elədiyi ideyaların çoxu XX əsrin əvvəllərində (yeni tarixi şəraitdə!) müsəlman Şərqində, (eləcə də Azərbaycanda) geniş yayılaraq ictimai-siyasi proseslərə əhəmiyyətli (hətta demək olar ki, həlledici!) təkan vermişdir ki, həmin ideyalardan ən mühümü "milli vəhdət fəlsəfəsi"dir.

Əsasən panislamist kimi tanınan, çox hallarda panislamizmin banisi sayılan Cəmaləddin Əfqaninin eyni zamanda "milli vəhdət fəlsəfəsi"nin müəllifi kimi məşhurlaşması nədən irəli gəlirdi? sualına cavab vermək o qədər də çətin deyil. Məlum olduğu kimi, yeni dövrdə (XVII əsrdən sonra) müsəlman Şərqində aparıcı ideologiya müsəlmançılıq, yaxud, ümmətçilik idi, digər ideologiyalar həmin ideologiyadan çıxırdı, istər-istəməz onun "semantika"sını daşıyırdı. Cəmaləddin Əfqaninin böyüklüyü onda oldu ki, belə bir dövrdə "milli vəhdət fəlsəfəsi"ni çox cəsarətlə irəli sürüb hər bir müsəlmanın eyni zamanda bir türk, fars, ərəb, yaxud hind olduğunu dedi.. Böyük mütəfəkkir "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" adlı fəlsəfi traktatında göstərirdi ki, hər bir insan bir qəbilə vəhdəti içində öz varlığını tapır. Bu ictimai varlığın, kollektivin həyat ruhu mütləq yaxınlıqdır. Bu mütləq yaxınlıq müxtəlif insanların toplusundan ibarət olan qəbiləni (tayfanı) vadar edir ki, hamı bir nəfər kimi öz mənafeyini təmin etmək üçün bütün bacarığından istifadə etsin, ümumi təhlükəni hamı ilə birlikdə əl-ələ verərək aradan götürsün, digər qəbilələrlə birlikdə yoldaşlıq etsin, həmişə öz tayfasına xoş güzəran və müvəffəqiyyət axtarsın. Sonra bu vəhdət qəbilə birliyinə, o da vahid millətə gətirib çıxarır.

Göründüyü kimi, burada xalqı, milləti təşkil edən faktorlar içərisində nə din, nə dil faktorundan bəhs edilir, daha çox ictimai-mənəvi birlikdən söhbət gedir. Qərbdə bu səviyyəli



fəlsəfi mülahizələr XVIII əsrdən söylənməyə başlanılmışdır (İ.Q.Herder, İ.Kant, G.V.Hegel). Şərq filosofu üçünsə həmin mülahizələr XIX əsrdə də kifayət qədər böyük düşüncə orijinallığı, şəxsi cəsarət tələb edirdi.

Həm Şərq, həm də Qərb cəmiyyətinin əsaslarına yaxşı bələd olan Cəmaləddin Əfqani Şərqin Qərbdən geri qalmasının səbəbini birincisinin fəlsəfi təfəkkürdən geri qalmasında görür... Və deyir: "Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər. Osmanlı dövləti, eləcə də Misir 60 ildir ki, elmlərin təlimi üçün məktəblər açmışdır və hələ də ondan bir xeyir götürməmişdir...". Cəmaləddin Əfqaninin fikrincə, fəlsəfə (!) olmayan yerdə heç nə yoxdur "fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz, həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək...". Məsələn, "islamın ilk dövrlərində müsəlmanlar heç bir elmə malik deyildilər (yəqin ki, söhbət ərəblərdən gedir – N.C.). Ancaq islam dəyanəti ucundan onlarda əmələ gələn fəlsəfi ruh vasitəsilə dünya və insan haqqında mübahisələrə başladılar".

Orta əsrlərin sonu, yeni dövrün əvvəllərindən etibarən müsəlman Şərqində dini ideologiya Qərblə-Qərb təfəkkür tərzi ilə üz-üzə dayanmalı oldu. Və həmin ideologiyadan tələb olundu ki, Qərbin nə üçün inkişaf edib Şərqi əsarət altına aldığı, Şərqin isə get-gedə daha çox əsarət altına düşdüyünü izah etsin... İslam ideoloqları həmin tələbata cavab vermək imkanına malik deyildilər, ona görə də belə bir təsəvvür (mif!) yaratmağa çalışırdılar ki, Qərbin Şərqə qarşı istifadə etdiyi "təcavüz" metodları qeyri-etik metodlardır. Qərb ümumiyyətlə əxlaqsızlıq mənbəyidir... Cəmaləddin Əfqani bu cür asan yol (mif yaratmaq yolu!) tutmaq istəmədi o qəbul etdi ki, Şərq xalqları Qərb xalqlarından geri qalmışdır. Və bu, iddialı Şərqin filosofu üçün böyük qələbə idi...

Həmin "qələbə"dən (əslində, məğlubiyyətdən!) sonra Cəmaləddin Əfqani belə bir suala cavab verməli idi ki, Şərqin geri qalmasında İslam dininin günahı, yaxud Qərbin irəli getməsində Xristian dininin xidməti nədən ibarətdir?.. Böyük mütəfəkkir müxtəlif tarixi faktlara əsaslanaraq göstərir

ki, "istər müsəlman, istər xristian və ya bütpərəst olsun, fərqi yoxdur, bu dini tərbiyə sahəsində bütün millətlərin əvvəlki barbarlıqdan qurtulub daha qabaqcıl bir mədəniyyət səviyyəsinə doğru irəlilədiklərini inkar etmək də mümkün deyildir". Və beləliklə müxtəlif mənşəli xalqlar arasında kifayət qədər uğurla yayılan dinlər, o cümlədən də islam dini ilk dövrlərdə güclü fəlsəfi ruha malik olduğu halda, sonralar (görünür, orta əsrlərin sonlarında), filosofun fikrincə, anti-fəlsəfi məzmun kəsb etməyə, hətta vicdan azadlığını (fəlsəfəni!) boğmağa, elmləri simasızlaşdırmağa başladı. Ona görə də Cəmaləddin Əfqani Şərqin geri qalmasının səbəbini islamda deyil, "cahil təfsirçilərin islama etdikləri əlavələr"də görür. Çünki "elmə və mədəniyyətə ən yaxın və ən doğma din islam dinidir, elm və maarifin inkişafı ilə islam qanunları arasında heç bir ziddiyyət yoxdur". Höccətül-islam Qəzzali deyirdi: "İslam dininin həndəsə və fəlsəfə elmlərinə, eləcə də təbiət qanunlarına zidd zənn edən şəxs islamın cahil və nadan dostudur və bu cahil və nadan dostun zərəri zındıqlardan və islam düşmənlərinin zərərindən daha çoxdur". Müsəlman Şərqində "məntiq elmini hər kəs öyrənməlidir ki, həqiqəti yalandan, düzü əyridən seçə bilsin. Halbuki bizim müsəlman məntiqçilərinin başı mövhumatla və boş-boş şeylərlə doludur. Bunların təfəkkürü ilə avamların təfəkkürü arasında heç bir fərq yoxdur".

Ümumiyyətlə, hər şeydən əvvəl, iudaizm, buddizm və xristianlıqdan fərqli olaraq islam dünyanın daha ağıllı dövründə, yəni, zəkanın (fəlsəfənin) ibtidai inamları, mifologiyanı sıxışdırdığı bir dövrdə formalaşdığına görə əvvəlki dünya dinlərindən daha çox fəlsəfi olmuşdur; ikincisi, islam həm təşəkkül-formalaşma, həm də yayılma-mənimsənilmə (ictimai şüura yiyələnmə) prosesində əvvəlki dinlərin, dünyagörüşlərin proqressiv təsirini öz üzərində hiss etdiyi üçün dünyaya həmin dinlərdən, dünyagörüşlərdən daha açıq olmuş, fikir plüralizminə kifayət qədər geniş imkan vermişdir; üçüncüsü, müxtəlif etnik mənşəyə, etnopsixologiya və etnik dünyagörüşlərinə mənsub xalqlar (ərəblər, farslar, türklər və b.) tərəfindən bir neçə əsr ərzində (və islama qədərki zəngin düşüncə mədəniyyəti əsasında!) qəbul edilən islam istəristəməz çevik təfəkkür mühitləri ilə hesablaşmalı olmuşdur...



Cəmaləddin Əfqani mühafizəkar islam ruhanilərindən, "filosof"larından fərqli olaraq, müsəlman Şərqinin (ümumən Şərqin!) Qərb elmi, mədəniyyəti, həyat tərzi qarşısına cəsarətlə çıxmasını tələb edirdi. Şərq dövlətlərinin despot hökmdarına məsləhət görürdü ki, dövlətin idarə olunmasında demokratiyaya şərait yaratsınlar, xalqın təbii tarixi istedadını boğmasınlar... Böyük mütəfəkkirin ömrünün sonlarında İstanbulun Babi-ali zindanından iranlı həmməsləklərinə yazdığı son məktubunda göstərdiyi kimi, onun sözünə baxan olmadı: "Əkdiklərimi biçəmmədim, bəslədiyim arzulara çatammadım. Qəddarlıq qılıncı qoymadı ki, Şərq xalqlarının oyanmasını görəm. Cəhalətin mənfur əli imkan vermədi ki, xalqların azadlıq deyən səsini eşidəm... Mənim faydalı təkliflərimdən heç biri Şərq müstəbidlərinin qulağına girmədi. Bununla belə Cəmaləddin Əfqani Şərq xalqlarının öz istedadları etibarilə Qərb xalqlarından heç də geri qalmadıqlarına əmin idi Şərq xalqları içərisində də ən çox İran (o cümlədən Azərbaycan – N.C.) xalqına inanırdı: "Mən həqiqətən inanıram ki, İran xalqı fövqəladə təbii istedad və zövqə malikdir. İran xalqı başqa Asiya xalqlarından daha çox tərəqqi və inkişafa layiqdir. İran millətinin parlaq ədəbi və fəlsəfi tarixi onları başqa müsəlman xalqlarından fərqləndirir. İranlıların xeyirxah və insanpərvərlik məfkurələri başqa xalqlardan daha güclüdür". Hacı Məstan Dağıstaniyə məktubunda böyük mütəfəkkir yazır: "İranlıların siyasətdə və söz sənətində məharətləri vardır, lakin onlar alimi-biəməldilər. Əgər söz-söhbətə sərf etdikləri qüvvənin yüzdə birini işə sərf etsəydilər, İran indi tərəqqi, qüvvət, sərvət, əzəmət baxımından böyük dövlətlər cərgəsində dayanmışdı".

Cəmaləddin Əfqani Şərqin Qərbdən geri qalmasının səbəbini despotizmdə, yuxarıdan aşağı zülmdə, ədalətin, insafın, mürvətin olmamasında görür. Və Dağıstaniyə məktubunda daha sonra yazır: "Mənim möhtərəm dostum, bu məktubda yazdıqlarım İranın indiki vəziyyətinə aiddir. Qeyd etmədiyim şeyləri də bu minvalla müqayisə edə bilərsiniz, təki bizim məmləkətin bütün müsibətlərinin səbəbinin zülm olduğu sizə aydın olsun". Böyük mütəfəkkir onu da əlavə edir ki, əgər Osmanlı dövləti Bosniyada, Hersoqovinada və Bolqa-

rıstanda ədalətli və insaflı dövlət kimi tanınmış olsaydı, o ölkələr Osmanlı səltənəti tərkibində qalardı...

Cəmaləddin Əfqani müsəlman xalqlarının həm ideya-mənəvi vəhdətindən, həm də onların etnolinqvistik müxtəlifliyindən danışırdı. Müsəlman Lüteri Qərb jurnalistlərindən birinə verdiyi müsahibədə deyirdi ki, "müsəlman xalqları öz aralarındakı ixtilaflara baxmayaraq bir-biri ilə o dərəcədə birləşmişlər ki, bir ölkədə gedən islahat, sözsüz, digər müsəlman ölkələrində də öz təsirini buraxacaqdır. İranlıların yeni mədəniyyəti qəbul etməyə və onu yaymağa zəmini və gücləri vardır. Buna görə də İranda gedən islahat və dəyişikliklər tezliklə digər müsəlman ölkələrinə də təsir edəcəkdir". İslam Şərqinin Qərb mədəniyyətini qəbul etməsində də İranın xüsusi rol oynayacağı fikri Cəmaləddin Əfqaninin İran cəmiyyətinin potensial proqressivliyinə dərin inamının nəticəsi idi. Görünür, həmin fikrin meydana çıxmasının bir səbəbi də o idi ki, İran Türkiyədən və ərəb ölkələrindən fərqli olaraq müxtəlif müsəlman xalqlarının birlikdə yaşadıqları, milli məhdudluqdan uzaq bir məmləkət idi.

Böyük mütəfəkkir yuxarıda qeyd olunduğu kimi, müsəlman Şərqində ilk dəfə "milli vəhdət fəlsəfəsi"ni dini birlik ehkamına qarşı qoymaqla kifayətlənmir, həmin fəlsəfənin kifayət qədər müfəssəl şərhini verir. "Milli vəhdət fəlsəfəsi və dil birliyinin həqiqi mahiyyəti" traktatında yazır: "Heç şübhə yoxdur ki, dil birliyi, yəni milli birlik dini birlikdən daha möhkəm və sabitdir. Çünki dil az müddət ərzində dəyişməyi və başqası ilə əvəz olunmağı qəbul etmir. Din isə belə deyil. Tarix göstərir ki, eyni dildə danışan bir millət min il ərzində öz dilinə ciddi xələl gətirmədən dinini dəyişir, başqası ilə əvəz edir.

Buna görə də dil birliyindən yaranan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha güclüdür". Ümumiyyətlə, Cəmaləddin Əfqani dilin fəlsəfi mahiyyəti barədə nəinki müsəlman dünyası, bütövlükdə dünya üçün maraqlı (və orijinal!) mülahizələr söyləmişdir. Həmin mülahizələrin əsası ondan ibarətdir ki, "dil birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz... O, müxtəlif məzhəbə qulluq edən tayfaları, müxtəlif arzularla yaşayan qəbilələri vahid bir millət bayrağı altına səsləyən, onların gücünü-



qüvvəsini birləşdirib bir məqsədə yönəldən, ictimai qüsurları birlikdə dəf etməyə, milli çətinlikləri birlikdə aradan qaldırmağa çalışan, ümumxalq səadətinə nail olmaq, müsibət və bədbəxtliklərdən nicat yolları arayıb tapmaq üçün hamını yekdil, həmrəy olmağa dəvət edən, gözəl yaşayışdan ibarət təzə həyata qovuşduran, vətəndaşların əyinlərinə istiqlal donu geydirən əsas vasitədir". Böyük Şərq filosofu sonra göstərir ki, "dil birliyi bütün bu məziyyətlərə ancaq o zaman sahib ola bilər ki, ayrı-ayrı fərdlərin dilindən təşəkkül tapmış milli dilin qorunması və zənginləşməsi üçün lazım olan hər şey edilsin. Millətin ayrı-ayrı təbəqələrinin ifadə və istifadəsi üçün möhtac olduğu bütün istilahları və kəlmələri ahəngdarlıqla təmin edə bilməyən dil o millətin fərdlərini təfriqədən qurtarıb onların birliyini yarada bilməz... Əgər bu təbəqələr hər hansı bir millətdə mövcud olmasa, əlbəttə, o millətin fərdləri arasında məişət və həyati əhəmiyyətli əlaqələr get-gedə qırılar və millət məhv olar. Nəticədə o millətin üzvləri digər millətə birləşər...". Və nəhayət Cəmaləddin Əfqani onu da qeyd edir ki, "elm və maarif əgər millətin öz ana dilində tədris olunarsa, onların öyrənilməsi daha asan olar, beyinlərə daha tez həkk edilər, daha gec unudular, elmlərin dəqiqliyinə daha artıq vaqif olunar... Bundan əlavə mədəniyyətin təsisi, millətin möhkəmlənməsi və milli birliyin davamı üçün vacibdir ki, o millətin müxtəlif təbəqələri ali təbəqənin öyrəndiyi məlumatlardan bəhrəsiz qalmasın, fayda verməyi, feyzə yetməyi həyat tələbatı kimi qəbul etsin...".

Göründüyü kimi, Cəmaləddin Əfqaninin "milli dil", yaxud "dil birliyi" barədəki mülahizələri onun "milli vəhdət fəlsəfəsi"nin bilavasitə davamı olub, müsəlman Şərqinin tarixi reallığına əsaslanır. Və bu sözləri böyük mütəfəkkirin etik görüşləri, daha doğrusu, etika fəlsəfəsi barədə də demək mümkündür. Cəmaləddin Əfqani cəmiyyətin inkişafında təlim-tərbiyənin, məktəbin rolunu ümumiyyətlə yüksək qiymətləndirsə də, belə bir fikir söyləyir ki, "müsəlmanlar təlim-tərbiyədən heç bir xeyir görmürlər. Məsələn, onlar nəhv elmini öyrənməklə məşğul olurlar. Nəhv elmindən məqsəd də budur ki, ərəb sözlərini düzgün yazıb-oxumağı öyrənsinlər. Halbuki bizim zəmanəmizdə müsəlman alimləri nəhv elmini

son məqsəd və qayə kimi qarşılarına qoymuşlar və uzun illər boyu bu elm haqqında "filosofcasına", faydasız tədqiqatlar aparırlar. Nəticədə ərəb dilində nə düzgün yaza bilirlər, nə də düzgün oxuya bilirlər. Əslində, onu heç başa düşmürlər...". Böyük mütəfəkkir əmindir ki, "müsəlman aləminin tənəzzülü, pozuqluğu əvvəlcə din başçılarında, üləmalarda əmələ gəlmiş, sonra ümmətə sirayət etmişdir". Ona görə də təbii ki, müsəlman Şərqində təlim-tərbiyə işini yuxarıdan başlamaq lazım gəlirdi, alim-üləmaları fəlsəfi təfəkkürdən məhrum bir məmləkətin ümmətini tərbiyə etmək mümkün deyildi... Çünki "insanda insanlıq oyadan, insan ləyaqətini bəyan edən, insanı doğru yola istiqamətləndirən fəlsəfədir. Mənəvi tənəzzülə uğrayan millətin, hər şeydən əvvəl, fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb-ərkan qaydaları tamam yox olub aradan çıxır". Həmin mülahizəsində Cəmaləddin Əfqani, faktiki olaraq "əxlaqın dindən asılı olmadığını, mənəviyyat qanunlarının dini ehkamlardan törəmədiyini" söyləyən İ.Kantın əxlaq fəlsəfəsinə yaxınlaşırdı. Və ümumiyyətlə, bir sıra müqayisələr Şərq filosofunun özündən bir əsr əvvəl yaşamış Qərb filosofundan ya bilavasitə, ya da dolayısı ilə öyrəndiyi qənaətinə gəlməyə hər cür əsas verir.

Cəmaləddin Əfqaninin müsəlman Şərqini tənəzzüldən xilas etmək uğrunda apardığı ideya mübarizəsi XIX əsrin sonu XX əsrin əvvəllərində yalnız davam etdirilmədi, həm də daha da genişləndi əsası Cəmaləddin Əfqani tərəfindən qoyulmuş ideyalar XX əvvəllərinin (yeni tarixi şəraitin!) mütəfəkkirləri tərəfindən aşağıdakı şəkildə ümumiləşdirildi: milliləşməli, islamlaşmalı, müasirləşməli... Şərqi tənəzzüldən xilas etməyin bu məşhur formulu gərgin fəlsəfi-ideoloji axtarışlar prosesində müəyyənləşmişdi ki, həmin prosesin mənbəyində müsəlman Şərqinin böyük mütəfəkkiri Cəmaləddin Əfqaninin sözün geniş mənasında inqilabi təfəkkürünün dayandığını söyləmək üçün, elə bilirik ki, hər cür əsas mövcuddur.

Və qeyd etmək lazımdır ki, Azərbaycanda, Türkiyədə, ərəb ölkələrində, xüsusilə İranda XIX əsrin sonu XX əsrin əvvəllərində, hətta sonralar da, bütün milli hərəkatların ideoloji əsasında birinci növbədə məhz Cəmaləddin Əfqaninin fəlsəfəsi dayanırdı.

Azərbaycanın, ümumən türk-müsəlman dünyasının böyük ideoloqları İsmayıl bəy Qasprallı, Ziya Göyalp, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə... üçün Cəmaləddin Əfqani ideyaları böyük bir məktəb olmuşdur.

...XIX əsrin sonu XX əsrin əvvəllərində milli özünüdərk (və – ifadə) Azərbaycan xalqının daxili ehtiyacı idi: elə bir ehtiyac ki, dünyada gedən qarşısıalınmaz ictimai-siyasi proseslər tərəfindən ardıcıl müdafiə olunurdu. Məhz həmin ehtiyacın (və həmin proseslərin) təsiri ilə 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti elan olundu.

...Azərbaycan Xalq Cümhuriyyətinin yaranması təxminən yüz il əvvəl məhv edilmiş milli dövlətçilik təfəkkürünü yenidən canlandırdı. Böyük dövlət xadimləri yetişdi... Və Azərbaycan xalqı həmin dövlət xadimlərinin şəxsində öz tarixi coğrafiyası, milli maraqları, beynəlxalq mövqeyi... barədə düşünməyə başladı. Cümhuriyyət mövcud olduğu iki ilə qədər müddət ərzində müxtəlif sahələrdə bir sıra uğurlar qazansa da, əsas tarixi əhəmiyyəti onda oldu ki, M.Ə.Rəsulzadənin sözləri ilə desək, millətə azadlığın nə olduğunu anlatdı. Ümumiyyətlə Azərbaycan Xalq Cümhuriyyəti qurucularının öz-özlüyündə mütərəqqi (və milli məzmuna malik!) ideyalarının həyata keçirilməsi həm daxili (milli) mütəşəkkilliyin zəifliyi, həm də xarici müdaxilələrin intensivliyinə görə mümkün olmadı.

...Sovetləşmə (kommunistləşmə!) prosesində olan Rusiya özünə gəldikdən sonra "ucqarlar"a müdaxiləsini yenidən tam gücü ilə davam etdirməyə başladıqda böyük ideallarla yaşayan Azərbaycan Xalq Cümhuriyyəti elə bir müqavimət göstərmədən süqut etdi. Cümhuriyyətin qurucuları (deməli, eyni zamanda milli dövlətçilik təfəkkürü!) yenidən amansız repressiyaya məruz qaldı. Azərbaycanda "müstəqil" sosialist (kommunist) dövləti yaradıldı... Dövlətin başına gətirilən milli kommunistlər (xüsusilə, böyük dövlət xadimi, milliliyinə heç bir şübhə olmayan Nəriman Nərimanov) bir-iki ildən sonra aldandıqlarını anlasalar da artıq gec idi. Və 1922-ci ildə Azər-

baycanın yenicə yaradılmış SSRİ-nin tərkibinə daxil olması ilə yarımçıq müstəqilliyə də son qoyuldu...

Azərbaycan SSR-in tarixi son illərdə istər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda bir sıra həm obyektiv, həm də subyektiv mülahizələrin mövzusu olmuşdur. Biz həmin mülahizələri saf-çürük eləmək, bir-birindən çox zaman kəskin şəkildə fərqlənən mövqeləri qarşılaşdırmaq fikrində deyilik. *Yalnız onu qeyd etmək istəyirik ki, sovet dövründə Azərbaycanda milli dövlətçilik təfəkkürünün bilavasitə təzahürünə imkan olmasa da, respublikanın dövlət orqanlarında çalışan, ümumən dövlət idarəçiliyi təcrübəsini yaxşı bilən kadrlar potensialı formalaşdı. Bu həmin təcrübəni çoxdan itirmiş bir xalqın tarixində olduqca əhəmiyyətli hadisə idi...* Buraya Azərbaycan cəmiyyətinin, hər hansı ideologiya əsasında olursa olsun, mütəşəkkillik səviyyəsinin yüksəlməsini, təhsilin geniş miqyas almasını, elmin, mədəniyyətin sözdə deyil, işdə (sözün həqiqi mənasında!) inkişafını, sənayeləşməni, kənd təsərrüfatında müasir texnologiyadan istifadənin intensivləşməsini... də əlavə etsək, görərik ki, "sovet azərbaycanlıları" keçən əsri bihudə yaşamamış, əksinə, dünya azərbaycanlılarının, ümumən Azərbaycan xalqının qabaqcıl (və siyasi-ideoloji baxımdan mütəşəkkil!) hissəsinə çevrilmişdir.



## 2. MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ – AZƏRBAYCAN XALQININ MİLLİ İRADƏSİNİN İFADƏSİDİR

...XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində dünyanın sonuncu imperiyası gözlənilməz bir şərəfsizliklə (və sürətlə) dağılmağa başladı həmin proses tarixə mənfiliyi, yaxud müsbətliyi bu günə qədər bilinməyən mürəkkəb xarakterli qəhrəmanlarını verdi... Azərbaycan da, bir sıra sovet sosialist ("kommunist"!) respublikaları kimi azad oldu. Özünü bu azadlığını müəllifi kimi təqdim etməyə çalışan qüvvələrin çoxluğuna baxmayaraq etiraf etmək lazımdır ki, istər Azərbaycanın, istərsə də Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın... azadlığa çıxmasının səbəbkarı əlahəzrət Tarixin özü idi. Həmişə olduğu kimi bu dəfə də Tarix növbəti səhvini düzəldir, müstəqil dövlət qurmaq istəyən xalqların qarşısında yeni imkanlar açırdı. Lakin həmin imkanlar hamıya (o cümlədən Azərbaycana) olduqca ağır şərtlər daxilində verilirdi: qarşılıqlı ərazi iddiaları, milli münaqişələr, dağılmış iqtisadiyyat, sosial-siyasi inamsızlıq, Tarixin stixiyası qarşısında bir-birinin ardınca məğlub olan iddialı "millət qəhrəmanları"... azadlığa çıxmış hər bir respublika üçün səciyyəvi idi.

Rusiya, keçmiş Sovetlər İttifaqının varisi olaraq, müstəqillik əldə etmiş ölkələrin, demək olar ki, hamısını sərbəst buraxdı və həmin ölkələrə müdaxiləsini "beynəlxalq hüquq"a hörmət daxilində həyata keçirməyə başladı. Görünür, bununla dünya ictimaiyyətinə ən azı onu sübut etmək istəyirdi ki, Rusiya beynəlxalq nüfuzunu çoxdan itirmiş SSRİ-nin varisi yox, tamamilə yeni bir ölkə, hər bir xalqın öz müqəddəratını təyin etməsi tələblərinə cavab verən yeni tipli dövlətdir. Və Rusiyadan ayrılmış keçmiş respublikalar isə Rusiyasız mövcud olmaq imkanlarından, tamamilə məhrumdurlar, əvvəl-axır (yəni başları daşdan-daşa dəyəndən sonra!) yenidən öz səadətlərini Rusiyada arayacaqlar... Həqiqətən, ağıllı siyasət idi: Tarixin dərinliklərində qalmış milli dövlətçilik mədəniyyəti, Mərkəzdən asılılıq hissi, süni (yaxud təbii!) münaqişələr,

ərazi iddiaları... İlk baxışda Rusiyanın münsifliyinə ehtiyac doğurdu... Müstəqillik əldə etmiş respublikaları qorumaq, xalqın milli iradəsinin ifadəçisinə çevirmək üçün böyük dövlət xadimləri, uzaqgörən milli strateqlər lazım gəlirdi.

*Azərbaycanda milli dövlətçilik təfəkkürü kifayət qədər zəngin (lakin zəngin olduğu qədər də mürəkkəb!) bir tarixə malikdir* ölkənin "narahat" coğrafiyası, əhalinin etnik rəngarəngliyi, müxtəlif mənşəli dünyagörüşlərinin qarşılıqlı əlaqə, ünsiyyət prosesinin doğurduğu siyasi-ideoloji problemlər Azərbaycanda milli dövlətçilik təfəkkürünün (və praktikasının) təkamülünə həmişə mane olmuşdur və həmin maneə o qədər güclü idi ki, dünyanın müxtəlif regionlarında ilk orta əsrlərdən bəri qüdrətli dövlətlər, imperiyalar yaratmış türklər belə Azərbaycanda ciddi problemlərlə qarşılaşmışlar. Hun-qıpçaqlar, oğuz-səlcuqlar, monqol-tatarlar öz passionarlıq "kükrəyib coşma" dövrlərində belə Azərbaycanı ancaq qısa bir mərhələdə idarə etmək imkanlarına malik olmuşlar.

Mərkəzləşmiş Azərbaycan dövləti yaradan səfəvilərdən sonra ölkənin xanlıqlara parçalanması, sonra isə iki müxtəlif dövlət Rusiya və İran arasında bölünməsi göstərdi ki, haqqında söhbət gedən mərkəzləşmə xeyli dərəcədə şərti imiş. Və məhz həmin şərtiliyin nəticəsi idi ki, Azərbaycan torpaqları zaman-zaman müxtəlif qonşu dövlətlər tərəfindən, demək olar ki, zəbt edildi. XX əsrin əvvəllərində yaranmış Azərbaycan Xalq Cümhuriyyəti də, hər şeydən əvvəl, ölkənin hüdudlarını müəyyənləşdirib xarici müdaxiləçilərdən, qəsbkarlardan müdafiə etmək problemi ilə üzləşdi. "Mübahisəli torpaqlar" adı ilə Qafqaz respublikaları arasında münaqişə predmetinə çevrilmiş ərazilərin hamısı Azərbaycana məxsus idi, həmin ərazidə məhz azərbaycanlılar Azərbaycan türkləri yaşayırdılar. Azərbaycan Xalq Cümhuriyyəti ölkənin hüdudlarını müdafiə etmək, müxtəlif etnosları bir cəmiyyət halında birləşdirmək, bütöv bir sosium formalaşdırmaq gücünə malik deyildi. O, daha çox milli dövlətçilik təfəkkürünün metaforik təzahürü idi. Azərbaycan SSR də, əslində, həmin metaforanın davamı sayıla bilər. Lakin məsələ burasındadır ki, XX əsrin ortalarında ölkədə milli dövlətçilik təfəkkürünün çiçəklənməsi üçün yenidən tarixi şərait yetişməyə başladı. Lakin simvolik funksiya daşıyan dövlət rəhbərləri respublikada həmin prosesin lazımi intensivlikdə getməsinə, milli dövlətçilik təfəkkürü olan kadrların formalaşdırılmasına diqqət yetirmədilər. Heydər Əliyevin respublikada rəhbərliyə gəlməsi ilə Azərbaycan nəinki sovet dövlətinin mərkəzin verdiyi imkanlar daxilində, hətta müəyyən maneələri dəf edərək müstəqil düşüncəyə meydan açdı. 70-80-ci illərdə Azərbaycanda gedən milli oyanış, siyasi-ideoloji dirçəliş prosesinin nəticələri özünü 80-ci illərin sonu 90-cı illərin əvvəllərindəki xalq hərəkatında göstərdi. Əlbəttə, biz demək istəmirik ki, Azərbaycan Respublikasının rəhbəri 70-ci illərdə Azərbaycan xalqını milli-azadlıq hərəkatına hazırlayırdı, burada söhbət ondan gedir ki, Heydər Əliyev xalqın enerjisinin, milli müstəqillik hissinin təzahürünə çalışır, onu dünyanın inkişaf etmiş xalqlarının səviyyəsinə çatdırmaq istəyirdi. Və bütün bunları böyük bir cəsarətlə, gördüyü işin düzgünlüyünə tarixi bir inamla edirdi. Əgər müqayisə aparsaq, etiraf etməli olarıq ki, Azərbaycanın dövlət rəhbərləri içərisində Heydər Əliyev qədər böyük idarəçilik təcrübəsinə (və istedadına!) malik ikinci bir şəxs olmamışdır. Onun imzasına 60-cı illərin sonu 70-ci illərin əvvəllərindən Azərbaycanın hər yerində, iqtisadi, ictimai-siyasi, mənəvi-ideoloji həyatın, demək olar ki, bütün sahələrində rast gəlmək mümkündür. 70-80-ci illərin Azərbaycanını ən müxtəlif baxımlardan "Heydər Əliyevin Azərbaycanı" adlandırılmaq üçün hər cür əsas vardır.

Sovet dövləti dağıldıqdan sonra Azərbaycanda ən çox xatırlanan, müstəqil respublikanın dövlətçiliyini formalaşdırmağa dəvət edilən, istedadına istinad olunan şəxs Heydər Əliyev idi.

Xalq hərəkatının, müxtəlif xarakterli münaqişələrin təşkili ilə hakimiyyətə gələn qüvvələrin dövlət idarəçiliyi sahəsində təcrübəsizliyi ortaya çıxanda isə Azərbaycanın məhz "Heydər Əliyevin Azərbaycanı" olduğu bütün aydınlığı ilə təzahür etdi. Bir sıra siyasi tarix mütəxəssisləri, publisistlər 1993-cü ilin iyun "qiyam"ını Heydər Əliyevin hakimiyyətə gəlməsində xüsusi hadisə kimi təqdim edirlər. Lakin bununla razılaşmaq çətindir. Heydər Əliyevin hakimiyyətə gəlişi 90-cı illərin ilk aylarından artıq reallıq idi. Bir-birinin ardınca baş verən hadi-

sələrin inersiyası, get-gedə güclənən xaos "ölkənin sahibi"ni tələb edirdi. Hüdudsuz "demokratiya"nın, müxtəlif mərkəzlərdən idarə olunan hərc-mərcliyin, hakimiyyət uğrunda mübarizənin mahiyyəti, iç üzü ortaya çıxdıqca və nəhayət, Heydər Əliyevin yaratdıqları xalqın gözləri qarşısında dağıldıqca böyük dövlət qurucusuna, ictimai harmoniya ustasına meyl də güclənirdi. O, Azərbaycan xalqına yalnız bilavasitə idarəedici, dövlət qurucusu kimi yox, Tarix kimi də lazım idi. 80-ci illərin sonu 90-cı illərin əvvəllərində xalqın fəhmi, ənənə olaraq istinad edəcəyi, üzərində yüksələcəyi Tarixi də axtarırdı. Həmin Tarixin xronologiyası Azərbaycan Xalq Cümhuriyyətindən başlasa da, Cümhuriyyətin "praktika"dan deyil, "nəzəriyyə"dən ibarət olması ona əsaslanmağa imkan vermirdi.

Azərbaycan SSR-i tarixinin Heydər Əliyev dövrünün milli yüksəliş təcrübəsi isə kifayət qədər zəngindir.

1993-cü ilin ortalarında Azərbaycan cəmiyyəti artıq demokratiyanı hərc-mərclikdən xilas etmək uğrunda mübarizə aparmaq üçün özündə qüdrət tapdı. Bu isə birinci növbədə *onda təzahür etdi ki*, xalq uzun illər ərzində yetirmiş olduğu tarixi liderə inamını sonsuz bir enerji ilə ifadə etdi. Və həmin inam xırda "xalq qəhrəmanları"nın, heç bir Tarixə söykənməyən siyasət fəallarının "obraz"ını ictimai təfəkkürdən bütünlüklə silib atdı. Ona görə ki, bu "qəhrəman"ları, bir daha təkrar edirik ki, Tarix yox, təsadüflər, mövcud ictimai-siyasi problem ortaya çıxarmışdı. Tarix onları inkar edirdi.

...Azərbaycanı Heydər Əliyev xilas etdi, onu bir dövlət kimi məhv olmaqdan Heydər Əliyev qurtardı dedikdə bizim nəzərimizdə, nə qədər qüdrətli olursa-olsun, təsadüfi bir xilaskar obrazı canlanmamalıdır; Azərbaycanın qurtuluşu Heydər Əliyevin şəxsində təzahür edən böyük bir milli, ictimai-siyasi enerjinin fəaliyyəti nəticəsində mümkün ola bilərdi. Və belə də oldu... Heydər Əliyevin Azərbaycanın xilası üçün gördüyü işlərin miqyasını müəyyənləşdirmək yox, ancaq təsəvvür etmək mümkündür. Bu, epik bir miqyasdır bu fəaliyyət xalqın yalnız bu gününü müəyyən etmir, onun gələcəyinə əhəmiyyətli təsir göstərir ki, bu mənada Azərbaycanın qurtuluşu bugunlə məhdudlaşmayan, gələcəyə getdikcə tarixi məzmunu daha yaxşı dəyərləndiriləcək bir hadisədir.



Azərbaycanın qurtuluşunun yekunu, yaxud nəticəsi qurtuluşun Azərbaycanıdır. O Azərbaycan ki, müxtəlif nəsillərdən olan azərbaycanlılar onu arzulamış, onun qurulması uğrunda mübarizə aparmışlar. Azərbaycan Respublikası Milli Məclisinin 1993-cü il 15 iyun tarixli iclasındakı çıxışında Heydər Əliyev həmin mübarizənin tarixi mahiyyətini ifadə edərək demişdir: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm". Bu sözlərin deyilməsindən o qədər də böyük zaman keçmir, lakin dahi mütəfəkkir, dövlət qurucusu həqiqətən müstəqil Azərbaycan dövlətinin əsaslarını yaratmış, onun demokratik inkişaf yolunu istiqamətləndirmişdir. Heydər Əliyevin zəkası öz nuru ilə yalnız bu gün deyil, sabah da müstəqil Respublikanın gələcəyini işıqlandıracaq, ona müasir dünyanın üzvi tərkib hissəsi olmaq üçün hər cür stimul verəcəkdir. Çünki Heydər Əliyev müdrikliyi yalnız bir insanın fərdi qabiliyyətinin nəticəsi deyil, bütövlükdə mənsub olduğumuz xalqın Tarixi iradəsinin ifadəsidir. Həmin iradə idi ki, milli dəyərlərin böyük daşıyıcısına 1993-cü il 15 iyun tarixli (və tarixi!) iclasda aşağıdakıları dedirtmişdi: **"...Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir".** Bununla belə Heydər Əliyev bilirdi ki, Azərbaycanın müstəqilliyini sadəcə elan etmək nə qədər sevindirici hal olsa da, xalqın milli "izzəti-nəfs"ini nə qədər oxşasa da həlledici bir şey deyil. Müstəqillik uğrunda illər boyu, tədricən, həm tələsmədən, həm də gecikmədən mübarizə aparmaq, millətin daxilindəki "kimdənsə asılı olmaq" hissini, inersiyasını öldürmək lazımdır. Çünki xalq bəzən müstəqillik uğrunda "mübarizə" prosesində məhz müstəqilliyini itirir. Odur ki, qurtuluşun Azərbaycanı taleyin ixtiyarına buraxılmış bir dövlət

təsəvvürü deyil. Dünyanın böyük dövlət qurucusunun, dahi mütəfəkkirin düşünüb müəyyənləşdirdiyi "ritm" üzrə hərəkət edən, get-gedə möhkəmlənən elə bir sosial-siyasi reallıqdır ki, bizim hər birimizin azərbaycanlı kimi vətəndaş xoşbəxtliyi ondan asılıdır. Və ona görə də biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, öz milli ənənələrini nümayiş etdirə bilsin.

Heydər Əliyev yaxşı bilirdi ki, "Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikasının ərazisində olan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malik olmalıdır".

Birillik hakimiyyəti dövründə milləti yüz yerə bölənlər düşünmürdülər ki, müxtəlif etnosların, etnik maraqların önündə "reverans" edən dövlət uzun zaman yaşamaz. Və sonrakı proseslər də göstərdi ki, etnik münasibətlər sahəsində 1991-1992-ci illərdə, 1993-cü ilin birinci yarısında buraxılmış səhvlər özünü biruzə verir. Azərbaycan dövlətinin qurucusu bir neçə il məhz keçmiş səhvlərin düzəldilməsi ilə məşğul oldu. *Qurtuluşun Azərbaycanı yalnız 1995-ci ildən sonra normal inkişaf yoluna düşməyə başladı ki, bunun da ilk rəsmi ifadəsi Azərbaycan Respublikasının Konstitusiyası oldu. Azərbaycan prezidentinin bilavasitə rəhbərliyi ilə hazırlanmış Konstitusiya məhv olmaqdan xilas edilmiş, qurtulmuş Azərbaycanın "pasport"u idi.*

...Qədim dövrlərdən etibarən Şimali Azərbaycanda Azərbaycan türkləri ilə yanaşı (və onların etnokulturoloji üstünlüyü şəraitində) İran mənşəli talışlar, tatlar və kürdlər, Qafqaz mənşəli ləzgilər yaşamışlar. Bizi hörmətli oxucular köhnə tarix kitablarının ifadələrini təkrar etməkdə günahlandırmasınlar, Azərbaycan xalqları uzun zaman, həqiqətən dostluq münasibətində olmuş, yadellilərə qarşı birgə mübarizə aparmışlar. Ona görə yox ki, Azərbaycan xalqları, deyək ki, Orta Asiya, yaxud qərbi Avropa xalqlarından mərifətli idilər; hər şeydən əvvəl ona görə ki, Azərbaycanın coğrafi-siyasi mövqeyi (və burada yaşayan xalqların yaxınlığı, qarşılıqlı ələqələrin intensivliyi) bunun məhz bu cür olmasını, ümummilli anlaşmanın çevikliyini, sürəkliliyini təmin etmişdir. Və beləliklə, on il, iyirmi il... bundan əvvəlki milli birliyi ancaq və ancaq "Lenin milli siyasəti"nin nəticəsi kimi başa düşmək, izah eləmək tamamilə yanlışdır.

"Lenin milli siyasəti" 20-30-cu illərdə ona görə uğur qazandı ki, Azərbaycan xalqlarının etnik münasibətlərinin təbii prosesini nəzərə aldı və tarixi təkamülün məntiqinə uyğun olaraq türklüyün üstünlüyünü, qeyri-türk mənşəli xalqların məhz türklük əsasında birləşdiyini, qarşılıqlı əlaqələrə girdiyini təsbit etdi: türk dilinin (Azərbaycan türkcəsinin) dövlət dili, Azərbaycan xalqlarının ümumi ünsiyyət dili kimi işlənməsi milli-ictimai təfəkkürün türklüyə əsaslanması və s. buradan irəli gəlirdi.

30-cu illərin sonlarından sovet dövləti milli siyasətdə bir növ volyuntarist mövqe tutmağa başladı: Azərbaycanda (və ümumiyyətlə, dünyada) türklüyə qarşı şeytanın belə ağlına gəlməyən üsullarla mübarizə aparıldı, lakin həmin mübarizə nə qədər aqressiv olsa da, tarixi təkamülün məntiqini sındırmaq gücünə malik deyildi. Xüsusilə Azərbaycanda türklüyə qarşı mübarizənin bütün səbəbləri barədə danışmağa ehtiyac duymadan ancaq birini göstərəcəyik. Bu da ondan ibarətdir ki, Moskva Asiyanın kandarında, qapısı ağzında milli problemləri "şərh edən" hər hansı (!) ideologiyanın möhkəmlənməsini istəmirdi. Və ona görə də həmin təcrübənin, həmin ideologiyanın əsaslarını sarsıtmaq üçün Azərbaycan xalqının mənşəyini hər cür "metodlar"la saxtalaşdırmağa, tamamilə aydın olan məsələləri dolaşdırmağa və bu sahədə yüksək ixtisaslı "mütəxəssislər" hazırlamağa başladı. Həmin "mütəxəssislər"in əksəriyyəti qeyri-türk mənşəli tədqiqatçılar idilər ki, əslində bunlar da xüsusi nəzarət altında işləyirdilər. Biz artıq bir neçə ilə davam edən müşahidələrimizə, təhlillərimizə əsasən deməliyik ki, "Azərbaycan xalqları"nı bir milli mənafe ətrafında birləşdirən ideya türklüyə deyil, iranlığa əsaslanmış olsaydı, onda türklüyə yox, iranlığa qarşı təxribat aparılacaqdı.

Azərbaycanda türklüyə qarşı aparılan mübarizə, əslində milliliyə, "Azərbaycan xalqları"nın birliyini təşkil edən ideolo-

giyaya qarşı aparılan mübarizə idi, tarixən müəyyənləşmiş birgə yaşayış qaydalarına qarşı aparılan mübrizə idi. 60-cı illərə qədər həmin mübarizə *implissit* şəkildə, gizli, "abır-həya" ilə gedirdi. 60-cı illərdən sonra elə ki, Azərbaycanın mövqeyi tədricən yüksəldi, şöhrəti genişləndi, haqqında danışılan mübarizə də gücləndi... Bununla belə "Azərbaycan xalqları" arasında etnik münaqişə səksəninci illərin ortalarından təhlükəli hal alıb milli birliyə dağıdıcı təsir göstərməyə başladı ki, bu da fikrimizcə, ən azı aşağıdakı səbəblərdən irəli gəldi:

– Moskvanın uzun illər apardığı təxribatçılıq təbliğatı, öz nəticələrini verdi, eyni zamanda "yeni" Moskva həmin təbliğatı daha vulqar şəkildə davam etdirməklə kəskinləşdirdi və bu məsələ ilə bilavasitə məşğul olan qüvvələr hərəkətə gətirildi;

– Azərbaycanda demokratik hərəkatla bağlı elə mürəkkəb şərait yarandı ki, həmin şəraitdə xarici "təcavüz"ün qarşısını almaq görünməmiş bir şəkildə çətinləşdi mövcud Azərbaycan dövlətçiliyi həm aşağıdan (demokratik hərəkatı, prinsip etibarı ilə, müdafiə etmədiyinə görə!), həm də yuxarıdan (məhz Azərbaycan dövləti olduğuna görə!) təzyiqə məruz qaldığından faktiki olaraq, şəraitə nəzarət edə bilmədi;

– Azərbaycan Xalq Cəbhəsi milli birlik mövqeyində durmağa çalışsa da, öz mövqeyini axıracan müdafiə etmək, möhkəmləndirmək imkanına malik olmadı türklük təbliğatı bir sıra hallarda vulqarlaşdırıldı və nə qədər paradoksal olsa da, eyni dərəcədə vurqarlıqla talışlıq, tatlıq, kürdlük, ləzgilik təbliğatına rəvac verildi əslində, AXC müstəqil Azərbaycan dövləti uğrunda mübarizəsini, ehtiyac olmadığı halda o qədər genişləndirdi ki, sabah, yaxud o biri gün həll ediləsi problemlərlə məşğul olmalı oldu... Məsələ isə burasındadır ki, Azərbaycanın formal müstəqilliyi əldə edildikdən sonra AXC çox hallarda özünün qaldırdığı problemləri görməməzliyə vurdu və nüfuzunu itirməmək üçün yeni (sayca üçüncü) problemlər kompleksi yaradıb həm birinci, həm də ikinci (milli münasibətlər məhz buraya daxil idi) problemlər kompleksi ilə lazımi səviyyədə məşğul olmadı.

Əlbəttə, Azərbaycanda milli münaqişələrin "səbəbkarları" içərisində Moskvanı, mövcud ictimai-siyasi şəraiti günahlandırmaq absurddur. Bəs AXC-ni günahlandırmaq necə?



AXC-nin *günahı onda oldu ki, milli münasibətlər* sahəsində (təkcə milli münasibətlər sahəsindəmi?) şəraitin mürəkkəbliyi üzündən buraxdığı səhvləri heç bir mərhələdə (xüsusilə hakimiyyətə gəldikdən sonra) təhlil edib nəticələr çıxarmadı bu da, təbii ki, anlaşılmazlıq yaratdı və etnik münaqişələrin güclənməsinə səbəb oldu.

AXC-nin milli münasibətlər sahəsində buraxdığı səhvləri AXC liderlərinin özləri daha aydın şəkildə görür, ambisiyaları, subyektiv mənafeləri üçün "öz" səhvlərindən istifadə edirdilər, – iş o yerə gəlib çıxdı ki, AXC-nin müxtəlif liderləri milli münaqişələrin ilhamçılarına çevrilməyə başladılar... Və bunun arxasınca etnik partiyalar, cəmiyyətlər təşəkkül tapıb həmin münaqişələr üçün ideoloji baza yaradanda Azərbaycan dövləti hadisələrin arxasınca gedirdi, seyrçi mövqe tuturdu bu da azmış kimi, əsaslandırılmamış qərarlar qəbul edib vəziyyətdən çıxmaq istəyirdi... Biz milli (etnik) azlıqlara müəyyən güzəştlər verilməsi ilə əlaqədar prezident fərmanını nəzərdə tuturuq. "Qarın ağrısını qarpız suyu ilə müalicə etməyə" bənzəyən bu fərman *milli birliyə nə dərəcədə kömək göstərirdi?..* Azərbaycanda şüurlu şəkildə mürəkkəbləşdirilmiş milli münasibətləri həll etməyə bu cür "folklor"dan başlamaq kimin ağlına gəlmişdi?.. Müxtəlif etnosların, xalqların etnoqrafik mənafelərini müdafiə etmək heç bir dövlətin (xüsusilə demokratik dövlətin!) vəzifəsi deyil, dövlət üçün ümummilli *mənafelər və* Vətəndaş var üç talışı, iki kürdü, yaxud bir ləzgini məhz talış, kürd, yaxud ləzgi olduqlarına görə qeyri-qanuni şəkildə universitetin tarix fakültəsinə "qoymaqla" talış tarixşünaslığı inkişaf edəcək, kürd tarixşünaslığı və ya ləzgi tarixşünaslığı?..

Azərbaycan dövlətinin ideoloji əsasları müəyyənləşdirilərkən türklüyə, artıq qeyd olunduğu kimi, üzərində düşünülməmiş bir genişliklə "meydan verildi" ilk mərhələdə bu cür meydan genişliyini anlamaq bəlkə də mümkün idi, ancaq sonrakı mərhəldə də meydanın genişləndirilməsi elə bir təsəvvür yaratdı ki, Azərbaycanda "bir xalqdan başqa bir xalqa çevrilmək" prosesi gedir... Məsələnin mahiyyətini xalqa aydın şəkildə izah eləmədən, heç olmasa bir neçə il üçün az-çox mükəmməl proqram hazırlamadan başdansovdu türklük təbliğatı Azərbaycanda antitürk (və antiazərbaycan!) əhval-

ruhiyyəsini mütəşəkkilləşdirdi belə bir mürəkkəb şəraitdə xüsusi izahat işləri aparılmadan, sabah hansı nəticələr verəcəyi götür-qoy edilmədən Azərbaycan parlamenti "Azərbaycan dili"ni "türk dili" ilə əvəz etdi. Və elə bunun ardınca mətbuatda "talış dili", "türk dili", "tat dili", "ləzgi dili" məsələləri qaldırıldı həmin dillərin də keçən onilliklərdə hüquqlarının tapdalandığı müxtəlif müzakirələrin mövzusuna çevrildi...

Azərbaycanda etnik münasibətlərin bugünkü mürəkkəbliyini şərtləndirən amillərdən biri də ümumdünya etnik proseslərində özünü göstərən gərginlikdir: hazırda türk, İran və Qafqaz xalqları son dövrlərdə baş vermiş hadisələrlə (sosialist sisteminin dağılması ilə) əlaqədar yenidən təşkil olunurlar ki, bu da "Azərbaycan xalqları"nın münasibətinə hər hansı halda təsir göstərir. Əgər biz həqiqətən müstəqil Azərbaycan dövləti istəyiriksə, haqqında danışılan ümümdünya etnik proseslərinin Azərbaycana maneəsiz "müdaxilə"sinin qarşısını almağa çalışmalıyıq...

Və ümumiyyətlə müşahidələr göstərir ki, Azərbaycanda etnik münaqişələrin hər hansı (hətta ən kiçik) təzahürünün aradan qaldırılması, vaxtilə buraxılmış səhvlərin düzəldilməsi üçün son illər aşağıdakı tədbirlər görülmüşdür:

– həm daxili və həm də xarici siyasətin ən müxtəlif məsələlərinin həllində bu və ya digər etnosun, xalqın mənafeyindən deyil, istisnasız olaraq ümummilli mənafedən, dövlət mənafeyindən çıxış edilmişdir;

– Azərbaycanın bir dövlət kimi təşkilində türklüyün tarixi mövqeyi nəzərə alınmış və təbii ki, həmin bu mövqeylə bu və ya digər etnosun deyil, millətin mövqeyi kimi davranılmışdır (vulqarlığa imkan verilməmişdir);

– heç bir etnosa siyasi səlahiyyət verilməmiş xüsusilə etnik zəmində yaradılmış partiyaların (bunların nə məqsəd daşımalarından asılı olmayaraq) ləğv edilməsinə, dünyanın müasir tipli dövlətlərinin təcrübəsinə uyğun olaraq müxtəlif etnoslara ancaq mədəni səlahiyyət verilməsinə çalışılmışdır...

Azərbaycanın bir dövlət olaraq möhkəmliyi etnik zəmində hər hansı münaqişənin aradan qaldırılması sahəsində görülərin işlərdən bu gün nə qədər asılıdırsa, sabah ondan da çox asılı olacaqdır.



...Azərbaycanın müstəqil bir dövlət kimi formalaşıb sürətlə inkişaf etdiyi bir dövrdə onun qurucusu (və rəhbəri) Heydər Əliyev "SNN türk telekanalının müxbiri ilə söhbətində demişdir ki, "1991-ci ilin sonunda Azərbaycan dövlət müstəqilliyini əldə edib və müstəqil dövlət kimi yaşayır. Ancaq təəssüflər olsun ki, bir müstəqil dövlət kimi yaşayıb inkişaf etmək üçün böyük çətinliklərlə, problemlərlə rastlaşmışıq. Birincisi, sizə məlumdur ki, siz 1991-ci ildə buraya gəlincə Ermənistanla Azərbaycan arasında savaş gedirdi. Ermənistan Azərbaycan torpaqlarının bir qismini artıq işğal etmişdi. Bu savaş ondan sonra da davam etdi. 1994-cü ilin may ayında biz bu savaşı dayandırdıq, atəşkəs haqqında anlaşma imzaladıq. Təbiidir ki, bu münaqişə Azərbaycanın müstəqillik dövründə yaşamasına çox böyük problemlər yaradıbdır. Atəşi dayandırdıqsa, atəşkəs əldə etdiksə də, işğal olunmuş torpaqlardan çıxarılan insanlar çox ağır durumda yaşayırlar. Bir milyondan artıq Azərbaycan vətəndaşı işğal olunmuş torpaqlardan bilirsiniz ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir çıxardıblar, onlar çadırlarda yaşayırlar. Yəni bu, bizim üçün həm siyasi problemdir, həm də iqtisadi problemdir. Çünki çadırda yaşayan insanın, birincisi, yaşayışı necə olur, onu bilirsiniz. İkincisi, onlar işləmirlər. Onları yaşatmaq lazımdır. Ona görə də, bax, bu problemlər Azərbaycanın inkişafını geriyə salan problemlərdir. Amma təkcə bu olsaydı, yenə də şükür edərdik.

Təəssüflər olsun ki, Azərbaycanda o vaxt da, siz gördüyünüz vaxtda da sabitlik olmamışdı, ictimai-siyasi vəziyyət daha da korlanmışdı və bu, davam edirdi. Baxmayaraq ki, biz atəşi dayandırdıq. Baxmayaraq ki, biz burada dövləti gücləndirdik. Çünki artıq 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı. Azərbaycan dağılırdı, parçalanırdı. Biz onu qoruduq, saxladıq...".

Azərbaycan prezidenti daha sonra əlavə edir ki, "1995-96-cı illərdən sonra sabitliyi təmin etdik. Bir tərəfdən atəşin dayandırılması, ikinci tərəfdən, sabitliyin təmin edilməsi bizə imkan verdi ki, Azərbaycanın iqtisadi problemləri ilə, sosial problemləri ilə məşğul olaq və məşğul olduq...".

Müşahidələr göstərir ki, H.Əliyev Azərbaycan dövlətinin inkişafı ilə bağlı olaraq aşağıdakı istiqamətlərdə geniş fəaliyyət göstərir:

1) Azərbaycanın ərazi bütövlüyünün müdafiə olunması;
2) ölkənin daxili çəkişmələrdən, parçalanıb dağılmadan xilas edilməsi;
3) milli dövlətçilik (və idarəçilik) təcrübəsinin yüksəldilməsi.

Bu istiqamətlərin hər birində Azərbaycan xalqına (və müstəqil Azərbaycan dövlətçiliyinə) göstərilən xidmətlər sözün geniş mənasında tarixi əhəmiyyət daşıyır.

Artıq on ildir ki, müstəqil Azərbaycan Respublikası yaşayır, dünyanın üzvi tərkib hissəsi olmaq uğrunda mübarizə aparır. Bu mübarizənin qalibiyyətini təmin edən əsas qüvvə isə, heç şübhəsiz, Heydər Əliyevin şəxsiyyətində təzahür edən milli iradə, möhtəşəm xalq ruhudur ki, Azərbaycanı hər cür iqtisadi, sosial-siyasi problemlərdən çıxararaq gələcəyə əbədi müstəqilliyə aparır.

...Müşahidələr göstərir ki, Azərbaycanın müstəqil bir dövlət olaraq inkişafında onun 80-ci illərin sonu 90-cı illərin əvvəllərində dağılmış iqtisadiyyatının bərpası, yeni inkişaf yoluna qədəm qoyması xüsusi əhəmiyyətə malikdir. Biz bu sahədə görülmüş işlər içərisində özəlləşdirməni, "əsrin müqaviləsi"ni, ümumiyyətlə, Azərbaycana xarici investisiyaların kütləvi surətdə cəlb edilməsini, inflyasiyanın qarşısının alınmasını və s. qeyd edə bilərik. Azərbaycan iqtisadiyyatı tədricən, lakin dönmədən, ardıcıl olaraq dünya iqtisadiyyatına inteqrasiya olunur, onun hərəkət tempinə, ritminə qoşulur ki, bu da ölkənin həm daxilində ictimai-siyasi sabitliyi təmin edir, həm də beynəlxalq mövqeyini möhkəmləndirir.

Azərbaycan təbii ehtiyatlarla zəngin bir məmləkətdir burada istər kənd təsərrüfatının, istərsə də sənayenin inkişafı üçün hər cür şərait vardır. Təsadüfi deyil ki, dünyanın ən müxtəlif ölkələrinin iş adamları Azərbaycana böyük məmnuniyyətlə sərmayə qoymağa çalışır, müasir texnologiyadan geniş istifadə etməklə respublikada istehsalın səmərəliliyini artırırlar. Artıq Azərbaycanın öz iş adamları da formalaşıb inkişaf edir ki, bunun nə qədər böyük ictimai-siyasi hadisə olduğunu sübut etməyə ehtiyac yoxdur.

Azərbaycan iqtisadiyyatının inkişafı, heç şübhəsiz, Azərbaycan elminin, texnikasının inkişafı ilə əlaqədardır. Yalnız bir faktı xatırlamaq kifayətdir ki, akademik Cəlal Əliyevin apardığı intensiv araşdırmalar nəticəsində ölkədə taxıl istehsalının məhsuldarlığı sürətlə artmış, çörəyə olan ənənəvi tələbat, demək olar ki, tamamilə ödənmişdir. Ümumiyyətlə, Azərbaycan prezidentinin yürütdüyü iqtisadi siyasətin düzgünlüyü özünü hər şeydən əvvəl, ölkə əhalisinin gündən-günə yüksələn həyat tərzində ifadə edir.

...Azərbaycan dövlətinin (və onun rəhbərinin) Azərbaycan xalqı (və milli dövlətçiliyi) qarşısındakı böyük xidmətlərindən biri də mənəvi-ideoloji sahəyə aiddir. Heydər Əliyev Azərbaycan dilinin, ədəbiyyatının, incəsənətinin inkişafı üçün əlindən gələni etmiş, milli dəyərlərin qorunması sahəsində ardıcıl çalışmışdır. Məhz bunun nəticəsində Azərbaycan qabaqcıl, mədəni ölkələrdən birinə çevrilmişdir.

...Azərbaycan prezidenti Heydər Əliyevin keçən ilin, əsrin və minilliyin son günlərində Azərbaycan xalqına müraciəti mükəmməl analitik ümumiləşdirmənin məhsulu olub azərbaycanşünaslığın əsas məsələlərinin izahı üçün aydın metodoloji göstərişlər verir həmin göstərişlərin müəyyən hissəsi Azərbaycan xalqının dilinə, ədəbiyyatına və mədəniyyətinə aiddir. Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəldiyi ilk illərdən başlayaraq Azərbaycan mədəniyyətinin inkişafı sahəsində o zamana qədərki heç bir dövlət rəhbəri ilə müqayisə edilməsi mümkün olmayan bir enerji, professionallıq və uzaqgörənliklə fəaliyyət göstərmişdir. Onun Azərbaycan yazıçılarının qurultaylarındakı, böyük ədəbiyyat və incəsənət xadimlərinin yubileylərindəki, müxtəlif ədəbi yığıncaqlardakı, müzakirələrdəki məzmunlu nitq, çıxış və söhbətləri, müsahibələri yalnız müdrik bir dövlət rəhbərinin xalqın dilinə, ədəbiyyatına, mədəniyyətinə qayğısının parlaq ifadəsi deyil, həmin sahələrin hər birinin inkişafı üçün professional strateji göstəriş, mükəmməl proqramdır. Və ona görə də "Müraciət"ə biz böyük mütəfəkkirin təxminən yarım əsrlik müşahidələrinin, araşdırmalarının, müxtəlif istiqamətli təhlillərinin nəticəsi kimi baxırıq.

*Heydər Əliyev hər hansı məsələnin, o cümlədən dil, ədəbiyyat, yaxud mədəniyyət məsələsinin şərhində tarixiliyə xüsusi diqqət yetirir ümumiyyətlə güclü tarixilik hissi onun siyasi, ideoloji, elmi təfəkkürünü səciyyələndirən əsas əlamətlərdəndir.* Və bu cəhət "Müraciət"in məntiqi üçün də xarakterikdir.

"Müraciət"də Azərbaycan dili, ədəbiyyatı və mədəniyyətinin biri digərinin tarixi davamı olan əsasən üç dövründən söhbət gedir. **Birincisi** formalaşma dövrüdür ki, bir neçə min illik uzun bir zamanı əhatə edir.

Hər hansı xalqın formalaşması tarixi yalnız etnososial bir proses deyil, burada etnolinqvistik, etnokulturoloji, etnopsixoloji, geopolitik və s. əlamətlərin üzvü əlaqəsindən danışmaq lazım gəlir Azərbaycan xalqının formalaşması tarixi də belədir: biz mənşəyimiz etibarilə türk xalqıyıq, lakin ən qədim dövrlərdə – eramızdan əvvəlki minilliklərdə Azərbaycan ərazisində müxtəlif mənşəli etnoslar yaşamış, müxtəlif xarakterli, tipologiyalı mədəniyyətlər yaratmışlar ki, biz həmin mədəniyyətlərin varisliyindən imtina edə bilmərik... Prezident göstərir ki, "Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında toplanmış azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəmiqayadakı qayaüstü təsvirlər və petroqliflər, Kür-Araz və Xocalı mədəniyyətlərinə aid maddi-mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur".

Hər hansı Tarix tarixəqədərki dövrdən başlayır Tarix bizə məlum olan, tarixəqədərki dövr isə bizə məlum olmayan epoxaları əhatə edir. Azərbaycan tarixinin eramızdan əvvəl I minilliyin sonu, eramızın I minilliyinin əvvəllərinə qədərki bir neçə min illik dil, ədəbiyyat və mədəniyyət tarixi, xüsusilə onun genotipologiyası bizə məlum deyil, başqa sözlə, mütəxəssislərin qızğın mübahisə obyektidir. Hələ biz bilmirik ki, həmin minilliklərdə Azərbaycanda İran, İber-Qafqaz. türk (prototürk, yaxud Altay) mədəniyyətlərindən hansı aparıcı olmuşdur... Bunun bir səbəbi də ondan ibarətdir ki, "Müraciət"də deyildiyi kimi, Azərbaycan coğrafi-siyasi mövqeyinə görə "həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir".

Azərbaycanın tarixəqədərki mədəniyyətinin beynəlmiləl xarakteri tarixəqədərki dövrdən sonrakı (tarixi!) mədəniyyətin xarakterinə də əhəmiyyətli təsir göstərmişdir. Belə ki, "eramızdan əvvəl birinci minilliyin sonunda, eramızın birinci minilliyinin əvvəllində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmışdır. Məhz bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştilik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur".

Heydər Əliyev tamamilə doğru olaraq göstərir ki, Azərbaycan mədəniyyətinin tarixi özünəməxsus (milli!) əlamətlərlə ümumbəşəri əlamətlərin dialektikasını, qarşılıqlı əlaqəsini nümayiş etdirir. Və Azərbaycan xalqının tipologiyası bizə məlum olan mədəniyyəti göstərir ki, o, içinə qapılmış, özünü dünyadan təcrid etmiş bir xalqın mədəniyyəti deyildir Azərbaycan mədəniyyəti həmişə dünyaya açıq bir xalqın mədəniyyəti olmuşdur... Məsələnin məhz belə olduğuna bir daha inanmaq üçün "Kitabi-Dədə Qorqud"u, Qətran Təbrizinin, Əfzələddin Xaqaninin divanlarını, Nizami Gəncəvinin "Xəmsə"sini vərəqləmək kifayətdir. Onların yaradıcılığı "ümumbəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, humanist ideyaların bərqərar olmasına xidmət etmişdir".

Eramızın ilk əsrlərindən başlayaraq Azərbaycanda etnokulturoloji proseslərə nəzarət edən hun-qıpçaq türkləri beynəlmiləlçi dünyagörüşünün, ümumbəşəri ideyaların, dini plüralizmin genişlənməsində, heç şübhəsiz, həlledici rol oynamışlar. Onların qoyduqları ənənənin eramızın I minilliyinin sonu II minilliyinin əvvəllərində Türküstandan Azərbaycana axın edən oğuz türkləri davam etdirmişlər. Və yerli qıpçaq-

larla gəlmə oğuzların Azərbaycandakı münaqişələri "Dədə Qorqud" eposunun yazıya alındığı yüzillərə düşür.

Görkəmli türkoloq-azərbaycanşünaslar, artıq qeyd etdiyimiz kimi, Azərbaycanda hakimiyyətdə olan səlcuq türklərini (oğuzları) ana dilinə biganəlik göstərməkdə təqsirləndirirlər, lakin bizim fikrimizcə, məsələ daha mürəkkəbdir: əvvəl də qeyd etdiyimiz kimi, farsca, yaxud ərəbcə yazmaq Azərbaycan türklərinin bu dillər (mədəniyyətlər!) qarşısında heyrətinin deyil, islamı qəbul etmiş, müsəlman dünyasını artıq təmsil etməyə başlayan bir xalqın yüksək təbəqəsinin eyni zamanda həm bir türk, həm bir fars, həm də bir ərəb kimi düşünmək ehtirasının (orta əsrlər səviyyəsində beynəlmiləlçilik iddiasının!) nəticəsi idi. Və bu ehtiras (iddia!) bütün orta əsrlər boyu davam etdi... Son orta əsrlərin dahi Azərbaycan şairi, mütəfəkkiri M.Füzuli türk, fars və ərəb dillərində "Divan" yaratmaqla Azərbaycan mədəniyyətinin beynəlmiləlçi gücünü, Azərbaycan xalqının istedadının çoxşaxəliliyini, çoxkomponentliliyini və çoxspektrliliyini bir daha nümayiş etdirdi...

Heydər Əliyevin "Müraciət"ində Azərbaycan dili, ədəbiyyatı və mədəniyyəti tarixinin ikinci dövrü onun birinci dövrünün bilavasitə davamı kimi təhlil edilir. Bununla belə göstərilir ki, "Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi".

Milli şüurun formalaşması!.. Azərbaycan dili, ədəbiyyatı və mədəniyyəti tarixinin ikinci dövrünü səciyyələndirən əsas əlamət, heç şübhəsiz, bundan ibarət olmuşdur. "Müraciət"də milli şüurun formalaşmasına təsir göstərən hadisələr qeyd edilir bunlar XIX əsrin əvvəllərində maarifçilik ideyalarının çiçəklənməsindən, həmin əsrin ortalarında M.F.Axundov kimi müasir düşüncəli mütəfəkkirin yetişməsindən, "Əkinçi"nin meydana çıxmasından, XIX əsrin sonu XX əsrin əvvəllərində müxtəlif ideya-estetik məktəblərin genişlənməsindən və s. ibarətdir. Və "Müraciət"də deyildiyi kimi, "maarifçilik hərəkatının genişlənməsi Azərbaycandan xarici ölkələrə ali təhsil almağa gedənlərin sayının get-gedə artmasına gətirib çıxartdı. Xaricdə ali təhsil aldıqdan sonra vətənə qayıdan ziyalılar Azərbaycanda maariflənmə meyllərini dəstəkləyən qüvvələri öz ətraflarında birləşdirdilər, milli mətbuat və milli teatrın yaranması üçün zəmin yaratdılar". Və prezident tamamilə doğru olaraq qeyd edir ki, "yeni dövrün ədəbiyyatının formalaşmasında Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Ələkbər Sabirin, Süleyman Sani Axundovun, Üzeyir bəy Hacıbəyovun Nəriman Nərimanovun, Haşım bəy Vəzirovun, Cəlil Məmmədquluzadənin, Abbas Səhhətin, Məhəmməd Hadinin, Abdulla Şaiqin, Əli bəy Hüseynzadənin, Əhməd Ağaoğlunun, Əhməd Cavadın, Hüseyn Cavidin və başqalarının əvəzsiz xidmətləri var idi".

Azərbaycan dili, ədəbiyyatı və mədəniyyəti bugün müxtəlif insanlar (o cümlədən, mütəxəssislər!) tərəfindən müxtəlif cür qiymətləndirilən "sovet dövrü"nə adı yuxarıda çəkilən böyük şəxsiyyətlərin Azərbaycanın görkəmli maarifçi ziyalılarının (bütövlükdə Azərbaycan xalqının!) yaratdığı zəngin mədəniyyətlə daxil oldu... Sovet dövrünü Azərbaycan xalqının tarixindən sıxışdırıb çıxarmağa çalışanlar səhv edirlər xalqımız bu dövrü bütün mürəkkəbliyi, uğurları, qüsurları ilə birlikdə yaşamışdır. Biz, heç də bəzilərinin düşündüyü kimi, milli müstəqillik dövrünə birbaşa XX əsrin əvvəllərindən Azərbaycan Demokratik Cümhuriyyəti dövründən gəlməmişik. Sovet dövrü Azərbaycana minlərlə orta, onlarla ali məktəb, teatrlar, muzeylər, sərgi salonları vermişdir. Sovet dövründə Azərbaycan dili, ədəbiyyatı, mədəniyyəti böyük sürətlə inkişaf etmişdir. Bununla belə yüksəlişdə olan milli hisslər, ideyalar boğulmuş, repressiya illərində Azərbaycanın 50 mindən artıq övladı güllələnmiş, 100 mindən çox insan Qazaxıstana, Sibirə sürgün edilmişdir. Hüseyn Cavid, Mikayıl Müşfiq, Salman Mümtaz, Seyid Hüseyn kimi böyük ədəbiyyat, mədəniyyət xadimləri məhz həmin illərdə sovet kommunist ideologiyasının qəzəbinə tuş gəlmişlər.

Ümumiyyətlə, "Müraciət" Azərbaycan tarixinin sovet dövrünə obyektiv metodlarla yanaşmağın gözəl təcrübəsini verir biz əminik ki, həmin təcrübə müxtəlif sahələr (o cümlədən dil, ədəbiyyat və mədəniyyət sahələri) üzrə mütəxəssislərin gələcək araşdırmaları üçün möhkəm metodoloji (ideoloji!) əsas olacaqdır...

Azərbaycan xalqına, onun milli mədəniyyətinə qarşı müxtəlif xarakterli qəsdləri unutmamaqla yanaşı, etiraf

etməliyik ki, Azərbaycanda milli şüurun inkişafında sovet dövrü xüsusi mərhələdir Cəfər Cabbarlı, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rəhimov və Əliağa Vahid kimi böyük Azərbaycan söz ustalarının, mütəfəkkirlərinin yazıb yaratdıqları həmin mərhələni xalqımızın tarixindən necə çıxarmaq, bu böyük şəxsiyyətləri necə inkar etmək olar?.. Onlar uzun illər "sovet yazıçısı" adını fəxrlə daşısalar da, azərbaycançılıq dünyagörüşünün formalaşmasında, demək olar ki, həlledici rol oynamış, müasir Azərbaycan dilinin, ədəbiyyatının əsaslarını yaratmışlar... Və onu da etiraf etmək lazımdır ki, Azərbaycanda sovet dövrünün son on illəri Heydər Əliyev epoxasının başlanması ilə milli şüurun inkişafı baxımından daha məhsuldar olmuşdur. 60-cı illərin sonu 70-ci illərin əvvəllərindən etibarən Azərbaycan mədəniyyəti görünməmiş bir sürətlə irəliləmiş, ədəbiyyat, incəsənət milli özünüdərkin ən çevik komponentlərindən birinə çevrilmişdir. Heydər Əliyev həmin illərdə sübut etdi ki, sovet dövrünün ideoloji məhdudiyyətlərinə baxmayaraq uzaqgörən rəhbəri olan xalq öz dilini, ədəbiyyatını, mədəniyyətini inkişaf etdirib yüksəltməyə qadirdir.

Və Azərbaycan xalqı "Müraciət"də haqqında bəhs olunan üçüncü dövrə məhz 60-cı, 70-ci, 80-ci illərdə formalaşmış kifayət qədər yüksək (və milli!) dünyagörüşü ilə gəldi.

80-ci illərin sonu 90-cı illərin əvvəlləri Azərbaycan tarixinin hərcmərclik dövrüdür elə bir dövrüdür ki, mədəni definisiyası, yaxud atribusiyası, demək olar ki, yoxdur. Həmin illərdə ən çox əziyyət çəkən, mənəvi sarsıntılar keçirənlər məhz ədəbiyyat, incəsənət və elm xadimləri olmuşlar desək, elə bilirəm ki, səhv etmərik. AXC liderlərinin neobolşevizmi, hərcmərclikdən istifadə edib hakimiyyətə gələn (yaxud gətirilən) səriştəsiz, mənsəbpərəst "rəhbərlər"in volyuntarizmi onillər, yüzillər boyu yaradılmış mədəniyyəti bir anda gözdən salmaqla onlarla, yüzlərlə yaradıcı insanı yazıçını, rəssamı, musiqiçini məəttəl qoydu, taleyin ümidinə buraxdı...

Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gəlməsi ilə müstəqil Azərbaycanın mədəniyyəti qarşısında geniş inkişaf üfüqləri açıldı. Böyük mütəfəkkir görürdü ki, "müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir. Bizim bugün təhsilimiz də, mədəniyyətimiz də, incəsənətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək, əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb edilibdir".

Azərbaycanın dövlət müstəqilliyi qazandığı illərdə, "Müraciət"də deyildiyi kimi, "biz əslində milli-mədəni irsimizi, tariximizi, milli sənətimizi bir daha təhlil edərək, onu ideoloji buxovlardan və qadağalardan xilas edirik. Bununla yanaşı, biz Azərbaycan mədəniyyətinin dünya sənət xəzinəsinə verdiyi töhfələrlə başqa xalqların nümayəndələrini tanış edirik".

Dahi Azərbaycan şairi M.Füzulinin 500, böyük oğuz-Azərbaycan eposu "Dədə Qorqud"un 1300 illik yubileyləri yalnız Azərbaycanda deyil, mədəni dünyanın, demək olar ki, hər yerində bu və ya digər dərəcədə qeyd edildi. Və bütün dünya müstəqil Azərbaycanın böyük mədəniyyəti, zəngin mənəviyyatı, yaradıcılıq imkanları ilə daha geniş miqyasda tanış oldu. Xüsusilə "Dədə Qorqud" eposunun həm Azərbaycanda, həm də dünyada təbliği, öyrənilməsi sahəsində böyük işlər görüldü. Mütəxəssislərə məlumdur ki, "Dədə Qorqud" eposunun tarixi Azərbaycan etnik-mədəni sisteminin ümumtürk etnik-mədəni sistemindən fərqlənərək ayrılması (diferensiasiyası) tarixdir. Ona görə də "Dədə Qorqud"un yubileyi bu və ya digər şəkildə Azərbaycan xalqının yubileyidir... Və möhtərəm prezidentimizin təklifi ilə həmin yubileyin ümumdünya, xüsusilə türk dünyası miqyasında qeyd olunması, yuxarıda deyildiyi kimi, böyük siyasi-ideoloji əhəmiyyətə malik idi...

Azərbaycan prezidentinin iki il, iki əsr, iki era arasında Azərbaycan xalqına müraciətində çox doğru olaraq qeyd edilir ki, "Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də bir cəngavər, bir igid haqqında yox, bütöv bir xalqın qəhrəmanlığından danışan eposdur. "Ölkəmizin yaşadığı bugünkü mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən, respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə dərəcədə vacib olduğu gün kimi aydındır".

Məhz Heydər Əliyevin bilavasitə rəhbərliyi, təşkilatçılığı sayəsində cəmisi bir neçə il ərzində "Dədə Qorqud" eposunun Azərbaycan cəmiyyətində kütləvi təbliği sahəsində görülən işlər bir neçə on, hətta yüz ildə görülən işlərə bərabər oldu. Yalnız belə bir faktı xatırlatmaq kifayətdir ki, türk dünyasında ilk dəfə məhz Azərbaycanda "Dədə Qorqud Ensiklopediyası" yaradıldı. Və bununla da Azərbaycan oğuz türkləri içərisində eposun əsas sahibi olduğunu bir daha dünyaya sübut etdi.

H.Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olmuşdur. Və tarix üçün o qədər də böyük olmayan təxminən onillik bir müddətdə böyük dövlət xadimi, həqiqətən, tarixi olan aşağıdakı işləri görmüşdür:

– Azərbaycan dilinin dövlət dili olması Azərbaycan SSRİ-nin müvafiq qanunlarında (xüsusilə Əsas Qanununda-Konstitusiyasında) öz əksini tapmış, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilmişdir;

– Azərbaycandilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilmiş, bir sıra digər sovet respublikalarından fərqli olaraq Azərbaycanda gəncliyin ana dilində təhsilinə üstünlük verilmişdir;

– Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni etmiş, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazmış, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan dilində çıxmışdır;

– Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılmış, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılmış, həmin çoxcildliklərdən biri ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Azərbaycan Dövlət mükafatına layiq görülmüş, beləliklə, ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə əslində ana dilinin nüfuzu bir daha təsdiq edilmişdir;

– həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktik olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərmiş, başqalarına nümunə vermişdir və s.

80-ci illərin sonu 90-cı illərin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatının gedişində ana dilinin ictimai-siyasi nüfuzunun güclənməsi H.Əliyevin vaxtilə yürütdüyü siyasətin bilavasitə nəticəsi idi. Lakin həmin illərdə başqa sahələrdə olduğu kimi, dil quruculuğu, dil siyasəti, geniş mənada dil mədəniyyəti sahələrində də hədsiz volyuntarizmə, hərcmərcliyə yol verildi xüsusilə Xalq Cəbhəsinin hakimiyyətdə olduğu zaman etnik-kulturoloji məsələlərlə bağlı buraxılan səhvlər milli dilin (dövlət dilinin) nüfuzuna mənfi təsir göstərdi:

– yaxın dövrün tarixi varisliyi gözlənilmədən ana dilinə (dövlət dilinə!) münasibətdə kəskin sıçrayışlarla səciyyələnən, hər cür əsasdan məhrum "tədbirlər" görülməsinə başlandı ki, həmin "tədbirlər" nəticə etibarilə idarəolunmaz bir situasiyaya çevrilib ana dilini (onun ictimai-siyasi nüfuzunu, normalarını, funksional üslublarını...) bütövlükdə təhlükə altında qoydu;

– Azərbaycanda yaşayan azsaylı xalqlara, etnoslara mədəni muxtariyyat vermək kimi volyuntarist bir hərəkətin rəsmi müdafiə olunması on illər boyu qazanılmış tarixi uğurların itirilməsi, həmin uğurlara (və dövlət dilinin nüfuzuna) barmaqarası münasibətin nəticəsi idi;

– geniş, hərtərəfli müzakirələr aparılmadan (nə ictimaiyyətin, nə də mütəxəssislərin rəyini öyrənmədən) ana dilinin "türk dili" adlandırılması, eləcə də kiril əlifbasından latın

əlifbasına keçidin hazırlıqsız başlanması sonralar bir sıra problemlər törətdi;

– normal təhsil görməmiş, mədəniyyətdən uzaq bir sıra "dövlət xadimləri"nin, "siyasi xadimləri"in müxtəlif çıxışları, məntiqsiz mülahizələri Azərbaycan ədəbi dilinin tarixən müəyyənləşmiş normalarına, funksional üslublarına (ümumən ana dilinin əxlaqına!) sayğısız, məsuliyyətsiz münasibət yaratmağa başladı və s.

Xalqın təkidi, tarixin hökmü ilə Azərbaycanda yenidən hakimiyyətə qayıtmış H.Əliyev qısa bir zamanda ölkədə iqtisadi, ictimai-siyasi, ideoloji-mənəvi həyatın normallaşmasına, stabilləşməsinə nail oldu. Və bu illərdə onun xüsusi diqqət yetirdiyi məsələlərdən biri də dil məsələsi idi... Məsələnin ciddiliyini nəzərə alan dövlət rəhbəri mütəxəssislərin iştirakı ilə geniş müzakirələr keçirdi və həmin müzakirələr mövcud problemlərin həlli üçün kifayət qədər məhsuldar oldu.

Həmin müzakirələr göstərdi ki, yalnız milli ictimai təfəkkür deyil, bilavasitə mütəxəssislər də ana dilinin qeydsiz-şərtsiz "türk dili" adlandırılmasının əleyhinədir. Hər şeydən əvvəl, ona görə ki:

a) iki müstəqil türk mənşəli dilin hər ikisinin eyni bir adla adlandırılması özünü doğrultmur və təcrübədə onları istər-istəməz ayrı-ayrı adlarla (Azərbaycan türkcəsi Türkiyə türkcəsi) adlandırmaq lazım gəlir;

b) Azərbaycan ərazisində yaşayan qeyri-türk mənşəli müxtəlif xalqlar, etnoslar (talışlar, tatlar, kürdlər, ləzgilər və s.) "Azərbaycan dili"nin "türk dili" adlandırılmasından hər hans halda narahat olurlar, bir sıra qüvvələr isə bundan istifadə edərək, "xırda millətçilik" hisslərini qızışdırırlar;

c) "Azərbaycan dili" adı artıq neçə on illərdir ki, uğurla işlənir, kifayət qədər böyük işlənmə təcrübəsinə malikdir.

Və bütün bunlar nəzərə alınaraq (eyni zamanda referendumun nəticələrinə əsaslanaraq) müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında dövlət dilinin adı "Azərbaycan dili" kimi qeyd edildi.

Müşahidələr göstərir ki, Azərbaycan dövlətinin rəhbəri bu gün Azərbaycan dilinin yüksəlişi üçün aşağıdakı çox mühüm işləri görür:



**Birincisi,** Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili olaraq aparıcı mövqeyi tamamilə təmin edilmiş, rəsmi məclislərin yalnız ana dilində aparılması zərurətə çevrilmişdir (yerə gəlmişkən deyək ki, Azərbaycan prezidentinin özü şəxsən dəfələrlə müxtəlif vəzifəli şəxsləri ana dilində danışa bilmədikləri üçün tənqid etmiş, qınamışdır);

**ikincisi,** Azərbaycanda təhsilin, elmin, ədəbiyyatın ümumən mədəniyyətin inkişafı üçün dövlət maksimum şərait yaratmış (və həmin şəraiti günbəgün yaxşılaşdırmaqdadır) bu isə həm milli təfəkkürün, həm də onun ifadəsi olan milli ədəbi dilin daha da tərəqqi edib yüksəlməsinə böyük təkan verir;

**üçüncüsü,** Azərbaycan prezidenti Azərbaycanın yeni tarixində ilk dəfə olaraq Azərbaycan dilinin dünyanın ən mötəbər rəsmi məclislərində, beynəlxalq diplomatik danışıqlarda səslənməsinə nail olmuşdur (və məhz onun xidmətidir ki, bu gün Azərbaycan Respublikasının beynəlxalq nüfuzunu məhz Azərbaycan dili, yəni Azərbaycanın bilavasitə dövlət dili qoruyur) və s.

Azərbaycan prezidentinin dünya miqyaslı bir ictimai-siyasi xadim, dövlət xadimi kimi fəaliyyəti ona türk dünyasında böyük hörmət qazandırmışdır. Və həmin hörmətin təsiri altında türk xalqları arasında Azərbaycan xalqının, türk dilləri içərisində Azərbaycan türkcəsinin (Azərbaycan dilinin) nüfuzu sürətlə yüksəlir.

Heydər Əliyev Azərbaycan dilini (ana dilini), Azərbaycan xalqının dilini (mənsub olduğu xalqın dilini), Azərbaycan dövlətinin dilini (rəhbərlik etdiyi dövlətin dilini) ürəkdən sevib onun yüksəlişinə çalışmaqla kifayətlənmir, mütəxəssislərin dönə-dönə qeyd etdikləri kimi, Azərbaycan dilində gözəl danışır, ona yeni ifadə xüsusiyyətləri, üslub çalarları qazandırır... Və yuxarıda deyildiyi kimi, H.Əliyevin dili geniş miqyaslı araşdırmalar üçün ayrıca bir mövzuya çevrilmişdir. Mütəxəssislər göstərirlər ki, Allah Heydər Əliyevə nümunəvi bir natiq üçün tələb olunan hər şeyi səxavətlə vermişdir: boy-buxun, qədd-qamət, təsirli səs, möhkəm məntiq, məclisi-auditoriyanı ələ almaq qabiliyyəti və s. Prof. Ramiz Mehdiyev göstərir ki, "bəzi dövlət xadimləri silah gücünə, xarici qüvvələrin himayədarlığı ilə hakimiyyətə gəldiyi və hətta bunların

da hesabına hakimiyyətlərini qoruya bilmədikləri bir şəraitdə Heydər Əliyev sözlə milyonları öz ətrafına səfərbər etmiş, məntiqlə düşmənləri susdurmuş, böyük natiqlik istedadı ilə xalqı sıx birləşdirə bilmişdir". Görkəmli dövlət xadimi daha sonra əlavə edir ki, "1994-cü ilin oktyabr dövlət çevrilişi cəhdi zamanı Prezidentin televiziya ilə xalqa müraciətini eşidən on minlərlə adamın bu alovlu çağırışa cavab olaraq Prezident Sarayının qarşısına toplaşması və Heydər Əliyevi hərarətlə müdafiə etməsi hamımızın yadındadır".

İntellektual mənəvi hazırlıqla fiziki hazırlığın mükəmməl harmoniyasını verən H.Əliyev natiqliyi Azərbaycan xalqının milli sərvəti, Azərbaycan dilinin böyük uğurudur böyük şəxsiyyətin nitqlərindən onlarca, yüzlərcə nümunələr gətirmək mümkündür ki, ana dilinin müasir dövrdə hansı inkişaf səviyyəsinə gəlib çıxdığını, hansı mükəmməl, təsirli ifadə imkanlarına yiyələndiyini parlaq bir şəkildə əks etdirsin.

Azərbaycan prezidentinin "Müraciət"ində dil məsələsi xüsusi yer tutur cənab prezident qeyd edir ki, "hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca ünsürlərdən biri onun dilidir. XX əsrdə xalqımızın bu sahədə əldə etdiyi uğurları yüksək təqdirə layiqdir. Biz fəxr edirik ki, müstəqil Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dili son bir əsrlik dövr ərzində böyük inkişaf yolu keçərək lüğət tərkibini zənginləşdirmiş, qrammatik quruluşunu cilalamış və dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur". Heç şübhəsiz, Azərbaycan mədəniyyəti inkişaf etdikcə, Azərbaycan dövləti təkmilləşib möhkəmləndikcə Azərbaycan dili daha da zənginləşəcək, daha müasir, daha qlobal, daha analitik düşüncənin dilinə çevriləcəkdir. Çünki Azərbaycan dili, Azərbaycan prezidentinin dəfələrlə dediyi kimi, istedadlı, böyük potensiala malik bir xalqın dilidir.

**Azərbaycan prezidenti Heydər Əliyevin yeni ilin, yeni əsrin və yeni minilliyin astanasında "Azərbaycan xalqına müraciət"i** Azərbaycan dilinin, ədəbiyyatının və mədəniyyətinin perspektivlərini müəyyənləşdirmək, böyük tarixi təcrübəyə dayanaraq inkişaf yolları müəyyən etmək baxımından olduqca qiymətli bir sənəddir. Bizim fikrimizcə, həmin sənədin əsas ideyası ondan ibarətdir ki, "biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti yüksək mənəviyyatı olan ölkəmizin həm dününənə, həm bugününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

Hər bir dövlətin milliliyinin, müstəqilliyinin göstəricilərindən biri, bəlkə də birincisi, (onun daxili və xarici) ünsiyyəti hansı dildə həyata keçirməsindən ibarətdir. Şübhəsiz, bu və ya digər dövlət daxili ünsiyyətini o zaman daha rahat, daha intensiv apara bilər ki, həmin dövlətin ərazisində yaşayan xalqın əsas dilindən istifadə etsin. Lakin bu, sadə bir hadisə deyil bunun üçün xalqla dövlətin tarixən müəyyənləşmiş sıx mənəvi-siyasi əlaqəsi tələb olunur.

Azərbaycanda dövlət dili funksiyasını tarixən müxtəlif dillər daşımışlar ki, bunların içərisində əsas yeri ərəb, fars və rus dilləri tutmuşdur. Xalqın dili olan Azərbaycan dili Azərbaycan türkcəsi müəyyən mərhələlərdə dövlət dili səviyyəsinə qalxmaq imkanlarına malik olsa da, onu son dövrlərə qədər gerçəkləşdirə bilməmişdir. Hər şeydən əvvəl ona görə ki, Azərbaycanda mövcud olan dövlətlərin daxili ünsiyyəti o qədər də əhəmiyyətli deyildi, xarici (beynəlxalq!) ünsiyyət orta əsrlərdə dövlətin varlığı üçün daha vacib idi. Təsadüfi deyildi ki, Azərbaycanda ərəb, fars dillərinin dövlət dili olaraq xüsusi intensivlikdə işləndiyi dövr səlcuqlar dövrüdür ki, onlar da türklərdən ibarətdir. Sonralar türklərin müsəlman dünyasındakı sosial-siyasi mövqeləri gücləndikcə türk dili də islamın üçüncü ünsiyyət vasitəsinə çevrilir.

Orta əsrlərin sonu, yeni dövrün əvvəllərində Azərbaycanda ərəb, fars, türk (Azərbaycan) dillərinin hər biri eyni zamanda dövlət dili hüququna malik idi, çünki islam dini, təfəkkürü bu dillərin hər üçündə öz əksini tapır, bu və ya digər dərəcədə ifadə olunurdu. Səfəvilər, Azərbaycan xanlıqları həm daxili, həm də xarici rəsmi ünsiyyəti ərəb, fars və türk (Azərbaycan) dillərində saxlayırdılar. XIX əsrin ortalarından buraya rus dili də əlavə olundu... Və rus dili rəsmi ünsiyyətdən ərəb, fars dillərini sıxışdırdı, Azərbaycan türkcəsi isə, əksinə, "yerli əhalini"nin dili olaraq müəyyən səlahiyyətlər almağa başladı. Lakin müstəqil dövlətin olmaması,

Şimalda rus, Cənubda isə fars dilinin "yerli dil" üzərində üstünlüyünü aydın bir şəkildə nümayiş etdirirdi.

Azərbaycan Demokratik Cümhuriyyəti yarandıqdan bir ay sonra özünün rəsmi ünsiyyət vasitəsinin məhz Azərbaycan türkcəsi olduğunu elan etdi. Lakin məhz elan etdi... Dövlət orqanlarında çalışanlar Azərbaycan türkcəsini lazımi səviyyədə bilmirdilər, eyni zamanda "yerli əhali"nin dili dövlət dilinin tələblərinə hələ cavab vermirdi, ADC-nin azərbaycanca sənədlərinin leksikası, sintaksisi də bunu təsdiq edir. Halbuki rusca sənədlərin dili mükəmməldir.

Müşahidələr göstərir ki, Azərbaycan dilinin dövlət dili kimi formalaşması prosesi sovet dövründə kifayət qədər ardıcıl şəkildə getmişdir. Bununla belə, həmin dövrdə Azərbaycan dövlətinin dili rus dilinin təsiri altında idi, yəni "rusca düşünüb azərbaycanca ifadə etmək" prinsipi işləyirdi ki, bu da milli dil təfəkkürünün tədricən ölümünə gətirib çıxarırdı. Azərbaycanın dövlət xadimlərinin müəyyən hissəsi milli dil təfəkkürünün xüsusilə dövlət səviyyəsində iflic olduğunu görürdülər. Lakin onların mübarizə aparmaq imkanları yox idi. 50-ci illərdəki "qiyam" da bu problemi həll etmədi, əksinə, onu bir az da mürəkkəbləşdirdi.

Heydər Əliyev Azərbaycan dövlətinin rəhbəri kimi fəaliyyətə başladığı ilk illərdəcə bütün aydınlığı ilə göstərdi ki, o, qeyri-müstəqil bir respublikanın növbəti başçısı yox, milli lideridir... Və Heydər Əliyevin məhz milli lider olaraq fəaliyyətinin bir təzahürü də Azərbaycan dilinin siyasi nüfuzunun 70-ci illərdə sürətlə yüksəlməsi idi. Həmin yüksəliş 80-ci illərdə də davam etdi. Böyük dövlət xadiminin Azərbaycan dilininin inkişafı sahəsindəki fəaliyyəti barəsində geniş bəhs etmək fikrində deyilik, sadəcə qeyd etmək istəyirik ki, milli liderin, müasir Azərbaycan dövlətçiliyinin banisinin 90-cı illərdə – müstəqillik dövründə dövlət dilinin yüksəlişi sahəsində gördüyü işlər ciddi tarixi əsaslara malikdir. Biz xüsusilə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" barədəki tarixi fərmanı nəzərdə tuturuq... Etiraf etmək lazımdır ki, Azərbaycan dilinin tarixində hələ ona (Azərbaycan dilinə) bu səviyyədə qiymət verən ikinci bir rəsmi sənəd olmamışdır. Eyni zamanda Azərbaycan dilinin tarixi əsasları heç bir elmi mənbədə bu qədər aydın şəkildə verilməmiş, onun müasir vəziyyəti barədə bu qədər mükəmməl təsəvvür yaradılmamış, inkişaf problemləri haqqında bu qədər sistemli şəkildə bəhs edilməmişdir.



Əlbəttə, rəsmi dövlət sənədində bu və ya digər orijinal elmi konsepsiyanın irəli sürülməsi qeyri-adi hadisədir. Bununla belə, həmin "qeyri-adiliyi" ən azı aşağıdakı səbəblərə görə qəbul etmək lazım gəlir:

1) Azərbaycan dilinin (və xalqının) mənşəyi barəsində bir neçə on ildir ki, davam edən mübahisələri yekunlaşdırmaq, tarixi faktların (və sağlam tarixi düşüncənin) mövqeyindən əsaslı bir konsepsiya vermək artıq yalnız elmi deyil, həm də milli, ictimai-siyasi bir ehtiyacdır;

2) Azərbaycan dilinin dövlət dili kimi yaşamaq, daha da inkişaf etmək üçün etnososial, mədəni-mənəvi potensialının olmasını göstərmək məqsədilə tarixdən, daha dərin köklərdən gəlməyə ehtiyac duyulmuşdur;

3) Haqqında söhbət gedən fərman bir dövlət sənədi olaraq bütövlükdə Azərbaycan dövlətinin (və xalqının) marağını əks etdirsə də, həmin dövləti yaradan, həmin xalqı işıqlı gələcəyə aparan bir mütəfəkkirin düşüncəsinin məhsulu olduğuna görə, sıravi yox, tarixi səciyyə daşıdığına görə xüsusi elmi konsepsiya ifadə edə bilər.

Və yeri gəlmişkən, respublika ictimaiyyətinin böyük marağına səbəb olub müxtəlif elmi müəssisələrdə geniş müzakirə edilən **"Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət"ində Azərbaycan prezidenti "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi"** barədəki fərmanda irəli sürülmüş konsepsiya üçün elmi-nəzəri baza hazırlamışdı. *Ümumiyyətlə, həmin "Müraciət" bir elm olaraq azərbaycanşünaslığın əsaslarını müəyyən edir, aydın metodoloji göstərişlər verir.* Bu isə o deməkdir ki, Azərbaycan prezidentinin Azərbaycan dili, ədəbiyyatı və mədəniyyəti barədəki düşüncələri kifayət qələr ardıcıl elmi araşdırmaların, konseptual ümumiləşdirmələrin nəticəsi olmaqla müstəqil dövlətin ən mühüm sənədlərində öz əksini tapır.

"Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" haqqında fərmanda irəli sürülmüş ideyalar içərisində aşağıdakılar diqqəti daha çox cəlb edir:

1) Azərbaycan dilinin bir dövlət dili olaraq qorunması;
2) Azərbaycan dilinin bir dövlət dili olaraq inkişaf etdirilməsi.

Dövlət dilini qorumaq hər bir dövlətin mühüm siyasi-ideoloji vəzifələrindən, əsas milli-tarixi maraqlarından biridir. Bu baxımdan müstəqil Azərbaycan dövləti də istisna təşkil etmir... Lakin Azərbaycan dili bir dövlət dili olaraq getdikcə müasir dünyanın inkişaf etmiş dillərinin təzyiqinə daha çox məruz qalır. Məsələn, ingilis dili bir sıra dillər kimi Azərbaycanın dövlət dilini də nəinki Azərbaycandan xaricdə (onun beynəlxalq ünsiyyətində), hətta ölkənin daxilində də sıxışdırmaq iddiasında və gücündədir. Bu təbiidir... İngilis dili, eləcə də fransız, alman, rus və s. dillər müasir dünyanın tarixən müəyyənləşmiş qüdrətli ünsiyyət vasitələridir. Xüsusilə ingilis dili son dövrlərdə dünya elminin, informasiyasının, böyük siyasətinin aparıcı ifadəçisinə çevrilmişdir. Dünyaya açıq olan Azərbaycanın dövlət dili, tamamilə təbiidir ki, belə bir dillə rəqabətə girmək imkanına malik deyil. Və hər bir azərbaycanlı, əgər eyni zamanda müasir dünyanın "vətəndaş"ı olmaq istəyirsə, ingilis dilini bu və ya digər dərəcədə bilməlidir... Odur ki, Azərbaycan dövləti milli maraqları yüksək tutan bir dövlət olaraq Azərbaycan dilinin tarixi hüquqlarını qorumalı, onun mənəvi-siyasi nüfuzunu ölkə daxilində olduğu kimi, ölkə xaricində də yüksəltməyə çalışmalıdır.

Etiraf etmək lazımdır ki, son illərdə Azərbaycan dilinin beynəlxalq nüfuzu görünməmiş bir səviyyəyə qalxmış, Azərbaycan dili dünyanın böyük siyasət, mədəniyyət, elm mərkəzlərində ən yüksək tribunalardan səslənmiş, Azərbaycan prezidenti şəxsi fəaliyyəti ilə yalnız ölkə daxilində deyil, ölkəmizdən çox-çox uzaqlarda, həmin yüksək tribunalardan dönə-dönə sübut etmişdir ki, Azərbaycan dili müasir dünya düşüncəsinin səviyyəsinə qalxmağa layiq, geniş ifadə imkanlarına malik bir dildir.

Şübhəsiz, bu və ya digər dövlət öz dilini inkişaf etdirmədən qoruya bilməz. Və qeyd etdiyimiz kimi, fərmanın əsas ideyalarından biri də Azərbaycan dilinin inkişafı üçün görülməli olan tədbirlərin müəyyənləşdirilməsidir... "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" barədəki fərmanda Azərbaycan dilinin inkişafı üçün həm inzibati, hüquqi-siyasi, həm də elmi-linqvistik tədbirlər görülməsi nəzərdə tutulur ki, bunların biri digərinin bilavasitə davamıdır.

Əlbəttə, tarixən Azərbaycan dilinin, ümumən milli dəyərlərin, əgər belə demək mümkünsə, namusunu xalq kütləri, onların arasından çıxan millət xadimləri, ziyalılar qorumuşlar, dövlət məmurları bu baxımdan ya xüsusi fərqlənməmiş, ya da ana dilinə tamamilə laqeyd olmuşlar.

Haqqında söhbət gedən fərmanın tarixiliyi bir də orasındadır ki, Azərbaycan Respublikasının bütün dövlət-icra orqanlarını hərəkətə gətirdi, onları qurulmaqda olan milli dövlətin siyasi-ideoloji tələbləri baxımından yenidən təşkil olunmağa hazırladı, hətta milli məmur obrazının formalaşmasına əhəmiyyətli təsir göstərdi.

Məsələnin mahiyyətini anlamaqdan çox-çox uzaq olan bir sıra "qəzet siyasətçiləri" bu fərmanın rolunu azaltmağa çalışsalar da, heç şübhəsiz, o öz tarixi işini artıq bütün gücü ilə görməyə, milli ictimai təfəkkürü daxildən təşkil etməyə, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində özünü aydın şəkildə göstərən "mərkəzdənqaçma" təzahürlərinin, separatçılığın kökünü kəsməyə başlamışdır.

Prezidentin həmin fərmanı ilə Azərbaycan on illik "tərəddüdlər"dən sonra qəti olaraq latın əlifbasına keçdi ki, fikrimizcə, burada yalnız yeni əlifbaya keçid deyil, nümayiş etdirilən qətiyyətin özü də ideoloji uzaqgörənlik, millətin öz dövləti ətrafında daha sıx birləşməsinə yönəldilmiş siyasi hərəkətdir. Bu qətiyyəti, cəsarəti ancaq Heydər Əliyev kimi qüdrətli dövlət xadimləri, böyük şəxsiyyətlər göstərə bilər, bu cür jestlər yalnız dahi strateqlərə məxsusdur.

Biz "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi" barədəki fərmanın elmi-nəzəri, konseptual səviyyəsi ilə yanaşı onun praktikliyini də xüsusi qeyd etməliyik burada irəli sürülən müddəaların, göstərişlərin hamısı real, həyata keçirilməsi tamamilə mümkündür. Vəzifəmiz fərmanın tarixi tələblərini dönmədən, milli təəssübkeşliklə yerinə yetirməkdən ibarətdir. Və bizim bir millət kimi nə qədər istedadlı, enerjili, müasir dünya ilə ayaqlaşmağa nə qədər qabil olduğumuzun göstəricilərindən biri də həmin fərmanın tələblərinə hansı səviyyədə cavab verməyimizlə müəyyən olunur.

Azərbaycan prezidenti, son illərin dövlət sənədlərindən (və həmin sənədlərdə irəli sürülən tarixi müddəaların ardıcıl olaraq həyata keçirilməsindən) də göründüyü kimi, öz işini yalnız xalqın cari maraqlarını ifadə etməklə bitmiş saymır, bu günə tarixdən gəlir, həmin maraqları tarixi bir səviyyəyə qaldıraraq ifadə edir. Heydər Əliyevin yaratdığı Azərbaycan dövləti elə bir mükəmməl ideoloji, konseptual əsaslar üzərində yüksəlir ki, onun əbədiliyinə şübhə etmək tamamilə nadanlıqdır...



## 3. TÜRK DÜNYASININ FƏXRİ, YAXUD BÖYÜK TÜRKLƏRDƏN BİRİ

Dünyaya xalqlar, millətlər, insanlar arasında nizam, harmoniya (kosmos!) yaratmaq üçün gəldiklərinə həmişə ürəkdən inanan türklər dünyanı öz iradələrinə tabe etməyə çalışmaqdan daha çox, zamanın sosial-siyasi xarakterini müəyyənləşdirməyə, qlobal proseslərin arxasınca deyil, önüncə getməyə cəhd etmişlər. Türkləri qaniçən, hərbcu, despot kimi tanıtmaq istəyən tarixçilər indiyə qədər bir dənə də olsa əhəmiyyətli fakt, sübut göstərə bilməmiş, əvəzində isə ancaq böhtançı adını əvvəlcədən özləri üçün təmin etmişlər... Türklər əsrlər, hətta min illər boyu dünyanın müxtəlif xalqları ilə sülh şəraitində yaşamış, qurduqları nəhəng imperiyalarda bütün millətlərə yer vermiş, dünyanın vaxtaşırı pozulan harmoniyasını bərpa etmək üçün böyük ideologiyalar yaratmışlar. Onlar heç bir xalqın tarixi ilə müqayisəyə gəlməyən möhtəşəm tarixlərində dünya mədəniyyətinə heç bir xalqda müşahidə olunmayan bir səviyyədə maraq göstərmişlər. Yalnız bir faktı xatırlamaq kifayətdir ki, dünyanın əsas dinlərinin, demək olar ki, hamısı buddizm, iuadizm, xristianlıq, islam və s. müəyyən tarixi dövrlərdə türklər tərəfindən qəbul edilmişdir.

Və türklərin tarixləri boyu dünyaya bu cür açıq olmalarının, dünya ilə bu cür fəal (və təmənnasız!) münasibətlərinin nəticəsidir ki, zaman-zaman dünya miqyaslı mütəfəkkirlər, sənətkarlar, ictimai-siyasi xadimlər, dövlət adamları yetirə bilmişlər.

Türk dünyasının fəxri olan Heydər Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də, birincisidir...

Heydər Əliyev hər dövrü, hər mərhələsi məktəb olan həqiqətən qeyri-adi bir ömür yaşamış, yalnız mənsub olduğu Azərbaycan xalqının, türk xalqlarının deyil, ümumən dünya xalqlarının təsəvvüründə özünün mükəmməl obrazını, aydın cizgiləri ilə seçilən möhtəşəm portretini yaratmışdır.

...Biri digərinin şəxsiyyətinə çox ehtiramla yanaşan qədim türklərdən fərqli olaraq, orta əsrlərin türk hökmdarları, türk

böyükləri arasında mövcud ənənələri qəddarcasına pozan bir "adət" meydana gəldi: keçmişi bütünlüklə *inkar etmək bir sıra* hallarda dəb halını aldı, ataların gördüyü işlər oğullara xoş gəlmədi... nəsillər arasında əlaqələr qırıldı, hər bir türk hökmdarı, hər bir türk böyüyü özündən başlayan (və özü ilə bitən!) bir tarix yazılmasına rəvac verdi... Biri digərinin qurduğu abidələri dağıtdı, torpağını torba ilə daşıtdırdı... Əfsanələrlə, mübahisələrlə, mübhəmliklərlə dolu orta əsrlərin dumanından çıxıb daha yaxın dövrün XX əsrin tarixinə müraciət edək. Azərbaycanın müasir tarixində Heydər Əliyevə qədər üç görkəmli ictimai-siyasi xadimin (türkün!) adı çəkilir: M.Ə.Rəsulzadə, N.Nərimanov və M.C.Bağırov. Azərbaycana rəhbərlikdə müəyyən fasilələrlə biri digərini əvəz etmiş bu görkəmli şəxsiyyətlərin bir-birinə münasibətini görəsən hansı xalqın müasir tarixində müşahidə etmək mümkündür?..

Heydər Əliyevi dövlət idarəçiliyi məharətinə görə sələfləri ilə müqayisə eləmək çətindir, çünki onların heç biri bu sahədə böyük istedada malik olmamış, bir sıra hallarda isə şəraitin birbaşa əsirinə çevrilmişlər. Və bu isə o deməkdir ki, həmin görkəmli şəxsiyyətlərin rəhbərlik təcrübəsi tamamilə başqa tipli bir rəhbər olan Heydər Əliyevə çox az şey vermişdir...

Sual olunur: Heydər Əliyevin böyük dövlətçilik düşüncəsi, qeyri-adi ictimai-siyasi idarəçilik məharəti (və ümumən zəmanəmizin böyük türkünün əzəmətli şəxsiyyəti!) hansı əsaslar üzərində formalaşıb inkişaf etmişdir?..

Heydər Əliyev qədim türk torpağı olan Naxçıvanda dünyaya gəlmişdir... Naxçıvanın min illərlə ölçülən mürəkkəb, gərgin bir tarixi var bu torpaqda onlarla böyük türk hökmdarının marağı, siyasəti, ehtirasları toqquşmuş, qanlı vuruşmalar, qırğınlar olmuşdur. Bugünkü naxçıvanlıların dünyagörüşündə, mənəviyyatında, əxlaqında çox-çox qədim dövrlərin bir-birinin üstünə qalanmış, süxurlanmış düşüncə mədəniyyətinə rast gəldiyimiz kimi, dillərində, danışıqlarında həmin qədimlikdə olan türk leksikonunu, intonasiyasını görərsiniz.

...Naxçıvan kasıb yerdir qışı soyuq, yayı istidir. Və naxçıvanlıların çörəyi, özləri demişkən, daşdan çıxır... Görünür, sərt həyat tərzi bu yerlərin əhalisinin, insanlarının xarakterinin formalaşmasında az rol oynamamışdır. Lakin naxçıvanlılar bu kasıb torpağı əsrlər, hətta min illər boyu canları bahasına qorumuşlar, qurbanlar, şəhidlər vermişlər. Ona görə də naxçıvanlıların nəzərində, yəqin ki, Naxçıvandan gözəl bir diyar yoxdur...

Heydər Əliyevin qısa bir zamanda qazandığı müqayisəyə gəlməz ictimai-siyasi uğurların ən mühüm şərti, heç şübhəsiz, onun qorxmazlığı, cəsarəti, qranit kimi möhkəm iradəyə malik olmasıdır.

...Azərbaycanda, ümumən keçmiş Sovetlər İttifaqında Heydər Əliyevin həmin xüsusiyyətləri barədə əfsanələr dolaşır. Əlbəttə, məsələ bu əfsanələrin reallığa nə dərəcədə yaxın olub-olmamasında deyil, məsələ ondadır ki, cəmiyyət, ictimai şüur Heydər Əliyevi əfsanəvi şəxsiyyət kimi tanıyır. O, istər dövlət təhlükəsizliyi orqanlarında, istərsə də Azərbaycan Respublikasının *bilavasitə rəhbərliyində çalışdığı* illərdə cəsarətli qərarlar qəbul etmiş, həmin qərarları dönmədən, heç bir maneəyə güzəştə getmədən həyata keçirmiş, demək olar ki, bir dəfə də sözündən dönməmişdir... Özündən əvvəlki respublika rəhbərliyinin liberallığı, mərkəzdən (Moskvadan!) asılılığı, şəxsi rahatlığa meylli olmalarına qarşı *Heydər Əliyev* əsl milli rəhbər obrazını qoymuş, bütün kəskinliyi ilə təsdiq etmişdir.

...Yuxarıda qeyd etdik ki, 20-30-cu illərdə hələ Azərbaycanda (ümumən türk sovet respublikalarında) "türk" sözü qadağan olunmamışdı: "türk dili", "Azərbaycan türklərinin ədəbiyyatı", "türk mədəniyyəti", "türk teatrı", "türk işçisi" və s. ifadələr böyük tarixi olan bir milli hadisəni hələ öz adı ilə adlandırırdı. Heydər Əliyevin gəncliyi məhz bu illərdə keçmişdi... 30-cu illərdə (xüsusilə həmin onilliyin birinci yarısında) Azərbaycan orta məktəblərində ana dili, ədəbiyyat, tarix fənləri türkçülükdən heç də tamamilə "xilas olmamışdı" Türkiyə ilə müqavilə əsasında Azərbaycana gəlmiş türkiyəli mütəxəssislərin 20-ci illərdə tərtib etdikləri proqramlar, dərsliklər hələ bu və ya digər dərəcədə qüvvədə idi. Vətənini sevən müəllimlər də vardı... Və 30-cu illərin inqilabi coşğunluğu, siyasi-ideoloji təlatümləri məktəbdə istər-istəməz milli hisslərlə kompromisə girməli olurdu. Heydər Əliyev təhsilini belə bir məktəbdə almış, 30-cu illərin təbəddülatlı ideyalar

mühitində böyümüşdü. Həmin mühit insanı köləyə də çevirə bilərdi, milli ideyalar uğrunda mübarizə də...

...Heydər Əliyevdə türkçülük duyğuları gənc yaşlarında orta məktəb şagirdi ikən oyanmışdı. O zaman türkçülüyü əsasən Türkiyəyə yeganə müstəqil türk dövlətinə marağ müəyyən edirdi.

Böyük türkçü sonralar xatırlayırdı ki, "cocuq ikən, gənc yaşlarımda Türkiyəyə böyük hörmətim, məhəbbətim var idi. İndi ola bilər ki, elə böyük sirr deyil açım, o vaxtlar mən türk dili lüğətini, türk dili dərsliyini götürmüşdüm türk dilini öyrənirdim. Bunu da açıq deyə bilərəm ki, müəllimim də var idi, bir müddət iki-üç il mənə türk dili öyrətdi. Türkiyənin tarixini öyrənirdim, şairlərini öyrənirdim. Gənc ikən indi mənim yaşımda olan adamlar ola bilər ki, bunu xatırlasın məsələn, Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanı bizim hamımızı heyran edən bir əsər idi... Ancaq mən "Çalıquşu"nu 13-14 yaşımda oxumuşdum. O məni heyran etmişdi". Heydər Əliyev daha sonra xatırlayır: "Bir "Çalıquşu" deyil, biz o vaxtlar Türkiyənin böyük şairlərini, yazıçılarını öyrənirdik. Əbdülhəq Hamid, Tofiq Fikrət və bir neçə başqaları bizim o vaxt, orta məktəbdə oxuduğumuz illərdə ədəbiyyat dərsliklərimizə daxil idi. Ədəbiyyat dərsliklərində Türkiyənin bu böyük yazıçılarının, şairlərinin əsərləri indi də gözümün qabağındadır. Yəni mən gənc yaşlarımda bu da təbiidir, burada heç bir qeyri-təbii şey yoxdur içərimdən, kökümdən, qəlbimdən, mənəviyyatımdan gələn bir hissiyyatdır ki, Türkiyəyə böyük maraqla, heyranlıqla baxırdım"...

Gələcəyin böyük Azərbaycan və ümumən türk dövlət xadimini Türkiyəyə (həm yaxın, həm də əl çatmayan, uzaq məmləkətə!) hələ ilk gəncliyindən bağlayan hisslər onu həyatının heç bir dövründə, mərhələsində tərk etməmişdi: "...Biz Türkiyə ilə Azərbaycan arasında həyat körpüsünü, ümid körpüsünü yaradanda da mən bu hissiyatlarla yaşadım. O vaxt mən Naxçıvanda yaşayırdım. Həyatım belə gətirdi ki, mən Naxçıvanda doğuldum, böyük bir yol keçdim, Moskvaya getdim. Ondan sonra gəlib doğulduğum yerdə yaşamağa məcbur oldum. Mənim üçün bu da çox gözəl bir dövrdür. Ona görə gözəl bir dövrdür ki, Türkiyə ilə Azərbaycan arasında əsrlər boyu həsrətində olunan körpünün tikilməsində iştirak



etdim, o körpünün inşasını apardım və Türkiyənin böyük oğlu Süleyman Dəmirəllə, Türkiyənin millət vəkilləri ilə, nazirləri ilə birlikdə həsrət, ümid körpüsünü bir yerdə açdıq"...

1994-cü il noyabrın ilk günlərində Türkiyənin Böyük Millət Məclisində yada saldığı bu xatirələrə Heydər Əliyev onu da əlavə edir ki, "...Azərbaycanda belə həsrətlərlə yaşamış adamlar çox olub. Onların bir çoxu bu günləri görmədən həyatını dəyişib. Ancaq biz xoşbəxtlərdənik ki, bu günləri gəlib görmüşük. Türkiyə ilə Azərbaycanın bərabərliyini, dostluğunu görürük, onun şahidiyik və bu dostluğu daha da inkişaf etdirmək üçün fəaliyyət göstəririk...".

30-cu illərin sonlarına doğru SSRİ-də (xüsusilə Azərbaycanda) türkçülüyə qarşı aparılan qəddarcasına mübarizə milli ictimai təfəkkürdə dəhşətli sarsıntılar törətdi düşünməyə qabil insanlar sovet ideologiyasının amansız təzyiqi altında məhv edildilər, bütöv xalqlar yerindən-yurdundan didərgin düşdülər: Krım tatarları, Mesxeti türkləri, Şimali Qafqaz türkləri... Cənubi Azərbaycanlılar İrana sürgün olundular...

Əlbəttə, həmin illərdə Heydər Əliyev hələ gənc idi dəyişən, pozulan, yenidən düzülməyə cəhd edən, qəddar ideologiyalar, amansız mövqelər, coşğun ehtiraslar əlində oyuncağa çevrilmiş dünyanı ancaq gənclik marağı ilə seyr edir, həyatda ancaq ona məxsus olan, taleyin məhz onun üçün ayırdığı yeri axtarırdı... İlk tapıntılar dövlət təhlükəsizliyi orqanlarından başlandı ətrafdakı hadisələri izləməyə, araşdırmağa, fenomenal yaddaşına yığıb təhlil etməyə meylli olan gənc çox qısa bir müddətdə öz işinin ustasına çevrildi: onun çalışdığı sahə dünyanın tərs üzünü görməyə, hadisələrin, proseslərin mahiyyətinə varmağa, artıq hökm – fərma olmuş sovet ideologiyasının fəaliyyət metod və üsullarını müşahidə etməyə imkan verirdi... Dövlət təhlükəsizliyi orqanlarındakı işi gələcəyin böyük ictimai-siyasi və dövlət xadiminin möhkəm xarakterini, sərt məntiqini daha da cilalayırdı...

Heydər Əliyevin dövləti idarə məharətinin formalaşmasında 50-60-cı illər həlledici rol oynamışdır məhz bu illərdə respublika rəhbərliyindəki yüksəlişi eyni zamanda ona imkan verirdi ki, sovet dövlətçiliyinin həm məzmunu, həm də praktikasına dərindən bələd olsun. Bu cür dərindən bələdlik aşağı-

yuxarı qırx yaşlarında olan, artıq yetkin dövlət adamına birinci növbədə kifayət qədər mürəkkəb sosial-siyasi mühitdə fəaliyyətinin strategiyası ilə taktikasını düzgün əlaqələndirmək məharəti qazandırdı.

Geniş yayılmış belə bir fikir mövcuddur ki, 80-ci illərdə sovet dövləti rəhbərliyində işləməyə aparılan Heydər Əliyev Moskvada o səviyyədə yeganə türk idi; əslində həmin sözləri bu və ya digər şəkildə 50-60-cı illərin Bakısı barədə də demək mümkündür... Bakıda Azərbaycan rəhbərliyində M.C.Bağırovun mühakiməsindən sonra milli kadrlar artıq heç nəyi həll etmirdilər dövlət təhlükəsizliyi orqanlarında isə vəziyyət, sadəcə olaraq, milli mənafelər baxımından faciəli idi. Heydər Əliyev sonralar Moskvada görmək istədiyi işləri Bakıdan başladı.

Rus-sovet dövlətçiliyinin tarixi əsasında qədim türk dövlətçiliyinin əsrlər boyu qazandığı təcrübə dayanmışdı... IX-XII əsrlərdə qıpçaqlar, XIII-XVI əsrlərdə monqol-tatarlar, görkəmli türkoloq L.N.Qumilyovun sübut etdiyi kimi, Avrasiya dövlətçiliyini yaratdılar. XVII-XVIII əsrlərdə Qərbi Avropanın müasir texnikaya əsaslanan dünya hakimiyyəti iddiaları Rusiyanı da öz ağuşuna aldı avropalı olmağa cəhd edən Rusiya sarayı avropalı kimi yeməyi, geyməyi, danışmağı hələ əməlli-başlı mənimsəməmişdi ki, XIX əsr gəldi. Avropa Rusiyada daha çox silahı, hərbi texnikası, inqilab çevriliş ideyaları, üsyanları ilə görünməyə başladı... Və görməmiş Rusiya bir-birinin ardınca çevrilişlərə məruz qalıb, nəhayət ki, qeyri-adi, analoqu olmayan bir dövlətə sovet dövlətinə çevrildi.

...Hansı qiyafədə təzahür edirsə etsin, mahiyyəti etibarilə bir türk dövləti olan Rusiya SSRİ dövlətçilik təfəkkürü zəif rus-slavyan xadimləri tərəfindən heç zaman normal idarə edilə bilməmişdir. Türklər isə XVII əsrdən etibarən yüksək idarəçiliyə, demək olar ki, buraxılmamışlar... Ona görə də rus-slavyanlarla azsaylı (az qorxulu!) qeyri-türklər arasında həmişə nə isə bir yaxınlaşma, dövlət idarəçiliyində qarşılıqlı münasibət, qeyri-rəsmi saziş özünü göstərmişdir.

Heydər Əliyev öz böyük türk ağlı ilə bunları görürdü. Və əslində, çox şeyləri görürdü... Sovet türklüyü kommunizm bayrağı altında taktiki hərəkət qabiliyyətini bütünlüklə itirmişdi.



rus-slavyan düşüncəsi bir kənddə qurduğu kommunizmi kolxozu bütöv bir ölkədə qurmağa çalışırdı, azsaylı (lakin çevik) xalqlar kosmopolit mühitdə sərbəst hərəkət edir, arabir donquldanan rus ayısını sığallayırdılar ki, onları qapmasın...

...Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsindən bir neçə il sonra Azərbaycanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində həqiqətən yeni bir dövr başlandı. Bakı hələ Moskva deyildi, sovet hakimiyyəti Bakıya, deyək ki, Tbilisidən, yaxud Yerevandan çox əhəmiyyət verirdi. 1926-cı ildə Bakıda I Türkoloji qurultay keçirilmişdi, burada Şərq xalqlarının məclisləri, yığıncaqları olmuşdu, buradan Şərq dünyasına tarixi yollar uzanırdı... Bakı Şərqin qapısı idi.

Heydər Əliyevin Bakıda gözlənilməyən bir sərbəstliklə respublikanı idarə etməyə başlaması nəinki Moskvada, heç Bakının özündə də rahat qarşılanmadı. Niyə? Ona görə ki, yeni dövlət başçısı gözlənilməyən bir halda neçə illərin sükunətini hərəkətə gətirdi, simasızlaşmağa gedən milləti oyatdı, türk düşüncəsini silkələdi, pozulmaqda olan ictimai əxlaqı dindirdi... Bu isə özünə möhkəm yer eləmiş, gedəni söyüb, gələni öyməklə neytrallaşdıran, müxtəlif millətlərdən ibarət məmurları təmin etmirdi; şantaja, böhtana əl atdılar, lakin bu türk o biri türklərdən deyildi...

Moskvaya gəldikdə isə... Böyük bir işə başladığını yaxşı bilən Heydər Əliyev, əvvəla, L.İ.Brejnevin şəxsində özünə möhkəm dayaq tapmışdı, ikinci tərəfdən, iqtisadiyyatı dirçəldən, "kommunizmin maddi bazası"nı hazırlayan bir respublika rəhbərinə açıq şəkildə qarşı çıxmaq üçün heç bir ciddi əsas yox idi...

Leonid İliçin Heydər Əliyevə xüsusi hörməti barədə 70-80-ci illərdə hətta miflər yaranırdı onlardan biri də belə idi ki, Qərbi Avropa ölkələrinin hansına isə rəsmi səfərə gedən Sovet dövləti başçısını gənc çekist onu gözləyən ölüm təhlükəsi barədə xəbərdarlıq etmiş, məsələ dərindən araşdırılanda çekistin haqlı olduğu meydana çıxmışdı. Və ondan sonra L.İ.Brejnev özünü Heydər Əliyevə borclu saymışdı...

Mif isə uydurma deyil, həyat həqiqətinin özünəməxsus (şüuraltı!) şərhidir.

Türk hökmdarlarının böyük ənələrini davam etdirən Azərbaycan rəhbəri respublikanı nəhəng tikinti meydanına çevirdi: Bakı şəhəri görünməmiş bir sürətlə abadlaşdırıldı, Naxçıvanda, Gəncədə, Sumqayıtda, respublikanın rayon mərkəzlərində mədəniyyət evləri, məktəblər, inzibati binalar, yaşayış evləri tikildi, kanallar çəkildi, su anbarları yaradıldı və s. və i.a. Heydər Əliyev bu vaxta qədər ittifaq miqyasında, demək olar ki, adı çəkilməyən respublikanı SSRİ-nin ən qabaqcıl müsəlman-türk respublikasına çevirdi; on ildən artıq müddətdə Heydər Əliyevin Azərbaycanın iqtisadi, mədəni, mənəvi yüksəlişi üçün gördüyü işləri o zaman SSRİ respublikalarından heç birinin rəhbəri görməmişdi... Heç digər görkəmli türklər D.Ə.Kunayevlə Ş.R.Rəşidov da görə bilməmişdilər.. Halbuki onlara nisbətən cavan Heydər Əliyev artıq müəyyən taktiki məqsədlərlə Moskvanın gözlərini qamaşdırmaqla kifayətlənmir, mənsub olduğu millət üçün çox böyük işlər görməyə strateji planlarını həyata keçirməyə çalışırdı.

Həmin planlardan biri, bəlkə də birincisi xalqın özünü özünə tanıtdırmaq, onun normal etnokulturoloji həyatını bərpa etmək idi...

Heydər Əliyev Azərbaycan tarixinin ən müxtəlif problemlərinin öyrənilməsinə, milli tarixi təfəkkürün oyadılmasına xüsusi əhəmiyyət verdi ixtisasca tarixçi olan (o, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir) Heydər Əliyev üçün tarix yalnız "üzü keçmişə siyasət" deyildi, həm də və bəlkə də daha çox millətin öz həqiqi keçmişini dərindən öyrənib gələcəyə hazırlıqlı getməsi üçün bir məktəb, ilham mənbəyi idi. Azərbaycan xalqının mənşəyi, formalaşması, Azərbaycan millətinin təşəkkülü kimi mühüm tarixşünaslıq problemləri məhz 70-ci illərdə bütün elmi-ideoloji kəskinliyi ilə qoyuldu, müşavirələr, müzakirələr keçirildi. Və bu gərgin axtarışlar heç bir elmi adı, alimlik dərəcəsi olmayan Heydər Əliyevin bilavasitə, yaxud dolayısı ilə rəhbərliyi altında gedir, vaxtaşırı ona məlumatlar verilirdi.

...Onun üçün tarix sosial-siyasi tarixlə məhdudlaşmırdı, Heydər Əliyev milli dil, ədəbiyyat, mədəniyyət və s. tarixinin problemləri ilə də maraqlanır, mütəxəssisləri səfərbər edirdi.



Azərbaycan ədəbiyyatının, mədəniyyətinin yalnız tarixi ilə deyil, bugünü ilə də sonsuz enerji ilə məşğul olan, Azərbaycan yazıçıları, mədəniyyət, incəsənət xadimləri ilə ardıcıl görüşən, onların qurultaylarında fəal iştirak edən respublika rəhbəri millətin yaradıcı qüvvələrini əvvəlki illərin ətalətindən çıxardı onlarla görkəmli yazıçı, incəsənət, mədəniyyət, elm xadiminin sədası məhz respublika rəhbərinin nüfuzu sayəsində qısa bir zamanda SSRİ-nin mərkəzindən gəlməyə başladı... Yəni Azərbaycan Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə təkcə nefti, pambığı, üzümü ilə deyil, mənəvi-intellektual sərvətləri ilə də ittifaq miqyasında məşhurlaşdı...

Respublikanın müxtəlif rayonlarında dünya mədəniyyətindən, demək olar ki, təcrid edilmiş şəkildə yaşayan, lakin zəhmətkeş, istedadlı xalqın Azərbaycanın mərkəzi ilə əlaqələrinin genişlənməsində də Heydər Əliyevin bugünə qədər dərindən araşdırılmamış (lakin araşdırılmaya ehtiyacı olan!) mühüm xidmətləri olmuşdur məhz bu görkəmli şəxsiyyətin, böyük dövlət xadiminin uzaqgörən siyasəti nəticəsində Bakı "beynəlmiləl" şəhərdən milli şəhərə çevrilirdi... Yeganə ümumittifaq türkologiya jurnalı da 1970-ci ildən məhz Bakıda çıxmağa başladı.

Azərbaycana rəhbərlik etdiyi illərdə yalnız Azərbaycan ictimaiyyəti deyil, ümumən sovet ictimaiyyəti gördü ki, Heydər Əliyev təkcə qorxmaz, cəsarətli, möhkəm iradəli bir rəhbər yox, həm də müdrik, ensiklopedik məlumata, güclü məntiqə malik, cəmiyyəti dərindən bilən, onu bu və digər məqsəd uğrunda hərəkətə səfərbər etməyi bacaran təşkilatçı dövlət xadimi, yüksək səviyyəli ideoloqdur... Belə şəxsiyyətlər L.İ.Brejnev dövründə istər Moskvada, istərsə də respublikaların rəhbərliyində çox deyildi, ölkə "rahat" yaşamağa meylli idi, tarixi problemlər, necə deyərlər, dondurulmuş, "yeni fikrin", "yeni mövqe"yin, siyasi-ideoloji axtarışların qapısı bağlanmışdı... Yaşı ötmüş, lakin təbiətən xeyirxah olan, Azərbaycana (Heydər Əliyevə!) xüsusi münasibət bəsləyən L.İ.Brejnev ayaqları dolaşa-dolaşa dünyanın müxtəlif ölkələrini gəzir, səmimi-qəlbdən sülh istəyirdi... Lakin Moskva Əfqanıstana qoşun yeritdi və uğursuz müharibəyə başladı...

L.İ.Brejnev erası başa çatır, son dövrünü yaşayan sovet dövlətinin rəhbərliyində tənəzzüldən çıxış yolları axtarılırdı. Vəziyyətin mürəkkəbliyi çoxlu suallar doğurur, axtarışlara sövq edir, müxtəlif ideyalar, mülahizələr meydana çıxır. Və təbii ki, müxtəlif xarakterli qüvvələri həm daxildə, həm də xaricdə fəaliyyətə, aktiv hərəkətə sövq edirdi.

70-ci illərin sonu 80-ci illərin əvvəllərində Sov. İKP MK-nın Siyasi Bürosunda (faktiki olaraq ölkə rəhbərliyində) üç türk vardı: Dinmühəmməd Kunayev (qazax), Şərəf Rəşidov (özbək) və əlli yaşlarında olan Heydər Əliyev... Zaman bu türklərdən üçüncüsünü tədricən ön mövqeyə ruslara təkbaşına mübarizə mövqeyinə çıxarırdı.

...80-ci illərdə sovet dövlətinin rəhbərliyində ardıcıl dəyişikliklər getdi. Baş katiblər biri digərini əvəz edir, siyasi büronun tərkibi dəyişirdi. Heydər Əliyev belə bir mürəkkəb dövrdə Moskvaya çağırıldı Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini oldu. Bu, sovet dövləti yaranandan bəri türk-müsəlman dövlət xadiminin gəlib çıxdığı ən böyük vəzifə idi... Tarixi bir qədər də geniş miqyaslı götürsək, ən geci XVII əsrdən bəri türk-slavyan sovet dövlətinin rəhbərliyində ən yüksək vəzifə əldə etmiş türk müsəlman idi...

80-ci illərin ortalarında artıq Heydər Əliyev sovet dövləti rəhbərliyində yalnız Azərbaycan xalqının yox, ümumən türk-müsəlman xalqlarının lideri idi türk dünyasının həm strateji, həm də taktiki problemlərini həll etmək yalnız onun üzərinə düşürdü. Və Heydər Əliyev döyüşürdü.

...Deyəsən, allah sovet türklərinə o qədər də kiçik olmayan bir şans vermişdi. Qətiyyətli, müdrik, enerjili türkün ətrafında birləşmək, türklərin dağılmış hüquqlarını, səlahiyyətlərini bərpa etmək, bəlkə də mümkün idi. Lakin türk respublikalarının rəhbərlərində bu dəfə də lazımi cəsarət olmadı. Rus şovinizmi isə ayaqda idi M.Qorbaçov mənfur "perestroyka" fırıldağına başlamışdı... Heydər Əliyevin qarşısında iki yol qalırdı: ya axıracan (təbii ki məğlub ediləcən!) döyüşmək, ya da öz karyerasını gözləyib gicbəsər M.Qorbaçovun avantürist sayıqlamalarını müdafiə etmək...

O birinci yolu seçdi... Və Heydər Əliyevlə M.Qorbaçov ilk dəfə Qazaxıstan məsələsi üzərində üz-üzə gəldilər. M.Qorbaçov vaxtilə Siyasi Büroda böyük nüfuzu olmuş Dinmühəmməd Kunayevi Qazaxıstan rəhbərliyindən kənarlaşdırmaq, yerinə rus G.Kolbini qoymaq qərarına gəldiyini söylədi. Heydər Əliyev qəti şəkildə onun əlehinə çıxdı: əvvəla, Dinmühəmməd Kunayev 20 ildən çoxdur ki, respublikaya uğurla rəhbərlik edir, nə olsun ki, yaşlıdır?.. Əgər Dinmühəmməd Kunayev çıxarılmalıdırsa yerinə qazax qoyulmalıdır (məsələn, Nazirlər sovetinin sədri Nursultan Nazarbayev), rus yox!..

M.Qorbaçov və onu müdafiə edən, bir sözünə də yox deməyən Siyasi Büro "məqsədinə çatdı". Lakin Qazaxıstanda M.Qorbaçovun bu qərarına qarşı kütləvi çıxışlar oldu həmin çıxışlar mərkəz tərəfindən "millətçilik" elan edildi...

...M.Qorbaçovun Azərbaycanla bağlı nadan siyasəti, özbaşınalığı o həddə çatdı ki, 1987-ci ilin sonlarında Siyasi Büronun iclasında Heydər Əliyev onu ittiham etməli oldu. Baş katibin həyasızcasına dediyi "Sən Azərbaycanın işlərinə qarışma!" sözlərindən hiddətlənən keçmiş Azərbaycan rəhbəri, ümumən artıq azərbaycanlıların liderinə çevrilmiş Heydər Əliyev türkün son ümidi olan fiziki gücündən istifadə etməli oldu əgər Siyasi Büronun üzvləri araya girib son dərəcədə qəzəblənmiş türkü iclas salonundan çıxarmasaydılar, M.Qorbaçov layiq olduğu cəzasını, heç şübhəsiz, alacaqdı.

...Rus şovinizmi onunla üz-üzə dayanan sonuncu türkü də tərk-silah etdi Heydər Əliyev Moskvada təcrid edildi, onunla görüşmək qadağan olundu, hərəkətləri izlənildi. Bu azmış kimi, doğma Azərbaycanda onun əlehinə amansız təbliğata rəvac verildi. Və həmin təbliğat gedə-gedə Azərbaycan torpaqları da qonşu Ermənistan tərəfindən işğal edilirdi. Moskva bununla da kifayətlənməyib Bakıya qoşun yeritdi, itaətsiz xalqı qəddarcasına cəzalandırdı...

80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda Heydər Əliyevin Vətənə dönməsinə münasibət birmənalı deyildi: Moskavanın "kadrlar"ı, hakimiyyətə can atan (lakin dövlət idarəçiliyi sahəsində səriştəsiz) qüvvələr, onlara qoşulmuş "maraqlılar"... "qüvvətli əl"dən (əslində "qüvvətli baş"dan!) çəkinirdilər; geniş xalq kütlələri, xüsusilə orta və yüksək ixtisaslı ziyalılar, yazıçılar, mədəniyyət, elm xadim-

ləri, əmin-amanlıq tərəfdarları... isə təcrübəli dövlət xadimini gözləyirdilər.

...*Heydər Əliyev Azərbaycana ölkənin ümumən məhv olmaq təhlükəsi altında olduğu zaman gəldi. Və Azərbaycanı nəinki xilas etdi, onu türk dünyasının qabaqcıl məmləkətlərindən birinə çevirdi.* Bu gün Azərbaycan haqqında danışmaq türk dünyası barəsində, Heydər Əliyev haqqında danışmaq isə türk böyüklərindən biri barəsində bəhs etmək deməkdir. Müstəqillik əldə etmiş heç bir (digər) türk dövlətinin başçısı bu səviyyəyə ümumən türk dünyasının lideri olmaq səviyyəsinə gəlib çatmamışdır...

Zəngin dövlət idarəçiliyi təcrübəsi (və potensialı) olan Azərbaycan prezidenti türk dünyasının birliyi üçün nə qədər böyük işlər görmüşdürsə, ondan da böyük işlər görmək gücünə, imkanlarına malikdir. Burada söhbət gözəl nəzəri fikirlər söyləməkdən, "Çinə türk bayrağı sancmaq"dan getmir, konkret, perspektivli işlərdən gedir. Azərbaycan rəhbərliyinə yenidən gəldikdən, siyasi hakimiyyət əldə etdikdən sonra Heydər Əliyevin fəaliyyətində bir sıra sahələr aydın cizgiləri ilə seçilir:

– Azərbaycan iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə etmək;

– türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı türk dövlətinin (xüsusilə beynəlxalq) problemlərinin həllində türk dünyasının birgə hərəkətini təmin etmək;

– türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından yararlanmaq və s.

...Heydər Əliyevin türk dünyasının problemləri ilə daha ardıcıl məşğul olduğu mərhələ 1993-cü ildən müstəqil Azərbaycan Respublikasının prezidenti seçiləndən sonra başlayır. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir"... Bu müraciətdə türklük düşüncəsinin ən azı üç tarixi əlaməti əks olunur:

1) ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması;

2) türk (və ümumən müsəlman) dünyasının birliyinə çalışılması;

3) həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi ideyasının müdafiəsi.

...Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu "iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan" saymışdır. Türkiyə haqqında müxtəlif vaxtlarda deyilmiş aşağıdakı sözlərin hamısı Heydər Əliyevə məxsusdur: "Trükiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilmişdir...". "Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var...". "Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir". "Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin qədim və zəngin tarixi var". "İndi Azərbaycan Respublikası bir müstəqil dövlət kimi Türkiyə Cümhuriyyəti ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə çalışır...". "Mən bu gün bir daha Türkiyə torpağına ayaq basmağıma, Türkiyə torpağında olmağıma görə özümü çox xoşbəxt hesab edirəm...". "Yeni doğulmuş müstəqil Azərbaycan dövləti Türkiyənin köməyini, yardımını, qayğısını daim hiss edir". "Hələ gənc yaşlarımda kitablardan, qəzetlərdən Türkiyə haqqında, türk xalqı haqqında oxuyarkən Türkiyəyə həmişə həsrətlə baxır, ona böyük maraq göstərir, Böyük Millət Məclisinin işi barədə, onun qəbul etdiyi qərarlar barədə məlumatları həvəslə, diqqətlə oxuyurdum". "...Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir". "...Türkiyə ilə Azərbaycan arasında indiyədək yaranmış əlaqələr yeni mərhələyə keçir". "...xalqlarımız bir kökdəndir...

Hətta son dövrdə ayrı düşməyimiz də bu birliyimizi əlimizdən almamışdır. İndi biz bu birliyi davam etdirmək üçün bütün imkanlara malikik...". "Biz bir millət, iki dövlətik..." "Burada, bu salonda kimin türkiyəli, kimin azərbaycanlı olduğunu ayırmaq mümkün deyildir...". "Azərbaycanla Türkiyə arasındakı sədlər, sərhədlər, qadağalar, yasaqlar götürülmüşdür"... və s.

Heydər Əliyev 1994-cü ilin fevralında Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə rəsmi səfərdə olarkən müxtəlif görüşlər keçirmiş, bu ölkə barəsində on illərlə ürəyində, beynində daşıdığı fikirlərinin əksəriyyətini ilk dəfə söyləmişdir...

90-cı illərin əvvəllərində hələ Naxçıvanda olarkən Heydər Əliyev Türkiyə prezidenti Süleyman Dəmirəllə, Türkiyənin böyük ictimai-siyasi və dövlət xadimləri ilə tez-tez görüşmüş, sıx əlaqələr saxlamışdır... Müşahidələr göstərir ki, Süleyman Dəmirəl Azərbaycan prezidentinin ən çox qiymətləndirdiyi, hətta özünə qardaş hesab etdiyi türk dövlət başçılarından, dünya ictimai-siyasi xadimlərindən biri (və bəlkə də birincisi)dir. Heydər Əliyevin Süleyman Dəmirələ müraciətən dediyi aşağıdakı sözlər bunu bir daha sübut edir: "Türkiyə Cümhuriyyətinin beynəlxalq aləmdə xarici siyasətini aparmaqda, onu beynəlxalq təşkilatlarda təmsil etməkdə, Türkiyə Cümhuriyyətinin ilbəil Dünya birliyində layiqli yer tutmasında sizin böyük xidmətləriniz var və buna görə də siz təkcə Türkiyədə yox, yalnız türk dünyasında yox, bütün dünyada məşhur bir siyasi-ictimai xadimsiniz, dövlət xadimisiniz".

Heydər Əliyev daha sonra demişdir: "Azərbaycan xalqının sizə xüsusi hörmət və məhəbbəti vardır. Çünki xalqımız sizi çox yaxşı tanıyır, siyasi fəaliyyətinizi, dövlət fəaliyyətinizi həmişə izləyir. Təsadüfi deyil ki, hələ "soyuq müharibə" vaxtı, Sovetlər İttifaqı ilə Türkiyə Respublikası arasında münasibətlərin gərgin olduğu bir dövrdə Azərbaycan Respublikası, xalqımız Sovetlər İttifaqının tərkibində olduğu bir vaxtda 25 il bundan öncə siz Türkiyənin baş naziri kimi Sovet İttifaqına ilk səfər etmisiniz. Moskada, Sovetlər İttifaqının başqa şəhərlərində olmusunuz. Biz o zaman hiss etdik ki, qəlbiniz, ürəyiniz Azərbaycana da gəlməyi sizə əmr etmiş, Bakıya gəlməyi sizə tövsiyə etmişdir. Siz Bakıya, Azərbaycana gəldiniz.



Xatirinizdədir ki, 1968-ci ildə Azərbaycan xalqı o vaxt sosialist rejimi şəraitində, Sovet İdtifaqının tərkibində ikən sizi nə qədər böyük hörmət və ehtiramla qarşıladı və sizə öz məhəbbətini bildirdi, beləliklə, bütün Türkiyədə olan qardaş və bacılarına, Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına öz hörmət və ehtiramını bildirdi. Mən çox xoşbəxtəm ki, o günlərdə sizinlə şəxsən tanış oldum. Bizim bu tanışlığımız, dostluğumuz 25 ildir ki, davam edir".

Heydər Əliyev Süleyman Dəmirəli "böyük öndər Mustafa Kamal Atatürkün işinin etibarlı davamçısı kimi, onun böyük şagirdi kimi" qiymətləndirmiş, "türk dünyasının, türk dövlətlərinin bir-birinə daha yaxın olması" yolunda hələ çox işlər görəcəyinə əminliyini ifadə etmişdir...

...Türkiyə xüsusilə 20-ci illərdən başlayaraq yalnız türkiyəlilərin deyil, ümumən dünya türklərinin mənəvi vətəni olmuşdur Sibir, Türküstan, Volqaboyu, Şərqi Avropa, Şimali Qafqaz, Azərbaycan türkləri həmin illərdən etibarən ümidlərini Türkiyəyə bağlamışdılar. Bunun bir səbəbi də o idi ki, cəza orqanlarının təqibindən qaçan yüzlərlə türk mücahidi 20, 30, 40-cı illərdə məhz Türkiyədə məskunlaşmışdılar: onların içərisində Əli bəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağaoğlu, Zəki Vəlidi Toğan, Yusif Akçura oğlu, İsa Yusif Alptəkin, Əhməd Cəfəroğlu... kimi böyük simalar vardı ki, elmi, ictimai-siyasi, mədəni-ədəbi fəaliyyətlərinin sonuna qədər türkçülüyü Türkiyəçilik səviyyəsinə enməyə qoymamış, böyük ideallar uğrunda gərgin mücadilələr vermişlər. Və beləliklə, Türkiyə faktiki olaraq bir neçə on il (əlli ildən artıq!) ümumən türklüyün vətəni olmuşdur...

...Heydər Əliyev görünür, Türkiyəni bir də ona görə sevmişdir ki, bütün Türk dünyasından Türkiyəyə yollar uzandığı kimi, Türkiyədən də bütün Türk dünyası görünürdü (və bu gün də görünməkdədir). Yalnız uğurları ilə deyil, həm də qüsurları, problemləri ilə... Türkiyə təkcə həmin uğurlara sevinmir, problemlərin həllinə, mübahisələrə, dedi-qodulara da səbrlə münsiflik edir.

...Heydər Əliyevin tarixi Türküstan Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan... ilə, həmin türk regionunun dövlət xadimləri, siyasi-ictimai liderləri ilə əlaqələri sovet

dövründə sıx olmuş, sovet dövlətinin süqutundan sonra isə yeni milli-ideoloji məzmun kəsb etmişdir.

Qazaxıstana, onun rəhbərliyində gedən proseslərə, rus şovinizminin bu proseslərə müdaxiləsinə Heydər Əliyevin münasibəti barədə artıq bəhs etmişdik. Çox keçmədi ki, həmin münasibətin yeganə düzgün münasibət olduğunu tarix təsdiq elədi: Nursultan Nazarbayev respublika rəhbərliyinə gəldi.

...1994-cü ilin martında Çinə rəsmi səfərdən Bakıya qayıdan Heydər Əliyev Almatıda dayanır və Nursultan Nazarbayevlə görüşür. Azərbaycan prezidentinin həmin görüşdəki çıxışı olduqca maraqlı, türk dövlətləri başçılarının münasibətləri baxımından olduqca təsirlidir: "Əvvəlcə qeyd etmək istəyirəm ki, mən özüm Almatıda dayanmağı xüsusi olaraq planlaşdırdım ki, məhz Nursultan Abişeviçlə görüşə bilim. Başqa sözlə, söhbət təkcə texniki ehtiyacdan deyil, həm də mənim Nursultan Abişeviçlə görüşmək, danışmaq arzumdan gedir". Azərbaycan prezidenti əlavə edir: "Biz onunla çoxdan dostuq. İndi üzərimizə böyük məsuliyyət götürdüyümüz bir vaxtda, əsrlərlə dostluq etmiş xalqlarımızın taleyi üçün *böyük məsuliyyət daşıdığımız bir vaxtda* (kursiv bizimdir – N.C.), şübhəsiz ki, görüşlərimiz, fikir mübadiləsi aparmağımız tələb olunur. Buna görə də mən bu gün Nursultan Abişeviçlə məmnuniyyətlə görüşdüm. Biz dövlətlərarası münasibətlərimizin bir çox məsələlərinə dair fikir mübadiləsi etdik...".

Türküstan respublikaları, həmin respublikalarla Azərbaycanın çoxtərəfli əlaqələri, əməkdaşlığı və s. barədə Heydər Əliyevin, görünür, ilk proqram əhəmiyyətli fikirləri Türk dövlətləri başçılarının İstanbulda keçirilən 2-ci zirvə toplantısında söylənmişdir. ...Azərbaycan prezidentinin İstanbula yola düşərkən Bakıda, hava limanında jurnalistlərə dediyi aşağıdakı sözlər diqqəti cəlb edir: "Şübhəsiz ki, zirvə toplantısı bizim xalqlarımızın (türk xalqlarının – N.C.), müstəqil ölkələrimizin (türk dövlətlərinin – N.C.) bu günü və gələcəyi üçün əhəmiyyətli yoldur. Yəni bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür. Ona görə də mən bu görüşə böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti bunlar hamısı respublikamızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır"... Və 2-ci zirvə toplantısının açılışında Azərbaycan prezidenti bu fikri daha da inkişaf etdirib demişdi: "Bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu çox böyük əsasdır. Ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə, bütün istiqamətlərdə bu əməkdaşlığı təmin etməyə bizim böyük imkanlarımız var. Azərbaycan Respublikası belə qərara gəlib ki, *bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin* (kursiv bizimdir – N.C.)...

...Həmin nitqində Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin türk dövlətləri ilə əlaqələrində ümumən xarici siyasətində artıq neçə illər kölgədə qalmış bir məsələyə işıq saldı. O ancaq dahi diplomatlara (və türk dünyasının birliyi uğrunda hər cür mücadiləyə hazır böyük türkçülərə!) xas olan bir açıqlıqla dedi: "...Ancaq bir həqiqəti də qeyd etmək istəyirəm ki, ölkələrimiz (söhbət türkdilli ölkələrdən gedir – N.C.) müstəqillik əldə edəndən sonra, iki il bundan öncə Ankarada bizim ölkələrimizin rəhbərləri toplaşıb, görüşüb birgə bəyanat qəbul edəndən sonra ola bilər ki, Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycan Respublikasının Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Təxminən bir il bundan öncə, mən Azərbaycan Respublikasına başçılıq etməyə başladığım gündən bu qardaş respublikalarla əlaqələrin bərpa olunması üçün çox çalışmışam və bildirmək istəyirəm ki, *bu əlaqələrin zəifləməsi və bəzən də qırılması* (kursiv bizimdir – N.C.)

səbəbləri ancaq Azərbaycandadır". Azərbaycan prezidenti daha sonra dedi ki, "ona görə də Azərbaycan tərəfindən bu əlaqələrin uzun müddət zəifləditilməsinə görə və xüsusən 1992-ci ildə Ankara bəyannaməsindən sonra Azərbaycan tərəfindən bu dövlətlərlə əlaqələri inkişaf etdirmək üçün təşəbbüs göstərilmədiyinə görə mən dostlarımdan, qardaşlarımdan üzr istəyirəm və bunu etiraf edirəm. Eyni zamanda bildirmək istəyirəm ki, Azərbaycan bu əlaqələrin gücləndirilməsinə çalışır və bundan sonra da çalışacaqdır...

Ümumiyyətlə, bir kökdən, bir mənşədən olan və adət-ənənələri bir olan xalqların, ölkələrin, dövlətlərin əməkdaşlağının böyük gələcəyi var və mən hesab edirəm ki, biz bu imkanlardan səmərəli istifadə etməliyik".

...Etiraf edək ki, Heydər Əliyev Türküstanın dövlət başçıları Nursultan Nazarbayev, İslam Kərimov, Saparmurad Niyazov (Türkmənbaşı), Əsgər Akayev ilə görüşlərində, münasibətlərində öz ağsaqqallıq missiyasını, türk dünyasının lideri vəzifəsini məharətlə yerinə yetirir. Təcrübəli dövlət adamının, müdrik ictimai-siyasi xadimin qeyri-adi nüfuzu qısa bir müddətdə Türküstana yayılmış və həmin ölkələr, onların münasibətləri, beynəlxalq mövqeləri üçün nə qədər böyük əhəmiyyətə malik olduğunu artıq göstərməkdədir. Heydər Əliyev uzaqgörəndir, qətiyyətlidir, lakin eyni zamanda səbrlidir, hadisəni mahiyyətdən, təsadüfi zərurətdən ustalıqla ayırır. Bu isə ona Türküstan respublikaları ilə münasibətdə çox geniş səlahiyyətlər verir... Digər tərəfdən, Mərkəzi Asiya türklüyünün Türkiyəyə, oradan da Qərbi Avropaya yolunun ən kəsəsi Azərbaycandan keçir. Şimal-Qərbdən və Cənub-Qərbdən keçən yollar, əslində, tarixi-ənənəvi yoldan (ipək yolundan!) çıxmaq deməkdir. Bunu Azərbaycanın köhnə rəhbərliyi bilmirdi, Heydər Əliyev isə bilir.

...Son illərin müşahidələri göstərir ki, türk dünyasının iqtisadi, siyasi, mədəni əlaqələri türk dövlətlərinin bu sahələrdəki əməkdaşlığı barədə hərdən bir "xaric" düşünən, arabir də "müxalif" hərəkət edən türk dövlət başçısı Saparmurad Niyazov (Türkmənbaşı) olmuşdur. Türk dövlət başılarının 2-ci zirvə toplantısında mətbuat konfransında söylədiyi aşağıdakı mülahizələr Türkmənbaşının mürəkkəb tarixi proseslərə dərindən (və ümumtürk mənafeləri mövqeyindən!) yanaşmağa çətinlik çəkdiyini göstərir: "...Prinsip etibarilə biz Azərbaycanın Qərb konsorsiumu ilə imzaladığı müqavilənin əleyhinə deyilik. Yeganə məqsəd bu olmalıdır ki, heç kim birbirindən şübhələnməsin, heç kim fikirləşməsin ki, biri digərinin hesabına fayda götürməyə çalışır və Xəzər dənizi hansısa çəkişmə, mübahisə, qeyri-sabitlik obyektinə çevrilməsin... Xəzərlə bağlı məsələlərdə müvafiq dövlətlərin ehtiyat etməsini başa düşmək mümkündür. Bu gün bizlərdən kimsə bir iş görərkən qonşular buna həmişə şübhə ilə yanaşırlar. Bizim də Hollandiya və Argentina firmaları ilə sazişlərimiz var, onlar Xəzər dənizinin sahilində işləyirlər. Lakin biz mövcud neft mədənlərində hasilatın artırılması barədə saziş bağlamışıq və gəliri yarı böləcəyik. Xəzərin Türkmənistan sahillərindəki şelfində iş görmək barədə də danışıqlar aparacağıq"... Və Saparmurad Niyazov türk dövlətləri başçılarının məclisində yuxarıdakı sözlərin ardınca öz strateji mövqeyini belə bəyan etmişdir: "...Əgər Rusiya ilə saziş bağlamaq sərfəli olarsa onunla, İranla sərfəli olarsa onunla saziş bağlayacağıq".

"Xəzər dənizi hansısa çəkişmə, mübahisə, qeyri-sabitlik obyektinə çevrilməsin" deyən Türkmənbaşı elə bil ki, Xəzəri tarixi ənənələrə baxmadan iki daşın arasında bölüşdürüb, öz payını daha yüksək qiymətə (kim çox verdi!) satmaq istəyir. Halbuki Xəzər dənizi türk dövlətlərini məhz bölünməzliyi ilə birləşdirməlidir...

Və yeri gəlmişkən, Xəzər hövzəsi türk (eləcə də qeyri-türk!) dövlətlərindən ancaq birinin Azərbaycanın paytaxtı Xəzər dənizinin bilavasitə sahilində yerləşir. Yalnız Azərbaycan prezidentinin iş kabinetindən baxanda qədim türk tayfalarından birinin adını daşıyan Xəzər dənizi görünür... "Coşğun Xəzər oynar ayaqlarında...".

...1994-cü il oktyabr ayının sonlarında Heydər Əliyev Türkmənistanın müstəqillik qazanmasının 3-cü ildönümü şənliklərində iştirak etmək üçün Aşqabada gedir. Azərbaycan prezidentinin məqsədi, heç şübhəsiz, sadəcə şənliklərdə iştirak etmək deyildi, Aşqabadda jurnalistlərə verdiyi müsahibədə daha böyük (əslində, tarixi!) bir məqsəd izlədiyini etiraf

etmişdi: "...Türkmənistan bizə qonşu, dilimizə və keçmişimizə görə yaxın bir ölkədir. Ona görə də mən istəyirəm ki, ölkələrimiz arasındakı əlaqələri möhkəmləndirək. Vaxtilə böyük səhvlər buraxılıb, Azərbaycanı Orta Asiya, ümumiyyətlə, Mərkəzi Asiya ölkələrindən uzaqlaşdırıblar. Mən istəyirəm ki, bu, aradan götürülsün. Güman edirəm ki, belə tədbirlər gələcəkdə keçmiş "İpək yolu"nun canlandırılmasına kömək edəcəkdir"...

Heydər Əliyevin müstəqil Türkmənistan dövlətinin 3-cü ildönümü münasibətilə dediyi aşağıdakı sözlər, bir tərəfdən, böyük türk dövlət xadiminin bir türk dövlətinin uğurlarına ürəkdən gələn sevincini ifadə edirsə, digər tərəfdən, həmin dövlətin rəhbərliyini türk birliyi mövqeyində möhkəm dayanmağa çağırır: "Mən Türkmənistanın bu üç illik müstəqillik dövründə əldə etdiyi nailiyyətləri, prezident, dostum və qardaşım Saparmurad Türkmənbaşının xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Hörmətli prezident Saparmurad Türkmənbaşı ilə biz çox illərdir ki, dostuq, tanışıq. Vaxtilə bir yerdə də işləmişik. İndi də qonşu ölkələrə rəhbərlik edirik. Ona görə dünən də, bu gün də Türkmənistanın son dövrdə (mən əvvəllər də Türkmənistanda olmuşam), xüsusilə müstəqillik qazanandan sonra hörmətli prezident Türkmənbaşının rəhbərliyi altında əldə etdiyi nailiyyətlər məni qəlbən çox sevindirdi... Müsəlman dövlətlərinin Pakistan, Türkiyə, Türkmənistan, İran və Azərbaycanın rəhbərlərinin burada, Türkmənistan torpağında, qədim türk torpağında toplaşması çox böyük hadisədir".

...Heydər Əliyevin Türkmənistana səfəri Azərbaycan prezidentinin müstəqillik yolları ilə addımlayan tarixi Türküstana Orta Asiyaya ilk səfəri idi və bu səfərin nəticələri ilə əlaqədar Heydər Əliyev demişdi: "Güman edirəm ki, gələcəkdə əməkdaşlığımız üçün çox böyük imkanlar var və Saparmurad Niyazovla danışdıq ki, bu imkanlardan hər iki tərəf istifadə etməyə çalışacaqdır".

...Təbii ki, türk dünyası Türküstandan Mərkəzi Asiyadan çox genişdir: Yakutiya, Sibir türkləri var; Volqaboyu türkləri tatarlar, başqırdlar, çuvaşlar var; Şimali Qafqaz türkləri var... Onların hamısı sovet dövründən (və dövlətindən!) keçmişlər, indi isə Rusiyanın vətəndaşlarıdırlar. Heydər Əliyev onların gələcəyini necə görür? Bunu deyə bilmərik, ancaq bir məsələ aydındır ki, həmin xalqların ictimai-siyasi problemlərinin ən dəqiq şəkildə, vaxtilə Sovet dövlətinin rəhbərlərindən biri olmuş Heydər Əliyev bilir...

Türk dünyasının fəxri, yaxud böyük türklərdən biri Heydər Əliyevin portretini böyük şəxsiyyətin aşağıdakı sözləri tamamlayır: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir".

## 4. DÜNYA AZƏRBAYCANLILARININ MİLLİ LİDERİ

Hər bir xalqın tarixində elə dövrlər, mərhələlər olur ki, həmin xalq bütün sosial-mənəvi gücünü toplayaraq ayağa durur, hər hansı məhrumiyyətə, daxili, yaxud xarici təzyiqlərə, müdaxilələrə baxmayaraq ictimai, siyasi, ideoloji perspektivlərini müəyyənləşdirir. Xalqın milli xarakteri, enerjisi, potensial imkanları özünü məhz həmin dövrlərdə, mərhələlərdə daha parlaq bir şəkildə nümayiş etdirir. Və adı dünya tarixinə yazılan böyük şəxsiyyətlər, milli liderlər də bu cür qaynar, həlledici məqamlarda formalaşır.

*Milli lideri bu və ya digər dövrün, mərhələnin sıravi qəhrəmanlarından fərqləndirən ən mühüm cəhət ondan ibarətdir ki, onun (milli liderin) dünyagörüşü, fəaliyyət-mübarizə üslubu mənsub olduğu xalqın, cəmiyyətin dünyagörüşü, fəaliyyət-mübarizə üslubu səviyyəsinə qalxır. Xalq tarixi marağının bütün mükəmməlliyi ilə bir şəxsdə (şəxsiyyətdə!) milli liderdə təzahür edir.* Hətta bəzən, yuxarıda bəhs etdiyimiz daxili, yaxud xarici təzyiqlər, müdaxilələr xalqı çaşdırır, parçalayır, qüvvələrini üz-üzə qoyub zəiflədir. Milli lider isə özünün (prinsip etibarilə mənsub olduğu xalqın!) mövqeyində daha möhkəm dayanır, xalqının idealları, dünyadakı yeri uğrunda nəinki xarici təzyiqlərə, hətta daxili hərcmərcliyə qarşı da mübarizə aparmalı olur...

*Azərbaycan xalqının ən yeni dövr tarixində milli lider vəzifəsini onun (xalqın!) böyük oğlu Heydər Əliyev daşıyır.* Və məlum olduğu kimi, Heydər Əliyev bu və ya digər bir ideologiyanın, siyasi cərəyanın, hər hansı tarixi impulsun üzə çıxarıb yüksəltdiyi liderlərdən, yaxud qəhrəmanlardan deyil. O həm kommunizm ideologiyası, həm demokratik hərcmərclik həm də müstəqil dövlət quruculuğu dövrlərində Azərbaycan cəmiyyətinin milli lider ideallarına uyğun gəlmişdir. Ona görə də Azərbaycan tarixində Heydər Əliyev epoxası olduqca zəngin, həqiqətən tarixi (!) bir epoxadır.



Heydər Əliyev milli lider səviyyəsinə bizim bir sıra yalançı "lider"lərimizdən fərqli olaraq tədricən (tarixən!) yüksəlmişdir ki, həmin yüksəliş tarixinin aşağıdakı mərhələləri vardır:

I. 60-cı illərin sonlarından 70-ci illərin sonlarına qədər.
II. 70-ci illərin sonlarından 90-cı illərin əvvəllərinə qədər.
III. 90-cı illərin əvvəllərindən sonra.

60-cı illərin sonlarından o öz tarixi missiyasını o zaman üçün qeyri-adi olan bir cəsarətlə həyata keçirməklə Azərbaycanın artıq milli lideri olduğunu təsdiq edir.

İkinci mərhələ Heydər Əliyevin şəxsən özü üçün, həyatı üçün çoxlu problemlər yaratmış bir mərhələ olsa da, lider kimi yüksəlişi üçün olduqca geniş imkanlar açdı: hər şeydən əvvəl, dünyanın ən möhtəşəm dövlətlərindən birinin rəhbərlərindən, dünya miqyaslı siyasətin müəlliflərindən olmaqla, Azərbaycana (Azərbaycan xalqına!) "kənar"dan, "böyük siyasət"in mövqeyindən baxmaq imkanı əldə etdi; ikincisi, dünyanı sarmış "kommunizm kabusu" dağıldı, "Sovet liderləri" də müstəqillik uğrunda mübarizəyə başladılar... Və xüsusi olaraq qeyd etmək lazımdır ki, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində azad xalqlar milli liderlərini axtarırdılar özünü "lider" kimi təqdim edib, xalqla artıq təcrübəli milli lider arasına girənlər çox olsa da, tarixi onları bir neçə il ərzində sıxışdırıb aradan çıxardı.

...*Heydər Əliyev 90-cı illərin əvvəllərində Azərbaycana* (və Azərbaycan dövlətinin rəhbərliyinə!) məhz milli lider olaraq gəldi. Azərbaycanda hər şey ona tanış idi, daha doğrusu, hara baxırdısa öz əsərlərini görürdü həm iqtisadiyyatda, həm ictimai, siyasi, ideoloji, həm də mədəni, mənəvi həyatda...

Heydər Əliyev yeni Azərbaycanın qurucusu missiyasını öz üzərinə götürmüşdür. Son illərin hadisələri göstərdi ki, Azərbaycan xalqının milli lideri təcrübəli (və təcrübəli olduğu qədər də cəsarətli!) bir kapitan kimi Azərbaycan gəmisini tarix okeanının tufanlarından, qasırğalarından sağ-salamat keçirib, uğurla irəliyə gələcəyə aparır...

Bu ancaq milli liderlərə məxsus olan bir cəhətdir onların missiyası mənsub olduqları xalqı bu və ya digər problem, müvəqqəti çətinlik ətrafında dolandırmaqdan, boş mübahisələrə meydan verməkdən yox, onu (xalqı!) irəli aparmaqdan, inkişaf etmiş xalqların səviyyəsinə qaldırmaqdan, dünyanın mədəni xalqlarından birinə çevirməkdən ibarətdir.

Heydər Əliyev təxminən yarım əsrdir ki, "Azərbaycan xalqının milli lideri kimdir?" sualına öz möhtəşəm fəaliyyəti ilə aydın bir cavab verir...

Azərbaycan xalqı azərbaycanlılar dünyanın müxtəlif ölkələrində Azərbaycan Respublikasında, İranda, Rusiyada, Türkiyədə, Gürcüstanda, ABŞ-da, İngiltərədə, Almaniyada, Fransada, Skandinaviyada, Baltikyanı ölkələrdə və digər yerlərdə yaşasalar da, onları bir-birinə bağlayan olduqca möhkəm mənəvi-ideoloji vasitələr vardır: bu, ana dilidir, ata yurdu Vətəndir, tarixən formalaşmış etnik-mədəni sistemdir... Və milli liderdir!.. Müşahidələr göstərir ki, Heydər Əliyevin siyasi fəaliyyətində müstəqil Azərbaycan dövlətinin daxili möhkəmliyini, xarici (beynəlxalq) nüfuzunu qoruqmaq nə qədər möhtəşəm yer tutursa, Azərbaycan xalqının dünya azərbaycanlılarının milli birliyi, dünya xalqları içərisində özünəlayiq mövqe qazanması uğrunda mübarizə də o qədər mühüm əhəmiyyət daşıyır. Görkəmli dövlət xadimi dəfələrlə qeyd etmişdir ki, müstəqil Azərbaycan Respublikasının inkişafında dünyanın müxtəlif ölkələrinə yayılmış azərbaycanlıların həmrəyliyi, mənəvi-ideoloji, siyasi köməyi böyük rol oynayır bir xalq olaraq əsas vəzifələrimizdən biri həmin həmrəyliyi gücləndirməkdən, həmin köməyin daha ardıcıl, daha intensiv xarakter almasını təmin etməkdən ibarətdir. Dünyanın müxtəlif ölkələrinə səfərlərində Azərbaycan icmalarının nümayəndələri ilə görüşüb onlara hərtərəfli dəstək verən **Azərbaycan prezidenti dünya azərbaycanlılarının konsolidasiyası, milli birliyi uğrunda mübarizəni müstəqil Azərbaycan dövlətinin siyasəti səviyyəsinə qaldırmışdır.**

Müasir dünya artıq ümumbəşəri dəyərlərlə yaşadığını çox tez-tez bəyan etsə də, reallıq çox zaman bunun əksini göstərir son illərin beynəlxalq təcrübəsi dönə-dönə sübut etdi ki, milli ehtiraslar dünyanın siyasi xəritəsini dəyişməyə, böyük fəlakətlər törətməyə qadirdir. Qonşu xalqların ərazisinə göz dikən, hay-küy salaraq öz kiçik problemlərini böyük ölkələrin parlamentlərində, beynəlxalq forumlarda vaxtaşırı müzakirə etdirən, bu yolla dünyanın zəhləsini tökən "narahat" xalqların cılız etnik hissləri Yer kürəsinin normal xalqlarından ehtiyatlı olmağı tələb edir. Ümumən türk xalqlarına, xüsusilə azərbaycanlılara qarşı amansız hücuma "səlib yürüşü"nə başlamış erməni faşistlərinin başını dumanlandıran da həmin hisslərdir. Odur ki, beynəlxalq siyasi həyatın özü dünya xalqlarının birlikdə yaratdıqları ümumbəşəri dəyərlərə hörmət etməklə yanaşı, milli birliyə nail olmağı, düşmənə qarşı birgə çıxış etməyi, birgə müdafiə olunmağı tələb edir.

Müşahidələr göstərir ki, dünya azərbaycanlılarının həmrəyliyinə təkan verən ilk hadisə də Azərbaycan dövlətini (və dövlətçiliyini gözləyən təhlükə oldu. Erməni qəsbkarlığına qarşı mübarizədə formalaşan həmin həmrəylik lazımi miqyas alıb tələb olunan effekti verməsə də, hər hansı milli təhlükə qarşısında birləşməyin ilk böyük təcrübəsini verdi. Lakin etiraf etmək lazımdır ki, bu, stixiyalı, inersiyalı bir həmrəylik idi, hələ ideoloji məzmun kəsb etməmişdi. Bunun üçün böyük ideologiya (və həmin ideologiya ilə silahlanmış milli lider!) lazım idi.

...Heydər Əliyev dünya azərbaycanlılarının həmrəyliyi, milli birliyi uğrunda mübarizəyə respublikaya Naxçıvana qayıtdığı ilk aylardan başladı. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hər il dekabr ayının 31-nin Dünya azərbaycanlılarının həmrəylik günü kimi qeyd olunması barədə qərar verdi. Həmin qərarın qəbul edilməsi Ali Məclisin sədri H.Əliyevin bilavasitə təşəbbüsü idi. Və 1991-ci ilin 31 dekabrı Naxçıvanda müxtəlif ölkələrdən, xüsusilə İrandan, Türkiyədən gəlmiş azərbaycanlıların iştirakı ilə bayram edildi. Naxçıvan MR Ali Məclisinin qərarı Azərbaycan Respublikası Ali Soveti tərəfindən rəsmən müdafiə edilsə də, Dünya azərbaycanlılarının həmrəyliyi günü Azərbaycan Respublikası miqyasında yalnız 1993-cü ildə (yenə də Heydər Əliyevin təşəbbüsü ilə) qeyd edildi.

...Azərbaycan prezidenti bununla kifayətlənmədi, xarici ölkələrə səfərlərində azərbaycanlılarla görüşməyə xüsusi diqqət yetirməklə, onların nəzərinə çatdırdı ki, formalaşmaqda olan Azərbaycan dövlətinin bütün azərbaycanlılara ehtiyacı var... Və bunun nəticəsi idi ki, Azərbaycan prezidenti rəsmi səfər etidiyi ölkələrdə (hətta qonşu ölkələrdə də) yaşayan azərbaycanlılar həmişə böyük məmnunluq hissi ilə onun görüşünə gəlmiş, səfərdən sonra isə həmin azərbaycanlıların həm bir-biri, həm də Azərbaycan respublikası ilə əlaqələri genişlənmişdir.

...Dünyada nə qədər azərbaycanlı olduğunu dəqiq demək çətindir. Təxmini hesablamalara görə, müxtəlif ölkələrdə 50 milyona qədər azərbaycanlı yaşayır ki, bunların 10 milyona qədəri azərbaycanlıların tarixi vətənindən kənarda, onlarla ölkədə məskunlaşmışlar. Həmin ölkələr içərisində əsas yeri Rusiya, Ukrayna, ABŞ, Almaniya, Fransa, Hindistan, Pakistan, İsveç, Norveç, Kanada... tutur.

Şübhəsiz, azərbaycanlıların milli həmrəyliyini həm miqyasca, həm də keyfiyyətcə əsasını Azərbaycanın Şimalı ilə Cənubu arasındakı əlaqə təşkil edir. Bu olduqca mürəkkəb etnososial, etnosiyasi hadisədir... Məlum olduğu kimi, Azərbaycanın Cənubunda, yaxud İran Azərbaycanında 30 milyona yaxın azərbaycanlı yaşayır ki, onların ana dilində məktəbləri, milli düşüncələrini ifadə etmək, inkişaf etdirmək üçün sosial-siyasi təsisatları yoxdur. Onlar İran İslam Respublikasının vətəndaşıdırlar. Lakin etiraf etmək lazımdır ki, İranda öz tarixi vətənində yaşayan həmin milyonlarla azərbaycanlı milli müqəddəratın təyin olunduğu XX əsrdə dəfələrlə siyasi müstəqillik uğrunda mücadiləyə qalxmışlar. Bu gün də İran azərbaycanlılarının azadlıq eşqi kifayət qədər yüksəkdir. Bununla belə İranda azərbaycanlıların mütəşəkkillik problemi vardır burada söhbət ondan gedir ki, milli (və demokratik!) dövlətin olmaması xalqın etnososial birliyinin siyasi-ideoloji səviyyədə özünümüdafiəsinə imkan verməmişdir. İş o yerə gəlib çıxmışdır ki, bugün İranda hələ xalq kimi formalaşmamış, ümummilli düşüncəyə yiyələnməmiş türk-Azərbaycan tayfaları mövcuddur... Əlbəttə, beynəlxalq prinsiplərə görə, Azərbaycan dövlətinin İranın daxili işlərinə qarışmaq səlahiyyəti yoxdur (və dövlət tərəfindən həmin prinsipə ciddi əməl olunur!), lakin on milyonlarla insana öz milli müəyyənliyini, etnik xarakterini unutdurmağa çalışmaq da heç bir beynəlxalq prinsipə uyğun gəlmir... Azərbaycanın Şimalı ilə Cənubu arasındakı münasibətlərin inkişafına bir də ona görə ehtiyac vardır ki, bugün Qərb ölkələrində məskunlaşan azərbaycanlıların əksəriyyəti məhz Cənubdandır. Şimalla Cənub arasındakı etnokulturoloji, etnosiyasi münasibətlər normal olmasa, Qərb ölkələrindəki azərbaycanlılar özlərini hər iki Azərbaycanın övladı saymağa çətinlik çəkə bilərlər. Bizim fikrimizcə, tarixi Azərbaycanda etnik-ideoloji həyatın sabitliyi İran İslam Respublikasını daha çox maraqlandırmalı, özünü doğrultmayan "milləti-İran" siyasətindən əl çəkib, İranda azərbaycanlıların öz etnokulturoloji sistemləri daxilində inkişafları üçün şərait yaradılmalıdır.

*...Azərbaycanlıların tarixi vətəni yalnız Azərbaycanın Şimalı ilə Cənubundan ibarət deyil, artıq deyildiyi kimi, həmhüdud regionlarda Türkiyədə, Gürcüstanda, Dağıstanda, İraqda yaşayan azərbaycanlılar da öz tarixi vətənlərindədirlər.* Azərbaycan Respublikası (və Azərbaycan prezidenti) həmin azərbaycanlılara xüsusi diqqət yetirir, onların problemləri ilə daim maraqlanır. Birinci növbədə Gürcüstan, Dağıstan azərbaycanlıları ilə... Əslində, onlar da özlərini Azərbaycandan heç zaman ayrı təsəvvür etməmişlər.

Dünya azərbaycanlılarının həm mədəni, həm ideya-siyasi baxımdan fəal hissəsini Qərb ölkələrində, o cümlədən Rusiyada yaşayan azərbaycanlılar təşkil edir. Onlar xüsusilə son illər, birinci növbədə müstəqil Azərbaycan dövlətinin yüksəlişi (və Azərbaycan prezidentinin mübarizəsi!) nəticəsində, etnik-mədəni, sosial-ideoloji baxımdan təşkilatlanmağa, hətta bu və ya digər dərəcədə lobbiçilik fəaliyyəti ilə məşğul olmağa başlamışlar. ABŞ-da, Fransada, Almaniyada, İngiltərədə, Skandinaviya ölkələrində... də Azərbaycan diasporu kifayət qədər inkişaf etmiş, müxtəlif mədəniyyət mərkəzləri yaradılmışdır ki, onlar Azərbaycan dilinin, ədəbiyyatının, incəsənətinin dünyada tanınmasıda, müstəqil Azərbaycan ideallarının beynəlxalq səviyyədə müdafiəsində müəyyən

xidmətlər göstərirlər. Hər şeydən əvvəl Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə tarixi (və müasir!) həqiqətin dünya ictimaiyyətinə çatdırılmasında onların üzərinə böyük vəzifələr düşür.

...Azərbaycan prezidentinin dəfələrlə qeyd etdiyi kimi, əgər Azərbaycan belə bir münaqişənin, müdaxilənin predmeti olmasaydı indi daha sürətlə inkişaf edib dünyanın müasir səviyyəli ölkələrindən, güclü dövlətlərindən birini çevrilmişdi. Ermənilərin azərbaycanlılara qarşı təcavüzü artıq regional hüdudları keçib planetar səciyyə daşımağa başlamış, dünyanın müxtəlif ölkələrində məskunlaşmış, siyasi nüfuza, geniş maddi imkanlara malik ermənilər həmin məsələni vətəndaşı olduqları ölkələrin dövlət orqanlarında, parlamentlərində öz xeyirlərinə həll etməyə çalışmaqla artıq xeyli siyasi tərəfdarlar tapmağa nail olmuşlar. Həmin ölkələrin gənc Azərbaycan diasporu isə heç bir məhdudiyyət, prinsip gözləməyən əxlaqsız erməni təbliğatına müqavimət göstərməkdə çətinlik çəkir. Çox zaman erməni mövqeyinin müdafiəsi işini məhz erməni kilsəsi öz üzərinə götürdüyündən həmin mübarizə, münaqişə dini-ideoloji xarakter alır... İslam dini isə ümumbəşəri bir dünyagörüşü formasıdır, etnik, yaxud milli münaqişələrə qarışmır, daha çox mənəvi-əxlaqi problemlərlə məşğul olur. Lakin, xüsusi sübuta ehtiyac yoxdur ki, islam dini (bizim dinimiz!) bizim xalqımızı qorumalıdır; yalnız ümumi şəkildə deyil, beynəlmiləlçilik düşüncəsi ilə deyil, konkret şəkildə qorumalıdır. Və bunun üçün biz dinimizin imkanlarından istifadə etməliyik... Azərbaycan xalqının azərbaycanlıların milli-mənəvi xarakterinin əsaslarından birincisini türkçülük təşkil edirsə, ikincisi, heç şübhəsiz, islam dinidir.

...Dünyanı idarə etmək məsuliyyətini öz üzərinə götürmüş beynəlxalq təşkilatlar, siyasi xadimlər Qafqazdakı münaqişələrin həllində Azərbaycan prezidentinin nüfuzuna ümid edirlər. Ona görə ki, Heydər Əliyev dünya ictimaiyyətinin nəzərində belə bir böyük siyasi nüfuzu qazanmışdır. O, dəfələrlə beynəlxalq miqyaslı problemlərin müzakirəsində iştirak etmiş, həlledici fikirlər söyləmişdir. Heydər Əliyev yalnız Azərbaycanın, ümumən azərbaycanlıların rəhbəri deyil, dünyanın gələcəyi üçün məsuliyyət daşıyan böyük ictimai-siyasi xadimlərdəndir... Lakin yer üzündə mövcud olduqları müddətdə bir nəfər də olsun normal düşüncəli dövlət xadimi yetirə bilməyən ermənilərin xarakteri, münaqişəyə qoşulma maneraları, ondan istifadə "bacarıq"ları elədir ki, normal, müasir düşüncə ilə onlara cavab vermək, prinsip etibarilə, mümkün deyil. Bugün ermənilərlə konstruktiv söhbət aparmaq üçün heç bir şərait yoxdur. Elə bir adam, təşkilat tapmaq mümkün deyil ki, bu millətin adından danışmaq səlahiyyətinə malik olsun, özünü ermənilərin lideri olaraq sərbəst, orta əsrlərdə formalaşmış erməni mifindən azad hiss edərək ikitərəfli, yaxud çoxtərəfli danışıqlar apara bilsin. Ona görə də ermənilərlə danışığın çox az şey verəcəyini nəzərə alan Heydər Əliyev bütün diqqətini müvəqqəti sülh şəraitində Azərbaycan dövlətçiliyini sürətlə inkişaf etdirməyə, düşmən üzərində taktiki yox, məhz strateji qələbə qazanmağa vermişdir. Doğrudan da, yalnız Azərbaycanı deyil, bütövlükdə dünyanı mənfur erməni mifindən xilas etməyə artıq böyük ehtiyac vardır... Ermənilərin onlara sığınacaq vermiş, ərazilərində dövlət yaratmaq üçün şərait yaratmış azərbaycanlılara növbəti xəyanəti dünya xalqlarına, dünya "əfkari-ümumiyyə"sinə nə qədər tez çatsa, dünya onu gözləyən fəlakətdən o qədər tez qurtaracaqdır.

*...Azərbaycanlıların beynəlxalq həmrəyliyi yalnız Azərbaycan xalqı (və dövlətçiliyi) üçün böyük siyasi əhəmiyyət kəsb etmir, həm də tarixi Azərbaycan regionunda, ümumən dünyada siyasi-ideoloji harmoniya yaratmaq prosesində fəal iştirak etmək üçün geniş imkanlar açır.*

Azərbaycanın itirilmiş torpaqların müharibə yolu ilə qaytarmaq barədə son illər müxtəlif təkidli tələblər irəli sürülür... Əlbəttə, bu tələblərə yalnız ilk baxışda ciddi yanaşmaq mümkündür. Əslində isə, bugün dünya müharibə, zor dili ilə danışmağı qəbul etmir. Və bugün dünyada gedən müharibələr, əlbəttə, bunları klassik mənada müharibə hesab etmək olmaz, faktiki olaraq heç nəyi həll edə bilmir. Bunun klassik nümunəsi Çeçenistandır... Bugün dünyada qarşısıalınmaz bir

sürətlə ideoloji müharibə gedir. Və ermənilər bunu bizdən yaxşı bilirlər... Elə əvvəlcədən ciddi müharibə etməyiblər bizim torpaqlarımızın itirilməsi Ermənistanın apardığı qalibiyyətli müharibənin nəticəsi deyil. Ermənilər qarşı tərəfin hazırsızlığından, siyasi-ictimai cəhətdən mütəşəkkil olmamasından istifadə edib qarışıqlıq saldılar, Azərbaycanın Moskvadakı düşmənlərini hərəkətə gətirdilər, dünya ictimaiyyətini aldatdılar və istədiklərinə müvəqqəti də olsa çatdılar... Azərbaycan xalqı ermənilərə ideoloji müharibə elan etməli, onların iç üzünü açıb bütün dünyaya göstərməlidir. Dünya bilməlidir ki, yalnız Qarabağ deyil, Ermənistan adı ilə tanınan ərazi də son dövrlərə qədər azərbaycanlılara mənsub olmuşdur.

*Azərbaycanlıların dünyadakı milli tarixi mövqelərini bərpa etmək, Azərbaycan xalqının beynəlxalq hüquqlarını qorumaq üçün dünyanın hər yerində yaşayan azərbaycanlıların birləşməsi artıq elə bir tarixi zərurətdir ki, onunla hesablaşmadan mükəmməl bir xalq olmaq, milli iradəni bütün gücü ilə ifadə etmək mümkün deyil.*

...Azərbaycan Respublikasının prezidenti, dünya azərbaycanlılarının milli lideri, Heydər Əliyev 2000-ci ilin 22 iyununda azərbaycanlıların Moskvada keçirilən ümumrusiya konqresindəki nitqində demişdir ki, “xalqımız istedadlı, bacarıqlı xalqdır. Xalqımızın bütün tarixi buna parlaq sübutdur. Lakin mən Azərbaycanda işlədiyim əvvəlki vaxtlarda həmişə demişəm ki, öz ərazisinin hüdudları, sərhədləri daxilində qapanıb qalan heç bir xalq bütün dünya ictimaiyyətinin, bütün dünya sisteminin sürəti ilə inkişaf edə bilməz. Yəni mən həmişə milli məhdudluq hisslərinin əlehinə olmuşam... Yeri gəlmişkən, güman edirəm, dünyada elə adamlar var ki, onlar öz genlərinə görə çox qabiliyyətli doğulurlar və öz inkişafında dahi ola bilərlər, lakin yalnız ona görə dahi olmurlar ki, doğulduqları yerin, yaxud yaşadıqları ölkənin hüdudlarından kənara çıxmırlar...”. Şübhəsiz, dünyanın hər hansı nöqtəsində baş verən hadisələrin beynəlxalq səviyyədə rezonans verdiyi müasir dövrdə öz içinə qapılıb yaşamaq, özünü “Çin səddi” ilə dünyadan təcrid etmək heç bir xalqa, o cümlədən də azərbaycanlılara xeyir gətirmir. Dünyaya yayılmaq, dünya mədəniyyətinin uğurlarına yiyələnmək, genetik istedadın verdiyi imkanları reallaşdırmaq lazımdır. Bu, dünya azərbaycanlılarının liderinin (və tarixin) tələbidir... Lakin “hər bir xalqın öz vətəni var. Bizim vətənimiz Azərbaycandır, o, bizim doğma torpağımızdır. Bu Vətən nə dünən, nə də bu gün meydana gəlibdir. Bu Vətən çoxəsrlik tarixə malikdir, bu Vətən çoxəsrlik zəngin mədəniyyətə malikdir, bu Vətəndə çox zəngin ənənələri, adətləri, öz xarakteri olan xalq yaşayır... Vətənimizi intellektual baxımdan daha zəngin, iqtisadi cəhətdən daha zəngin etmək üçün və Vətənimizin daha çox tanınması üçün, Vətənimizin dünyada hər yerdə məşhur olması üçün insanlar Vətənin hüdudlarından uzaqlara getməli və istədikləri yerdə yaşamalı, istədikləri yerdə işləməlidirlər, ancaq Vətənlə əlaqələri kəsməməli, Vətəni unutmamalı və öz milli köklərini unutmamalıdırlar”... Bu isə o deməkdir ki, hər bir azərbaycanlı üçün dünyanın üfüqləri Azərbaycandan başlayır və hər bir azərbaycanlı hiss etməlidir ki, onun arxasında “Azərbaycan” adlı möhtəşəm bir Vətən dayanır... Azərbaycan prezidentinin sözləri ilə desək, “küçə süpürən də, bazarda alver edən də, elmin və ya mədəniyyətin ən yüksək zirvəsində olan da, böyük kommersant olan da bizim üçün doğma adamlardır. Çünki onların hamısı bizim adamlarımızdır”.

Azərbaycan prezidentinin, dünya azərbaycanlılarının liderinin hər bir azərbaycanlı üçün, onun taleyi üçün daşıdığı məsuliyyət hissi olduqca müqəddəs hissdir. Və bu, hər bir azərbaycanlını öz xalqının, millətinin ümumi səadəti naminə fəaliyyətə səfərbər etməlidir. Artıq dəfələrlə deyildiyi kimi, müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların əsas vəzifələrindən biri ermənilərin Azərbaycana təcavüzünə qarşı mübarizə aparmaqdan ibarətdir. Azərbaycanlılardan fərqli olaraq, ermənilər neçə əsrlərdir ki, dünyanın hər yerində məskunlaşmış, yaşadıqları ölkələrdə güclü icmalar yaratmışlar. “Məsələn, Amerikada onlar Amerika cəmiyyətinə tamamilə daxil olmuşlar... Yığcam yaşadıqları yerlərdə məktəblərə, kilsələrə, bir çox digər şeylərə malikdirlər... Nyu-Cersidə, Massaçusetsdə və digər ştatlarda, o cümlədən Los-Anceles şəhərində daha yığcam yaşayırlar və s. Lakin onlar başqa yerlərdə də

hər yerdə yaşayırlar. Müxtəlif ölkələrdə imkanlara malik olduqlarına görə, bu münaqişə ilə əlaqədar məsələnin beynəlxalq təşkilatlar vasitəsilə ədalətlə həll edilməsinə imkan vermirlər" deyən Azərbaycan prezidenti onu da əlavə edir ki, "gərək biz də öyrənək... Mən belə bir xəyaldan, xülyadan uzağam ki, biz buna qısa vaxtda, bir onillik ərzində nail ola bilərik. Lakin qarşımıza məqsəd qoysaq bunu edə bilərik".

Azərbaycanlıların milli lideri çoxsaylı müsahibələrindən birində demişdir: "Mən Kalifoniyaya gələcəkdim, sadəcə, imkanım olmadı. Gəlib o ermənilərlə üz-üzə duracaqdım. Onlar orada mənim əlehimə nə qədər mitinq eləsəydilər, yaxud da mənə daş atsaydılar, mən onların qabağına çıxacaqdım. Çıxacaqdım və deyəcəkdim ki, siz ədalətsizsiniz, siz Amerika kimi inkişaf etmiş, demokratiyada inkişaf etmiş bir dövlətdə yaşayırsınız, Amerikanın vətəndaşlarısınız, amma nə qədər ədalətsizsiniz! Mən bunları deyəcəkdim. Amma mənim proqramım imkan vermədi, ona görə də oraya gələ bilmədim. Ancaq inşallah, gələcəyəm, gələcəyəm, gələcəyəm! Mən arzu edirdim ki, gəlib orada azərbaycanlılarla da yaxşı görüşə bilim". Və əlavə etmişdi ki, "hələ o vaxt, sovet hakimiyyəti vaxtında mən dəfələrlə Ermənistana getmişdim, onların bayramlarında iştirak etmişdim. Orada bildirirdilər ki, bu, Amerikadan, bu, Fransadan, Avropanın digər ölkələrindən gələn erməni nümayəndə heyətləridir xarici ölkələrdən ermənilər Ermənistana gəlirdilər. Amma bizə başqa ölkələrdən bir azərbaycanlı gəlirdimi? Heç kəs gəlmirdi. Ona görə də onlar uzun illər öz diasporları, erməni lobbiləri ilə əlaqədar olublar və əlbəttə, müstəqillik əldə edəndən sonra bu əlaqələr genişlənibdir"...

Heydər Əliyev müdrik bir şəxsiyyət, təcrübəli ictimai-siyasi xadim olaraq hər bir hadisəyə analitik baxışı ilə seçildiyi kimi burada da bugünə tarixdən gəlir (və gələcəyə gedir!): biz gündəlik mübarizəmizi aparmaqla yanaşı xalqımızı strateji qələbələrə hazırlamalıyıq. Təmkinlə, israrla, inamla...

Azərbaycanlıların müxtəlif ölkələrdəki icmaları, diasporları lobbiçilik fəaliyyətində türk xalqlarının müvafiq təşkilatları ilə



sıx əlaqə saxlamalı, birgə çalışmağın metodlarına yiyələnməlidirlər. Etiraf edək ki, Türkiyə türklərinin, tatarların, özbəklərin, qazaxların... da bu sahədə o qədər böyük təcrübəsi yoxdur. Bununla belə türk dünyası, bütün mövcud problemlərə baxmayaraq, azərbaycanlıların öz milli ideallarını həyata keçirməsində ən etibarlı kontekst, ən münasib etnososial mühitdir.

...Tarix azərbaycanlılara Azərbaycan xalqına hər cür istedad, zəhmətkeşlik, ünsiyyətcillik qabiliyyəti vermişdir. Vəzifə milli ideyalar (və milli lider!) ətrafında sıx birləşib gələcəyə inamla, cəsarətlə getməkdən ibarətdir.

# SON SÖZ,

## YAXUD AZƏRBAYCANLILARIN BEYNƏLXALQ BİRLİYİ MİLLİ TARİXİ İDEALLARIN TƏNTƏNƏSİNİN ƏSAS ŞƏRTİDİR

Azərbaycan xalqının milli tarixi idealı əsrlər boyu məskunlaşdığı etnik coğrafiyada özünəməxsus müstəqil dövlət qurmaqdan, dünya birliyinin bərabərhüquqlu üzvü kimi öz mədəniyyətini qoruyub inkişaf etdirməkdən ibarətdir. Artıq on ildir ki, müstəqil Azərbaycan dövləti yaşayıb inkişaf edir, müxtəlif ölkələrdə məskunlaşmış milyonlarla azərbaycanlı da Azərbaycan dövlətini öz tarixi ideallarının ifadəçisi sayır. Lakin etiraf etmək lazımdır ki, Azərbaycan dövlətinin daha da yüksəlməsinə, həmhüdud regionlarda azərbaycınlıların əsrlər boyu yaşadıqları ərazilər üzərində müəyyən təsirə malik olmasına həm ehtiyac, həm də böyük imkanlar vardır. Eyni zamanda Azərbaycan dövlətinin dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlılarla əlaqələri intensivləşməlidir.

...Azərbaycanlıların siyasi-ideoloji birliyini aşağıdakı hadisələr son illərdə xüsusi təkidlə tələb edir:

1) Azərbaycan dövlətçiliyinin mənafeyi;
2) Azərbaycan xalqının azərbaycanlıların mənafeyi;
3) dünyanın mənafeyi.

Azərbaycan xalqının birliyi onun milli tarixi ideallarının həyata keçirilməsinin əsas şərtidir ki, biz bu birliyə nail olmaq üçün aşağıdakı səviyyələrdə ardıcıl çalışmağı, ideoloji baxımdan əsaslandırılmış şəkildə mübarizə aparmağı məqsədəuyğun hesab edirik:

– hər şeydən əvvəl, Azərbaycan Respublikası, müstəqil Azərbaycan dövləti səviyyəsində;



– ikincisi, azərbaycanlıların müxtəlif dövlətlərin (Azərbaycan, İran, Türkiyə, Gürcüstan, Rusiyanın) ərazilərinə bölünmüş tarixi vətənləri səviyyəsində;

– nəhayət, üçüncüsü, ümumdünya səviyyəsində.

Və heç şübhəsiz, həmin səviyyələrin etnocoğrafi iyerarxiyası mövcuddur ki, onu azərbaycanlıların yer üzündəki məskunlaşma tarixi müəyyənləşdirmişdir.

...Azərbaycan xalqı azərbaycanlılar dünyanın harasında yaşamalarından asılı olmayaraq bütöv, kifayət qədər mükəmməl (və geniş inkişaf potensialı olan!) bir xalqdır onun müxtəlif siyasi-ideoloji şəraitlərdə yaşaması genetik birliyin, eyni etnokulturoloji sistemə mənsubluğunu inkar etmir. Azərbaycanlıların yenidən birləşməsi, müstəqil dövlət qurması, dünyada sosial-mədəni nüfuz qazanması üçün imkanlar açılır. Həmin imkanın ən mühüm (və konkret!) təzahürlərindən biri Tarixin azərbaycanlılara bəxş etdiyi milli dövlət Azərbaycan dövləti, ikincisi milli lideridir Heydər Əliyevdir!..

## SON SÖZ,

## YAXUD AZƏRBAYCANLILARIN BEYNƏLXALQ BİRLİYİ MİLLİ TARİXİ İDEALLARIN TƏNTƏNƏSİNİN ƏSAS ŞƏRTİDİR

Azərbaycan xalqının milli tarixi idealı əsrlər boyu məskunlaşdığı etnik coğrafiyada özünəməxsus müstəqil dövlət qurmaqdan, dünya birliyinin bərabərhüquqlu üzvü kimi öz mədəniyyətini qoruyub inkişaf etdirməkdən ibarətdir. Artıq on ildir ki, müstəqil Azərbaycan dövləti yaşayıb inkişaf edir, müxtəlif ölkələrdə məskunlaşmış milyonlarla azərbaycanlı da Azərbaycan dövlətini öz tarixi ideallarının ifadəçisi sayır. Lakin etiraf etmək lazımdır ki, Azərbaycan dövlətinin daha da yüksəlməsinə, həmhüdud regionlarda azərbaycınlıların əsrlər boyu yaşadıqları ərazilər üzərində müəyyən təsirə malik olmasına həm ehtiyac, həm də böyük imkanlar vardır. Eyni zamanda Azərbaycan dövlətinin dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlılarla əlaqələri intensivləşməlidir.

...Azərbaycanlıların siyasi-ideoloji birliyini aşağıdakı hadisələr son illərdə xüsusi təkidlə tələb edir:

1) Azərbaycan dövlətçiliyinin mənafeyi;
2) Azərbaycan xalqının azərbaycanlıların mənafeyi;
3) dünyanın mənafeyi.

Azərbaycan xalqının birliyi onun milli tarixi ideallarının həyata keçirilməsinin əsas şərtidir ki, biz bu birliyə nail olmaq üçün aşağıdakı səviyyələrdə ardıcıl çalışmağı, ideoloji baxımdan əsaslandırılmış şəkildə mübarizə aparmağı məqsədəuyğun hesab edirik:

– hər şeydən əvvəl, Azərbaycan Respublikası, müstəqil Azərbaycan dövləti səviyyəsində;



– ikincisi, azərbaycanlıların müxtəlif dövlətlərin (Azərbaycan, İran, Türkiyə, Gürcüstan, Rusiyanın) ərazilərinə bölünmüş tarixi vətənləri səviyyəsində;

– nəhayət, üçüncüsü, ümumdünya səviyyəsində.

Və heç şübhəsiz, həmin səviyyələrin etnocoğrafi iyerarxiyası mövcuddur ki, onu azərbaycanlıların yer üzündəki məskunlaşma tarixi müəyyənləşdirmişdir.

...Azərbaycan xalqı azərbaycanlılar dünyanın harasında yaşamalarından asılı olmayaraq bütöv, kifayət qədər mükəmməl (və geniş inkişaf potensialı olan!) bir xalqdır onun müxtəlif siyasi-ideoloji şəraitlərdə yaşaması genetik birliyin, eyni etnokulturoloji sistemə mənsubluğunu inkar etmir. Azərbaycanlıların yenidən birləşməsi, müstəqil dövlət qurması, dünyada sosial-mədəni nüfuz qazanması üçün imkanlar açılır. Həmin imkanın ən mühüm (və konkret!) təzahürlərindən biri Tarixin azərbaycanlılara bəxş etdiyi milli dövlət Azərbaycan dövləti, ikincisi milli lideridir Heydər Əliyevdir!..

MÜNDƏRİCAT

ÖN SÖZ, YAXUD AZƏRBAYCAN...
AZƏRBAYCANLILAR... VƏ AZƏRBAYCANŞÜNASLIQ . . . . . .5

I. AZƏRBAYCANLILAR: ETNOCOĞRAFİ DİFERENSİASİYADAN SOSİAL-SİYASİ İNTEQRASİYAYA

1. Azərbaycan xalqının (superetnosunun) formalaşması... Etnik, sosial-siyasi mütəşəkkillik: problemlər, mülahizələr . .16
2. Azərbaycan dili türk dillərindən biri, Azərbaycan xalqının (superetnosunun) ümum-(tarixi!) ünsiyyət vasitəsidir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .39
3. Azərbaycan etnokulturoloji sistemi: genezisdən tipologiyaya . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .63

II. AZƏRBAYCANDA MİLLİ DÖVLƏTÇİLİK: TƏŞƏKKÜLÜ, TƏKAMÜLÜ... HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU, DÜNYA ZƏRBAYCANLILARININ MİLLİ LİDERİDİR

1. Azərbaycanda milli dövlətçilik ənənələri: iddialarımız, imkanlarımız . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .95
2. Müstəqil Azərbaycan dövləti Azərbaycan xalqının milli iradəsinin ifadəsidir . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .109
3. Türk dünyasının fəxri, yaxud böyük türklərdən biri . . . . . . .139
4. Dünya azərbaycanlılarının milli lideri . . . . . . . . . . . . . . . . .160

**Son söz, yaxud azərbaycanlıların beynəlxalq birliyi milli tarixi ideallarının təntənəsinin əsas şərtidir** . . . . . . . . . .172



Nizami Cəfərov

**Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri**

Redaktor R.Quliyeva
Rəssam N.Əliyeva
Texniki redaktor Ə.Güləliyev
Kompüter tərtibatı A.Ramazanova
Korrektor E.Sadıqova

Yığılmağa verilib 10.09.2001. Çapa imzalanıb 26.10.2001. Formatı 60x90 1/16.
Ofset kağızı. Ofset çapı. Fiziki çap vərəqi 11. Tirajı 1000. Sifariş № 295

"QIZIL ŞƏRQ" MƏTBƏƏSİ

XXI–Yeni Nəşrlər Evi